**X. D. Xəlilli**

# AZƏRBAYCAN XALQINI DÜNYAYA YENİDƏN MİLLƏT KİMİ TƏQDİM EDƏN 20 YANVAR

**Bakı-2003**

**Xəliyəddin Xəlilli**

# Azərbaycan xalqını dünyaya yenidən Millət kimi təqdim edən 20 Yanvar

Güneyli-Qüzeyli Azərbaycanın istiqlal
Mübarizləri şəhidlərinin ruhuna ithaf edirəm.

Rəyçilər: Q.Y. Əbdülsəmidzadə - iqtisad eləmləri doktoru, professor.
A.H. Balayev – tarix elmləri doktoru.
Ə.Ş. Tahirzadə - filologiya elmlər namizədi.

Elmi redaktoru: M.Q. Allahmanlı – tarix elmlər namizədi.

Kitabda XX əsrin ən vəhşi rus imperiyasının hakimiyyəti altında Azərbaycan xalqında müstəqillik ideologiyasının yaşaması formalarından, Azərbaycan ziyalısının mənəvi psixoloji cəhətdən simasızlaşdırılmasından doğan etnik-mədəni böhrandan bəhs olunur. Məğlubiyyət hissi aşılanmış Azərbaycan xalqının yeni erməni təcavüzü qarşısında təşkilatlanma üsullarından, zəruri özünümüdafiə vəziyyətində milli-siyasi şüurun oyanışı, milli-azadlıq hərəkatına çevrilməsi, sosial qruplarda gedən parçalanma və yenidən birləşmə, qurulma prosesində millətləşmədən, imperiyanın bu millətləşməni hərbi üsulla məhv etmə təşəbbüsünün puça çıxması və Azərbaycan xalqının hərbi təcavüz qarşısında millətləşməsinin mənəvi, psixoloji, ideoloji, siyasi xüsusiyyətlərindən, inam və etiqadlar, andlar sisteminin yaranmasından söhbət açılır. Əsərdə xalqın millətə çevrilmə mərhələsində elita və ziyalının rolu və yeri məsələsi də tarixşünaslığımızda yeni özünəməxsusluqla təhlil olunur.

# Ön söz
# və ya problemə nəzəri baxış

Tələbəlik illərindən milli hərəkatın iştirakçısı olub 1970-ci ildən Elçibəylə birgə fəaliyyət göstərsəm də, xüsusilə 1988-ci ildən milli-azadlıq hərəkatının yüksəlişi zamanı onun ön sıralarında gedən, 20 yanvar hadisələri zamanı siyasi proseslərin mərkəzində olub, şəhidlərin Dəfn Komissiyasının sədr müavini kimi fəaliyyət göstərsəm də, bu mövzuda xüsusi əsər yazmaq fikrində deyildim. Bu problemə məqalələrimdə yeri gəldikcə toxunmaqla kifayətlənirdim. Lakin 1994-cü ilin 20 yanvarında şəhidləri anma mərasiminə həsr olunmuş televiziya verilişlərində tanımadığım adamların xalqa 1990-cı il 20 yanvar şəhidlərinin Dəfn Komissiyasının üzvü kimi təqdim edildiyini, belə hadisələrin ilbəil artdığını, onların hadisələri təhrif etdiyini, ümumiyyətlə, həmin dövrdən müəyyən qüvvələrin Azərbaycan xalqının bugünkü müstəqiiliyinin XX əsr 80-90-cı illər milli-azadlıq hərəkətinin nəticəsi olmasını danmağa çalışdığını, xalqımızın 20 yanvar qəhrəmanlıq səhifəsinə şübhə salmaq istəyini gördükdən sonra bu əsəri yazmaq qərarına gəldim.

Sovet imperiyası 70 illik hökmranlığı dövründə Azərbaycan xalqının müstəqillik ideologiyasını öldürə bilməmişdi. Lakin milli, etnik və siyasi şüurda, adət-ənənə sistemində natamamlıq yarada biimişdi. Həmçinin sovet təhsili, xüsusilə tarixşünaslığı ölkənin vətəndaşlarına dünyanı, xüsusilə onlın sosial-siyasi sistemini, quruluşunu obyektiv qavramağa, dərk etməyə imkan vermirdi.

Bu və digər səbəblərdən 80-ci illərdə Sovet imperiyasında milli-azadlıq hərəkatı başlayanda istiqlal mübarizləri hərəkatın formasını, hərəkətverici qüvvələrini - başlıca, əsas və digər hissələrini əvvəlcədən müəyyən edə bilmirdilər. Milli-azadlıq hərəkatının gedişi prosesində və sonralar bu mövzuda yazılmış əsərlərdə də bu məsələyə aydınlıq gətirilməmişdir. Lakin bu ay-dın faktdır ki, sovet imperiyasında başlayan milli-azadlıq hərəkatının hərəkətverici qüvvələri, rəhbər siyasi təşkilatlarının yaranması, liderlərinin yetişməsi, inqilabi qüvvələrlə əks-inqilabi qüvvələrin fəaliyyət imkanları da əvvəlki inqilablardan fərqli idi. Sovet rus imperiyasında milli-azadlıq hərəkatı dünya təcrübəsində məlum olan milli burjuaziyanın və elitanın iştirakı və başçılığı ilə getmiş istiqlal mübarizələrindən fərqli hərəkat idi. Sovet imperiyasında başlayan milli-azadlıq hərəkatı quldarlıqla feodalizmin sintezi olan bir cəmiyyətdə, ölkədə baş verirdi. Dünyanın bu ən nəhəng imperiyasının əsarəti altında olan xalqların etirazı müxtəlif səbəblərlə izah olunurdu. Onun hərəkətverici qüvvələri təbii-tarixi inkişaf yolu keçmiş ölkələrdən, xaiqlardan fərqli idi. Pribaltika xalqları istisna olmaqla, əsrlərlə rus imperiyasının əsarətində olmuş xalqlarda milli mənlik şüuru, siyasi şüur aşağı səviyyədə

idi. İmperiya ideoloqlarının xalqların şüuruna aşılamış olduğu azad iqtisadiyyata, burjua cəmiyyətinə nifrət birmənalı hökm sürürdü. Inqilabın hərəkətverici qüwələri onun xarici səbəblərindən, xarici təsirin gələcək məqsədlərindən xəbərsiz idiiər. Milli-azadlıq hərəkatından yazan müəlliflər hələ də bu təsir və məqsədlərə toxunmurlar.

Azərbaycan milli-azadlıq hərəkatmın başlıca hərəkətverici qüvvəsi, sosial bazası tələbə və gənclər idi. Bu sosial təbəqə istiqlalı birmənalı zə-rurət kimi qəbul edirdi. Fəhlələr milli-azadlıq hərəkatının əsas qüvvəsi kimi çıxış edirdi. Azsaylı sənətkarlar təbəqəsi istiqlal mübarizəsinin sosial bazasında əhəmiyyətli yer tuturdu və hərəkatın ilkin maliyyəçiləri idi. Orta məktəb müəllimləri, həkim və mühəndis-texniki təhsilli işçilər arasında da istiqlalı birmənalı qəbul edənlər çoxluq təşkil edirdi. Elmi işçilərin aka-demiya sahəsində fəaliyyət göstərənləri arasında istiqlal mübarizəiəri üstünlük təşkil edirdi. Lakin bilavasitə gənc nəslin təhsil və tərbiyəsi ilə məş-ğul olan ali məktəblərdə işləyən alimlər arasında istiqlalı müdafiə edənlər faiz təşkil etməyəcək sayda idi. Misal üçün Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Vurğun Əyyub, Mürsəl Həkimov və Tağı Xalisbəyli - cəmi üç nəfər milli-azadlıq mübarizəsində iştirak edirdi.

Kənd təsərüfatı işçilərinin ziyalı və aşağı təbəqəsinin böyük əksəriyyəti, ticarətçilər də azadlıq mübarizəsinin mahiyyətini dərk etməyəcək səviyyədə idilər. Onlar yalnız Qarabağ hadisəsinə ədalətsiz münasibətə görə imperiyadan narazı idilər və bunu büruzə verməməyə çalışırdılar. Yalnız imperiyanın 20 yanvar vəhşiliyindən sonra onların əksəriyyəti imperiyadan üz döndərib istiqlal mübarizəsini dəstəklədilər.

Azərbaycanın titullu "ziyalı"ları (xalq yazıçısı, şairi, artisti və başqa ad-larverilmiş, dövlət və hökumət mükafatları ilə təltif olunmuşlar, akademiklər), müstəqil inkişaf yolu keçmiş xalqlarda elita adlanan bu təbəqə birmənalı şəkiidə imperiyanı müdafiə edirdilər. Yalnız iki nəfər - Azərbaycan SSR EA-nın müxbir üzvü, kimyaçı alim Xudu Məmmədov gənclik illərindən müstəqillik ideyasının daşıyıcısı olmuş, milli-azadlıq hərəkatı başlayanda da birmənalı xalqla birlikdə oldu. Akademik Ziya Bünyadov işə Azərbaycan tarixinin saxtalaşdırılmasına, imperiya və respublika rəhbərliyinin Qarabağ probleminə qeyri-obyektiv münasibətdə qətiyyətli tənqidi ilə milli təəssürat yaradırdı. Milli sosial-siyasi strukturda elita kimi görünən təbəqədən yalnız 20 yanvar hadisəsi zamanı Arif Məlikov birmənalı milli istiqlal mövqeyinə keçdi. Artıq bu zaman Xudu Məmmədov dünyasını dəyişmişdi. Elita kimi görünən təbəqədən çox az şəxs 20 yanvar hadisəsi zamanı nadir hallarda xalq arasında göründü. Onlar az hallarda milli mövqedən çıxış etsələr də, tezliklə əksəriyyətinin əhalinin emosiyalarını söndürmək üçün hakimiyyətin sifarişi ilə məqsədli çıxışlar etdiyi aşkar oldu. Bu təbəqənin bəzi üzvlərinin 20 yanvar

təcavüzünün dəhşətlərindən emosional, keçici çıxışlarına da rast gəlinirdi. Sonda nəticə etibarı ilə bu təbəqə birmənalı imperiyanı müdafiə edirdi. Azərbaycan KP MK-nın ali aparatı, Azərbaycan KP MK-nın orta *təbə*qəsi, respublika nazirliklərinin yuxarı eşalonu və orta təbəqəsi, DTK, prokurorluq, milis və məhkəmə-inzibatı orqan adlanan sosial təbəqə, yəni milli strukturda siyasi idarəçilik - elita funksiyasını icra etməli təbəqə açıq şəkildə istiqlalın düşməni kimi çıxış edirdi. Bu təbəqədə istiqlala müsbət münasibət göstərənlər olsa da, onlar son dərəcə az idi.

Hakimiyyəti təmsil edən, azərbaycanlı adlanan bu sosial-siyasi təbəqə heç bir tərəddüd etmədən imperiyanın göstərişlərini respublikada həyata keçirirdi. İmperiyanın bütün hakimiyyəti illərində Azərbaycan xalqının respublika rəhbərliyinə həmişə olmuş etimadsızlığı son həddə çatmışdı. Hadisələr göstərdi ki, xalq yanılmamışdı. Görünür 24 -28 fevral 1988-ci il Əsgəran-Sumqayıt ixtişaşları zamanı imperiyanın yoxlamaq istədiyi, sınaqdan keçirdiyi məsələlərdən biri respublika rəhbərliyinin ona sədaqətini bir daha dəqiqləşdirmək idi.

Əsgəran ixtişaşı zamanı Ağdamdan Əsgərana köməyə getmiş əhaliyə Azərbaycan hakimiyyəti divan tutdu. Cəbrayıl rayonundan Əsgərana haya gəlmiş adamlara milis zorakılığı tətbiq olundu. Rayon PK birinci katibi Əli Rzayev rayon inzibati orqanlarının amansızlığa, hətta köməyə getmiş adamların qohum-əqrabasına uydurma cinayət işi qaldırmağa məcbur etdi.

Moskvanın, Yeravanın, digər beynəlxalq qüwələrin hazırladığı Sumqayıt ssenarisi hava vasitəsi ilə həyata keçirilməmişdi. Bu ssenaridən Azərbaycanın ali hakimiyyət orqanları xəbərdar idi, yerli hakimiyyət orqanlarının iştirakı ilə icra olunmuşdu. Hakimiyyət özü yaratdığı süni ixtişaşdan sonra şəhərə ordu yeridib xüsusi təlim görmüş itlər vasitəsilə insanları parçaladır, əzab, işgəncə verdi. Minlərlə adamı həbs etdi. Tora saldığı neçə adama ölüm hökmü verdi. Sumqayıt ixtişaşının təşkilatçılarından azərbaycanlı adı ilə ixtişaşı ilk başlayan, "Kurunq"a üzvülük haqqı ödəməyən 5 ermənini şəxsən öldürmüş erməni Qriqoriyansın adı uzun müddət ictimaiyyətdən gizlədildi.

Respublikanın qanunverici, siyasi-iqtisadi icraedici hakimiyyətinin, strukturun yüksək pilləsində duran titullu "ziyalı"ların imperiyaya birmənalı sədaqətini dəqiqləşdirəndən sonra imperiya Azərbaycanda milli-azadlıq hərəkatına qarşı amansızlıq göstərdi.

20 yanvarda Azərbaycan xalqı üzərinə quru, hərbi-dəniz, hərbi-hava, hava-desant qoşunları, xüsusi təxribatçı hissələri, DTK və DİN qoşunları, ən dəhşətlisi isə SSRİ-nin müxtəlif regionlarından toplanan cinayət aləminin üzvlərini kütləvi surətdə Bakıya yeritdilər. İmperiya Bakıda tarixi analoqu olmayan qırğın, vəhşilik, talan, qarət və əxlaqsızlıq göstərdi. Cinayət aləminin nümayəndələrindən 4448 nəfərini Respublika Daxili İşlər Nazirliyi 20

yanvar hadisəsi zamanı həbs edib qeydə ala bilsə də, lakin onları dərhal azad etmişlər (25, 30-32; 61; 67). Qanunsuzluqlar, pozğunluqlar, təxribatlar törətməklə fövqəladə vəziyyət tətbiq etmək üçün Moskva hələ1989-cu ilin sentyabrından sistemli olaraq Bakıya təxrıbatçı qrupıar, mütəxəssislər göndərmişdi. 20 yanvar təcavüzünə qədər beş ay respublika rəhbərliyinin gözü qarşısında, təbii ki, onun iştirakı ilə Azərbaycan xalqı cinayətə və cəzalandırılmağa hazırlanmışdı. [25,46-47]

1989-cu ilin dekabrında Moskvada Sov.İKP MK-nın siyasi bürosunda Ermənistan və Azərbaycan deputatlarının iştirakı ilə Qarabağ probleminin müzakirəsi zamanı Azərbaycandan SSRİ Ali Sovetin deputatı, dünya şöhrətii bəstəkar Arif Məlikov kəskin gedən mübahisə şəraitində Sov.İKl MK-nın baş katibi, SSRİ AS RH sədri - imperator M. S. Qorbaçovu ittiham edərək dedi: "Qarabağ faciəsi üçün Mixail Sergeyeviç, mən şəxsən sizi günahkar hesab edirəm".* Arif Məlikov yazır ki, fasilədə zaldan çıxdıq Bütün deputatlar mənə məhəl qoymadan yanımdan ötüb keçdi, tənha qaldım. Bu tənhalıqda yeganə söykəyim çəkdiyim siqaret idi [25,11]. Bu hadisədən sonra Arif Məlikova erməni, rus, azərbaycan deputatlarının etinasızlığının səbəbi fərqli idi. Azərbaycan xalqı üçün faciələr yaradan səbəb lərdən başlıcası məhz Azərbaycan deputatlarının etinasızlığı idi. Xalqın təmsilçisi seçilmiş adamlar bütünlüklə xalqa yad idi.

Hörmətli oxucu, Dəfn Komissiyasının sədr müavini kimi Şəhidlər Xiyabanındakı 42 günlük fəaliyyətim, bu günlərdə Azərbaycan xalqında gördüyüm həmrəylik hisləri, təşkilatlanma qabiliyyəti, mütəşəkkillik əsərin "Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 yanvar” adlandırmağa imkan verdi.

Əsərimin əlyazmasını rəyə verdiyim, 20 yanvar şəhidlərinin Dəfn Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Qüdrət Əbdülsəlim-zadə əsəri və eyni adlı fəsli "Qanlı yanvar milli oyanışın yeni mərhələsdir" adlandırmağı tövsiyyə etdi. Azərbaycan milli-azadlıq hərəkatının tədqiqatçısı, miilətsevər tarix elmləri doktoru Aydın Balayev isə əsəri "2 yanvar - Azərbaycan xalqının millət kimi inkişafında dönüş nöqtəsidir" adlandırmağı məsləhət bildi. Əlbəttə, onların irəli sürdüyü arqumentlərdə razılaşmalı məqamlar yetərincədir. Lakin bu məsələyə toxunan bütün müəlliflər əsasən müstəqillik illərində Azərbaycan xalqının bir toplum, vahid orqanizm kimi funksiyasını icra edə bilməməsinə istinad edirlər. Misal üçü psixologiya elmləri doktoru, professor Ə. S. Bayramov faktlarla əsaslandıdırır ki, hazırda Azərbaycan xalqında birləşdirici hisslər deyil, etnosu parçaiayan, dağıdan hisslər aparıcı mövqedədir. Fəlsəfə elmləri doktoru professor Ə. M. Tağıyev isə Azərbaycan xalqının passionarlıq (yaradıcılıq) göstərə bilməməsini yazır [27,90; 28,53].

Deyiiənləri nəzərə alaraq Azərbaycan xalqının tarixində 20 yanvar hadisəsinin yerini, onun funksiyasını düzgün müəyyən etmək, belə adlandırmanın obyektiv reallıq dərəcəsini bir daha dəqiqləşdirmək üçün 20 yanvar hadisəsini dünya milli-azadlıq hərəkatlarının ən böyük hadisələri müqayisə etdim. 20 yanvar hadisəsi etnosun təhtəlşüur vəziyyətdən çıxması, milli ruhun və həmrəylik hisslərinin oyanması, milli təşkilatlanmanın spontan şəkildə baş verməsi baxımından dünya milli-azadlıq hərəkatları tarixində analoqu olmayan hadisədir. Rus imperiyası 1945-ci ildə Berlinin alınmasında istifadə etdiyi hərbi taktika ilə Bakı şəhərinə dəhşət və vahimə doğuracaq bir təcavü tətbiq etdi. Müxtəlif qoşun növlərindən, tarixdə iik dəfə cinayətkar aləmdə təşkil olunmuş ordudan, çoxsaylı separatçı, təxribatçı, pozucu qruplarda iItifadə olundu. Xalq milli təşkilatından məhrum edildi. Bütün bunları imperiyanın açıq və gizli tədbirləri ona qələbə çaldıra bilmədi. Azərbaycan xalqı bir neçə saatda fövqəladə təşkilatlanmaq qabiliyyəti ilə vahid milli orqanizmə çevrilib, imperiyanın təcavüzünü dayandırdı və onu geri çəkilməyə məcbur Azərbaycan xalqının sürətlə milli orqanizmə çevrilməsi biososial qanunauyğunluq olub, onun tərkibində yaradıcı hissələrin, azadlıq ruhunun üstünlüyü ilə bağlıdır. Belə ki, müəyyən vaxtlarda orqanizmin müəyyən hisəsəsinin funksiyasını icra edə bilməməsi bütün canlılarda olduğu kimi, sosial orqanizm olan etnosda da baş verir. Bu zaman orqanizmin daxili hissələrinin yenidən qurulması, sıradan çıxmış hissənin yükünü digər orqanların üzərinə götürməsi və s. forma və üsullarla yaşamağa qabil hissələr vahid sistemə, orqanizmə çevrilməklə predmet, etnos mövcudluğunu qoruyur, yaşayışını, gələcəyə yollarını davam etdirir. Funksiyasını icra edə bilməyən element və hissələr orqanizmdən ifraz olunur.

1988-ci ildən başlayan milli-azadlıq hərəkatı gedişində Azərbaycan xalqı sosial orqanizm kimi yeni strukturda qurulur, formalaşırdı. Bizcə bu formalaşma 20 yanvarda başa çatdı. Azərbaycan xalqının azadlıq ruhunu yaşadan hissəsi vahid orqanizmə çevrilərək özünü millət kimi təsdiq etdi. Əsərimdə bəzi məsələləri dəqiqləşdirmək üçün 20 yanvar hadisəsi zamanı Dəfn Komissiyasına fədakarcasına kömək etmiş dahi bəstəkarımız Arif Məlikova zəng etdim (2002-ci ilin yayı). Arif Məlikov 20 yanvar hadisəsi haqqında 1994-cü ildə "İttiham edirəm..." ("Yaobvinyayu..." B. 1994) adlı əsəri nəşr olunduğunu bildirdi. Lakin bu əsərlə Azərbaycan oxucusu tanış ola bilməmişdi. Gözəgörünməz qüwələr əsəri mağazadan, satışdan yığışdırmışlar. Təsadüfi deyil ki, elə həmin ilin mart ayında "Azərbaycan Respublikası Milli Məclisi" 1990-cı il 20 yanvarda Bakıda törədilmiş faciəni müzakirə edib bu haqda xüsusi qərar qəbul etmişdi. Bu sənəddə ona qədər bütün sənədlərdə və mətbuatda adları göstərilən 20 yanvar cinayəti üçün şəxsən cavabdeh hesab olunan imperiya funksionerlərinin adı göstərilməmiş,

ikinci, üçüncü dərəcəli şəxslərin adları haliandırılmışdı [3,200-210]. Bu fakt göstərir ki, Azərbaycan təkrarən imperiyapərəst, onu nəyə isə dəyişməyi bacaran qüvvələrin hakimiyyətinə keçmişdir. Bu fakt məndə məyusluq doğursa da, Arif Məlikovun kitabımı oxuduqdan sonra onun şəxsiyyətinə və Azərbaycan xalqının qüdrətinə inamım qat-qat artdı. Arif Məlikov xalqının 20 yanvar mübarizəsinin görünməyən tərəflərini böyüklüyünü, qüdrətini sübut edən sənədlər, materiallar, faktlar əldə etmiş, kitabda toplamışdır. Arif Məlikovun öz yazıları da 20 yanvar hadisəsi haqqında rəsmi sənəd hüququna malikdir. 20 yanvar hadisəsinin işrakçısıdır, digər tərəfdən, SSRİ Ali Sovetinin deputatı və SSRİ Ali Sovetin üzvü idi. Bu mənada 20 yanvar hadisəsi, onun təşkilatçıları, imperiyanın Azərbaycan xalqı haqqında obyektiv və rəsmi məlumat verən yeganə sənəd Arif Məlikovun əsəridir. Əsəri oxuduqca dahi bəstəkarın 20 yanvar hadisəsi zamanı istiqlal mübarizlərinin sıralarında oimaqla xalqının azadlıq ruhunu bütün çalarları ilə yaşadığının şahidi olursan. Həmin dövrdə onun fədakarlığının "şəxsi dedektivlə" müqayisə olunması, bənzədilmə milli ruhdan məhrumluq, cılızlıqdan başqa bir şey deyildir; baxmayaraq ki, bu bənzətmə dostlarındır [25,65]. 20 yanvar hadisəsi ilə Azərbaycan xalqının özünün millət kimi yenidən təsdiqi Arif Məlikovun əsərində bizdən fərqli üslub və faktlarla əsaslandırılmışdır. Əsərin strukturuna və məqsədinə yeni forma verməmək üçüı ancaq girişdə Arif Məlikovun əsərindən istifadə etməklə kifayətləndim.

20 yanvar hadisəsi günlərində Azərbaycan xalqı fövqəladə bir sürətlə yenidən qurulurdu. Bunu anlamayanlar onu xaos, qarmaqarışıqlıq kimi tə səwür edirdilər. Bu sürəti ona illərlə qəlbində təhtəlşüur vəziyyətdə yaşat dığı azadlıq ruhu verirdi.

Böyük alman filosofu Hegel yazırdı ki, ruhun mahiyyəti azadlıqdır. Hegel fəlsəfəsində köləliyin əsasında, nəticə etibarilə kölə (qul) şüurunun dayandığı əsaslandırılır. Hegel bu kəşfini edəndə Azərbaycan xalqı azadlığını itirməmək üçün rus imperiyası ilə döyüşürdü. Minlərlə insan azadlıq ruhunu qorumaq üçün şəhidlik ruhu ilə yaşayırdı

Rus imperiyası Azərbaycan xalqının siyasi istiqlalını əlindən alsa da, onun azadlıq ruhunu öldürə bilmirdi. Hegelin kəşfindən, Azərbaycanmın siyasi istiqlalını itirməsindən az sonra Azərbaycanda olmuş böyük fransız yazıçısı A. Düma yazırdı: "Bu xalq vaxtı ilə müzəffər olmuş, ürəyində indinin özündə də döyüşkən olaraq qalır..., azad yaşamağı üstün tuturlar" 31,55]. Ondan bir qədər sonra Qafqazda olmuş rus canişini (familiyasın-dan və bəşəriyyətə, insanlığa mədəniyyətə münasibətindən görünür ki, rus deyil). V. Z. Veliçko yazır: "Azərbaycanlılarda qan şübhəsiz ki, nəcibdir, onlar təbiətən xeyirxah, mərd, alicənabdırlar, əqli və mənəvi inkişafa qabildirlər. Dövlət quruluşu, həm də hakimiyyətə, adət-ənənələrə və qaunlara hörmət təlqin edən güclü

ideya (Qafqazda - X. X)... onlara xasdır" [34,128]. Məhz bu göstərilən etnik xarakter cəhətlər idi ki, rus imperiası Azərbaycan xalqının inkişafının, millət kimi formalaşmasının qarşısını ala bilmədi. Özlərinin, mütərəqqi ziyalılarının etiraf etdiyi kimi rus milli ruhundan doğan naqislik idi ki, XX əsrin başlanğıcında mütərəqqi, de-mokratik inkişaf yolundan dönüb tarixdə heç bir xalqın getmədiyi, vəhşi, qeyri-bəşəri bir yolla getməklə özlərinə və bəşəriyyətə əzab verdilər. Rus imperiyasının qeyri-bəşəri biryol tutduğu zaman Azərbaycan xalqı bir mil-lət olaraq bəşəri azadlıq ruhu yaşadığını sübut etdi və Şərqdə ilk demok-atik bir cəmiyyət, dövlət qurdu. Azərbaycan Cümhuriyyətinin demokratik əsisaları özünü demokratiyanın beşiyi hesab edən Avropa dövlətlərindən çox önə keçirdi. Bu, Azərbaycan xalqının tarixi mədəniyyətindən, adət-ənənəsindən, əxlaqi dəyərlərindən, milli ruhundan doğurdu. Bütün qonşu xalqlarda milli-demokratik ideyalar doğulub inkişaf etdiyi bir dövrdə -rus xalqında kütlə idologiyası bolşevizmi doğdu. İdeoloji manyaklıq, dağıdıcılıq onun mahiyyəti idi.

20 yanvardan başlayaraq Azərbaycan xalqı imperiyanın yerli strukturlarına ikinci dərəcəli orqan kimi yanaşıb, milli qüwələrə, onların təşkilatlarına hakimiyyət orqanı kimi yanaşmağa başladılar. Hansı ki, milli azadlıq hərəkatına rəhbərlik edən AXC həmin vaxt qarşısına belə bir məqsəd qoymamışdı. Həmin vaxtdan etnik siyasi-sosial strukturun milli zəmində yaranan yeni təbəqələri - siyasi elita, ziyalı elitası, milli mətbuat və s. diqqəti çəkməkdə idi.

20 yanvar şəhidlərinin dəfni və onların ziyarət mərasimləri günləri Bakı əhalisi ilə imperiya ordusu arasında hər an toqquşma gözlənilirdi. Ordu xalqı qorxutmaq üçün bir neçə dəfə əhalini planlı qarət etmişdi. Bu hadisə əhalini işğalçı orduya qarşı çevik səfərbər olmağa hazırladı. Buna cavab olaraq rus əsgərləri əhali tərəfindən bir neçə dəfə tərksilah edildikdən sonra ordu əhali ilə ehtiyatlı davranmağa başladı. Bu haqda hərbi komendat məlumat vermirdi. Aldığımız məlumatlara görə, belə əsgərlər dərhal Bakıdan çıxarılırdı. Əhalinin rus ordusu üzərində psixoloji üstünlüyü ardı:ıl olaraq yüksəlirdi. Bunlara baxmayaraq, hərbi komendat respublika rəhbərliyini saymır, ona məhəl qoymurdu.

Arif Məlikov yazır ki, Moskvaya gedib M. S. Qorbaçovdan xahiş etdim ki, şəhidlərin qırx mərasimi zamanı Şəhidlər Xiyabanının ətafından ordunun çıxarılmasına göstəriş versin. O, bu haqda göstəriş verəcəyini vəd etsə də, Bakıya gələndə öyrəndim ki, belə bir göstəriş olmayıb [25,77]. Lakin şəhidlərin qırx mərasimində imperiya qoşunları nəinki Şəhidlər Xiyabanının ətrafından çəkildilər, şəhərdə görünməz oldular. Göründüyü kimi, Azərbaycan hakimiyyət orqanlarını saymayan imperiya Azərbaycan xalqı ilə hesablaşmağa başlamışdı.

20 yanvar hadisəsində milli təşkilatlara əhalinin doğma hakimiyyət kimi yanaşması, bu münasibətin ardıcıl möhkəmlənməsi, imperiya strukturlarına sayğısızlıq və etinasızlığı imperiyanın dayaqlarını çökdürüb, milli qüvvələrin hakimiyyətə gəlməsi və Azərbaycanın tam müstəqilliyi ilə nəticələndi. Milli qüvvələr böyük coşqunluqla quruculuq işlərinə başlayıb müəyyən

müvəffəqiyyətlər qazansalar da, bu işi uğurla davam etdirə bilmədilər, imperiyapərəst qüvvələr tərəfindən hakimiyyətdən devrildilər. Bunun başlıca, mühüm və əsas səbəbləri vardır.

Milli qüvvələr böyük coşqunluqla quruculuq işlərinə başlayıb müəyyən müvəffəqiyyətlər qazansalar da, bu işi uğurla davam etdirə bilmədilər, imperiyapərəst qüvvələr tərəfindən hakimiyyətdən devrildilər. Bunun başlıca, mühüm və əsas səbəbləri vardır.

Başlıca səbəb hakimiyyətə gəlmiş milli qüvvələrin millətin siyasi idarəçilik və ziyalı elitasına olan təlabatını ödəyəcək qədər olmaması, milli strukturun ən mühüm hərəkətverici sahəsi olan elita təbəqəsinin siyasi idarəçilik və ziyalı elitasının əsasən rus imperiyasının deqrodasiyaya uğratmış olduğu kadrlardan təşkil olunması idi. Dünya politalogiyasında eimi əsaslarla sübut olunmuşdur ki, elitanı mənəvi və əxlaqi deqradasiyaya uğramış insanlar hesabına formalaşdıran cəmiyyətlər tarixi tərəqqinin artan tempi ilə ayaqlaşa bilmir, bütün sahələrdə tənəzzülə düçar olur.

# I FƏSİL

# MİLLİ OYANIŞ VƏ XALQIN TƏŞKİLATLANMA PROSESİ

Oktyabr çevrilişi ilə hakimiyyətə gəlmiş kommunistlər rus imperiyasına yeni yönüm verdilər. Uydurma sosializm illüziyası (kommunizm) ilə Avrasiya materikinin 1/6 hissəsini dünyadan ayırdılar. Əsarət altına aldıqları xalqlar içərisində milli ideyanın daşıyıcılarını son nəfərinə kimi məhv etdilər. Əhalinin qalan kütlə hissəsi isə dünyada nə baş verdiyindən xəbərsiz, tarixindən məlumatsız dünya xalqlarından təcrid olunmuş bir həyata məhkum edildilər. 200-ə qədər xalqı əhatə edən imperiyada yalnız ruslar şərəfli keçmişə, mədəniyyətə malik xalq kimi təbliğ olunurdu. İmperiyanın əsarət altına alınmış xalqları isə nadan, nifrətə iayiq keçmişindən rusların köməyi ilə ayrılıb sosializmə qovuşmaqla xoşbəxt olduqları haqqında təhsil, tərbiyə, çoxsahəli mətbuatın təlqin etdiyi informasiyaların təsiri altında, digər üsul və vasitələrlə simasızlaşdırılır və assimilyasiya edilirdi. Başlıca olaraq xalqların siyasi və mənlik şüuruna yiyələnməsinə imkan verilmirdi.

İkinci Dünya müharibəsində qələbə, sonrakı 25-30 illik iqtisadi yüksəliş insanlarda, xüsusilə sovet rejimi illərində doğulub, böyümüş nəsillərə kommunist ideologiyasına, onun gələcəyinə müəyyən dərəcə inam yaratmışdı. Lakin bu süni, uydurma cəmiyyətin yüksəlişi çox davam etmədi. Yetmişinci illərin ikinci yarısından sovet iqtisadiyyatı, siyasi-mənəvi həyatı durğunluğa, 80-ci illərin başlanğıcından isə tənəzzülə uğramağa başladı. Lakin sovet kommunist siyasətçiləri milyonların gözü qarşısında baş verən bu prosesi, həqiqəti danır, cəmiyyətin kommunizmə doğru sürətlə inkişafı haqqında təbliğatını davam etdirirdi. Kommunist ideoloqlar etiraf etməsələr də, imperiya əhalisinin kommunizmin sabahına, xalqların qardaşlığı və bərabərliyinə inam ardıcıl ölürdü. İqtisadi tənəzzül dərinləşdikcə ölkənin siyasi, mədəni, mənəvi ziddiyyətləri daha da qabarırdı. İmperiyanın bütün ziddiyyətləri milli ziddiyyətlər kimi özünü göstərirdi. 16 il sovet imperiyasını idarə etmiş L. İ. Brejnevin ölümündən sonra kütlə psixologiyalı əhalinin böyük hissəsi yeni rəhbərliyin səyi ilə imperiyada iqtisadiyyatın tezliklə düzələcəyinə, hər şeyin qaydaya düşəcəyinə, firavan həyat şəraitinin yaranacağına ümid bəsləyirdi. Lakin hakimiyyətin tez-tez dəyişməsi (L. İ. Brejnev, U. Andropov, K. Çernenko) böhranı da dərinləşdirir, insanların (kütlənin) sosializmin gələcəyinə inamını öldürürdü. 1985-ci ilin martında Sov.İKP MK-nın Baş katibi vəzifəsini ələ keçirən M. S. Qorbaçov iqtisadi tənəzzülü aradan qaldırmaqla imperiyanı xilas etməyə cəhd göstərsə də, heç bir uğur qazana bilmirdi, əksinə, ölkədə iqtisadi,

siyasi, mədəni-ideoloji böhranın dərinləşməsi davam etdi. M. S. Qorbaçovun imperiyanın varlığını qorumaq cəhdinin uğursuzluğu labüd idi. Ona görə ki, bütün imperiyaların süqutu tarixin qanunudur, Onu dəyişmək kimsəyə müyəssər olmadığı kimi, M. S. Qorbaçova da müyəssər ola bilməzdi. Lakin M. S. Qorbaçovun əvvəlki katiblərdən, kommunist rəhbərlərdən fərqli olaraq tarixə, o cümlədən sovet tarixinə qismən də olsa, obyektiv baxışa imkan verməsi cəmiyyəti bir daha silkələdi, milli müqəddəratın həllinin başlıca, yeganə yolunun müstəqillik olduğunu müəyyən etdi. Sovet rus imperiyasında kütləvi milli azadlıq hərəkatı başladı. İmperiyada müstəqillik uğrunda mübarizə hər bir xalqın intellektual səviyyəsi, milli yaddaşın, etnik dəyərlərin gücü səfərbəredici mübarizəni daxili və xarici qüvvələrlə əlaqələndirmə imkanına görə fərqii spesifik xüsusiyyətlər göstərirdi. Azərbaycan xalqının milli-azadlıq hərəkatına rəğbət göstərib göstərməməsindən asılı olmayaraq, bütün dünya siyasətçiləri onun imperiyada azadlıq və demokratiya uğrunda mübarizənin önündə getdiyini etiraf edirdi. Hətta Azərbaycan milli-azadlıq hərəkatının dünya milli-azadlıq hərəkatında fenomen olduğunu söyləyənlər də oldu. Bu həqiqətən də belə idi. Birdən-birə 1988-ci ilin fevralında "Qarabağ münaqişəsi" adlandırılan hadisənin başlanması ilə Azərbaycan xalqında səfərbərlik və mütəşəkkillik on illər prosesində formalaşan siyasi mübarizə səviyyəsinə qalxdı. Bunun başlıca səbəbi xalqın milli varlığının təhlükə qarşısında qaldığını dərk etməsi, hətta bundan vahiməyə düşməsi idi. Artıq sovet imperiyası rəhbərlərinə, kommunist ideoloqlarına insanların inamı birmənalı itmişdi. Onun iqtisadiyyatda vəd etdiyi kommunizmin – cənnət xülyası olduğu kimi, millətlərin qardaşlığı və bərabərliyi haqqında yazılan və deyilənlərin də yalandan başqa bir şey olmadığı hər kəsə aydın idi. Rus imperiyasının türk və müsəlman xalqları müxtəlif üsullarla ardıcıl olaraq fiziki və mənəvi cəhətdən məhv etməkdə olduğu göz qabağında idi. Bu siyasətin Azərbaycan xalqına qarşı daha amansız aparıldığı da göz önündə idi. Xəstə yatağında, can üstündə olan rus imperiyası son nəfəsində belə Azərbaycan xalqına qarşı amansızlıq göstərirdi. İmperiyanın hələ ölürn ərəfəsində olmasına inana biiməməsi, Azərbaycanda özünə tam sədaqətli yerli bir hakimiyyət təbəqəsi yarada bilməsi bunun başlıca səbəblərindəndir. Yerli əhalinin müxtəlif xristian, başlıca olaraq erməni-rus metislərindən ibarət milli mədəniyyətə tamamilə yadlaşmış, ad və familiyasının zahiri görünüşünə görə azərbaycanlı olan yerli hakimiyyət vasitəsilə siyasi və psixoloji cəhətdən məğlubiyyət aşılanmış, kütlə halına salınmış azərbaycanlıları istədiyi kimi idarə edə biləcəyinə inamdan irəli gəlirdi.

Can üstə olan rus sovet imperiyasmın ölümünü bu məkanda iqtisadi və siyasi maraqları olan xarici qüvvələr daha da sürətləndirirdi. Burada gələcək planlarını həyata keçirmək üçün ayrı-ayrı qüvvələrdən istifadə edirdilər. Xüsusilə xristian və hind-avropa mədəniyyəti himayəçiliyi özünü açıq

göstərmədə idi. Rus-sovet imperiyasının dağıdılmasmda, ona müəy-yən yönüm verilməsində ermənilərin birinci dərəcəli rol oynadığı həmin dövrdə və eləcə də sonralar hamı tərəfdən etiraf olunurdu. Elə bu səbəb-dən də rus imperiyasının dağıldığı bir dövrdə milli-azadlıq uğrunda mübarizə aparan digər xalqlar ağır iqtisadi-siyasi şəraitdə 'yaşadıqiarı halda ermənilər özlərini qalib kimi aparırdılar. Bu tamamilə təbii idi. XIX əsrdə rusların himayəsində Azərbaycana köçürülüb gətirilən ermənilərə 1920-ci ildə rusların Azərbaycanı təkrar işğalında xidmətlərinə görə ilk öncə İravan mahalının 9 min kv.km ərazisində erməni dövləti qurdular. Bunun ardınca Azərbaycanın Göyçə, Zəngəzur və digər vilayətlərini ondan qoparmaqla 28 min kv.km ərazisini işğal etdilər. Qarabağın Dağlıq hissəsində muxtariyyət aldılar. İkinci Dünya müharibəsindən sonra tutduqiarı ərazilərdən azərbaycanlıları qovmağa başladılar və ardıcıl olaraq Azərbaycan sərhədlərindən torpaq qoparmaqda davam edirdilər. 1969-cu ildən Azərbaycandan ərazilər qoparmaqda daha da fəallaşdılar. Laçın rayonundan Qaragöl yaylağını, Qubadlıdan Çayzəmi yaylağını, Qazaxdan Kəmərli kəndinin bir hissəsini, Kəlbəcərdən Zod qızıl mədəninin bir hissəsini, 1980-ci ildə Ordubaddan Koytan və Kilid kəndinin bəzi hissələrini, 1984-cü ildə Qazağın İncədərə yaylağı ilə birlikdə Kəmərli, Aslanbəyli və Qaymaqlı kəndləri ərazilərinin xeyli hissəsi Azərbaycandan qoparıldı. Azərbaycan əhalisinin etirazları ardıcıl olaraq yerli hakimiyyət orqanları tərəfindən çox amansızlıqla cəzalandırılırdı. Əgər əvvəllər ermənilər Azərbaycan ərazisində yaradılmış Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışırdılarsa, sonradan yeni ərazilər tutmaqla Ermənistanın sərhədlərini Dağlıq Qarabağa çatdırmaq isıəyirdilər. Məqsədlərinə də ardıcıl nail olurdular. Ermənilər artıq Azərbaycan xaiqı üzərində - siyasi-psixoloji üstünlüyü ələ almışdılar. Artıq 1982-ci ildən SSRİ mərkəzi mətbuatında Qarabağın paytaxtı Şuşa və digər əraziləri Ermənistan ərazisi kimi təbliğ olunur, hətta Moskvada nəşr olunan dərsliklərdə Xankəndi (Stepanakert) Ermənistan şəhəri kimi tədris olunurdu. Azərbaycanın torpaq itkilərinə, Moskvanın Dağlıq Qarabağı Ermənistana vermək yönümündə ideoloji hazırlıq işinə tək-tək Azərbaycan ziyalısı etiraz etsə də, respublika rəhbərliyi onların bir dənə də olsun məqaləsinin nəşrinə imkan vermirdi. Belə adamları millətçi kimi damğalayır, təqib edirdi. Artıq 1987-ci ilin son ayları ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmağa hazırlaşmaları haqqında xəbərlər yayılmaqda idi. Azərbaycan xalqının vətənindən sıxışdırıldığı hər kəsə aydın idi. Uzun illər kölə vəziyyətində yaşamış azərbaycanlılar vətənini itirmək kimi qorxu hissi də keçirirdi. Azərbaycan xalqını qorxudan başlıca məsələ respublika rəhbərliyi idi. Azərbaycanin ərazi bütövlüyünün qorunması ideyası respublika rəhbərliyinə tamamilə yad idi. Respublika rəhbərliyi özünü Azərbaycan xalqının deyil, Moskvanın və ermənilərin nümayəndəsi kimi aparırdı. Belə ki, ermənilərin istək-lərini müqavimətsiz Azərbaycanda həyata

keçirməyə çalışırdılar. Azərbaycan xalqının etirazlarını amansızlıqla cəzalandırırdılar. Nəhayət, er-məni və Moskva mətbuatının ideoloji hazırlığı öz işini gördü. 20 fevral 1988-ci ildə DQMV Ali Soveti sesiya keçirib Ermənistan SSR-ə birləşmə-si haqqında verdiyi xəbər ildırım sürəti ilə bütün respublikaya yayıldı. Hələ bundan xeyli əvvəl M. S. Qorbaçovun DQMV-nin Ermənistana birləşdirilməsinə razılıq verdiyi haqqında xəbər xalq arasında yayılmışdı. Elə həmin gündən DQMV-dən və Ermənistandan azərbaycanlı qaçqınlarının ilk dalğası başladı. 20 fevralda Azərbaycan KP MK-nin birinci katibi K. Bağırov Moskvaya çağırılır, oradan qayıdıb Stepanakertə gedir. Stepanakert erməniləri - biz artıq Azərbaycana deyil, Ermənistana hesabat veririk, -deyərək ona heç bir məhəl qoymamaqları haqqında müxtəlif variantlı şayiələr yayılmaqda idi. 21 fevralda Azərbaycan əhalisi İrəvan məscidinin ermənilər tərəfindən təhqir olunması haqqında məlumat aldı. Bununla artıq Azərbaycan xalqı özünü təhqir olunmuş hesab etdi. Elə həmin gün Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Sov.İKP MK katibi K. P. Razumovski və Sov.İKP MK Siyasi Bürosu üzlüyünə namizəd, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədrinin birinci müavini P. N. Demiçev Bakıya gəldilər. İmperiya nümayəndələrinin heç bir rəsmi çıxışı olmasa da, əhali arasında şayiə yayılmışdı ki, Qorbaçov Moskva nümayəndələrini "gedin, Bakıda iclas edin, DQMV-ni alıb Ermənistana verin" tapşırığı ilə göndər-mişdir. Bu kimi xəbər və şayiələr Azərbaycan xalqını ruhi həyəcan vəziy-yətinə gətirmişdi. Xüsusi ssenari ilə ermənilər 24 fevralda ağdamlılarla Əsgəran erməniləri arasında süni toqquşma düzəldib, iki azərbaycanlı gənci, Qafan rayonunda isə bir azərbaycanlını qətlə yetirdilər. Qonşu ra-yonların əhalisi pərakəndə və həyəcanla hadisə yerinə axışdı. Görünür, hadisə azərbaycanlıların cavab reaksiyasını yoxlamaq üçün təşkil olun-muşdu. Elə həmin gün Azərbaycan rəhbərliyi respublika miqyasında əha-lidə olan bütün ov tüfənglərini yığmaq haqqında göstəriş verdi. Əsgəran və Qafana köməyə getmiş azərbaycanlıların hamısını müəyyənləşdirib həbs etdirdi. Bu işdə Cəbrayıl rayon partiya komitəsinin birinci katibi Əli Rzayev xüsusi canfəşanlıq və qəddarlıq göstərirdi. 28 fevralda imperiya Sumqayıt şəhərində xüsusi ssenari ilə yeni bir erməni-azərbaycanlı mü-naqişəsi törətdi. Hadisə zamanı xarici ölkə təşkilatlarının burada olması faktı göstərir ki, senarinin hazırlanmasında və hadisənin törədilməsində beynəlxalq qüwələrin də iştirakı olmuşdur. Hadisəyə belə fon verilmişdi ki, Guya Ermənistanın Qafan rayonundan qovulmuş azərbaycanlılar Sumqayıtda erməni talanı törətmişlər. Lakin araşdırmalar göstərdi ki, hadisədə müxtəlif millətlərin nümayəndələri iştirak edib, hətta hadisədə iştirak etmək üçün həbsxanadan xüsusi cınayətkarlar buraxıib, talanın başçılarından biri erməni Qriqoryans süni qızışdırılmış kütləni erməni evləri-aparmış özü şəxsən beş nəfər erməni öldürmüşdür. Ssenari başa çatan kimi hökumət şəhərə ordu yeridib, hərbi təlim görmüş itlərlə XVII əsr-də inqilislərin zənci ovunda istifadə elədikləri kimi azərbaycanlılara təcavüz etmişdi. Sumqayıt hadisəsi lentə alınıb erməni qırğını

kimi dünyada vayıldı Buna cavab kimi Ermənistandan və Dağlıq Qarabağdan azərbaycanlılar kütləvi qovulmağa başlandı. Azərbaycanlıların öldürülməsinə qarşı bir nəfər də olsun erməniyə qarşı cinayət işi qaldırılmadığı halda, Sumqayıtda DTK-nın tora saldığı gəncləri Moskvaya aparıb onlara ölüm hökmü və uzunmüddətli həbs cəzası kəsdilər. Azərbaycanlı istintaq işçiləri heç bir tərəddüd etmədən Sumqayıt hadisəsində azərbaycanlılara qarşı zor və böhtan tətbiq etdi. İmperiyaya yekdil sədaqət nümayiş etdirdi. Respublika rəhbərliyinin Moskva və ermənilərin əlaltısından başqa bir şey olmadığı bir daha aydın oldu.

Dünyadan təcrid olunmuş, təklənmiş Azərbaycan xalqı özü özünü müdafiə etmək məcburiyyətində qaldı. Hələ 1988-ci ilin ilk günlərindən Ermənistandan və DQMV-dən azərbaycanlıların qovulması, oniara qarşı təhqiramiz hərəkətlərin edilməsi haqqında xəbərlər, bundan yaranan müxtəlif formalı şayiələr yayılırdı. Adamlar bu faktlarla, xüsusilə qaçqınlarla rastlaşanda deyilənlərin həqiqət olduğunu görür, bu da hakimiyyəti gözdən salır, ona inamsızlığı gücləndirirdi. Nəhayət, 20 fevralda DQMV-nin Ali Sovetinin sesiyasının Azərbaycandan ayrılıb Ermənistanla birləşməsi haqqında qərar qəbul etməsi xəbəri bütün Azərbaycanı qorxu və həyəcan vəziyyətinə gətirdi. Bunun ardınca İrəvanda məscidin təhqir olunması, Əsgəran və Qafanda azərbaycanlıların öldürülməsi, Sumqayıtda Moskvanın yerli əlaltısı respublika rəhbərlərinin vasitəsi ilə Azərbaycan xalqına qarşı siyasi xəyanəti xalqa daha sıx birləşməyi diqtə etdi. Azərbaycan xalqının hadisələrə münasibəti onun siyasi şüurunun aşağı olduğunu, "ziyalı" adlanan təbəqənin milli yükü çəkəcək səviyyədə olmadığı özünü açıq göstərirdi. Ən təhlükəlisi xalqda, xüsusilə, ziyalı təbəqəsində milli inam və etiqadın heç bir sahəsində bütövlük yox idi. Milli həyatda bütün insanları, heç olmasa çoxluğu əhatə edən bir milli and, inam və etiqad qalmamışdı. Insanlarda həqiqəti deməyə cəsarət çatmırdı. Vətən və həqiqət yolunda əsarətinin bütün nəslinin məhvinə səbəb olacağı qorxusu, Vətənin itirilməsilə susmağın da nəticəsinin eyni olacağı insanları stress vəziyyətinə gətirmişdi.

Həmin günlərə Azərbaycaınn müdafiəsi uğrunda mübarizə tarixinə nəzər salanda bir daha aydın olur ki, kişiliyin (mərdliyin, ölümün üzünə düz bAxmaği bacarmağın da) irsi-genetik əsasları var. Azərbaycan xalqının bu olum və ya ölüm yoiunu üzərinə götürən az da olsa kişi tapıldı. Azərbaycanın hər tərəfində pərakəndə şəkildə erməni təcavüzünün dəf edil məsini tələb edən, bu işdə xalqın önündə getməyə hazır olduğunu bildirən adamlar meydana çıxdılar. Artıq bu günlərdə hamı tərəfindən birmə- nalı milli sevgiyə malik olduğu təsdiq olunan ömrünün 20 ilə qədərini həbs və sürgündə keçirmiş Rəmzi Yüzbaşov çox ixtiyar yaş dövründə idi. YAŞI səksəni keçmişdi. Bu dövrdə yaşlı nəsildən Bəxtiyar Vahabzadə, Nurəddin Rzayev və Xudu Məmmədov üçlüyü millətçi kimi tanınırdı. Lakin Qarabağ hadisəsi başlayanda yalnız Xudu Məmmədovun millətçi kimi DTK-nın nəzarətində olduğu müəyyən olundu. Yaşlı nəsildən yalnız o, birmənalı şəkildə vətən müdafiəçilərinə qoşuldu. Yaşlı nəsildən Z.

Bünyadov millətçi kimi tanınmasa da, cəsarətli, sözünü deyən adam kimi tanınırdı və mövqeyini bir qədər də möhkəmləndirdi. Bu zaman Azərbaycan ziyalısı arasında birmənalı miilətçi-disident kimi tanınan yeganə şəxs Əbülfəz Əliyev idi. Onun imperiyaya qarşı gizli təşkilatı da mövcud idi.

Əbülfəz Əliyev ətrafında birləşənləri həmişə imperiyanın hər hansıi gözlənilməz təcavüzünü qarşılamağa hazırlasa da, onun ətrafı sistemli təşkilat kimi fəaliyyət göstərə bilmədi. Lakin bu zaman millilik göstərərən adamları bir yerə toplamaq, onların səylərini birləşdirmək sayəsində baş-jlıca xidmət Əbülfəz Əliyevə məxsus idi. Hamının da bir milli şəxsiyyət ki- mi qəbul etdiyi, etimad göstərdiyi şəxs o idi. 1988-ci ilin sonunda Azər- baycan Dövlət Universitetində yaranmış "Yurd" təşkilatı və 1987-ci ilin əv- vəllərində yaranan "Çənlibel" cəmiyyəti hələ miili hərəkatın yükünü üzəri- nə götürmək səviyyəsində deyildi. Bakı ziyaıiları Qarabağ hadisələri baş-layanda ilkin olaraq "Çənlibel" cəmiyyətində toplaşaraq fikir mübadiləsi et məyə çalışırdılar. Lakin hakimiyyət orqanları, xüsusiiə DTK agenturası bütün vasitəsilə "Çənlibel”dəki toplantıları pozurdu.

Tezliklə Azərbaycan SSR EA və Azərbaycan Dövlət Universiteti milli mərkəz funksiyası yerinə yetirməyə başladılar. Eiə fevralın 19-da ilk mi-tinqi də onlar keçirdilər. Hakimiyyət orqanları xalq hərəkatının kütləviləş-ıməsinin qarşısını almağa nə qədər cəhd göstərsə də, buna nail ola bilmir di. Milli hərəkat daxilən öz-özünə mütəşəkkilləşirdi. Belə vəziyyətdə haki-miyyətin hərəkatı ələ almaq cəhdləri ortaya çıxırdı. Lakin hərəkatı ələ al-mağın yeganə yolu ona xidmət etməkdən başqa heç cür mümkün deyildi. Hakimiyyət isə buna qadir deyildi. Milli hərəkatın tələbatı tədrıcən ayrı-ayrı şəxsıyyətlər tərəfindən ödənilirdi. Və belə şəxsiyyətlərin tədricən birliyi də yaranırdı. İki hadisə Azərbaycan hakimiyyətinin nüfuzunu qırıb onların milli mənafeyə xidmət etməsini sübut etdi. Azərbaycan KP MK katiblərinin çıxışlarında və Tarix İnstitutunun əsərlərində ermənilər Qarabağın yerli əhalisi kimi izah olunurdu. Tarix İnstitutunun yenicə namizədlik dissertasiyası müdafiə etmiş əməkdası Xəliyəddin Xəlilov ermənilərin Qarabağa XIX əsrdə rus imperiyası təfindən köçürülməsi haqqında mənbələr əsasında yazdığı məqaləni 23 fevralda Akademiyada keçirilən mitinqdə camaata oxudu, nüsxələrini MK-nin nümayəndəsinə və Akademiyanın rəhbərliyinə payladı. Məqaləni "Elm", “Ədəbiyyat və incəsənət" və "Azərbaycan gəncləri" qəzetləri nəşrə hazırlasalar da, AKP MK nəşr etməyə imkan vermədi. AKP MK 1985-ci ildən Şərqşünaslıq İnstitutunun aspirantı İsa Qəmbərin Zori Balayanın "Oçaq" kitabına mənbə və faktlar əsasında 50 səhifəlik çox sanballı cavabının da nəşrinə imkan vermirdi. Beləliklə, Azərbaycan milli hərəkatı öz liderlərini, milli şəxsiyyətlərini doğur, yad ünsürlərdən təmizlənirdi. Böyük çətinliklə elmi, hərbi titulu, fəxri adı, ən başlıcası milli qeyrəti, cəsarəti sayəsində Ziya Bünyadov həmin günlərdə respublika rəhbərliyinin maymaqlığından istifadə edərək ermənilərin, beynəlxalq imperializmin

nümayəndələri ilə birlikdə Sumqayıt cinayətini törətməsi haqqında məqaləsini “Ədəbiyyat və incəsənət" qəzetində nəşr etməyə müvəffəq oldu. Beləliklə, xalq nümayəndələrinin gördüyü işlər Azərbaycan xalqında özünə və şəxsiyyətlərinə inam yaradır, respublika rəhbərliyi adlanan imperiya əlaltılarının nüfuzunu qırır, onları etimaddan salırdı. Maraqlıdır, Ermənistan və Dağlıq Qarabağdan azərbaycanlılar ardıcıl qovulduqları halda Azərbaycanın bütün ərazisində ermənilər ənənəvi qaydada yaşayır və rəhbər vəzifələrdə işləyirdilər. Hakimiyyət orqanlarının xalqı müdafiə etmədiyini görən milli ziyalılar erməni təşkilatlarına qarşı milli təşkilatlar yaradılması ideyasını irəli sürürdülər.

16 martda Akademiyada keçirilən mitinqdə Əbülfəz Əliyev konkret olaraq Azərbaycan xalqını erməni təcavüzündən qorumaq üçün müdafiə cəmiyyəti yaratmağı təklif etdi. Mitinqçilər onun təklifini bəyəndi. Azərbaycanlılara qarşı erməni təcavüzü davam edir, Moskva mətbuatı xüsusilə, mərkəzi televiziyanın "Vremya" ("Zaman") proqramı bunun əksinə ermənilərin Azərbaycanın təcavüzünə məruz qalması haqqında təbliğatı davam edirdi. İmperiya saymazyana Azərbaycan xalqının əsəbləri ilə oynayırdı. Dünya ermənilərinin Azərbaycana ərazi iddialarını müxtəlif bəhanələrlə pərdələyən Dağlıq Qarabağ erməniləri Azərbaycandan ayrılmaq ıstəmələrinin səbəbini Azərbaycan rəhbərliyinin onların sosial-iqtisadi vəzıyyətinə biganə yanaşmaları, iqtisadi həyat səviyyələrinin aşaöı olması ilə izah etməyə çalışırdılar.

Həqiqəti aşkara çıxarmaq üçün Azərbaycan rəhbərliyi Moskva ilə birlikdə DQMV-nin sosial-iqtisadi vəziyyətini yoxladı. DQMV-də aparılan yoxlama burada sosial-iqtisadi vəziyyətin Azərbaycandan yüksək olmasını təsdiq etdi. Buna baxmayaraq, Moskva DQMV- yə sosial-iqtisadi vəziyyəti yüksəltmək məqsədilə 500.000.000 manat vəsait ayırdı (29.03.1988). İmperiyanın erməniləri birmənalı açıq müdafiəsi "respublika rəhbərliyinin" təslimçilik mövqeyi Azərbaycan xalqını ardicıl olaraq özünü müdafiə zərurəti qarşısında qoyurdu.

16 mart 1988-ci ildə saat 13 radələrində Bakıda Hökumət evinin qarşısında ən əzəmətli kütləvi nümayiş başladı. Nümayiş, onun natiqləri imperiyadan Azərbaycana qarşı təxribatı, erməni təcavüzünü dayandırmağı tələb edirdi. Nümayişçilər həmçinin Sumqayıt şəhər partiya komitəsnin birinci katibi Müslümzadəni müıdafiə edirdi. Baxmayaraq ki, milli düşüncə ona yad idi. Sumqayıt şəhərində Azərbaycan xalqına qarşı sui-qəsdin təşkilinə və tətbiqinə mane olmamışdır. Fəaliyyətsizliyi iiə xalqa zidd mövqe tutmuşdu. Nümayiş rəhbərliyi bu addımı atmaqda manqurtlaşmış respublika rəhbərliyini oyatmaq istəyirdi. DQMV-də minlərlə azərbaycanlının yurdundan didərgin salındığı, onlarla adam öldürülüb, yaralanıb qarət edildiyi halda, bir nəfər də olsun erməni rəhbərliyi cinayət məsuliyyətinə alınmamışdı. Lakin Sumqayıt hadisəsi ilə bağlı Müslümzadə işdən və panrtiyadan çıxarıldı. Mitinqdə müxtəlif yönümlü adamlar çıxış edirdi, lakin mitinqin əsas ilham verəni Xəlil Rza idi. Mitinqdə Əbülfəz Əliyevin çıxışı da ha düşündürücü olmaqla, Azərbaycan milli-azadlıq hərəkatının

yeni mərhələyə daxil olması kimi qiymətləndirildi. Hadisələrin təhlilindən sonra Ə. Əliyev bildirdi ki, "Azərbaycan torpağı üçün son damla qanımızadək vuruşacağıq", "Vətən müqəddəsdir", "Biz Azərbaycan Xalqını Müdafiə Cəmiyyəti yaratmışıq", bu nümayişdə cəmiyyət təşkil edib, biz haqqımızı tələb edəcəyik. Əbülfəz Əliyevdən sonra başqaları da danışmağa can atsada, mitinq iştirakçıları imkan vermədi. Xəlil Rza mitinqi bağlayıb əhalini Ali Sovetin binası qarşısına dəvət etdi. Növbəti mitinq mayın 18-nə elan olundu.

18 may nümayişi daha çoxsaylı, tələbkar və əzəmətli idi. Məlumatlara görə, nümayişdə 800.000 adam iştirak etmişdi. Nümayişin yeniiiklərindən biri Sov.İKP MK SB-nin istefaya göndərilmiş üzvü H. Əliyevin portretininli V. İ. Leninin portreti ilə yanaşı meydana çıxarılmaması idi. Lakin sona yaxın nümayişdə parçalanma oldu, meydanda ayrılan qrup AKP MK-nın binası qarşısına gəlib, oradan dağıldı.

28 fevralda Sovet imperiyasının kütlə vəziyyətindən istifadə edərəK Sumqayıtda cinayətə cəlb etdiyi Azərbaycan xalqı 18 mayda 800.000 nə-fərlik nümayiş təşkil edən liderini müəyyən edən, mütəşəkkil siyasi ad-dımlar atmağa qabil xalqa çevrilməyə başlamışdı. Xalqın liderlərindən Xəlil Rza imperiyanın yerli əlaltılarını yüzminlərlə insanın qarşısında, üzü" nə qarşı "qab dibi yalayan" adlandırırdı. Artıq may nümayişlərinin imperiyanın yerli əlaltısı K. Bağırovu süpürüb atacağı şübhə doğurmurdu.

21 may 1988-ci ildə imperiya təcili Azərbaycanda hakimiyyət dəyişikliyi edib, k. Baqırovu Ə. Vəzirovla əvəz etdi. Lakin bu dəyişiklik respubli-
kada sabitlik yarada bilmədii. Azərbaycan xalqının mütəşəkkilliyi elə bir səviyyəyə çatmışdı ki, artıq o, milli iradə diqtə edirdi. Ə. Vəzirov təbiətən demokratik adam olsa da, xalqa qovuşa bilmirdi. Çünki hadisələrə Azərbaycan xalqının gözü ılə deyil, ımperiyanın gözü ilə baxırdı. Vəzirov da işə başlayan gündən ermənilərin Qarabağ iddialarını dəf edən Azərbaycan rəhbəri kimi deyil, Azərbaycan xalqının siyasi əhval-ruhiyyəsini söndürmək istiqamətində fəaliyyət istiqaməti götürdü. Lakin artıq Azərbaycan xalqının milli əhval-ruhiyyəsini söndürmək, siyasi təşkilatlanmasını dayandırmaq mümkın deyildi. Hakimiyyətin mitinqləri dayandırmaq cəhdləri baş tutmur, kütləvi nümayişlər davam edir, liderlər tək erməni məsələsini deyil, Azərbaycan xalqının milli problemlərindən kompleks bəhs edirdi, rus imperiyasının xalqın iqtisadi, siyasi və mənəvi həyatına vurduğu zərbələr, yaralar izah olunurdu.

Yeni Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ erməniləri üzərində hakimiyyətini bərpa edə bilmir, əksinə, erməni təcavüzü bir qədər də fəallaşırdı. Sentyabr ayında Xankəndində erməni milisi ilə rus əsgərlərinin birlikdə azərbaycanlıları qovmaları xəbəri Azərbaycanı bir daha silkələdi. Artıq milli hərəkatın vahid təşkilatını yaratmaq zərurəti özünü göstərir və təşkilatın rəhbərliyinə şəxsiyyətləri zaman üzə çıxarırdı. Təşkilatın Azərbaycan Xalq Cəbhəsi adlanacağı, onun təxmini proqramı və nizamnaməsi də hazırlanmışdı. Təşkilatın təsisi məqsədilə 14

oktyabrda Ü. Hacıbəyovun ev muzeyindəki toplanışda Azərbaycan Milli Azadlıq Hərəkatında birmənalı qəbul edilən, dünya şöhrətli alim Xudu Məmmədovun ürəktutmasından vəfat etməsi təşkilatın təsisinə imkan vermədi. Hərəkatda ciddi boşuq yarandı.

Rus imperiyası Azərbaycan xalqının heç bir tələbinə, tətil və nümayişinə məhəl qoymur, açıq şəkildə erməni təcavüzünü müdafiə edirdi. Dağlıq Qarabağdan gələn xəbərlər bütün Azərbaycan xalqını həyəcan isində saxlayırdı. Topxana meşəsində Ermənistan zavodlarının birinin filialının tikintisinə başlanması xəbəri əhalinin narahatlığını daha da artırırdı. 17 noyabr 1988-ci ildə Bakı şəhərində Topxana meşəsinin qırılmasına əlaməti olaraq mitinq başlandı. Saat 11.30-da mitinqçilər Lenin meydanını tutub iki tələb irəli sürdülər.

1.DQMV-da Azərbaycanın hakimiyyəti bərpa edilsin.

2. Topxana meşəsi azad edilsin.

Mitinqi idarə edən Ənvər Əliyev bildirdi ki, biz burada 24 saat, bəlkə də 48 saat oturacağıq, burada oturanlar üçün yemək və paltar da gətiriləcək.

Beləliklə, dünya milli-azadlıq hərəkatın tarixinin fenomen hadisələrindən biri 18 günlük Bakının Meydan hadisəsi baş verdi. Mitinq təşkilatçısının çıxışından aydın olur ki, əvvəlcədən meydanda qalmaq ideyası olmuşdur. Lakin onun təşkilatı və insanların buraya cəlb edilməsi formasının uzunmüddətli üsulu müəyyənləşdirilə bilinməmişdir. Birinci gecə meydanda adam qaldı. Onlar vətənpərvər gənclər idi. Səhv etmirəmsə, əsasən əslən göyçəli və ailələri Dağlıq Qarabağdan qovulmuş gənclər idi. Onların yağışlı bir gecədə hökumət evinin qarşısında daş səkilər üstündə gecə səhərə qədər oturub qalması tezdəndən meydana toplaşan adamlarda vətənpərvərlik hissi oyatdı. Onların bu inadkarlığı vətənpəvərlik nürnayişi kimi tezliklə bütün Azərbaycanı ağuşuna aldı. Gecə meydanda qalanların sayı sürətlə artmağa başladı. Meydan milli ruhun ocağına, təhtəlşüur vəziyyətə keçmiş milli yaddaşın oyadılması məktəbinə çevrildi. Gündüzlər meydana gələnlərin sayı milyonu keçir, gecələr 45-50 minə qədər adam meydanda alovlanan, közərən ocaqların ətrafında Azərbaycan taleyindən söhbət açırdı.

Meydan 3-4 günə insanlar üçün sanki ana qucağına çevrilmişdi. İnsanların bir-birinə qayğısı, həssaslığı qadınlara, xüsusən gecə meydanda qalan tələbə qızlara qarşı hörmət və səmimiyyət, qayğı ilə Azərbayçanın dərdləri müzakirə olunurdu. "Rədd olsun Araz boyu tikanlı məftillər”, "30 milyonluq azəri xalqı, azadlıq naminə birləşin!", "Gedir əldən gözəl yurdum Qarabağ!", "Ermənilərə qarşı milli cəbhə yaratmaq!", "Yaşasın müstəqil Azərbaycan!", "Yaşasın Vahid Azərbaycan!", "Qalx ayağa, Azərbaycan!", "Ümidimiz Xalq Cəbhəsinədir!", "İki gözümüz - biri Bakı, biri Təbriz!" şüarlarından doğan milli ideal, meydanın baş idealına çevrildi, 66 ildən sonra üç rəngli bayrağımızı xalqa qaytardı. "Bir kərə yüksələn bayraq, bir daha etməz!" böyük M. Ə. Rəsulzadənin uzaqgörənliklə dediyi ideyasının həqiqiliyinə inam yaratdı.

Erməni təcavüzünə qarşı başlayan bir mübarizəni bütöv Azərbaycan uğrunda milli-azadlıq mübarizəsinə çevirdi. Meydan başlayan kimi respublikanın yeni rəhbərliyi ilə (Ə. Vəzirovla) H. Əliyev klanı arasmında mübarizə xalqın gözündən yayınmırdı. Lakin meydanda günün tələbatına çevrilmiş milli ideyalar o qədər güclü idi ki, onu klan mübarizəsinə çevirmək mümkün deyildi. Bu mübarizənin özü haradasa milli ideyalara yol açırdı. Meydan imperiyanın hakimiyyətini siyasi-mənəvi və iqtisadi cəhətdən dağıdan ideyalar doğdu və birbaşa insanlara yiyələndiyi, maddi qüvvəyə çevirdi. Odur ki, imperiya necə olur-olsun meydanı dağıtmaq hökmün verdi. Bu yöndə imperiyanın bütün siyasi cəhdləri boşa çıxdıqdan sonra noyabrın 23-dən 24-ə keçən gecə Bakıda hərbi vəziyyət elan edildi. Meydan yüksək hərbi təlim görmüş rus ordusu vasitəsi ilə mühasirəyə alındı. Meydaınn aparıcılarının hamısı əhalidən meydanı boşaltmağı tələb etdi əhalidə qorxu, vahimə xofu yaradıldı. Nemət xalqı meydanda "qan su yerinə axacağı" ilə hədələdi. Liderlərdən heç biri meydanda qalmağın məsuliyyətini üzərinə götürmədi. Meydanın ətrafında dövrə vurub həyacan siqnalı verən, tankların gurultusu əsgərlərin təpik səsləri, rus zabitlərinin uca səslə verdikləri əmrlər əhali içərisində qorxu, vahimə yaratdı. Əhalinin bövük hissəsi meydanı tərk etdi. Nemət meydanda ocaq qalamaq üçün yığılAn odunları yandırtmağa başladı. Adamlar ocaq qalamaq imkanından da məhrum edildi. Hakimiyyət orqanlarının, onların gizli əlaltılarının təzyiqlərinə baxmayaraq, 5-6 min adam meydanı tərk etmədi. Hakiimiyyət orqanları və meydanın aparıcıları meydanı tərk edəndən sonra mevdanı müşahidə etmək, o anların sevincini yaşamaq sətirlərin müəllifinə nəsib oldu.

Artıq meydanda nə pafoslu nıtq soyləyən natıqlər vardı, nə də kımınsə həyatının məsuliyyətini üzərinə götürmək iddiasında olan adamlar. Tanklar və başı kaskalı, əli dəbilqəli əsgərlər Hökumət evinin hər iki tərəfindən meydana daxil olub burada qalan adamları mühasirəyə almağa başladı. Meydanda 6 minə qədər adam olmasma baxmayaraq, tam sakitlik idi. Bir nəfərin səsi meydanın sükutunu pozdu. "Əfqan döyüşçüləri əl-ələ tutuşub tankların qarşısına çıxsın. Başqa adamlar tanklara və əsgərlərə çox da yaxınlaşmasın". Bir anın içərisində onlarla oğlan hər tərəfdən meydanda düz adamların üzərinə gələn tanklarmın önündə durmaqla onları dayandırdı.

Lakin adamlar dözə bilmir, tanklara, əsgərlərə yaxınlaşırdı. Əsgəri xidmət görməmiş gənclər vahimələnir, gözlənilmədən əsgərlərə hücum etmək istəyirdi. Meydanda qalan yaşlı, əsgərlik görmüş adamları seçib tanklarla üzbəüz dayanmış igidlərin yanına apardıq. Beləliklə, tankların və rus əsgərlərinin qarşısında nizami bir ordu cərgəsi yaratdıq. Səhərə qədər onları meydandakı adamlarla dəyişməklə, tankla, silahlı əsgərlə əliyalın adamları üz-üzə dayanmağı bacarmağa psixoloji cəhətdən hazırladıq. Radio səhər saat 5.00-da zəngini çalanda meydanın ortasında dayanmış adamlar, qələbə

münasibəti ilə əvvəlcə bir-birini öpdü, sonra tankların və əsgərlərin qarşısında düzlənmiş adamları. Sevincdən hamı nə edəcəyini bilmirdi. Kişilik nümunəsi göstərdiyi üçün hamı bir-birini, xüsusən də gəncləri, tələbələri öpürdülər. Elə bu zaman hökumət evinin tribunasında Təzəpir məscidinin nümayəndəsi Hacı Sabir göründü, meydanda qalan adamları igidlər kimi təbrik edib, meydanı boşaltmağı xahiş etdi.

Meydanda qalan adamlar heç bir təşkilat, dövlətlə əlaqəsi olmayan, milli qürur və ləyaqət sahibi, vətən yolunda ölməyə hazır olan şəxslər idi. Meydanı nə qədər əldə saxlamaq planına və məqsədinə malik deyildilər. Odur ki, hacı Sabirin təklifinə necə cavab verməyə çətinlik çəkirdilər.

Elə bu zaman "Azərbaycan" mehmanxanası tərəfdən böyük bir dəstəninin dəbilqəli rus əsgərləri ilə əlbəyaxa olduğunu gördük. Onlar iki gün əvvəldən Bakıya, meydandakı əhaliyə qoşulmaq üçün Masallıdan çıxan adamlar idi. Avtobus və qatarla Bakıya gəlməyə imkan verilmədiyindən iki günə müxtəlif yol maşınları ilə Bakıya gəlib çıxmışdılar. Gecəni Şixov da gecələmişdilər, axşamdan meydanın rus ordusu tərəfindən mühasiryə alınması burada insan ölümü haqqında şayiə-xəbərlər eşidib dan yeri sökülən kimi birbaşa meydana gəlmişdilər. Azneftlə - meydan arasında rus ordusu nə qədər cəhd göstərsə də, onları dayandıra bilməmiş, gecə meydanda qalan adamların ölüsü və dirisi ilə qovuşmaq yolunda hər şeyi etmişdilər.

"Azərbaycan" mehmanxanasnın yanında əsgərlərlə əlbəyaxa olan adamları görüb meydandakılar ora tərəf yüyürdü. Göz yaşı və sevinclə minlərlə insan bir-birini bağrına basıb meydanın mərkəzinə doğru irəlilədi. Bu anların sevincini təsvir etməkdə acizəm.

Beləliklə, masallıların meydana daxil olmasından bir neçə dəqiqə sonra hökumət evinin hər iki tərəfindən Bakı əhalisi rus əsgərlərinin cərgəsiini yarıb Meydana daxil oldu. Ordunun əhaliyə meydana daxil olmasına imkan verməməsinə baxmayaraq, saat 1 radələrində Meydanda 500-600 min adam vardı.

24 noyabr gecəsi təxminən 5-6 min adamın meydanı rus ordusundan qoruyub əldə saxlaması, Azərbaycan xalqının mənəviyyatında, siyasi dünyagörüşündə böyük bir dəyişiklik baş verdiyini, milli-azadlıq hərəkatının yeni mərhələyə daxil olduğunu göstərdi. Özünü meydanın "lideri" etmiş bir çox natiqlər, Meydanda rus ordusuna sinə gərmiş vətənpərvərlərdən üzürxahlıq etmək məcburiyyətində qaldılar. 17 noyabr mitinqinin ilk günləri, xüsusilə 19-22 noyabrda Meydanda sərbəstlik, azadlıq idi, buraya maşm-maşın odun, meyvə, ət və müxtəlif yeməklər gətirilirdi. Elə həmin günlərdən tədricən mitinqin hakimiyyət orqanları, mafiya tərəfindən təşkil olunması fikri yayılmağa başladı. Lakin Azərbaycan xalqı onun rəhbərliyinin, gizli iqtisadiyyat nümayəndələrinin səxavətli olmadığını, vətənpərvərlik hissindən çox-çox uzaq olduğunu bilirdi. Odur ki, əhalinin özü meydanda hakimiyyətin

və mafiyanın əlində oyuncağa, alətə çevrilməyindən qorxurdu, hər şeyə ehtiyatia yanaşırdı. Lakin yuxarıda bəhs etdiyil kimi, meydanın irəli sürdüyü şüar və təiəblər hakimiyyətin də, mafiyanın da istəklərini təhlükə altına alırdı. Meydan-xalq nə hakimiyyətin, nə də mafiyaının təsirinə düşmədi. Odur ki, Meydanın dağıdılması bir vəzifə kimi irəli sürüldü. Hakimiyyət bu işin öhdəsindən gələ bilməyəcəyini lazımınca dərk edib, rus ordusunu köməyə çağırdı. Göründüyü kimi, xalq ordu qarşısında geri çəkilmədən haqlı tələblərini irəli sürməkdə davam edirdi. Ordu və hakimiyyət meydanı dağıtmaq üçün bütün siyasi, psixoloji və inzibati vasitələrdən istifadə etməyə başladı. Bakıya rayonlardan əhalinin gəlişini məhdudlaşdırdı, meydana daxil olmanı çətinləşdirdi. Xüsusilə, meydana ərzaq və yanacaq keçirməyə sərt nəzarət qoydu. Payızın uzun şoyuq, küləkli gecəsində (artıq bu günlərdə Bakıda neçə gün idi qar yağırdı) heç bir daldanacağı olmayan bir ərazidə dayanmaq son dərəcə çətin idi. Lakin Qarabağ, Vətən və Azərbaycan idealları ilə köklənən əhali yaranmış birliyi ilə istəyinə çatacağına inanmışdı. Mübarizədən, çətinlikdən zövq alırdı, qürur duyurdu Qadınlar paltarlarının altında, kiçik əl çantalarında meydana doğranmış kjçik taxta, odun parçaları daşıyırdılar. Gecələr meydanda qalanlar onu qənaətlə yandırırdılar. Axşamlar meydanın ərzaqla təminatında qadınların bişirib gətirdiyi qutab, peraşki insanlar üçün yalnız maddi qida deyil həm də mənəvi qida idi . Ordunun meydanı mühasirəyə almasından sonra ərzaq təminatında əsas rolu Bakı kəndləri, xüsusilə Maştağa ağsaqqalları oynadı. Artıq meydanda mitinqin davam etdirilməsi hissi, emosional tələblərin təsiri ilə deyil, iradi, elmi-siyasi fədakarlıq sayəsində davam edirdi. Meydanda yüz minlərlə insan bir-birini tanıyır, əhvallaşır, bir-birinə qayğı, maddi və mənəvi yardım göstərirdiiər. Beləliklə, meydan ardıcıl olaraq, mütəşəkkilləşir, onun şüur və tələbləri daha da sərtləşir, imperiya və onun yerli hakimiyyət orqanları xalq arasında bütünlüklə nüfuzunu itirirdi. Odur ki, imperiya siyasi və mənəvi cəhətdən nüfuzunu qorumaq üçün zorakı üsulla meydandakı əhalini dağıtmaqla mitinqi dayandırmaq hökmü verdi. Azərbaycan xalqının haqlı tələbinə, imperiyanın özünün verdiyi qanuni, hüquqlara məhəl qoymadan dekabrın 4-dən 5-nə keçən gecə göz yaşardıcı qazdan, müxtəlif texnikadan, əsgər dəyənəklərindən istifadə etməklə meydanı dağıtdı. Kütləvi həbslərlə Azərbaycanda milli-azadlıq hərəkatını boğmaq istiqamətində qəti addımlar atdı. İmperiya amansızlığı ilə xalqı qorxutmağa çalışırdı, lakin başa düşmürdü ki, insanların, bütöv bir xalqın haqqına məhəl qoymadan, onu boğmağa çalışmaq milli-azadlıq hərəkatını, müstəqillik ideyalarını kütləviləşdirir. Rus ordusunun gücü ilə meydanı dağıdıb milli hiss nümayiş etdirən kütləvi işdən çıxarıb həbs etdirdikdən sonra Ə. Vəzirov Bakı şəhər və Azərbaycan KP MK-nın plenumlarını keçirib aparıcı vəzifə-dəyişiklikləri etdi. Ə. Vəzirovun bu tədbirlərindən sonra milli qüvvələrin tam dağıdıldığını zənn edən imperiya

DQMV-nin Azərbaycandan qoparılması istiqamətində Azərbaycan xalqına qarşı tam saymaz bir addım atdı. SSRI Ali Sovetinin Rəyasət Heyətinin 12 yanvar 1989-cu il fərmanı ilə DQMV Xüsusi İdarə Komitəsi yaradıldı. A. I. Volski təşkilatın sədri təyin edildi. Vilayətdə bütün dövlət və ictimai orqanların fəaliyyəti dayandırıldı. Bütün hakimiyyət birbaşa XİK vasitəsilə Moskvaya verildi DQMV-da Azərbaycan hakimiyyətinə birmənalı son qoyuldu. 13 yanvarda Azərbaycan partiya fəalları yığıncağında Ə. Vəzirov Moskvanın bu tədbirini alqışladı. Beləliklə, sosial-siyasi böhranın ən ziddiyyətli bir məqamında respublikaya rəhbər təyin olunmuş, xalqın tələbini ödəyə bilmədiyindən, xüsusi olaraq psixoloji uyuşmamazlıqdan xalqla təmasa girə bilməyən Ə. Vəzirov xalqın etimadını bütünlüklə itirdi. Belə ki, XİK-nin yaradılması ilə DQMV-nin idarə və müəssisələri ardıcıl olaraq respublikanın tabeliyindən çıxarılıb Moskvaya, əslində isə Ermənistana verilirdi. DQVM-də və ətraf erməni kəndlərində xüsusi silahlı dəstəiər, silah cəbbəxanaları, təyarə meydanları və s. yaradıldı, azərbaycanlıların kütləvi qovulrnası və qətli başlandı. Beləliklə, SSRİ Aii Soveti Rəyasət Heyətinin XİK yaratmasına razılıq vermiş respublika rəhbərliyi DQMV-də baş verənlərə adi müdaxilə imkanını itirdi. Ə. Vəzirov özünü çıxılmaz vəziyyətə saldı. İmperiyanın XİK vasitəsilə milli heysiyyatı təhqir edərək Azərbaycandan DQMV-ni qoparmaq cəhdi xalqda özünü milli müdafiəyə yeni təkan verdi Ə. Vəzirovu milli hərəkata loyal münasibətə məcbur etdi. O, milli qüvvələrlə Qarabağ probleminin həlli yollarını müəyyən etmək üçün tez-tez görüşlər keçirməyə başladı. 19 aprel 1989-cu ildə Əlyazmalar İnstitutunda milli qüvvələrlə görüşü zamanı bu haqda Əbülfəz Əliyev bildirmişdir ki, Vəzirov əvvəlki Vəzirov deyil, indi xalqa tərəf əyilib". Vəzirov deyir ki, mən prinsipcə (AXC-nin - X.X) əleyhinə deyiləm, ancaq qorxuram sonra düşəsiniz mafiyanın əlinə". [1, 257-258]. Ə. Vəzirov ımilli qüvvələrlə görüş zamanı AXC-də korrupsiya ilə bağlı adamların olduğunu demiş, hətta bəzilərinin adını da çəkmişdi. Vəzirovun narahatçılığının əsası olduğunu hə-yat sübut etdi.

Beləliklə, Moskvanın XİK vasitəsi ilə DQMV-nin Azərbaycandan qoparmaq cəhdi 1989-cu ilin aprel-may aylarında xalqın siyasi fəallığını son dərəcə yüksəltdi. Ancaq bu zaman "AXC-nin təşəbbüs qrupu xalq hərkatı ilə ayaqlaşa bilmir, ondan geridə qalırdı" [4,67]. Təsadüfi deyil ki,1989-cu il 28 may Azərbaycan Cümhuriyyətinin yaranma günü münasibəi ilə mitinq heç bir liderin təşəbbüsü olmadan məhz xalq tərəfindən təşkil olunmuşdu. Hakimiyyət orqanları eyni liderlər vasitəsilə əhalini parçalamaq, mitinqi pozmaq istəsə də, buna nail ola bilmədi [1, 258-259]. 28 may mitinqindən sonra AXC-nin təşəbbüs qrupu milli hərəkata rəhbərlik məqsədilə ciddi səfərbərlik keçirdi. 4 iyun mitinqi AXC təşəbbüs qrupu ilə hakimiyyət arasında kəskin mübarizə şəraitində keçdi. Hakimiyyət bütün vasitələrlə

mitinqin keçirilməsinə mane olsa da, nəticə də AXC təşəbbüs qrupu ilə hesablaşmalı oldu. 4 iyun 1989-cu ildə səhər saat 10.00-da əllərində Azərbaycan Cümhuriyyətinin bayrağı olan dəstə "azərtürk" şüarı ilə Spartak stadionuna daxil oldu. Stadion hər tərəfdən milisiə əhatə olunsa da, onlar mitinqçilərə toxunmur, mitinqə müdaxiiə etmirdüər. Mitinqin rəhbərliyi arasında xalq hərəkatının iiderləri ilə bərabər hökuməti və mafiyanı təmsil edənlər də var. Mitinqi Əbülfəz Əliyev, Mansur Əliyev, İsfəndiyar Coşqun və Firuz Haşımov aparır. Mitinqçilər arasında Firuz Haşımovun DTK agenti olması haqqında yayılmış məlumat gənclərdə ciddi narahatçılıq doğurmuşdu. İsa Qəmbərin, İsfəndiyar Coşqunun və Əbülfəz Əliyevin çıxışları xüsusi maraq doğurur və mitinqçilər tərəfindən hörmətlə qarşılanırdı. Elçibəyin Azərbaycanın yazıçı və filosoflarının qorxaqlığını, irticanı kəskin tənqid edib , M.S. Qorbaçovun gürcü xalqının qadağan saatında yaşamasını ona hörmətsizlik kimi qiymətləndirib, tez ləğv etsədə, Azərbaycan xalqını səkkiz ay hərbi vəziyyətdə yaşamağa məcbur etməsini ona qarşı saymazlıq və hörmətsizlik olduğunu xüsusi vurğuladı. 6 iyun mitinqi Lenin meydanını Azadlıq meydanına çevirəcəyi qədər əzəmətli qörünməsə də, iştirakçılarının rəftar və davranışında siyasi mütəşəkkillik natiqlərin çıxışındakı siyasi yetkinləşmə baxımından əvvəlk mitinqlərdən fərqlənirdi.

Mitinqin qətnaməsində 28 may - ADR-in yaranması gününün dövlət tərəfindən qeyd edilməsi, 5 dekabrda həbs olunanların azad edilməsi, hərbi vəziyyətin götürülməsi, DQMV-də XİK ləğv edilməsi və s. məsələlər xüsusi yer tuturdu. Moskvanın açıq şəkildə erməni təcavuzunü müdafıə etməkdə davam etməsi, respublika rəhbərliyinin ona heç bir müqavimət göstərə bilməməsi xalqin milli-demokratik qüvvələr ətrafında birləşməsini zərurətə çevirirdi. Həmçinin Özbəkistandan qovularaq Azərbaycana pənah gətirmiş Axıska türklərinin bilavasitə milli qüvvələr tərəfindən himayə olunması da bu prosesi sürətləndirirdi. Bütün bunlar milli hərəkatı vahid məcraya yönəldəcək təşkilatı, 1988-ci ilin ikinci yarısından milli hərəkatın övladı kimi yaranmaqda olan AXC-nin özünü rəsmi elan etməsini günün tələbatına çevirmişdi. Zərurəti dərk edən təşkilatın təşəbbüs qrupu 16 iyul 1989-cu ildə Bakı şəhərində AXC-nin təsis konfransını keçirdi. Konfransda AXC-nin 30 rayon şöbəsindən səsvermə hüquqlu 196, məşvərətçi səslə 240 nümayəndə iştirak edirdi. Konfrans AXC-nin təşkilat strukturlarını yaratdı, proqram və nizamnaməsini qəbul etdi. Konfrans AXC-nin təsis olunması, respublikanın dövlət və iqtisadi suverenliyinə nail olunması, Azərbaycan
Demokratik Respublikasını yaranma gününün qeyd olunması, DQMV-də XİK-in ləğv edilməsi, Respublikanın bəzi yerlərində xüsusi vəziyyət siyasi məhbuslar, türk xalqlarının müasir dövrdə vəziyyəti və vəzifələri, SSRİ-də milli münasibətlər və ölkədə ictimai-siyasi vəziyyət haqqında qətnamə qəbul etdi. Konfransda Y. Səmədoğlunun, Z.Əlizadənin, R. Qazıyevin və Ə.

Əliyevin AXC sədrliyinə namizədliyi irəli sürüldü. 9 nəfər əleyhinə olmaqla səs çoxluğu ilə Əbülfəz Əliyev AXC-nin sədri seçildi.

AXC yarandığı gündən proqramında əks olunmuş Azərbaycan xalqının “dövlət suverenliyi" onun fəaliyyətinin baş xətti kimi özünü göstərdi. Azərbaycanın ərazi bütövlüyü üçün təhlükə gün-gündən artırdı. Rus imperiyasının tam dəstəyini qazanmış erməni təcavüzkarlarını ABŞ konqresi və Avropa parlamenti də müdafiə edirdi.

Yaranmış təhlükəli vəziyyət və respublika rəhbərliyinin ölkənin daxili və xarici siyasətində düzngün mövqe tutmaması haqqında 29 iyul 1989-cu ildə Azadlıq meydanında təşkil olunmuş mitinqdə xalqa məlumat verilərək deyilir: "1988-ci ilin əv- vəlindən etibarən Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrin təhlili göstərir ki, hazırda bu regionun Azərbaycandan alınmasına yönəldilmiş bir siyasət aparılır. DQMV-də xüsusi idarəçilik forması yaratmaqla Azərbaycanın suveren hüquqlarını pozan sovet dövləti indi Dağlıq Qarabağ üzrə yeni bir deputat komissiyası yaratmışdır. Bu komissiyanın işinin nəticəsi məlum olmasa da, onun üzvlərinin verdiyi müsahibələrdən məqsədi aydın olur: Azərbaycandan yeni güzəşt tələb etmək Dağlıq Qarabağın Azərbaycanla iqtisadi, mədəni və digər əlaqələrini zəiflətməklə erməni təcavüzkarlarının iddialarının həyata keçirilməsi üçün zəmin yaratmaq.

Ermənistan SSR-in və SSRİ ittifaq dövlətinin Azərbaycanın daxili işlərinə mütəmadi olaraq qarışmasının əsas səbəbi buna qarşı layiqli haki-miyyətin, müqavimətin olmamasıdır". Əksinə, respublika hakimiyyət orqanları xalqın birliyini yaratmağa çalışan bir sıra ictimai təşkilatları, o cümlədən Xalq Cəbhəsini rəsmi qeydiyyata almır, xüsusi vəziyyətdən sui istifadə edərək kütləvi represiyalar aparılır, milli müqavimət hərəkatına millətçilik damğası vururdu. Hətta Azərbaycan Demokratik Respublikasının bayrağını qaldırmaq üstündə məhkəmələr ittiham hökmü çıxarırdı Azərbaycan xalqı yenidənqurmanın vermiş olduğu demokratikləşmə im- kaniardan istifadə edə bilmirdi. SSRİ-nin başqa xalqlarına demokratiya bəxş edən yenidənqurma bizim xalqımıza komendant üsul-idarəsi gətirdi. Azərbaycanda hökm sürən irtica, xalqın respublikanm ictimai-siyasi həya- tında qanuni, hüquqi yollarla iştirakına imkan vermədi. Xalq seçki hüququndan məhrum edilmiş vəziyyətdə qaldı. Xaiqın istədiyi namizədiəri irəli sürməyə imkan verilmədi. 1989-cu iiin yazında deputatlar yenə də köhnə qayda ilə təyin olundular.

Belə bir vəziyyət artıq xarici dövlətlərin də Azərbaycanın daxili işlərinə qarışmasına imkan yaradır. ABŞ konqresinin və Avropa pariamentinin Dağlıq Qarabağ haqda qəbul etmiş olduqları sənədlər Azərbaycana planlaşdırılmış sui-qəsdin beynəlxalq miqyasda təşkil olunduğunu bir daha təsdiq edir. Xalqına üzləşdiyi daxili və beynəlxalq irtica haqqında ətraflı məlumat verən AXC milli varlığa yönəlmiş təhlükəni aradan qaidırmaq

məqsədi respublika hakimiyyət orqanları qarşısında qəti tələblər qoydu: DQM-da XİK ləğv edilməklə Azərbaycan hakimiyyətinin bərpa edilməsi respublikada hərbi vəziyyət və komendant saatı ləğv edilsin; noyabr mitinqində həbs olunanlar azad edilsin, AXC təsdiq edilsin, ABŞ konqresi və AVROPA parlamentlərinin müraciətinə SSRİ Ali Soveti öz qəti münasibətini bildirsin, Vətəndaşların seçki hüququnun pozulmasında, seçkilərin nəticələrinin saxtalaşdırılmasında iştirak etmiş şəxslər cəzalandırılsın, yalançı deputatların mandatları ləğv edilsin, Azərbaycan Demokratik Respublikasının bayrağı, gerbi və hlmni milll simvol kimi təsdiq edilsin. Hakimiyyət orqanları qarşısında qoyduğu bu kimi tələbləri həyata keçirmək üçün AXC əhali içərisində siyasi maarifçilik işi aparır, xalqı ona qarşı yönəlmiş təhlükəyə qarşı səfərbər edir, həmçinin onun rəğbətini, etimadını qazanırdı.

Artıq Nüvədi kəndi istisna olmaqla, İrəvan, Göyçə, Zəngəzur, Masis və (Errnənistanda) tarixi Azərbaycan torpaqlarından azərbaycanlılar bütünlüklə qovulduğu bir vaxtda A. Volskinin rəhbərlik etdiyi XİK DQMV-ni Azərbaycanın nəzarətindən çıxartmaq səviyyəsinə çatdırmışdır. A. Volskinin rəhbərliyi ilə rus ordusunun himayəsində Qarabağda ermənilərin silahlı dəstələri yaradılır, Azərbaycan kəndləri qarət olunur, azərbaycanlılar öldürülür, Qarabağdan kütləvi qovulurdu. Azərbaycanda isə ermənilər əvvəlki qaydada yaşayır, yüksək rəhbər vəzifələr tuturdular.

Yaranmış siyasi-psixoloji vəziyyət erməni-rus birliyini Azərbaycan xal-qı üzərində tam qələbəyə çatdırmaq üzrə idi. 200 il müddətində erməni-rus birliyinin Azərbaycan xalqı üzərində planlı qələbələri onların milli psi-xologiyasından məharətlə istifadə edilərək qazanılmışdı. Məsələnin bu cəhəti iki əsrdən sonra az da olsa azərbaycanlılara çatmaq üzrə idi. Xalq hərəkatı üzvləri bu yöndə axtarış aparırdı.

Azərbaycan xalqının milli-azadlıq mübarizəsini çətinləşdirən başlıca səbəblərdən biri respublikada hakimiyyətin bütünlüklə reqanatların və ruslaşmış müxtəlif mənşəli metislərin əlində olması idi. Hakimiyyət orqanlarında azərbaycan mənşəli tək-tək adamlar olsa da, onlar da ya manqurtlaşmış, ya da yaltaqlığı, satqınlığı dolanışıq mənbəyinə çevirmiş simasızlaşmışlar idi. Hakimiyyətdə milli hislərin daşıyıcıları yox idi.

Misal üçün, 9 aprel 1989-cu il tarixdə Tiflis şəhərinə rus ordusu girərkən qarşıqlıqda 16 nəfər gürcünün ölümünə etiraz əlaməti olaraq Gürcüstan KPMK-nın birinci katibi C. İ. Patiaşvili, Nazirlər Sovetinin sədri Z. A Çexidze və b. rəhbərlər istefa verdilər. İmperiyanın azərbaycanlılara etdiyi cinayətlərə - Sumqayıt hadisəsinə, DQMV-də rus-erməni tərəfindən ardıcıl azərbaycanlıların öldürülməsinə, təhqirən dəhşətlisi isə Ermənistanda azərbaycanlı uşaqların diri-diri dəmir borunun içərisinə doldurub hər iki başını qaynaqlamaqla məhv edərək Azərbaycana göndərilməsinə onlarla

azərbaycanlının burun, qulaq və başqa əzalarının kəsilib təhqir edilməsinə etiraz əlaməti olaraq Azərbaycan rəhbərlərindən bir nəfər də istefa vermədi. Bu vəhşilikləri bir nəfər də olsun Azərbaycan deputatı Kremlin Qurultaylar sarayında elan etmədi. Bu miili təhqirlərə dözən, simasız ünsürlərlə, "hakimiyyətlə” birgə işləməkdən imtina edən yeganə şəxsiyyət "Molodyoj Azerbağdjana" qəzetinin redaktoru Nəcəf Nəcəfov oldu.

Azərbaycanda milli-azadlıq hşrəkatı rus imperiyasının burada yaratdığı "ziyalı" adlanan manqurtlaşmış bir təbəqənin, xalqa yad hakimiyyətin dəf edilməsi, xalqın müxtəlif təbəqələrinin, ziyalıların aşağı təbəqə milli mənlik və siyasi şüurunun oyadılması prosesində, çox ağır şəraitdə gedirdi. Təsadüfi deyil ki, meydandakı çıxışlarda milli mübarizənin əsas problemləri ilə bərabər mənəvi-psixoloji məsələləri də ön plana çəkilərək milli qürurun, ləyaqətin fəal daşıyıcıları olan adamların aşkarlanıb onlara etimad göstərilməsi xalqın qarşısında duran bir vəzifə kimi irəli sürülürdü. 1989-cu ilin iyul-oktyabr mübarizəsi ardıcıl olaraq AXC-nin siyasi mübarizəsinin, milli ideyaların sürətlə təkmilləşməsi, hərəkatın mütəşəkkilləşməsi şəraitində getdiyi artıq müşahidə olunurdu. Əgər 1988-ci il noyabr-dekabr mitinqlərində Azərbaycanın SSRİ-dən çıxması fikiri meydanda qorxu ilə qarşılanırdısa, 5 avqust 1989-cu il mitinqində ən hərarətlə qarşılanan ideya oldu. Keçən az vaxt ərzində Əbülfəz Əliyev, İsa Qəmbər Nəcəf Nəcəfov, Tofiq Qasımov, Etibar Məmmədov və b. xalq tərəfindən ciddi- siyasi şəxsiyyətlər kimi tanınır və qəbul olunurdu. Artıq meydan nəyin deyildiyinə deyil, kimin deməsinə əhəmiyyət verirdi. İmperiyanın yerli hakimiyyət orqanları xalqın siyasi mübarizəsinin mütəşəkkilləşməsində AXC ətrafında sıx birləşməsindən təşvişə düşmüşdü. AXC-ni gözdən salmaq, milli birliyi parçalamaq üçün yeni tədbirlər hazırlayırdı. Bu məqsədlə AXC-yə pul yığanlar kimi səbatsız ünsürlər daxil etməyə çalışırdı. AZC-nin gözdən salınmasında noyabr-dekabr mitinqində Nemətin xalqdan yığılan pulları mənimsəməsi əsas gətirilirdi. Meydana sökük bir pencəklə gələn Nemət oradan DTK-nın zirzəmisinə getdi. DTK-nın zirzəmisini isə kasıblığın daşını atmış, xidmətində maşınlar dayanan funksionerlər kimi çıxdı. Artıq o, havanın, fəsillərin dəyişməsinə uyğun gündə birini geyir, Azərbaycanda tək-tək adamların geyə bildiyi dəri gödəkçə və bahalı modalardan istifadə edirdi. Nemətin rəftar və davranışı kitabla oxuduğumuz, kinolarda gördüyümüz 20-30-cu illərin proletar-bolşevik liderlərinin canlı təcəssümü idi. Artıq meydanın ilk günlərindəki yüz minlərin alqışı onun üçün şirin xatirəyə çevrilmişdi. Gözəgörünməz arxaları nə qədər çalışsalar da, onu meydanda tribunanın qarşısında dayanan dəstədən başqa kimsə alqışlamırdı. Bu dəstəni Neməti yetirən idarənin təşkil etməsi heç kimdə şübhə doğurmurdu.

1989-cu il mitinqində natiqlərdən Xaliq Hacıyevin Nemətin itmiş nüfuzunu bərpa etmək cəhdi ona şübhələri bir qədər də artırdı, onun meydanda xüsusi

təşkil olunmuş bazaya söykəndiyi yüz minlərlə insanın diqqətindən yayınmadı. 12 avqust 1989-cu il tarixdə Azadlıq meydanındanındakı mitinqdəki müşahidələri əsasında Azərbaycan xalqının mənəvi-siyasi dünyagörüşündə baş vermiş yüksəlişi salnaməçi Ədalət Tahirzadə belə təsvir etmişdir: "Xalq Cəbhəsi xalqın iradə ifadəçisidir!", "Respublikanın sərvəti Azərbaycan xalqının olmalıdıır" və b. şüarlar asılıb. Tribunanın hər iki küncündə Azərbaycan Cümhuriyyətinin üç -rangli bayrağı (sarı saçaqlı) Ancaq ümumiyyətiə, 6 yerdə (mən sol tribunanı görmürəm) milli bayraqlarlar ucaldılıb. Məni bir şey çox sevindirir ki, nisbətən baha (2 manat) olrnasına baxmayaraq, basabasla AXC bülletenini alırlar. Məzuniyyətlər dövrü olmasına, şəhər əhlinin böyük qisminin və tələbələrin yoxluğuna baxmayaraq bu qədər əhalinin iştirakı onu göstərir ki, xalq öz taleyinə laqeyd deyil. Artıq bu dəfə çox yüksək şüurluluğun şahidi oldum. Yığıncağa nəzarət yalnız milislərə etibar olunmuş, əsgərlərdən qəti imtina edilmişdi. Milislər isə camaatdan arxayın olduqları üçün topa-topa özlərilə söhbət edirlər. Camaat onların olub-olmamasını hiss etmir" [1, 281]. DQVM-də Xüsusi İdarə Komitəsinin ləğv edilib burada Azərbaycanın suveren hüququnun bərpa edilməsi, respublikada hərbi vəziyyətin götürülməsi, təyin olunmuş deputatların geri çağırılması, AXC-nin rəsmi tanınması milli hərbi qüvvələrin yaradılması və siyasi məhbusların azad edilməsi mitinqin başlıca mövzusu olmaqla, əhali bu vəzifələrin icrası üçün psixoloji və siyasi cəhətdən hazırlaşır, səfərbər edilirdi. Xalqın mütəşəkkilliyinin yüksəlməsi Ə. Vəzirovu tez-tez AXC rəhbərliyi ilə görüşməyə məcbur edirdi. Görünür, imperiyanın DQMV-ni Ermənistana vermək cəhdinə açıq etiraz etməyə cəsarəti çatmayan Ə. Vəzirov bu tarixi cinayətin məsuliyyətini üzərinə götürə bilmədiyindən, milli qüvvələrə meyllənirdi. Onun bu meylini Əbülfəz Əliyev təsdiqləyərək demişdir: "Vəzirov əvvəlki Vəzirov deyil, indi xalqa tərəf əyilib" [1, 258]. Milli hərəkatın mütəşəkkilləşmsində bu faktorun da təsiri yox deyildi. Belə ki, hakimiyyətin mitinqlərin qarşısını almaq cəhdi son dərəcə zəif idi.

19 avqust 1989-cu il saat 17.30-da Azadlıq meydanında başlanan mitinq öz mütəşəkkilliyi, məsələlərin qoyuluşunda qətiyyətliliyi, fikir söyləyəcək şəxsiyyətlərin seçilməsi və s. bütün müsbət məziyyətləri ilə əvvəlki mitınqlərdən fərqlənirdi. Onun video-lentə alınması da yeni mübarizə mərhələsinə daxil olmağa hazırlıqdan xəbər verirdi. Mitinqin ənənəvi açılış hissəsinin başa çatması ilə söz akademik Ziya Bünyadova verildi. O bildirdi ki, hələ bir ay əvvəl akademiyanın illik hesabat iclasında Cümhuriyyətin bayrağının Ali Sovetdə təsdiq olunmasını bıldirmişəm. "Azərbaycanın ərazisi müqəddəs torpağı müqəddəsdir, çünki bu torpağın altında dədə-babalarımızın ruhu yatır. Heç kəsin ixtiyarı yoxdur bizim torpağa toxunsun. Hər bir ekstremist, daşnak varsa xalqımız da mərd oğullardan, kişilərdən ibarətdir -

müstəsnaları çıxmaq şərti ilə. Mən Vəzirova dedim ki, əgər sən camaatın arasında hörmət istəyırsənsə, onda AXC-ni dünən təsdiq etməli idin. Bu gün də gec deyil, sabah, gələn həftə gec olacaq. Bastilya kimi bir türməni camaat dağıtdı. Nədir axı Bayıl türməsi? Xalq Cəbhəsi və onun qabağında qoyduğu məsələlər xalqın əleyhinə ola bilməz”. O, çıxışına davam edərək qətiyyətlə dedi ki, Nazirlər Sovetinin sədr müavini Protokovets, daxili işlər naziri Aydın Məmmədovu eşitməyən onun müavini Barannikov, Volski Azərbaycandan getməlidir. Masallılar deputat Qorelovskini (DTK-nın keçmiş sədri) geri çağırmalıdır, çünki o çıxdı getdi". Seçki məsələsi üzərində xüsusi dayanan Z. Bünyadov bildirdi ki, "Respublika Ali Sovetinə nəzarət olunmalıdır. Seçki ən axırıncı bizdə olmalıdır. Laqeyd baxsaq, onda yaşamağa dəyməz. Kişilər seçilməlidir (yəni ləyaqəti, söz deməyə cəsarəti çatan adam - X. X.)- Əks təqdirdə mənasızdır... Zeynaiova demişəm eşşək boyda Şaumyanın heykəli var. Onu sındırmaq lazımdır" [1, 290-292].

Tarixçi akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun çıxışı hakimiyyət orqanlarını xeyli silkələdi.

Natiqlərdən İ. Qəmbər DQMV-də yaranmış vəziyyəti bir daha ətraflı təhlil edərək Z, Bünyadovun silkələdiyi hakimiyyət orqanlarını vəzifələrinin öhdəsindən gəlməyə çağırdı. Bildirdi ki, əgər hakimiyyət orqanlarımız öhdələrinə düşən vəzifələri yerinə yetirsə, XİK öz-özünə aradan çıxar. Azərbaycan SSR Ali Soveti XİK-ni ləğv etməlidir. O, Azərbaycan milli-azadlıq hərəkatının beynəlxalq əlaqələrindən bəhs etdi, Qarabağ problemi naminə bütün qüwələri birliyə çağırdı.

Azərbaycan milli-azadlıq hərəkatından, Cənubi Azərbaycandan didərgin salınan vətənpərvərlərə Şimali Azərbaycanda göstərilməli olan qayğıdan bəhs edən Əbülfəz Əliyev Qarabağ problemi və AXC-yə hakimiyyət orqanlarının münasibəti üzərində xüsusi dayandı. Milis işçilərinin AXC üzvlərinə qarşı qərəzli münasibəti haqqında bildirdi ki, əgər milis bu hərəkətlərinə son qoymasa, onların adlarını xalqa deyəcəyik və bildirəcəyik ki, "belələrinə aman yoxdur". Əbülfəz Əliyev xəbərdarlıq edərək bildirdi ki, "Bizim qüvvələrimiz artdıqca bizə şər atırlar", bundan qorxmamalı, ehtiyatlı olmaqla son nəfərə qədər milli mütəşəkkilliyə nail olmaq yolunda səfərbər olunmalıyıq.

Xəlil Rzanın çıxışı, poeziyası ilə ehtizaza gələn Meydan Ü. Hacıbəylinin "Koroğlu" üverturası ilə tənzimlənib başa çatdı. Mitinqlərdəki son çı-xışlarında Əbülfəz Əliyev və İsa Qəmbər xalqı hakimiyyətə və bütün siyasi qüwələrə təsir və nəzarət edəcək bir qüwə kimi təlqin edirdilər.

Hadisələrin son gedişi göstərdi ki, Vətən və milli gələcək naminə Azərbaycan xalqı siyasi birlik nümayiş etdirməyə qadirdir. O, milli problemləri həll etmək yolunda yetərincə siyasi təcrübə qazanmışdır. Lakin nə respublikanın, nə də imperiyanın ali hakimiyyət orqanları ya bunu görmür, dərk etmir, ya da Azərbaycan xalqı ilə hesablaşmaq istəmirdilər.

AXC-nin rəhbərliyi ilə Azərbaycan xalqı Şimal ayısı - Rus imperiyası və onun yerli əlaltıları ilə sivil mübarizəni davam etdirirdi. 21 avqust 1989-cu il tarixli mitinqdə əvvəlki mitinqlərdə hakimiyyət orqanlarının qarşısına qoyulmuş tələblərə cavab verilməsi tələbi ilə Bakı və Sumqayıt şəhərlərində 2 günlük xəbərdarlıq tətili keçirmək qərara alındı. Tətilə çox mütəşəkkil başlandı, keçirildi və dayandırıldı. Lakin nə imperiyanın, nə də respublikanın rəhbərliyi bu mütəşəkkilliyin doğuracağı mənəvi-siyasi nəticələri qiymətləndirə bilmədiklərindən, mitinqin tələblərinə heç bir cavab vermədilər. Buna cavab olaraq sentyabrın 2-də AXC-nin rəhbərliyi ilə resnublikanın bütün şəhər və rayonlarında izdihamlı mitinqlər keçirildi. Mitinqin tələbləri ödənilmədiyi təqdirdə sentyabrın 4-də bir həftəlik ümumrespublika tətilinə başlanılacağı haqqında respublika rəhbərliyinə xəbərdarlıq edildi. Respublika rəhbərliyindən heç bir cavab alınmadığından, ertəsi qün zəruri tələbat mallarının istehsalı və satışını təşkil edən idarə və müəssisələr istisna olmaqla respublikanın bütün istehsal və təsərrüfat sahələri mütəşəkkil surətdə işi dayandırıb tətilə başladılar. Dəmiryolçular da tətilə qoşuldu. Bununla nəinki Azərbaycanda, həm də Zaqafqaziyada və Şimali Qafqazda iqtisadiyyat, təsərrüfat və həyatın bir çox sahələri paralic vəziyyətinə düşdü [2,43]. Xalqın böyük əksəriyyətinin rəğbətini və etimadını qazandığından, AXC artıq 6 sentyabrdan respublika hakimiyyətinə diqtə etməyə başladı. Əvyəlki tələblərə Ə. Vəzirov və başqa rəhbərlərin istefası da əlavə olundu. Ümumazərbaycan tətili elə ilk günlərdən imperiya iqtisadiyyatı üçün problemlər yaratdı. Tətilin ilk 4 günündə Azərbaycan iqtisadiyyatına 130 milyon rubl ziyan dəymişdi. Artıq Azərbaycanda xalqın respublika partiya və dövlət strukturlarını hakimiyyət kimi tanı-maqdan imtina edib, tədricən AXC-ni siyasi dövlət hakimiyyəti kimi tanınması prosesinin başiandığını görən respublika rəhbərliyi dərhal AXC ilə danışıqlara gedib, tətilçilərin tələbini ödəyəcəyini vəd edib, onu dayandırmaqdan ötrü dəridən-qabıqdan çıxdı. AXC ilə AKP arasında rəsmi razılaşmaya əsasən sentyabrın 11-də tətillər dayandırıldı. Razıiaşmanın rəsmi protokolu tərtib olunmuş və hər iki tərəfin rəhbərliyi tərəfindən imzalanmışdı. Razılaşmanın bəndlərindən biri sentyabrın 15-də toplanacaq Azərbaycan SSR Ali Sovetin sesiyasında AXC nümayəndələrinin iştirakı ilə tətilçilərin tələblərinə baxılması, AXC nümayəndələrinin sesiyanın müzakirə etdiyi qanun layihələrinin hazırlanmasında iştirakı, ən başlıcası isə AXC İdarə Heyətinin hazırladığı Azərbaycan SSR-in dövlət suverenliyi və iqtisadi müstəqilliyi haqqında qanun layihələrini müzakirə etmək məsələsi idi. Protokolda bu və digər məsələlər 10 bənddə razılaşdırılmışdı.

Nəhayət, gözlənilən 15 sentyabr 1989-cu il təqvimi başladı. Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini İdeal seçmiş insanlar məqsədləri yazılmış plakatlarla Ali Sovetin binası önünə toplaşdılar. Həmişə olduğu kimi toplaşanlar arasında Akademiya işçiləri çoxluq təşkil edirdi. Camaat mübariz əhvali-ruhiyyədə olsa da, SSRI xalq deputatı, xalq yazıçısı Mirzə Ibrahimovun

"Azadlıq" radiosu ilə yayılan müsahibəsi adamların qanını qaraldır, onları məyus edirdi. "Azadlıq" radiosunun müxbiri müsahibə zamanı Mirzə İbrahimovdan soruşub ki, "Azərbaycanda nə var? Deyib ki, pribaltikalılar sakit oturmağa qoymurlar. Təkrar ediblər ki, biz Azərbaycandakı vəziyyəti soruşuruq. Qayıdıb ki, bıy, Azərbaycanda nə olub ki? Deyıblər ki, lay-lay, bala, lay-lay" [1, 302].

Nəhayət, Azərbaycan SSR Ali Sovetinin sesiyası başladı, AXC nümayəndələrı sesiyaya buraxılsalar da, onlara ögey münasibət göstərildi.
Künc lojaların birində əyləşdirildilər, saat 12.52 dəqiqədə AXC-nin məq səd və məramını sesiya iştirakçılarına çatdırmaq üçün İsa Qənbərə söz verildi. O, AXC-nin məqsəd və məramı haqqında qısa məlumat verib, Azərbaycanın suverenliyi haqqında Konstitusiya Qanununun qəbul edilməsinin zəruriliyi və XİK-nin ləğv edilməsinin vacibliyi üzərində xüsusi dayanaraq sesiya iştirakçılarına müraciətlə dedi: "Yenidən sizə müraciət edirəm. Bu gün tarixi sesiyadır. Ancaq onun tarixə qızıı hərflərlə, yoxsa qara hərflərlə yazılacağı sizdən asılı olacaq".

Hər hansı bir çıxışla beyinləri çürümüş, manqurtlaşmış "deputat" adlandırılan imperiya əlaltılarını, nökərlərini ayıltmaq, onlarda Vətən və xalq duyğusu yaratmağın mümkünlüyünü düşünmək sadəlövhlük olardı. Hakimiyyət orqanları ilə razılaşmanın əksinə olaraq, sesiyada AXC-nin tələbləri müzakirəyə çıxarılmadı, onların nümayəndələrinə kobud, düşmən münasibət göstərildi. Bu xəbər bayıra sızır və binanın ətrafına toplanmış adamların hakimiyyətə qarşı nifrətini daha da alovlandırır. Bundan xəbər tutan, mitinqçilərinin əhvali-ruhiyyəsinin son dərəcə nifrətlə köklənmiş olduğunu görən V. Polyaniçko sesiyada iştirak edən AXC nümayəndələrinin hamısına söz veriləcəyini vəd etdikdən sonra əhali qismən də olsa sakitləşir.

Yazıçı Anar və İsmayıl Şıxlının çıxışları milli mənafe və Qarabağ probleminin həlli baxımından qiymətli fikir və təkliflərlə zəngin idi. Təəssüf ki, bu çıxışlar da manqurt "deputatlara" təsir edib, onları oyada bilmədi.

Nəhayət, saat 22.53-də sesiyanın hazırladığı bəyannamə layihəsi oxundu. Bəyannamə layihəsində Azərbaycan SSR Ali Soveti XİK formasını dəyişdirməyi SSRİ Aii Sovetindən xahiş etdi. AXC nümayəndələri buna qəti etirazını bildirdilər.

Azərbaycan SSR Ali Sovetinin XİK-nin ləğv edilməsi məsələsini müzakirə etməyə məcbur olsa da, müzakirə səmərəli bir nəticə vermir. Müzakirənin davam etdirilməsinin mümkünsüzlüyünü görən AXC nümayəndələri AS-in binasından çıxıb camaatın arasına gəldilər. Artıq burada əhali həyəcan vəziyyətində idi. Hakimiyyətə və "deputatlara qarşı nifrət cilovlanmaz səviyyədə idi. Qarışıqlığın başlanması üçün real zəmin yaranmış idı. Əhalini ruhi həyəcan vəziyyətindən çıxarıb sakitləşdirmək məqsədilə Əbülfəz Əliyev camaat qarşısında çıxış edərək dedi: "Xahiş edirik ki, hər hansı bir tələb ediriksə, bu cür ekstazla etmək olmaz.

Siyasi mübarizə bu şəkildə olmur. Müəyyən mərhələdə baş tutmursa, o dayanmır. Yaramazların əlinə keçmiş torpaqlarımız var, onları qaytarmalıyıq...

Böyük tarixi andır, millətin taleyi həll olunur. Bir az da gözləyək. İcazə verin bu məsələləri biz həll edək. Xalqımız da tətilə öyrəşir. Bir qədər səbirli olun. Yenə söhbətə gedək" [1, 317-318]. Əhalinin ekstaza gəldiyini hakimiyyət orqanları da dərk edərək təhlükəsizlik tədbirləri görmüşdülər. AS-m binasının ətrafına əsgər, milis və yanğınsöndürən maşınlar toplamışdılar Görünür, Əbülfəz Əliyevin çıxışı ekstaza gəlmiş əhalini sakitləşdirə bildiyi kimi, hakimiyyət orqanlarına da təsir etmişdi. Xalqın hakimiyyətdən üz döndərdiyini hər kəs hiss etmədə idi. Gecə saat 23.00-da pozulmuş danışıqları Əbülfəz Əliyevin ciddi səyi nəticəsində bərpa etmək mümkün oldu. Bu xəbər də əhalini sakitləşdirmədi. Qadağan saatının çatmasına, hərbçilərin xəbərdarlığına baxmayaraq, əhali AS-ın binası ətrafından dağılmadı. Əksinə, hərbçilərin dağılmaq xəbərdarlığı əhalinin hissinə toxundu, onsuz da gərgin olan vəziyyəti bir qədər də gərginləşdirdi. Hakimiyyətdən həmişə xalqa zidd xəbərlər almağa alışmış əhali nə isə bir mənfi xəbər almaq kimi mənfi emosiyanın təsiri altında AS-ın binası ətrafında var-gəl edirdi. Saat 00.24 dəqiqədə bu gecə AS-ın qərarı ilə qada-ğan saatının götürüləcəyi haqqında məlumat verildi. Müsbət xəbər olsa belə, əhalinin əhval-ruhiyyəsinə çox da təsir etmədi. Əhali öz qərarında israrlı idi.

Saat 01.01. Əhali ekranda Vəzirovun tribunaya gəlişini görüb daha da həyəcanlanır. Rusca danışır: "Yaxşı söhbətimiz oldu!.. Isa əlavə edəcək", - deyib sözü İsaya verir.

Saat 01.04. İsa Qəmbərov deyir: "Belə qərara aldıq ki, DQMV-da XİK ləğv edilsin. Azərbaycan SSR AS XİK-ni ləğv edir və bu haqda SSR AS qarşısında vəsait qaldırsın".

01.07 dəqiqədə məsələ yuxarıda göstərilən formada səsə qoyulur və yekdilliklə XİK-ni ləğv etmək haqqında qərar qəbul olunur. AS-ın binası ətrafında minlərlə insan bir-birini bağrına basıb öpür, təbrik edir, birliyə, milli gücə aid şerlər oxunur.

AXC nümayəndələri ilə Ə. Vəzirov arasında suverenlik, iqtisadi müstəqillik haqqında qanun layihəsinin birgə hazırlanması haqqında razılığa gəlinir. AXC nümayəndələri AS-ın qanun layihəsini hazırlayan qrupa daxil edilir.

01.27 AXC nümayəndə heyətinin sədri Əbülfəz Əliyev parlamentdə çıxış edir. O deyir: "Siz yaxşı bilirsiniz ki, Azərbaycan xalqının ən ağır günləridir. Xalqımızın haqqını qorumaq üçün bütün yollardan istifadə etməliyik. Ən mühüm yol demokratiyanın inkişafı yoludur. Sabir deyib ki, hürriyyət olan yerdə insanlıq olur.

Azərbaycan Respublikasında bir müsbət meyl var ki, demokratiya inkişaf edir. Dünən siz özünüz deyirdiniz ki, dözmədiyiniz sözə bu gün dözürsünüz. Qarabağ problemləri ilə yanaşı başqa dərdlərimizə də əlac edəcəyik. Verilmiş

torpaqlarımızı da geri alacağıq. Sizə uğurlar arzulayıram ki, demokratıyanı daha da inkişaf etdirəsiniz. Sağ olun!".

Saat 01.32. Yekun olaraq Ə. Vəzirov çıxış edir: "Doğrudan da, biz dünən xeyli iş görmüşük. Bizim əsas məqsədimiz budur: xalqa qulluq. Gərək yaxşı qanunlar qəbui edək" [1, 319].

Saat 01.35. Azərbaycan SSR Ali Sovetin sesiyası bağlı elan edilir. Se- siyada iştirak edən AXC nümayəndə heyəti AS-ın binasını əhatə etmiş xalqın içərisinə gəlir. Əhali onları bağrına basır. Azərbaycan xalqı birliyi, milli təşkiiatı, liderləri ilə imperiyanın qanunlarını dəyişdirməyə başlamış- dılar. Bu tarixi qələbə idi. Bu saatların həyəcanını Azərbaycan xalqının böyük əksəriyyəti eyni dərəcədə keçirmişdi. Lakin 70 iilik imperiya tarixiı də MK-nın birinci katibi ilə AS-ın biriasında üzbəüz döyüş Nəcəf Nəcəfovun taleyinə düşmüşdü. Həmişə sakit davranışı ilə fərqlənən, hətta baş- qalarının kobudluğundan utanan Nəcəf bütün inzibati hakimiyyət orqanlarının qarşısında AKP MK-nın birinci katibi ilə əlbəyaxa oimaq həddinə çatdı. O, çölə çıxanda da hamıdan həyəcanlı idi. Tarix elmləri doktoru Q. Sultanov 15 sentyabr 1989-cu il tarixdə AS-ın qəbul etdiyi qərarları AXC- nin səyi ilə baş verən "tarixi əhəmiyyətli hadisə" adlandırmışdır (4,310) Azərbaycan tarixşünaslığında milli-azadlıq mübarizəsi problemi üzrə milli mütəxəssis kimi tanınan tarixçi Aydın Balayev isə bu hadisəni yalnız AXC tarixinin parlaq səhifəsi deyil, Azərbaycan milli hərəkatının parlaq səhifə kimi qiymətləndirmişdir [2,44].

16 sentyabr 1989-cu il, saat 18.35 - Azadlıq meydanında 300 mindən artıq adamın iştirakı ilə başlayan mitinq daha çox şənlik toplanışını xatırladır. Meydanda hamı mehriban, şən və gümrah görünür, üzlərdən sevinc şəfəqlənir. Mitinqi açan Yusif Səmədoğlu dünənki qələbə münasibəti ilə bütün Azərbaycan xalqını təbrik edib sözü Etibar Məmmədova verir. O, AXC adından "Azərbaycan xalqına böyük minnətdarlığını bildirir". Dünən ki qələbə uğrunda buraxılan səhvlərdən danışır, hakimiyyətə münasibət məsələsində mülahizələrini söyləyir.

İsa Qəmbər sözünə "sesiyanın gedişi zamanı Ali Sovetin binası qarşısında duranlara təşəkkür" etməkiə başlayır. Azərbaycan milli-azadhq hərəkatını təhlil edərək göstərir ki, meydan hadisəsindən sonra bu günə qə dər keçilən siyasi mübarizə yolu nəhayət, hakimiyyətlə qüvvə mütənasibliyi yaratmağa imkan verdi. Qarşıya qoyulan rnəqsədə çatmağın bir sıra məsələlərindən bəhs edən İsa Qəmbər xalqı "AXC-yə başqa məqsədlə daxil olanlara müqavimət göstərməyə" çağırdı.

Tofiq Qasımov Ali Sovetin müzakirəsinə verilmiş "Suvereniik haqqında" qanun layihəsinin bəndləri haqqında əhaliyə məlumat verdi, qanunun qəbul edilməsi yolunda əhalini daha şüurlu siyasi fəalıq göstərməyə səslədi.

Nemət Pənahov böyük pafosla Azərbdycan rnilli-azadııq hərəkatının təhlilinə girişməyə çaışsa da, tezlikiə onu gözdən salmış meydanda pul yığmaq məsələsi üzərində dayandı. Əhalinin onu dinləmədiyini görüb, Azərbaycan xalq qəhrəmanlarına, "Spartak" romanına keçsə də, onu dinləyən olmadı. Əvvəllər hər sözü alqışlanan Nemətin çıxışının qurtarması ilə sanki meydan ağır yükdən qurtardı. Artıq mitinqləri Əbülfəz Əliyevin yekunlaşdıracağına əhali alışmışdı. Hələ 88-ci ildən əhali Əbülfəz Əüyevi milli lider kimi tanımağa başlasa da, 15 sentyabrda o, xalq tərəfindən birmənalı lider kimi təsdiqləndi. Elə bu səbəbdən 16 sentyabr mitinqində əhali onu dinləməyə böyük həvəs göstərirdi. Nəhayət, bu an gəlib çatdı. Söz Əbülfəz Əliyevə verildi. O dedi: "Əziz bacı və qardaşlar! Əlbəttə, biz sizin tənqidlərdə də sevgi görürük... Ancaq biz indi siyasi döyüşə girmişik. Burada təmkin olmalıdır. Hökumətlə ancaq danışıq olmalıdır. Əgər mübarizədə hökumətdən nə isə güzəşt yolu ilə əldə edilirsə, bu, qələbədir. Bu, demokratik yoldur. Bizim başqa yolumuz yoxdur...

Əgər çox ehtiraslı çıxışlar olursa, insanlar vəcdə gəlir. Mən istəyirəm ki, biz səbirli olaq. Siz özünüz gördünüz ki, bizə qarşı çox böhtanlar atırlar, guya biz adamları yeyirik. Demokratiya haqq yoludur, odur bizi qələbəyə aparan".

O, sözünə davam edərək dedi: "İndi xalqa xəyanət edənlər dillərini çıxarırlar ki, gəlin barışaq. And içirik ki, Azərbaycan xalqının, ana və bacıların başına gətirilən müsibətlərin hayıfını almayınca heç kimlə barışmayacağıq...

Tələb edirik ki, Volski işdən azad edilib cinayətə cəlb olunsun... Bizim çox təcrübəmiz yoxdur. Hələ keçdiyimiz məktəb azdır. Çalışmalıyıq ki, siyasi biliyimiz artsın" [1 ,-320-324].

Əbülfəz Əliyev bütün çıxışlarında demokratiya anlayışını qabardır, milli-azadlıq mübarizəsinin başlıca vasitəsi, yolu hesab edirdi. 15 sentyabrda insanların ekstaza gəldiyi bir məqamda belə o, demokratik üsulu başlıca vasitə kimi bütün sosial-siyasi təbəqələrə təlqin etməyə çalışırdı. Bu günlərdə Əbülfəz Əliyevin nail olmaq istədiyi başlıca məqsəd demokratiya, milli konsensus idi.

Sentyabrın 15-dən 16-na keçən gecə AS-ın ətrafına toplaşan insanlar, AXC-nin sesiyada iştirak edən nümayəndələri, bütövlükdə Azərbaycan xalqı bir-birini layiqincə tamamlamaqla göstərilən qələbəyə nail oldular. Bu günlərdən bəhs edən yazarlar, həmin gecənin ən konfliktli, hamının "Hər şey bitdü", "İndi qan su yerinə axacaq" kimi düşünəndə kompromis ideyalar doğuran çıxışları ilə sesiya iştirakçılarını və mitinqçiləri sakitləşdirməklə müxtəlif cür düşünən insanları milli məcraya yönəltməklə məqsədə nail olmaqda Əbülfəz Əliyevin dözüm və səyindən xüsusi bəhs edirlər [4,73; 5,298; 6,57].

Əbülfəz Əliyevin mübarizənin ən ziddiyyətli, barıt qoxuyan anlarında hamıdan israrla tələb etdiyi, problemin "demokratik həll üsulu" onun rəhbərlik etdiyi təşkilatın və onun ideyasını qəbul edənlərin mübarizə proqramına çevrilirdi. Bu proqramın əsas mahiyyəti qarşılıqlı güzəşt və milli həmrəylik şəraiti yaratmaqla Azərbaycanın müstəqilliyinə, bütövlüyünə hamılıqla gedib çatmaq idi.

AS-ın XİK-in ləğvi haqqında qərar qəbul etməsindən sonra fasilə verməsinə AXC prinsip etibarı ilə razı idi. Fasilə müddətində respublikanın suverenliyi haqqında qanun qəbul edilməsinin mahiyyəti, gələcək istiqlal mübarizəsində əhəmiyyəti haqqında lazımi təbliğat və siyasi maarifçilik işi aparmaqla milli və siyasi şüuru daha da yüksəltmək, ali qanunların qəbul edilməsində xalqın bilvasitə iştirakının əhəmiyyətini ona dərk etdirmək, ən başlıcası isə Azərbaycan xalqının müstəqilliyə layiq olduğunu dünyaya, beynəlxalq ictimaiyyətə sübut etmək idi. Bunun üçün də "Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu"nun layihəsi AXC tərəfindən hazırlanıb, surəti əhali içərisində geniş yayılmışdı. AXC-nin bu sahədə siyasi kompaniyası o dərəcədə güclü idi ki, respublikanın ən ucqarında yaşayan azərbaycanlı yaxın günlərdə Azərbaycanın taleyində mühüm rolu olan bir qanunun müzakirəsindən xəbər tutmuşdu. Hətta adi siyasi şüura malik olmayan insanlar bu qanunun qəbul olunmasına nicat yolu kimi baxırdılar. Odur ki, AS-ın sesiyasının başlaması vaxtını əhali səbirsizliklə izləyirdi. Sesiya zamanı əhalini AS-ın binası ətrafına toplamaq üçün hər hansı çağırışa ehtiyac qalmamışdı. Odur ki, 22 sentyabrda AS-ın işini davam etdirəcəyi haqqında məlumat yayılan kimi rayonlardan əhali Bakıya axışdı. Artıq Azərbaycanın siyasi həyatında müstəqillik və milli ideyalarının üstünlük qazanmaqda olduğu özünü açıq göstərirdi. Əgər idarələrdə (binaların içində) Azərbaycan SSR-in bayrağı asılırdısa, xalq arasında keçirilən bütün ictimai-siyasi tədbirlər Azərbaycan Cümhuriyyətinin bayrağı altında keçirilirdi.

23 sentyabrda Azərbaycan SSR Ali Soveti sesiyasını saat 2-də başlasa da, səhər tezdən binanın ətrafına çoxlu əsgər və milis gətirilmişdi. Əhali isə binaya doğru axışırdı. Artıq milli bayraqlar tribunalara sancılmışdı. "Deputaflar da AS-ın binasına daxil olmağa başlayırdı. Onların gəlişini Ə. Tahirzadə belə təsvir edir: "...quzu deputatlarda - xalqımızın taleyini həll etməli "el ağsaqqalları"nda iki iyrənc cəhəti müşahidə etdim, "Moskva" mehmanxanasından çıxıb AS-ın binasına gələn "deputatlar" deputat nişanı olan bayrağı döşlərindən çıxarmışdılar ki, camaat onları tanımasın... Mən, İvanovkanın kolxoz sədri N. Nikitindən başqa, deputat nişanını çıxarmayan "xalq elçisi" görmədim.

İkinci cəhət isə ondan ibarət idi ki, deputatımız AXC fəallarının onlara verdiyi kağızları almaqdan imtina edir, ona qorxulu bir şey kimi baxırdılar" [1,326].

Təsvir olunan əhval-ruhiyyə ilə AS-ın sesiyası başlandı. Sesiyanın gedişindən alınan məlumatlardan aydın olurdu ki, yenə "deputatların" - manqurtlaşmış

qulların müqavimətini qırmaq lazım gələcək. İnsan dalğası getdikcə AS-ın binası ətrafında artır, "deputatlar"a, hakimiyyət orqanlarına təzyiq vasitəsi olaraq "tətil" və "istefa" şüarları oxunurdu. Nəhayət, saat 8.00-da sesiyadan çıxan AXC nümayəndələrinin görünməsi insanları daha da həyəcanlandırdı. Lakin Əbülfəz Əliyevin "Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu"nun qəbul edilməsi haqqında verdiyi xəbər minlərlə insanı eşidəcəyi bəd xəbər qorxusu hislərindən ayırıb, sevinc dolu həyəcanlar burulğanına atdı. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin söykəyi, tutalqası olacaq bu qanunun qəbul edilməsi insanları son dərəcə sevindirmişdi. Xəbər sevincdən çox həyəcan təsiri bağışlayırdı. Hətta eyforiyaya qapılıb qanuna Azərbaycanın tam müstəqilliyə nail olması kimi baxanlar da vardı.

Lakin Əbülfəz Əliyevin elə həmin anda dediyi - suveren dövlətin ordusu, milli pulu və dövlət xəzinəsi olmalıdır - sözləri insanları qələbə sevincindən ayırıb yeni milli qayğılarla yüklədi. İnsaniar bu günkü qələbə sevincinin doğurduğu hislərin təsiri altında AS-ın binası qarşısından dağıldılar. Çöhrələrdə qələbə sevinci, mübarizlik, döyüşkənlik aydın görünməkdə idi.

24 sentyabr 1989-cu ildə saat 17.00-da Azadlıq meydanında "Koroğlu" uvertürası ilə "Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu"nun qəbul edilməsi münasibəti ilə qələbə mitinqi təşkil olundu. AXC İdarə Heyətinin üzvləri və ağsaqqallar tarixi qələbə münasibəti ilə Azərbaycan xalqını təbrik etdilər, qarşıda duran növbəti vəzifələrdən danışdılar. Bunlar içərisində yenicə formalaşmış AXC-nin qorunması başlıca milli məsələ kimi irəli sürüldü. Əldə olunan çox saylı məlumatlar göstərirdi ki, hakimiyyət rayonlarda katiblərin yaratdıqları süni "AXC"-lər vasitəsi ilə milli birliyi, milli-azadlıq hərəkatını pozmağa çalışırlar. AXC idarə heyəti bir daha xalqın və təşkilat üzvlərinin nəzərinə çatdırdı ki, təşkilatın və xalqın bütövlüyünü qorumaqla milli problemləri ardıcıl həll etməyə nail olacağıq. Hər hansı dağınıqlığa, parçalanmaya qəti yol vermək olmaz. Milli birliyin parçalanması tezlikiə milii məğlubiyyətlə nəticələnəcək... Oktyabr ayında AXC-nin keçiriləcək qurultayında təşkilat və xalq daha böyük mütəşəkkillik göstərməlidir. Natiqlərin hamısının çıxışında nikbinlik, qaliblik hissi vardı. Lakin Dədə Qorqud obrazlı Azərbaycan milli-azadlıq hərəkatının ruhu Xəlil Rzanın çıxışı insanların ruhunu əlindən alır, Göyçəyə, Zəngəzura, İrəvana, Zəngibasara babaların ruhu ağlayan, od tutub yanan torpaqlara aparırdı. Meydanda sevinclə kədərin seçilməyəcəyi ruhi bir vəziyyət yaranmışdı. Lakin Xəlil Rzanın "Yaşasın Xalq Cəbhəsi" şeri meydana bütünlüklə nikbinlik, mübarizə və qələbə ruhu gətirdi. Mitinq nikbin, qələbə əhvali-ruhiyyəsi ilə başa çatdı.

"Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu"nun qəbul edilməsi AXC-nin, demokratik qüwələrin, Azərbaycan xalqının ilk hüquqi-siyasi qələbəsi idi. Məhz bu qanun Azərbaycan xalqnın

həyatında baş verən hadisəyə SSRİ-nin daxili işi kimi deyil, beynəlxalq hüququn subyekti kimi yanaşılması imkanı verirdi.

"Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu" müstəqillik uğrunda mübarizənin hüquqi bazasını yaradan ilk sənəd oldu.

AXC-nin rəhbərliyi ilə milli-demokratik qüvvələrin hakim siyasi qüvvəyə çevrilməsi prosesi gündən-günə artırdı. Məhz milli-demokratik qüvvələrin təzyiqi ilə "Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu"nun qəbul ediiməsi, bundan bir neçə gün sonra 5 oktyabr 1989-cu ildə Azərbaycan SSR Naziriər Sovetinin 404 saylı qərarı ilə AXC-nin rəsmi qeydə alınması onun və bütövlükdə milli-demokratik qüvvələrin nüfuzunu respublikada son dərəcə yüksəltdi.

SSRİ Ali Soveti AXC-nin rəhbəriik etdiyi milli-demokratik qüvvələrin təzyiqi ilə 1989-cu il noyabrın 29-da XİK ləğv edib, DQMV-in idarə olunmasını SSRİ Ali Sovetin Xüsusi Komissiyasının nəzarəti altında Azərbaycan SSR-in təşkilat komitəsinə tapşırdı. Moskvanın canişini V. Polyaniçko təşkilat komitəsinin sədri təyin olundu. Dekabrın 24-də AXC-nin orqanı "Azadlıq" qəzetinin ilk sayı kütləvi tirajla nəşr olundu. Qəzetin nəşri milli-azadlıq hərəkatının ən mühüm qələbələrindən biri olmaqla müstəqillik uğrunda mübarizədə milli qüvvələrin yaratdığı ən güclü silah idi.

Sovet imperiyasının uzun illər apardığı gizli və açıq mənəvi, psixoloji, ideoloji, siyasi, iqtisadi, ekoloji və s. tədbirlər Azərbaycan xalqının etnik sistemini pozmuş, milli dəyərlərini son dərəcə zəiflətmişdi. Onun bir hissəsi Azərbaycan mədəniyyətindən qopub ruslaşır, bir hissəsi vətəni tərk edir, "ziyalının" böyük hissəsi və hakimiyyət orqanları bütünlüklə milli simanı itirməklə mədəniyyətindən, etnik təməlindən əslində ayrılmışdı. Milli dəyərlərin pozuq daşıyıcıları olan çoxluq isə milli və siyasi şüura malik deyildi. Azərbaycan etnosunun durumunda ölüm simptomları açıq görünməkdə idi. 70-ci illərin başlanğıcında imperiya bütün vasitələrlə bu prosesi sürətləndirdi. Sosial-siyasi həyatın bütün sahələrində (mədəni, mənəvi, siyasi, iqtisadi və s.) özünə inamsızlıq psixologiyası aşıladı. Azərbaycan xalqında özünə inamsızlıq yaradıldı. Azərbaycan türkcəsi funksiyasını itirir, paytaxtda "çuşqa dili" kimi ələ salınır, Bakıda azərbaycanlılar, xüsusilə rus dilini bilməyənlər ikinci sort adam kimi qiymətləndirilirdi. Azərbaycanlılar ermənilərin ərazi iddiaları qarşısında ardıcıl olaraq güzəştə getməyə məcbur edilərək ermənilərin qalib, güclü obrazı, psixoloji üstünlüyü yaradılmışdı. Vətənlərində azərbaycaniıların ruhunda vətənsizlik və hüquqsuzluq, heç nəyə qadir olmamaq hissi yaradılırdı.

Ardıcıl olaraq Azərbaycan xalqını vətənindən sıxışdırıb çıxarmaq, assimilya etmək və s. üsullarla məhv etmək siyasəti yeridən rus sovet imperiyası 1988-ci ildə azərbaycanlılarda etnik durum son dərəcə zəif göründüyü üçün ehtiyat etmədən DQMV-nin Ermənistana verilməsi istiqamətində ardıcıl addımlar atdı.

Rus imperiyası etnik strukturu pozulmuş, iradəsi zəifləmiş Azərbaycan xalqını yeni siyasi-sosial, iqtisadi və inzibati vasitələrlə tarix səhnəsindən silə biləcəyinə inanmışdı. Görünür, imperiya özünün və Azərbaycan xalqının dərin qatlarında gedən prosesləri görə bilməmişdi. İmperiyanın daxilində çürümə, ölüm prosesi Azərbaycan xalqının milli-daxili strukturlarının zəifliyindən qat-qat güclü idi. Odur ki, imperiyanın Azərbaycan xalqına qarşı atdığı zorakı siyasi-sosial irticaya qarşı özünü səfərbər edib milli dəyərlərini bərpa etməklə milli inkişaf yoluna qədəm qoyurdu. Əksinə Azərbaycanı parçalamaq, məhv etmək üçün yaradılmış DQMV, Qarabağ hadisəsi rus imperiyasının dağılması üçün detenator oldu. M. S. Qorbaçovun islahatları buna şərait yaratdı. Onun islahatları çürüməkdə olan iqtisadi-sosial və mənəvi-siyasi birliyi birdən-birə dağıtdığı halda, yeni birləşdirici heç nə vermirdi.

Zəif etnik duruma malik Azərbaycan xalqının çox ağır şəraitdə, qısa müddətdə özünü bərpa edib "Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu"nu qəbul etməsi nəinki rus imperiyası, həm də dünya üçün gözlənilməz hadisə idi. Rus imperiyasının xaç atalarından biri Y. Primakov bunu düz başa düşmüşdü. "Bundan sonra Sovet İttifaqından ayrılmağa bir pillə qalır, bu pillə isə bir "demokratik parlament" seçkisindən ibarətdir", - demişdi [5,119].

"Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya qanunu" Azərbaycan xalqının imperiya üçün gözlənilməz milli birliyindən doğan enerjinin nəticəsi idi. Artıq 1990-cı ilin martında keçiriləcək Azərbaycan SSR Ali Sovetinə seçkilərdə AXC-nin qələbəsi heç kəsdə şübhə doğurmurdu. Y. Primakovun sözləri ilə desək, bu Sovet İttifaqından çıxmaq demək idi. Odur ki, Azərbaycan xalqı suverenlik haqqında "Konstitusiya qanunu"nu qəbul edən kimi "Kreml onun kağız üzərində qalması üçün yerli kommunist rəhbərliyinin sədaqətli canişini V. Polyaniçkonun əli ilə mümkün olan hər şeyi etdi" [5,298].

Tarix sübut etmişdir ki, milli birlik və ondan doğan təşkilat milli və siyasi prosesləri qarşısı alınmaz edir. Odur ki, imperiya Azərbaycan xalqının milli birliyini pozmaq, onun yenicə yaranmış milli təşkilatı AXC-ni parçalayaraq məhv etmək üçün ideoloji, siyasi-hərbi hücum planı hazırladı.

"Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya qanunu"nun qəbul edilməsindən 20 yanvara qədər AXC daxilində başlayan münaqişə heç də onun daxili təbiətindən irəli gəlmirdi. İmperiyanın təşkilat daxilində saldığı süni münaqişə idi. Əwəlcədən planlı şəkildə hazırlanmışdır. Tarixçilərin "AXC-nin böhranı", AXC daxilində radikallarla iberalların milli-azadlıq mübarizəsinə baxış fərqi kimi təqdim edilməsi dərindən araşdırma aparılmamasının, hətta bir çox hallarda aşkar həqiqətin deyilməməsinin nəticəsidir. Misal üçün Ramiz Rzayev, Nemət Pənahov və onlarla bu qəbilli adamların kimin və hansı təşkilatın adamı olması Azərbaycanda kimsə üçün sirr deyildi. Onların milli-azadlıq hərəkatının radikalları kimi tarixə daxil edilməsi Azərbaycan milli-azadlıq hərəkatını ləkələmək, ən azı ona ləkə

yaxılmasına göz yummaq, şərait yaratmaqdır, Lakin məsələyə obyektiv baxışa imkan verməyən başlıca səbəb bu dövrə aid DTK və onun varisi Milli Təhlükəsizlik Nazirliyinin arxivlərindən istifadə imkanının olmamasıdır. Nəzərə alsaq ki, DTK qüvvələri son nəticədə milli qüvvələrə qalib gəldilər (1993-cü il dövlət çevrilişi nəzərdə tutulur - X.X.), tarixi sənədləri öz xeyirlərinə saxtalaşdırdı və ya bir qismini məhv etmişdir, onda həqiqəti üzə çıxarmaq daha da çətinləşəcək.

Lakin hadisələr bütün xalqın, tarixçilərin gözü qabağında baş verdiyindən, dövrü mətbuatda yetərincə iz qoyduğundan bir çox həqiqətləri demək mümkündür.

AXC-nin təzyiqi ilə Azərbaycan SSR Ali Soveti "Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu"nun qəbul edilməsi hakimiyyəti AXC-ni rəsmi qeydiyyatdan keçirməyə məcbur etdi. Bütün bunlar milli təşkilat kimi xalq arasında AXC-nin nüfuzunu yüksəldir, respublika hakimiyyət orqanlarını nüfuzdan salırdı. Artıq AXC-nin xalq arasında nüfuzu elə səviyyəyə çatmışdı ki, o, iddialarını imperiyaya diktə etməyə başlamışdı. Odur ki, imperiya Azərbaycan xalqını susdurmaq üçün ciddi tədbirlər görməyə başladı. Bunlardan ən birincisi onun yenicə yaranmış milli təşkilatı AXC-dən məhrum etmək idi. Hadisələrin gedişi göstərdi ki, imperiya və mafioz qüvvələr yaranma prosesində AXC-yə kifayət qədər nümayəndələrini yerləşdirmişdilər. 27-28 oktyabr 1989-cu il tarixdə AXC-nin birinci sesiyasında təşkilat yeni vəzifələr uğrunda səfərbər olunmaq istədiyi halda onda dərin parçalanma üzə çıxdı. AXC idarə heyətində üç qrup aşkarlandı. Birinci Əbülfəz Əliyev, İsa Qəmbər, Hikmət Hacızadə, Tofiq Qasımov və s. başçılıq etdiyi milli qüvvələr, ikinci DTK-və mafiyanın əlində alətə çevrilmiş Nemət Pənahov, Rəhim Qazıyev qrupu, üçüncü isə reqanatlar idi. Birinci qrupun da tərkibində kəşfiyyat və mafiyanın adamının olması istisna edilmədiyi kimi, ikinci və üçüncü qruplarda da aldanmış milli adamların olması istisna deyildir.

İkinci və üçüncü qrupun liderləri populist çıxışları ilə xalq arasında pərdələnir, müxtəlif priyomlarla milli qüvvələri xalq arasında gözdən salmağa çalışırdılar. AXC-nin rəhbərliyində olduğu kimi yerli təşkilatlarda da fraksiyalar yaratmaqla təşkilatı parçalamağa çalışırdılar. AXC idarə heyətində təfriqəçilik ilkin olaraq Zərdüşt Əlizadə və Leyla Yunusova tərəfindən gücləndirildi. [1 ,-394;5,58]. Onlar tərəfindən AXC-nin binası qarşısında piketlər keçirilir, ona müxtəlif böhtanlar atılır, xüsusən Zərdüşt Əlizadə AXC sədri Əbülfəz Əliyevin vaxtilə qız üstündə həbs olunması, içki düşkünü olması haqqında rayonlarda təbliğat aparırdı [1, 223-225].* Respublikada faktiki olaraq ikihakimiyyətlilik yaranmışdı. AXC hüququ olmayan real hakimiyyət, Azərbaycan KP-nin Partiya Komitələri dövlət orqanları isə formal, gücü olmayan hakimiyyət vəziyyətində idi. AXC-nin nüfuzunu qırmaq üçün mərkəzin sifarişi ilə onun daxilində kooperativ

cəbhələr yaradılırdı. Həmçinin ona qarşı qoyulacaq müxtəlif cəmiyyət və təşblatlar yaradılırdı ki, Qayğı və Qarabağa Xalq Yardımı Cəmiyyətləri belələrindən idi. AXC-nin nüfuzunun artdığını görən siyasi cəhətdən hələ püxtələşməmiş təbəqədə problemlərini həll etmək məqsədilə AXC-yə axışırdı. Beləliklə, AXC-yə kütləvi, kortəbii axın başlandığı bir vaxtda, imperiya onu daxildən dağıtmaq istiqamətində planlı tədbirlər həyata keçirirdi. Bizcə 17noyabr 1989-cu il yubiley mitinqində Əbülfəz Əliyevin, Mansur Əliyevin, Məhəmməd Hatəminin radikal çıxışları da imperiyanın Azərbaycana qarşı sərt tədbiriərini sürətləndirdi. Əbülfəz Əliyev nitqinə bu sözlərlə başladı: "Bu gün SSRİ-də müsəlman xalqlarının demokratik hərəkatının başında AXC dayanır. Bütün qardaşlarımızın xalq hərəkatına ümid göstəririk. Milyonlarla adamı şanlı gələcək gözləyir. Bu vəzifəmiz müqəddəsdir.Səs ucaldanda Əbülfəz Əliyevi əvəz edən Mansur Əiiyev dedi: "Bu gün xalqın milli bayramıdır. Bu bayram Musavat Partiyasının bayramıdır. Bizi həbsxanalar qorxutmamalıdır. Bizə qarşı edilən cinayətlər Azərbay-can KP MK tərəfindən edilir. Xankəndində 15 min azərbaycanlının qapısı qıfillanıb. Bunun günahkarı Vəzirovdur. Kommunist partiyasına nifrət edirəm! Var olsun Azərbaycan xalqmın milli ləyaqəti!" Məhəmməd Hatəmi nifrət dolu bir səslə dedi: "Azərbaycan iki dəfə rus imperiyası tərəfindən işğal olunub... 1920-ci ildə XI qızıl ordu Azərbaycan Demokratik Respubasını darmadağın etmişdir. İndi Azərbaycanda iki qüvvə fəaiiyyət göstərir: AXC və KP. AXC-dən teşqa heç bir qüvvə xalqa xeyir gətirə bilməz" [1, 430].

Azərbaycan milii-azadlıq hərəkatının vulkanı Xəlil Rza "Mən Şərq xalqlarını alçaqlığa qarşı üsyana çağırıram. Qırmızı imperiyaya qarşı mübarizəyə çağırıram!" nidası ilə meydanı silkələyib "Yaşasın Xalq Cəbhəsi!" şeri ilə meydanı mübarizəyə bir daha səfərbər etdi.

Etibar Məmmədov mitinqin qərarını oxudu. Ali Sovetə seçkilər haqqında qanunun nəşr olunmasının əhəmiyyətini xüsusi vurğuladı.

Artıq AXC güclü siyasi qüvvəyə çevrilmişdi. Paytaxt və bölgələrdə xalq kommunist Partiyası və hakimiyyət orqanları ilə hesablaşmır, onlardan –AXC-yə şikayətə gəlirdi. Hakimiyyət orqanları, hətta inzibati orqanlar belə AXC-nin tələbləri qarşısında geri çəkilir, onun müdafiə etdiyi məsələlərə və şəxslərə qarşı araşdırma aparmağa cəsarət etmədən güzəşt edirdi. Azərbaycan SSR Ali Sovetinə 1990-cı ilin martında keçirilməsi nəzərdə tutulan seçkilərdə Xalq Cəbhəsinin qələbə çalacağına qəti inam yaranmışdı. Bu isə Y. Primakovun sözləri ilə desək, Azərbaycanın SSRİ-dən xilası demək idi. Odur ki, Azərbaycan xalqının birliyi, vahid siyasi iradə əldə etməsi, yüksək nüfuza malik milli təşkilata malik olması mərkəzi təşvişə salmışdı. Odur ki, Azərbaycan xalqının birliyini pozmaq, onu yenidən itaətə salmaq üçün birinci növbədə AXC-ni parçalayıb dağıtmaq hədəfi seçilmişdi. Hadisələr gərginləşdikcə AXC daxilində siyasi qüvvələrin müxtəlifliyi də aşkarlanırdı [7,351].

Hadisəiər radikallaşırdı. DQMV-də XİK-nin ləğvi tələbilə 27 noyabrda başlayan ümumazərbaycan tətili çox mütəşəkkil şəkildə həyata keçirildi, 28 noyabrda 1989-cu ildə SSRİ Ali Sovetin Dağlıq Qarabağda vəziyyəti normal hala salmaq üçün XİK-ni ləğv etdi. Vilayətin idarə olunması SSRİ Ali Sovetinin xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR-in təşkilat komitəsinə tapşırıldı. Bu qərarı Qarabağ probleminin həlli istiqamətində atılan addım hesab etmək olmazdı. Hər halda imperiyanın Azərbaycan xalqının, milli qüvvələrin təzyiqi qarşısında geri çəkilməsi fakt idi. Güman etmək olardı ki, 29 noyabr mitinqi SSRİ Ali Sovetin yeni qərarına müvafiq yeni tələblər paketi irəli sürəcək, milli enerjini bu istiqamətə yönəldəcək. Təəssüf ki, mitinq bir qrup tarixçinin AXC-nin liberal, bizim milli qüvvələr adlandırdığımız qrupun təsiri altında deyil, ikinci qrupun üstünlüyü, təsiri altında keçirdi. Mitinqi Rəhim Qazıyev apardı və əsas ideyaları da o verdi. Onun söz verməsi ilə danışan E. Məmmədov, Fəzail Ağamalıyev, Vaqif Səmədoğlu və b. "SSRİ-nin tərkibindən çıxmağı yeganə yol" kimi meydana təqdim etdilər. E. Məmmədov bildirdi ki, "Qətnaməmiz tələbimiz birdir: Azərbaycan SSR AS-nin növbədənkənar sesiyası çağırılıb orada SSRİ-dən çıxmaq üçün referendum keçirilməsi haqqında qərar qəbul edilməlidir! Bu qərar çıxarılmayana qədər ümumi siyasi tətil davam edəcək" [1 ,-452].

Maraqlıdır ki, AXC mitinqdə Ə. Vəzirov başda olmaqla MK-nın istefa tələbini qoyduğu halda, H. Həsənovu meydana yeni rəhbər kimi təqdim edirdilər. E. Məmmədov deyirdi: "Dünən gecə Biləcəriyə getmişdik, dəmiryol nazirinin müavini Sidorenko, Abdullayev, MK-dan Həsən Həsənov orada idilər. Həsən Həsənova dedik ki, rəhbərlik hərəkata qarşı çıxmasın xalqla birləşsin, ya da vəzifədən imtina etsin. Həsən Həsənov cinayətdə iştirak etməməyə söz verdi. Yerdə qalanlar ya hərəkata qoşulmalı, ya da istefa verməlidirlər. Onlar bu gün gəlib bizə qoşulmasalar, bizə lazım deyillər".

Mitinqdəki aparıcı çıxışlardan aydın olurdu ki, hakimiyyətdə Vəzirova onu dəstəkləyən qrupun istefası qoyulur. H. Həsənovun Azərbaycan KP MK-ya birinci katib kimi hakimiyyətə gətirilrnəsi rneydan vasitəsilə əhaliyə və Moskvaya qəbul etdirilirdi. Hələ bundan xeyli əvvəl İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə və b. yazıçı və şairlər tərəfindən H. Həsənovun hakimiyyətə gətirilməsi üçün təbliğat aparılırdı [4,77; 1, 446].

Mitinqdə Vaqif Səmədoğlu bildirdi ki, "Azərbaycan xalqının mübarizəsini Moskva-Yerevan-Vaşinqton-Tehran oyuncağa çevirmək istəyir. Moskvanın qumarı, qumarbazlığı, ortaya qoyduğu oyun təəssüf ki, AXC-də də özünü göstərir (?1). İndi bu haqda danışmıram, ancaq konfransda danışacam" [1 ,-450]. Açıqlama verməsə də, V. Səmədoğlunun ifadələrindən aydın olur ki, AXC rəhbərliyinə nəinki Rusiyanın, eyni zamanda beynəlxalq imperializmin nümayəndələri yerləşdirilmiş, onlar milli hərəkatı məcrasından çıxarmağa çalışır, ona istədikləri yönümü vermək istəyirlər. Artıq bu, AXC-nin

fəaliyyətində özünü göstərirdi. Belə ki, AXC imperiyanın və respublikada hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin böyük təzyiqi və hiyləgər siyasəti sayəsində qarşıya qoyduğu başlıca milli vəzifələrin həyata keçirilməsində tam gücü ilə fəaliyyət göstərə bilmirdi.

Xalq hərəkatından istifadə edərək hakimiyyət uğrunda mübarizə aparan qüvvələr noyabrın sonu, dekabrın əvvəlindən yaranmış qarışıqlıqdan (yaratdığı qarışıqlıqdan) istifadə edərək, müxtəlif vasitələrlə hakimiyyəti ələ keçirməyə cəhd göstərirdilər. O. Sultanov bu qüvvələri üç qrupa bölür. İqtidar daxili qüvvələr, H. Əliyevi hakimiyyətə gətirmək istəyən qüvvələr və müxalifətdən hakimiyyətə gəlmək istəyən qüvvələr [4,62-63;76,77].

Qeyd edim ki, hakimiyyət uğrunda mübarizə aparan, zahirən üç qrup kimi görünən bu qüvvələr eyni sosial bazaya malik olmaqla eyni məqsədə xidmət edən vahid qüvvə idi. Onların üç qrup şəklində görünməsi hakimiyyətə gəlmənin müxtəlif variantları idi və H. Əliyevi hakimiyyətə gətirmək məqsədi güdürdü.

Azərbaycan xalqının suverenlik uğrunda mübarizəsinin yüksəldiyi 1988-ci ilin ikinci yarısından Azərbaycanda üç siyasi qüvvə özünü göstərirdi. Siyasi təcrübəsi zəif milli-demokratik qüvvə imperiyanın Ə. Vəzirovun simasında demokratikləşmə xəttini respublikada təmsil edən son dərəcə zəif siyasi hakimiyyət qüvvəsi (əslində bu qrup siyasi qüvvəyə çevri-lə bilmədi); üçüncü başlıca siyasi qüvvə respublikanın bütün iqtisadi, siyasi və mülki həyatında illərlə möhkəmlənmiş H. Əliyevin simasında təmsil olunan DTK kommunist rəhbərliyi idi.

Nəzərə almaq lazımdır ki, yenidənqurmanı dəstəkləyəcək demokratik qüvvələrlə mühafizəkarların ilk mübarizəsi, döyüşü də elə DTK daxiində gedirdi. Yenidənqurmanın ilk illərində H. Əliyevin də daxil olduğu mühafizəkarlar hələ çox qüvvətli idi. Azərbaycan cəmiyyətinin iqtisadi, siyasi və mülkü həyatında DTK-nın simasında dərin kök saimış antimilli, antidemokratik qüvvələr gənc milli qüvvələrdən qat-qat üstün siyasi təcrübəyə malik idilər. M. S. Qorbaçov tərəfindən H. Əliyev mühafizəkarların nümayəndəsi kimi sıxışdırılsa da, Sov.İKP MK katibləri, Siyasi Büro üzvləri, xüsusilə DTK dairələrində onun müdafiəsi çox qüvvətli idi. Tarixçilərin AXC-nin "radikal qanadı" adlandırdığı qrupun H. Əliyevə məxsusluğu nə o zaman, nə də sonralar heç kəsə sirr deyildir. Əsiində AXC-nin "radikal qanadı" adlandırılan qrup Azərbaycanda DTK xətti ilə H. Əliyevin Qorbaçova təzyiq qrupu idi. Bu qrup respublikaya yeni rəhbər təyin olunmuş Ə. Vəzirov tərəfindən sıxışdırılmağa təşəbbüs göstərilsə də, elə təşəbbüs səviyyəsində qaldı. Əslində onun mövqeyinə heç bir təsir göstərə bilmədi "Azərbaycan SSR-in suverenliyi haqqında Azərbaycan SSR-in Konsitusiya qanunu"nun qəbulundan sonra bu qrupun fəaliyyətinə yeni yönüm verildi. Bu qrup vasitəsilə suverenlik-haqqında "Konstitusiya qanunu"nun qəbuluna şərait yaratmış

respublika rəhbərliyini cəzalandırmaq, AXC-ni bütövlükdə milli qüvvələri parçalamaq.

2 dekabr 1989-cu il mitinqində Nemət Pənahov gözlənilmədən AXCJ dən istefa verdiyini bildirdi. Rəhim Qazıyev dedi ki, "Azadlıq" radiosunda Leyla Yunusovanın verdiyi müsahibədə deyilir ki, Etibar, Rəhim və Nemət milli cəbhə yaratmışlar... keçirilən mitinqlər provokasiyadır. "Xalqa baxın baxın, bu xalqın səviyyəsi yoxdur" deyən xanım, əgər bu hərəkat milli hərəkatdırsa, öz üzərimə götürürəm (rəhbərlik nəzərdə tutulur - X.X.)". 475].

Etibar Məmmədov isə bildirdi ki, şəhərdə DTK şuluqluqlar salır və hazırlayır. Odur ki, bu gündən şəhərdəki asayişə AXC nəzarət edəcəkdi. Bu hazırlanmış planın bir hissəsidir". [1, 475-476]

Bu gün meydandakı çıxışların hamısı əvvəlkilərdən fərqli olaraq bir-bririni tamamlamaqla milli səfərbər edici deyil, müxtəlif ideyalı parçalayıcı Çxışlar idi. Nemət Pənahovun, Rəhim Qazıyevin, Etibar Məmmədovun çıxışlarında onların AXC sədri Əbülfəz Əliyevə tabeçilik göstərmədikləri Rəhim Qazıyevin isə birbaşa hərəkata rəhbərlik iddiası aşkar idi.

AXC sədri Əbülfəz Əliyev onların çıxışlarına münasibət bildirmədən AXC-də ümumi vəziyyət və hakimiyyət orqanlarının AXC-yə və bütövlükdə milli hərəkata münasibətindən bəhs edərək göstərdi ki, "son vaxtlar belə sözlər gəzir ki, AXC dağılmaq üzrədir. 30-40 nəfərin davası AXC-nın dağılması deyil. Xalqı parçalamaq olmaz. O, yüksək səviyyədə demokratiyaya doğru gedir. Əksinə bizim bəzi yoldaşlar müxtəlif demokratik hərakat, hətta partiyalar yaradırlar. İndi demokratik hərəkatın təşkilatlanması vaxtıdır... Mən yenicə rayonlardan qayıtmışam. Rayonlarda camaatı bölürlər, "Raykom Xalq Cəbhəsi", "kooperativ Xalq Cəbhəsi" və s. yaradırlar. Əgər AXC demokratik hərəkatdırsa, bu raykomlarda yarana bilməz.. Sizdən xahiş edirəm ki, heç vaxt AXC-yə ümidinizi itirməyin. Bir-birimizə qarşı mehriban olaq. Yolumuz hələ uzaqdır" [1, 473-474]. İqtibasdan göründüyü kimi, Əbülfəz Əliyev milli hərəkata və AXC-yə qarşı nə qədər inamlı olsa da, ona qarşı yönəlmiş təhlükəni etiraf etməklə dövlətin və ayrı-ayrı qrupların AXC daxilində parçalanma yaratmaqda olduğunu xalqa çatdırdı və milli ideallar naminə onu qorumağa səslədi.

Təəssüf ki, bu günlərdə imperiya və onun yerli əlaltıları AXC-ni nüfuz dan salmaq məqsədiiə xalq arasında az-çox nüfuzu olan ziyalılardanda istifadə etməyə başlamışdı. Hətta Ziya Bünyadov və AXC sədri olmaq istəyən Yusif Səmədoğlu da onların arasında idilər və AXC-ni DTK-nın ya- ratdığını iddia edirdilər. Ə. Tahirzadə haqlı olaraq yazır ki, "Görünür Yusif Səmədoğlunu AXC-yə DTK sədr qoymaq istəyirmiş" [1, 476].

Siyasi gərginlik dərinləşdikcə milli hərəkat sürətlə inkişaf edir, digər tərəfdən isə onun daxili ziddiyyətləri kəskinləşir, hakimiyyət uğrunda mübarizə demokratik quvvələrin platformasını üstələyirdi, Respublikanın siyasi xaos

girdabına yuvarlanacağı göz qabağında idi. Moskva isə siyasi xaosdan istifadə edərək Azərbaycana divan tutmağa hazırlaşırdı [4,73-74]. Planını asanlıqla həyata keçirmək
için onu daxildən parçalamaqla zəiflətmək istəyirdi. Bu məqsədlə rayonlu-bakılı, xüsusilə bakılı-ermənistanlı toqquşması salmaq istiqamətində təşəbbüslər edilirdi. Lakin dünyada təklənmiş Azərbaycan xalqı erməni təcavüzündən qorunmaq prosesində milli birliyin varlığını yaşatmağın zəruri şərti olmasını yetərincə dərk etməsi imperiyanın və mafiyanın belə bir təxribatına imkan vermədi. Əksinə, imperiyanın və mafiyanın təxribatına qarşı mübarizədə "Bakı Kəndlər Birliyi" təşkilatı yarandı. Beləliklə, Azəzərbaycan xalqını daxildən parçalamaq cəhdinin baş tutmadığını görən imnperiya Bakıda ermənilərə qarşı təxribatçı talan hazırladı. AXC respublikada gözlənilən təxribatların, xüsusilə qaçqınlarla bakılı arasında, erməni, rus və s. millətlərə qarşı törədiləcək təxribatların qarşısını almaq məqsədilə tədbirlər müəyyənləşdirirdi. Qardaş qırğınına imkan verməmək; başqa millətlərə qarşı təxribatın qarşısını almaq; Vətənə qarşı hər cür basqına sinə gərmək və s. Lakin onun öz daxilindəki parçalanma, radikal mahiyyətli çağırışlar mübarizə imkanlarını məhdudlaşdırırdı.

Moskvanın hər cür təxribatına bəhanə yaradırdı [4,76]. Yaranmış şəraitdən məharətlə istifadə edən imperiya Azərbaycan xalqını cəzalandırmaq, rnilli-azadlıq hərəkatını beşiyində boğmaq məqsədilə Cəlilabad və Lənkəran rayonlarında xüsusi münaqişə planı hazırladı. Sonrakı hadisələr göstərdi ki, bölgənin münaqişə zonası kimi seçilməsində imperiyanın cari gələcək geosiyasi planları da nəzərə alınmışdı.

20 yanvar təcavüzündən əwəl Lənkəran və Cəlilabad hadisələri imperiyanın xüsusi ssenariləri idi. Bu ssenarilərdə Azərbaycan milli azadlıq hərəkatına təsir göstərməyin, onu etnik münaqişəyə çevirməyin, lazım gəlsə İranla münaqişəyə cəlb etməyin gizli tərəfləri proqnozlaşdırılırdı. Buradakı AXC üzvlərinin çoxu siyasi naşılıqdan sadəcə tora düşdülər. Lakin onların bir çoxunun, Ə. Hümbətov və b. DTK-nın rəsmi işçiləri olduqları sonradan hamıya bəlli oldu.

Gözlənilmədən Cəlilabad və Lənkaran rayonlarında Sovet və partiya orqanlarına qarşı çıxışlar başlandı. 8 dekabrda Cəlilabadda keçirilən mitinqdə Daxili İşlər Nazirliyi dinc nümayişçiləri gülləboran etdi. Hakimiyyətə can atan qüwələr camaatın rayon katiblərinin "yuxarıdan təyin edilməsinə”haqlı narazılığından istifadə edərək, bir qədər əvvəl təyin olunmuş rayon PK-nin birinci katibinin istefasını qoydular. Birinci katibin istefasından sonra rayon kommunistlərinin 32 faizi fövqəladə konfrans keçirməyi tələb edən sənəd imzaladılar. Dekabrın 25-də kommunistlərin müəyyən hissəsinin yığıncağında raykomun yeni tərkibdə plenumunu seçmək tələbi qoyuldu. 27 dekabrda rayona gətirilən əlavə milis dəstələri "vəziyyəti qaydaya salmaq" məqsədilə

həbslər keçirdi. Narazı kütlə hücum edərək raykomun və milis şöbəsinin binalarına zərər vurdular, birinci katib X. Əliyev döyülüb rayondan qovuldu. Dekabrın 29-da Cəlilabadda "xalq hökuməti" adı altında qurum fəaliyyətə başladı. Sovet hakimiyyəti Müvəqqəti Müdafiə Komitəsi ilə əvəz olundu. Müvəqqəti Təşkilat Komitəsi və Milli, Müdafiə Şurası yaradıldı. Komsomol təşkilatı, DTK-nın rayon şöbəsi ləğv edildi. AXC-nin Lənkəran şöbəsi isə rayon Hakimiyyət orqanlarının fəaliyyətinin müvəqqəti dayandırılması barədə qərar qəbul etdi. Ssenari əsasında yaradılmış vəziyyətə uyğun respublika rəhbərliyi 10 dekabrda respublikada ictimai-siyasi vəziyyətin kəskinləşməsi haqqında, 26 dekabrda isə kömək göndərilməsi haqqında Moskvaya müraciət etdilər [4,75-76].

Artıq yanvarın əvvəllərində imperiya Azərbaycan xalqını cəzalandırmaq üçün Bakıya müxtəlif qoşun növləri gətirirdi. Yanvarın 3-dən 6-na kimi Moskvanın Bakıda olmuş yüksək rütbəli zabitləri Barannikov, Lidauskas, Bobkov və b. Gəncəyə məxfi gəlmiş SSRİ müdafiə naziri Yazovla görüşərək ondan xüsusi tapşırıqlar almışdılar. Azərbaycan milli-azadlıq hərəkatını beşiyində boğmaq məqsədilə "Tayfun" (Qasırğa) hərbi-siyasi və ideoloji plan hazırlayırdılar.

Araşdırmalar göstərir ki, Azərbaycan milli azadlıq hərəkatnın beşiyində boğulması rus sovet imperiyası səviyyəsində deyil, beynəlxalq səviy-yədə, ABŞ-ın iştirakı ilə planlaşdırılırdı. 1989-cu il dekabrın 1-də Maltada M. S. Qorbaçovla ABŞ prezidenti Buşun görüşü zamanı razılaşdırılmışdı. Görüş zamanı ABŞ-ın dövlət katibinin bəyanatındakı "Moskva Zaqafqaziyadakı millətçi hərəkatları yatırmaq üçün orada güc işlətsə, Amerika buna etiraz etməyəcəkdir" cümləsində "Azərbaycan" sözü "Zaqafqaziya" sözü ilə pərdələnmişdi. Axı Qorbaçov deyir ki, gürcü kimi mədəni bir xalqı komendant saatında saxlamaq rəva deyil, erməniləri isə ruslar qədər ABŞ müdafiə edirdi. Zaqafqaziyada ABŞ-ın boğulmasına etiraz etmədiyi xalq Azərbaycan xalqı idi. "Dekabrın 27-29-da çox adama aydın idi ki, bugünkü dünyanın taleyini istədikləri kimi həll edən iki fövqəldövlət - Amerika və Sovet hökuməti Azərbaycan xalqını zorla fəlakətə aparır [8].

Azərbaycan xalqına qarşı qanlı cinayətlər hazırlandığı bu günlərdə Moskva DTK-sı və onun yerli əlaltıları, respublika dövlət aparatının iqtisadi, siyasi və mülki strukturlarında kök atmış mafioz qüvvələr Azərbaycan xalqına qarşı cinayətdən maksimum faydalanmaq istəyirdi. Azərbaycan xalqına qarşı bilavasitə cinayətin hazırlanması dövründə müxalifətdaxili iqtidardaxili, həm də iqtidar-müxalifətarası mübarizə daha da qızışdırılırdı. İqtidarın özündə

hakimiyyətə can atan qüvvələr vəziyyətin gərginləşməsi ilə Ə. Vəzirovun istefasını səbirsizliklə gözləyirdilər. Bu məqsədlə yanvarın əvvəllərində hakimiyyət daxili mübarizənin şüarları xeyli konkretləşirdi. Yanvarın 8-də partiya-təsərrüfat fəalları yığıncağında çıxış edən MK katibi Həsən Həsənov AKP MK-nın, Ali Sovetin və Nazirlər Sovetinin işindəki nöqsanları kəskin tənqid etdi. Tarixçi O. Sultanov haqlı olaraq yazır ki, bu birinci katib Ə. Vəzirovun, Nazirlər Sovetinin sədri A. Mütəllibovun və Ali Sovetin sədri E. Qafarovanın istefasını dolayısı yolla tələb etmək idi. Təsadüfi deyil ki, məhz qırğın ərəfəsində yazıçı İsmayıl Şıxlı, şair Bəxtiyar Vahabzadə və b. hətta Xalq Cəbhəsinə gələrək Həsən Həsənovun birinci katib olmasına kömək etməyi, yaxud mane olmamağı xahiş edirdilər [4,77].

O. Sultanov düzgün olaraq göstərir ki, H. Həsənovun rəhbərliyi tənqid etməsi müxalifətin müəyyən dairələrini razı salsa da, onun birinci katib olmasına razılıq versələr də, müxalifətdaxili fikir ayrılığını daha da dərinləşdirirdi. Bu 6-7 yanvar 1990-cı il tarixdə AXC-nin konfransında da özünü açıq göstərdi. Həsən Həsənovu dəstəkləyən qüvvə AXC-də bir fraksiya kimi görünürdü.

Konfrans AXC tarixində bəlkə də ən ağır diskusiya şəraitində keçirdi. imperiya AXC-yə yerləşdirdiyi agentura şəbəkəsi vasitəsilə onun işini pozmağa, təşkilatı dağıdıb demokratik qüwələri parçalamaqla Azərbaycan xalqına tətbiq edəcəyi hərbi əməliyyatlar zamanı onu bütünlüklə rəhbərsiz qoymaq, ən azı AXC-ni DTK-nın yaratdığı bir agentura təşkilatı ki-mi cinayətə sürükləyib xalqın gözündən salmaq istəyirdi. Lakin ağır, gərgin diskusiya, pozuculuq şəraitində keçən konfrans milli-demokratik qüvvələrin qələbəsi ilə nəticələndi. Hələ dekabrın 2-də AXC-ni istefası ilə hədələyən Nemət Pənahov 8 yanvarda AXC-nin Ali Məclisində İdarə Heyətinə seçilə bilmədi Leyla Yunusova və Zərdüşt Əlizadə Nemət Pənahov dəstəsinin özbaşınalığına etiraz bəhanəsi ilə AXC-dən çıxdılar. AXC-nin 14 nəfərlik yeni seçilmiş İdarə Heyəti içərisində tam azlıqda qalmaqla ona təsir imkanını itirdiyini görən Rəhim Qazıyev İdarə Heyətindən çıxması haqqında bəyanat verdi, Etibar Məmmədov ona qoşuldu. Elə həmin gün Nemət Pənahov, Rəhim Qazıyev və Etibar Məmmədov Milli Müdafiə Şurasını yaratdıqlarını bildirdilər, 13 yanvar 1990-cı il mitinqində bunu geniş ictimaiyyətə elan etdilər [6,60]. Yalnız xeyli sonra məhkəmə zamanı Etibar Məmmədov bildirdi ki, "Bizim özbaşımıza Milli Müdafiə Şurasında iştirak etməyimiz barədə söz-söhbət sonradan dövlət orqanları rəhbərlərinin, Ayaz Mütəllibov və başqalarının öz yaxalarını kənara çəkməsindən irəii gəlir. Necə olur ki, Milli Müdafiə Şurası yaradılan kimi bir günün içərisində 6 telefon qoyulur orada bizim üçün? Siz özünüz bilirsiniz ki, Bakıda telefon nömrəsi almaq, özü də bir günün içində, nə cür ola bilər? Birdən-birə 5 telefon qoyuldu bizim otağımıza. Hökumət telefonu da qoyulmuşdu ki, bizim birbaşa əlaqəmiz olsun Nazirlər Sovetinin sədri ilə, MK katibləri ilə, ancaq bu nömrəni birləşdirməyə vaxt çatmadı". Məhkəmə istintaqı zamanı sübuta yetirilmiş faktlardan götürülmüş

dəlil bir daha sübut edir ki, AXC-nin radikal qanadı DTK-nın agentura şəbəkəsindən başqa bir şey olmayıb, olsa-olsa onların arasında təsirə düşüb aldanmışlardan söhbət gedə bilər. 6-7 yanvar 1990-cı ildə AXC-dən qopma və MMŞ yaradılması bilavasitə dövlət orqanlarının təsiri ilə baş vermiş, Azərbaycan xalqını milli-azadlıq mübarizəsində rəhbər təşkilatdan məhrum etmək siyasəti idi. Göründüyü kimi, AXC-də milli qüvvələr üstünlük təşkil etdiyindən imperiyanın bu niyyəti tam baş tutmadı.

İmperiyanın, hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin təsiri altında respublikada vəziyyət saatbasaat ağırlaşırdı. Bunu başa düşən Ə. Vəzirov 9-10 yanvarda iki dəfə AXC idarə heyəti ilə görüşür. Əbüifəz Əliyev yazır ki, Ə. Vəzirovdan soruşduq ki, erməni quldurları Azərbaycanı dağıdır, nə deyirsiniz? Dedi ki, heç bilmirəm nə edək. Bizi təkləyiblər. Moskvada kimə deyirəm, əhəmiyyət vermir. Dönə-dönə Qorbaçova demişəm, deyir əl çəkin yaxamdan, mən daha bezmişəm, bacarmıram; gedin özünüz cavab verin! Biz də gərək "fəhlə drujinaları" adı ilə xüsusi dəstələr yaradaq, silah verək, gedib Xanları, Qubadlını, sərhəd rayonlarını və Qarabağı basqıniardan qorusun" [8]. İqtibasdan göründüyü kimi Ə. Vəzirovun Moskvanın, birbaşa Qorbaçovun Qarabağ probleminə münasibətini olduğu kimi Əbülfəz Əliyevə deməsi onların bir-birinə qarşılıqlı etimadından irəli gəlirdi. Həmçinin bu Qarabağ probleminin milli-demokratik qüvvələrin çiynində qalacağına da açıq işarə idi. Görünür Ə. Vəzirov Moskvaya, Qorbaçova inamı üzündən başladığı səhvlər nəticəsində Qarabağ cinayətinin üzərində qalmaması naminə nə isə risk etmək təşəbbüsünə düşdü və "fəhlə drujinaları" adı altında rəsmi dövlət silahlı qüvvələri yaratmaq xətti götürdü. Ə. Vəzirovun bu addımı açıq xalqın tərəfinə keçməsi idi və imperiya tərəfindən heç cür qəbul edilə bilməzdi. Artıq o, gecikmişdi. Vəzirovun qanuni yolla silahlandınlmış "fəhiə drujinası" əslində qanuni milli ordu quruculuğu idi. İmperiya Ə. Vəzirovun milli ordu quruculuğuna səbəb olacaq ideyasının dərhal qarşısını afmaq üçün qeyri-rəsmi MMŞ yaratmaqla Vəzirovun qanuni milli-silahlı qüvvə yaratmaq istiqamətində fəaliyyətinin qarşısını aldı və özünü də aradan götürdü.

Belaliklə, AXC-dən xəbərsiz Ayaz Mütəllibov, V. Polyaniçko və b. partiya və dövlət adamlarının himayəsi ilə R. Qazıyev, *N.* Pənahov və E. Məmmədov tərəfindən yaradıldığı elan edilən MMŞ-nı AXC-nin bəyənməkdən başqa çarəsi qalmadı [4,77-78].

Sonrakı hadisələr göstərdi ki, MMŞ - Moskvanın göstərişi i!ə respublika rəhbərliyi vasitəsi ilə yaradılmışdı. Təsadüfi deyil ki, mərkəzin o vaxt Bakıda olan nümayəndələri Y. M. Primakov, A. İ. Girenko əsasən AXC İH ilə deyil, MMŞ üzvləri ilə danışıq aparırdılar, yaxud da onları ayrı-ayrılıqda qəbul edirdilər. Beləliklə, MMŞ-nİn yaradılması həmin böhranlı günlərdə AXC İH-nin hadisələrə rəhbərlikdən uzaqlaşdırılmasına xidmət edərək, mərkəzin qurduğu oyununda vasitələrdən biri rolunu oynamışdılar [10,118-119].

Təsadüfi deyil ki, MMŞ-ın yaradılması elan edilərkən... Dubniyak Bakıda idi [4,78]. Bakı şəhərində bir xaos yaradıldığını hər kəs hiss edirdi. İmperiya milli xarakterində düşmənçilik, qisasçılıq hissi olmayan Azərbaycan xalqında planlı surətdə intiqam hissi yaradırdı. Ermənistandakı və Azərbaycandakı əlaltıları vasitəsilə ermənilərlə azərbaycanlılar arasında milli ədavəti açıq və gizli üsullarla kəskinləşdirirdi.

Yanvarın 12-də ermənilərin Xanlar rayonuna vertalyotlarla daxil olub azərbaycanlılara divan tutması, Quşçu kəndində xüsusi amansızlıq göstərilməsi xəbəri bütün Azərbaycan xalqını hiddətləndirdi, Bakıda xüsusi bir çaşqınlıq yaratdı. Xalqda ermənilərə və Azərbaycan rəhbərliyinə kəskin bir nifrət baş qaldırdı. Vətənin zəruri müdafiəsinə qalxmaq ideyası qəti müəyyənləşdi. 13 yanvar 1990-cı ildə saat 14.00-da Azadlıq meydanında mitinq açıq elan edildi. Əbülfəz Əliyev, Kərbəlayı Əlikram, Nemət və b. respublikada vəziyyət ağır olduğuna görə, əhalini sayıqlığı itirməməyə çağırdılar. MMŞ yaradıldığı elan edildi. Əbülfəz Əliyevin MMŞ-in sədri, E. Məmmədov, R. Qazıyev, N. Pənahovun şuranın üzvləri olduğu bildirildi. MMŞ haqqında ətraflı məlumat verən N. Pənahov Şmidt (indiki Səttarxan) zavodunun silah istehsalına başladığını bildirib mitinqdən sonra cavanları zavoda gəlib silahlanmağa çağıtdı. Elə bu zaman saat 15.45 dəqiqədə meydanın sol cinahından bir neçə adam qışqırıb ermənilərin şəhərdə azərbaycanlıları öldürməyə başladığını bildirdi. Meydanda çaşqınlıq yarandı. Gözlənilmədən meydana onlarla avtobus daxil olub adamları avtobusa yığıb ermənilər yaşayan məhəllələrə daşıdı. Əhali meydandan pə-rakəndə dağıldı. Yaxın tanışiar tribunadan düşən Əbülfəz Əliyevin ətrafına toplaşdı. O, bütün ağsaqqalları, nüfuzlu adamları səfərbər edib ermənilərin öldürülməsinə yol verməməyi tapşırdı. Mən ermənilərin sayca çox olduğu yaşadığım Bayıla gəldim. Bayılın birinci dayanacağında avtobusdan düşən kimi məni tanıyan və cəbhəçi olduğumu bilənlər yaxınlıqdakı erməni evləri talanan məhəlləyə apardılar. Talan, basqın başlayan kimi qonşu azərbaycanlılar erməniləri gizlətmişdi. Talançılar ermənilərin qapısını sındırıb, əşyalarını maşına yığır, küçəyə tökürdülər. Onlara mane olmaq istəsəm də, təşəbbüsüm nəticə vermədi. Talan gedən bir neçə evə getdim, hamısı eyni qaydada qarət olunurdu. Hər yerdə talançı dəstələrin yanında 5-10 nəfərə qədər milis dayanmışdı. Onlar talançılara mane olmur, sadəcə müşahidə edirdilər. Bayılda yaşayanlardan heç kəs talançı dəstədən adam tanımırdı. Küçələrdə əllərində ermənilərin ünvanı olan . dəstələr mənzilləri axtarırdı. Milis onlarla qətiyyən maraqlanmır, mane olmaq təşəbbüsü göstərmirdi. Gördüklərim mənə erməni talanının əwəlcə- dən dövlət tərəfindən planlaşdırıimAsı qənaətinə gəlməyə imkan verdi.

Gizlənə bilməmiş, yaşlı sahibsiz erməniləri Bayıldakı hərbi hissəyə gətirdik. Axşam qaranlıq düşəndən sonra gizlədilmiş erməniləri də camaat hərbi hissəyə, limana gətirib gəmilərə mindirirdilər. AXC nümayəndələrinin səyi ilə şəhərin hər yerində talanların qarşısını alan ağsaqqallardan ibarət dəstələr yaranmışdı.

AXC-nin ciddi səyi nəticəsində 15 yanvarda talanların qarşısını tam almaq mümkün oldu. Hakimiyyətin, xüsusilə milisin gözü qarşısında baş verən özbaşınalığın qarşısının məhz AXC tərəfindən alınması təşkilatın xalq arasında nüfuzunu daha da artırdı.

Hələ 13 yanvarda Bakıda talanlar başlamazdan əvvəl SSRİ-nin müxtəlif ərazilərindən gətirilmiş 12 min nəfər milis və daxili qoşun hissələri Bakı və onun ətrafında yerləşdirilmişdi. M. S. Qorbaçovla Azərbaycan deputatlarının görüşü zamanı SSRİ Daxiii İşlər naziri Bakatin talançıların sayının 5 min, Bakıdakı daxili qoşunların sayının 12 min olduğunu dedi. Yazıçı Anar yazır ki, elə bu anda mən dedim "deməli, bir talançıya iki yarım milisioner düşür. Bəs niyə talanların qarşısmı aia bilmədilər?

M. S. Qorbaçov düz gözümün içinə baxaraq:

- Doğrudan da, niyə talanların qabağını ala bilmədilər? - deyə soru-şur". [12,173]

Erməni talanlarının ən qızğın vaxtı -14 yanvarda Sov.İKP MK katibi A. Girenko və SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y. Primakov Bakıda AKP MK-nın Bürosunun iclasında iştirak edirdiiər. Erməni talanları günlərində Azərbaycanda rəhbərlik birbaşa Moskvanın nümayəndələrinin əlində idi. Təsadüfi deyil ki, Y. Primakov və A. Girenko 20 yanvar hərbi əməliyyatı başa çatandan sonra 21 yanvarda Moskvaya qayıtdılar. 13 yanvapdan başlayan erməni talanından 20 yanvar azərbaycanlı qırğınına qədər hər şey bilavasitə onların rəhbəriiyi ilə həyata keçirilmişdi.

Azərbaycan siyasi rəhbərliyinin Sovet rejiminin təzyiqi üzündən müs-təqil siyasi xəttinin və mövqeyinin olmaması onun iflasını sürətləndirirdi, Moskva tərəfindən bütün təfsilatına qədər düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış 13-14 yanvar 1990-cı il tarixli erməni talanları bu prosesi daha da gücləndirirdi. İnzibati orqanların, hərbi hissələrin tarn hazır vəziyyətdə olmasına baxmayaraq, onlar tərəfindən talanlara qarşı heç bir profilaktik tədbir görülmədi. Bakıda təşkil olunmuş bu təxribatın gedişi göstərdi ki, bu dəhşətli hadisənin bəzi xüsusiyyətləri Sumqayıt hadisəsi zamanı sınaqdan çıxarılmış ssenariyə oxşardı. Birincisi, ixtişaşlar şəhərdə son dərəcə əsəbi, isteriya vəziyyətinə çatdırılmış qaçqınların olduğu şəraitdə törədilirdi. İkincisi, yerli milis və siyasi hakimiyyət hadisələrin inkişafına qarışmadı. Üçüncüsü, Moskva hərbi qüvvələri vasitəsi ilə vəziyyəti normallaşdırmaq iqtidarında olduğu halda, bilərəkdən cinayətkar fəaliyyətsizlik göstərdi [4,78].

Artıq yanvarın 15-də AXC və demokratik qüvvələr erməni talanlarının qarşısını alıb sabitlik yaratdığı bir vaxtda Moskva Azərbaycanda rusdili əhaliyə qarşı zorakılıq tətbiq edilməsi haqqında dünyaya informasiya yaymağa başladı. Hətta informasiyanı sübut etmək üçün bir neçə ailəni Rusiyaya köçürüb mərkəzi televiziya ilə göstərməyə, onların zorakılığa məruz qalması haqqında müsahibələr götürüb yaymağa başladı. Bu hadisə Azərbaycan xalqınn

imperiyaya, paytaxta qarşı nifrətini daha da artırdı. Respublika rəhbərliyi imperiyanın Azərbaycan xalqına qarşı böhtan kompaniyasına heç bir etiraz etmədi, əksinə, onun diqtəsi ilə xalqının əleyhinə fəaliyyət göstərirdi. 14-15 yanvar 1990-cı il tarixdə SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y. Primakov və Sov.İKP MK katibi A. Girenkonun iştirakı ilə keçirilən Azərbaycan KP MK Bürosunun iclasında Y. Primakovun təklifi ilə respublikada fövqəladə vəziyyət tətbiq etmək məsələsi müzaki-rə olundu. Mövcud qanunçuluğa görə fövqəladə vəziyyət ancaq respublika Ali Sovetinin qərarı ilə tətbiq ediiə bilərdi. Y. Primakovun təzyiqi ilə Azərbaycan SSR AS Rəyasət Heyətinin iclası çağrılıb yetərsay olmadan DQMV, zəruri halda isə ona bitişik rayonlarda və sərhəd boyu ərazilərdə fövqəladə vəziyyət elan olunması haqqında qərar qəbul etdirildi. İttifaq orqanlarından "xahiş olunurdu" ki, bu qərarın icrasında respublikaya lazımi köməklik göstərilsin [4,78-79]. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyə-tinin 15 yanvar 1990-cı il tarixdə təzyiq altında yetərsay olmadan qəbul edilmiş saxta qərarını "əsas" tutan SSRİ AS Rəyasət Heyəti "Dağlıq Qa-rabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət tətbiq olunması haqqında" həmin tarixdə fərman verdi. Fərmanda Bakı və Gəncə şəhərlərində ictimai asayişin pozulduğu bildirilir, Respublika AS RH-yə tövsiyə olunurdu ki, yuxarıda adı çəkilən şəhərlərdə və digər yaşayış məntəqələrində komendant saatı tətbiq ediisin [13].

Haqqını tələb edən, özünü zəruri müdafiə vəziyyətində qalmış bir xal-qa qarşı imperiyanın belə zorakılığı, düşmən qarşısında onun əl-qolunu bağlayıb tərksilah etməsi Azərbaycan xalqında ona qarşı ikrah hissi do-ğurur, nifrətini coşdururdu. 15 yanvar 1990-cı i! fərmanının verilməsi Ba-kıda siyasi vəziyyəti anbaan kəskinləşdirirdi. Daha doğrusu siyasi vəziyyət dövlət tərəfindən gizli üsullarla kəskinləşdirilirdi. Xüsusilə televiziya verilişlərinin, Moskvanın "Zaman" xəbərlər proqramının Azərbaycan xalqına qarşı yaydığı böhtan, təhqir və şayiələrlə onun əsəbləri ilə oynayırdı. Azərbaycan televiziyası ondan da geri qalmırdı. Xüsusilə, onun "Gü-nün ekranı" xəbərlər proqramı erməni təcavüzü haqqında fakt və məlu-matları gizləyib, hələ də Azərbaycan Respublikası haqqında Moskvanın verdiyi qərariarın düzlüyü haqqında təbliğatla məşğul idi.
Maraqlıdır, 15 yanvar 1990-cı ildə SSRİ Ali Sovetinin "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərmanın-da əhalini ən çox narahat edən, onun üçün haqsız görünən Bakı və Gəncə şəhərində komendant saatı tətbiq ediiməsi haqqında təklifi idi. Bakı və Gəncə əhalisi, bütünlüklə hamı ehtiyatla hərəkət edirdi ki, bynun üçün bəhanə verilməsin. Lakin elə həmin gecə, yəni yanvarın 15-dən 16-na ke- çən gecə saat 2-yə 5 dəqiqə qalmış Fəzail Ağamalıyevin başçılığı ilə bir dəstə 4 tank, 2 BTR, 10 avtomat, 1 pulemyot, 1 snayperlə Çaykəndə, digər ətraf ərazilərdəki erməni kəndlərinə hücum edirlər, dəstələrindən ölən üç nəfəri Xanlar rayonunun girəcəyində basdırıb, Gəncəyə gəlirlər və burada Həsən Həsənovla görüşürlər [V11, 32-33].

Maraqlıdır, əhalidən ov silahları kütləvi surətdə yığıldığı bir vaxtda, Gəncədə fövqəladə vəziyyət elan etmək üçün bəhanə axtarıldığı anda burada Fəzail Ağamalıyev tank, BTR, plemyot, snayper və avtomatı necə əldə etmiş və mütəşəkkil ordu yarada bilmişdi? Göründüyü kimi, F. Ağamalıyev dövlətlə, birbaşa rus ordusu ilə bağlı olmaqla, imperiyanın Azərbaycanda fövqəladə vəziyyət tətbiq etməsinə planlı şərait yaradan qruplardan biri olmuşdur. O, son olaraq AKP MK katibi, birinci katib olma-ğa can atan H. Həsənova hesabat vermişdir. Bu zaman yalnız H. Həsənov deyil, hakimiyyətə can atan bütün qruplar imperiyaya, Moskvaya xidmət edirdi. Onlar Moskvaya sədaqət göstərməkdə "fədakarlıq" göstərirdilər. Milliyyətsizlik, hakimiyyət pilləsində yüksəlmək naminə hər şeyə hazıı olmaq Azərbaycan rəhbərliyində mövcud olanların başlıca keyfiyyəti idi, Onların bu keyfiyyəti heç bir canlıda olmadığı üçün onları kimsə ilə müqayisə edə bilmirəm. Bu dövrdə Azərbaycanın hakimiyyəti XIX əsrdə Os-manlı imperiyasında hakimiyyəti ələ keçirmiş reqanatlara bənzəyir. Onlar haqqında görkəmli rus tarixçisi V. D. Smirnov yazırdı: "...Onların heç biri təmiz qanlı olmadan bütün əxlaqi inamlara yad idilər: Onlar üzərində hökmran olduqları xalqa heç bir rəğbət duymayan heyvani həyat sürürdülər" Bu sözləri eynilə bəhs olunan dövr Azərbaycan rəhbərliyinə də aid etmək olar.

Beləliklə, yanvarın 14-dən Bakıda olan SSRA Ali Soveti İttifaq Soyetinin sədri, Sovet kəşfiyyatının nəhənglərindən biri Y. Primakov, Sov.İKP MK katibi A. Girenko, Sov.İKP MK-nın milli məsələlər üzrə şöbə müdirinin müavini, Qafqaz xalqları üzrə mütəxəssis V. Mixaylovun rəhbərliyi ilə Respublika rəhbərliyinin manqurtcasına itaəti, oyuncaq "Milii Müdafiə Şurası" vasitəsi ilə Azərbaycan xalqı təxribata cəlb olunurdu.

Azərbaycan milli-azadlıq hərəkatının öndərlərindən və tədqiqatçılarından Ə. Tahirzadə yazır: "Hadisələrin qana doğru sürətlə getdiyini görən AXC İH "gedən proseslərdə AXC-nin ümumi-siyasi rəhbərliyini təmin etmək məqsədilə" "Respublika Hərbi Müdafiə Şurası" yaratmaq və onda iştirak etmək üçün "İdarə Heyətinin üzvləri" E. Məmmədov və Rəhim Qaziyevə lazımi səlahiyyətlər vermək məcburiyyətində qaldı, bu şərtlə ki Əbülfəz bəy də Şuraya daxil olsun. N. Pənahovun təşəbbüsüylə qərargahı indiki Səttarxan zavodunda yerləşən Müdafiə Şurasının məqsədi tezliklə aydınlaşdı - o, nəinki Əbülfəz bəyi və AXC-ni tanımadı, əksinə, AXC-ni də öz təsirinə salmağa çalışdı. N. Pənahovun Səttarxan zavodunda silah hazırladığını bəyan etməsi və başqa ucuz uydurma özünüreklamları 20 yanvar faciəsini törətməkdə qaniçən rus ordusunun əlinə göydəndüşmə bəhanə verdi [6,60].

SSRİ AS RH-nin 15 yanvar 1990-cı il fərmanından üç gün sonra Lənkəran Rayon Partiya Komitəsinin və yerli hakimiyyət orqanlarının fəaliy-yəti bərpa edildi. Ancaq Puşkin (Biləsuvar) və Cəlilabad rayonlarında Iranla dövlət sərhəddi gözlənilmədən dağıdıldı. Hansı ki, Zaqafqaziya sərhəd qoşunları ilə

razılaşmaya əsasən İranla qarşılıqlı tədbirlər şəklində Culfa və Astarada Novruz bayramı şənliklərində sərhədlər açılmalı idi. Sərhədlərin zorakı yolla dağıdılması AXC-nin fikrində belə yox idi. Sərhədlərin dağıdılmasında sərhədçilərin heç bir maneçilik etməməsi dövlə-tin özünün bunda maraqlı olmasını göstərirdi. Təsadüfi deyildi ki, sərhəd-lərin açılmasından bir gün qabaq AXC İH-də çıxışında E. Məmmədov "Hər şey qaydasındadır. Geri çəkilmək olmaz. Cənub sərhəddi açıqdır, İrandan 20 min könüllü bizə köməyə gələcək" - demişdi. Primakov isə müxalifət rəhbərləri ilə görüşündə gələn qoşunların Bakıya daxil olmayıb İran sərhəddinə gedəcəyini demişdi [4,80]. 17-18 yanvarda Y. Primakov və A. Girenko ictimaiyyətin və müxalifətin nümayəndələri ilə görüşlərində Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməyəcəyini bildirmişdi. Azərbaycan KP MK-nın şöbə müdiri Əfrant Daşdəmirov və Bakı şəhər PK-nın birinci katibi M. Məmmədov televizorda çıxış edərək, Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməyəcəyi haqqında rəsmi bəyanat verdilər. Göründüyü kimi imperiya siyasətçiləri Azərbaycan xalqını aldadaraq, ona öldürücü zərbə vurmağa hazırlaşırdı.

Yanvarın 17-18-də Bakıda və Azərbaycanın on bir rayonunda izdihamlı mitinqlər başlandı və ümumi tətil elan edildi. Bu mitinqlər AXC adından edilsə də, artıq AXC hadisələrə nəzarəti itirmişdi. 17 yanvarda MK binası qarşısında mitinqin başlanmasından AXC rəhbərliyinin məlumatı olmamışdı [9,100].

Hadisələr onun adından istiqamətləndirilirdi. Azərbaycan KP MK-nın (indiki prezident aparatı) binasını mühasirə etmiş mitinqçilər birmənalı Ə. Vəzirovun istefasını tələb edirdilər. Onun kabineti ilə üzbəüz dar ağacı qurulub Vəzirovun müqəvvası asılmışdı. Adamlar (maraqlı qrup) onun müqəvvasını təhqir edib ələ salırdılar. Vəzirovun belə ələ salınması heç də hamıya xoş gəlmirdi, bundan narazı qalıb meydanı tərk edənlər də olurdu.

Məsələyə aydınlıq gətirmək üçün E. Məmmədovun məhkəmə zamanı dediyi bir sıra faktlar və məqamları qiymətləndirmək maraqlıdır. E. Məm-mədov deyir ki, yanvarın 18-də təxminən saat 3-də MK-nın binası qarşısında Y. Primakov xalq qarşısında çıxış edib Bakıda fövqəladə vəziyyətin olmayacağına zəmanət verirdi. Sonra Vəzirovun da camaat qarşısında çıxış etmək istədiyi haqqında məlumat aldım. "Mən tez zəng eləyib köməkçisinə dedim ki, Vəzirov belə hərəkət etməsin, çünki vəziyyət təhlükəlidir, camaatın arasında onun çıxışı pis nəticə verə bilər. Vəzirov çağırdı çıxdım yuxarı, özü ilə təklikdə görüşdüm. Soruşdu ki, nə məsələdir? Dedim ki, çıxış etmək istəsəniz vəziyyət yaxşı qurtarmaya bilər. Soruşdu ki, bəs vəziyyətdən çıxış yolu nədədir? Bildirdim ki, bu saat xalqın bir tələbi var: Respublika rəhbərliyi istefaya çıxmalıdır. Ona bildirdim ki, televiziya ilə çıxış eləsin və elan etsin ki, istefa verir. Dedi ki, əgər çıxış yoly bundadırsa, mən buna razıyam. Hətta məsləhətləşdi ki, istefaya nə ad qoyaq?" İstefanın formasını, tapdıq, dedi ki, "mənim artıq ərizəm hazırdır çıxış yolu bundadırsa, mən bunu eləyəcəyəm". Bu vaxt o birisi otaqdan Primakovla

Girenko gəldilər". E. Məmmədov onlara bildirir ki, Vəzirov istefa verməlidir, həmin vaxt onlar da çıxış edib Bakıda fövqəladə vəziyyə- tin olmayacağına təminat verməlidir. Girenko bildirir ki, "Vəzirovun getmesi məsələsi artıq həll olunub - 18-də. Ancaq biz heç cür yol verə bilmərik ki, istefa xalqın təsiri altında olsun. Bu ancaq bizim qərarımızla olacaq. Yəni, mitinqlər dayanandan sonra, sakitləşəndən sonra deyəcəyik ki, VƏzirov getdi. Biz heç cür imkan verə bilmərik ki, xalqda belə təəssürat yaransın ki, xalqın təzyiqi altında respublika rəhbərliyi istefa verdi. Primakov da dedi ki, əgər yollar açılmasa, Yazovun əmri var, atəş açılmalıdır... Siyasi büronun üzvü və İttifaq Sovetinin sədri kimi sizə təminat verirəm, ancaq bir tələbimiz var ki, tətil dayandırılsın və MK qabağındakı mitinq dağıdılsın". Söhbət 18 yanvar saat 4-də olur [9,102-103].

Ə. Vəzirov vəzifədən azad ediləcəyini bildiyindən, yoxsa xalqına qara törədiləcək cinayətin iştirakçısı olmamaq üçünmü E. Məmmədova istefaya getməyə hazır olduğunu bildirir. Görünür, bu fikrini açıqlamağı Primakovla əvvəlcədən razılaşdırmadığı üçün bundan xəbər tutan kimi Primalkovun şifahi tapşırığı ilə elə həmin saatda Vəzirov vəzifəsindən azad edilib, respublikaya rəhbərlik A. Mütəlübova və V. Polyaniçkoya həvalə edilmişdi [4,81]. Bunu MMŞ üzvləri və MK-nın yuxarı eşalonu bilsələr də, xalqdan gizlətmişdilər. Ə. Vəzirovun vəzifəsindən azad edilməsindən xə- bərsiz kütlə israrla istefa tələbini davam etdirirdi.

E. Məmmədov məlumat verir ki, yanvarın 19-da MK-ya getdim. Saat 6-ya 20 dəqiqə işləmişdi. Polyaniçko ilə görüşdüm. Polyaniçko dedi ki səhərdən səni gəzirdim, səhər nəyi isə həll etmək olardı, indi gecdir. Dedi yox, sizin cəmi 2 saat vaxtınız qalıb. E Məmmədov "2 saat vaxtınız qalıb", deyəndə nəyi nəzərdə tutduğunu öyrənməyə çalışsa da, fikrini açıqlamır, deyir: "Mən deyirəm "konets demokratiya". Söhbət 19 yanvarda saat 6-da olur. E. Məmmədov bildirir ki, MK-nın binasında 300-dən artıt silahlı əsgər vardı, onlar atəş nöqtələrini tutmuşdular. Polyaniçko Girenkoya zəng vurdu. Girenko və Primakov hərbi qərargəhda idi, məlum oldı ki, Yazov və Bakatin də oraya gəliblər. Poiyaniçko Girenkoya E. Məmmədovun onunla görüşmək istədiyini bildirir, əvvəlcə gözlərnəyini məsləhət bilsə də, az sonra görüşmək istəmədiklərini bildirdilər [9,108].

Maraqlıdır ki, E. Məmmədov MK-da və DTK-da planlaşdırılan hadisə- lərdən həmişə məlumat ala bilirdi. Misal üçün yanvarın 18-də "Salyan ka- zarmasında artıq Stavropol, Krasnodar, Rostov vilayətindən gətirilmiş 2500 "rezervist yerləşdirilmişdir". Yanvarın 19-na qədər AKP MK-dan Moskvaya gedən məlumatlarda "vəziyyətə biz nəzarət edirik, hərbi vəziyyət elAn edilməsinə ehtiyac yoxdur", "DTK-dan gedən məlumatlarda isə göstərilirdi ki, Bakıda dövlət çevrilişi hazırlanır və silahlı yolla hakimiyyəti ələ almağa cəhd olacaq, bunun qarşısını almaq üçün bir vasitə var, o da şəhərə qoşun yerləşdirilməsi və fövqəladə vəziyyət elan edilməsidir". E. Məmmədov elə

yanvarın 19-da öyrənir ki, "Vəzirov DTK-nın binasında gizlədilib. Həmin gün Primakov və Girenko hərbi qərargahda idilər, Vəzirovu isə guya onun təhlükəsizliyini qorumaq üçün artıq DTK-nın binasında gizlətmişdilər və ona heç bir yerlə əlaqə saxlamağa icazə vermirdilər" 9,104,109].

Milli mənafeyə xidmət etməyən, hakimiyyətin və ya hakimiyyət nümayəndələrinin rəhbərlikdən təmizlənməsi milli-azadlıq hərəkatının başlıca vəzifələrindən biri idi. Hakimiyyətə gəldiyi ilk gündən milli etimadı qazana bilməyən Ə. Vəzirovu xalq istefaya məcbur etsə də, imperiyanın nümayəndəsi qəti şəkildə bildirirdi ki, "biz heç cür yol verə bilmərik ki, istefa xalqın təsiri altında olsun", "biz heç cür yol verə bilmərik ki, xalqda belə bir təəssürat yaransın ki, xalqın təzyiqi altında respublika rəhbərliyi istefa verdi" [9,103]. Göründüyü kimi Azərbaycanda yaranmış situasiya burada imperiyanın olum və ya ölüm hökmünü qoymuşdu.

200 il idi ki, rus imperiyası hərbi, siyasi, iqtisadi, mənəvi-ideoioji vasitələrlə Azərbaycan xalqının milli qürurunu sındırıb özünə inamsızlıq yara-dır, gözüqıpıq bir vəziyyətə salaraq ərazisini, iqtisadiyyatını, mədəniyyətini və mənəviyyatını təhqiramiz vəziyyətdə dağıdırdı. Lakin Azərbaycan xalqının tarixi mədəni irsi o qədər güclü idi ki, bütövlükdə onu kökündən ayıra bilmədiyindən o, bir etnos kimi varlığını yaşada bilirdi. Lakin imperiyanın açıq şəkildə, kobud, zorakı üsulla Qarabağı Azərbaycandan qoparmaq cəhdi onun heysiyyatına toxundu, bunun onun üçün milli məhvilə nəticələnəcəyi zərurətini dərk etdirdi. Zərurətin dərk edilməsilə adi vaxtda yaranması üçün on illər lazım olan milli həmrəyliyin yaranması çox qısa vaxtda başa çatdı. 1988-ci il Meydan hadisələri zamanı imperiya ordusu qarşısında geri çəkilməməsi, suverenlik haqqında Konstitusiya qanununun qəbul edilməsi, XİK-in ləğvinə nail olunması, milli təşkilat olan AXC-nin yaranması və təsdiqi, bunun ardınca imperiyanın təyin etdiyi canişini istefaya məcbur edə bilməsi Azərbaycan xalqında özünə inam və milli özünə güvənmə hissini tamamlamaqla onu vahid milli orqanizmə çevirirdi. Özünə inam, milli özünə güvənmə etnosun başlıca keyfiyyətlərindən biri olmaqla, müstəqilliyə layiq olmanın da əsas əlamətlərindəndir.

İmperiya qısa vaxtda Azərbaycan xalqında yaranmış özünə ınamı, özünə güvənmə hissini nə cür olursa-olsun qırmaq, sındırmaq istəyirdi. Bu məqsədlə qısa vaxtda bütün güc nazirliklərinin, rəhbərlərini, ən güclü kəşfiyyatçılarını, ən amansız ordu hissələrini Azərbaycana toplamışdı. İmperiya Azərbaycan xalqına nail olduğu qələbənin bəhrələrindən istifadə etməyə imkan vermirdi. Milli-azadlıq mübarizəsini qismən də olsa yerli əlaltılarının hakimiyyət uğrunda mübarizəsi oyununa çevirə bilirdi. Və AXC-ni də bu oyuna cəlb edə bilirdi. Hakirniyyət oyununa qoşulmuş AXC-nin istefaya nail olduqdan sonra necə hərəkət edəcəyi haqqında konkret planın olmaması bu dövrdə AXC-nin qarşıya hakimiyyət məsələsini

qoymamasına baxmayaraq, imperiyanın hakimiyyət uğrunda mübarizə oyununa şərait yaradırdı. Hakimiyyətdən Qarabağ problemini, Azərbaycan xalqının hüquqlarını və haqlarını müdafiə etməyi tələb edirdi. Odur ki, respublikanın mənafeyini müdafiə etməyi bacarmayan rəhbərlərin istefası zamanı hakimiyyətin qurulması yenə imperiyanın səlahiyyətində qalırdı. Odur ki, hakimiyyətə gəlmək istəyən qüvvələr xalq hərəkatından bəhrələnməyə çalışırdı. Təbii ki, imperiya Azərbaycan xalqınm milli-azadlıq hərəkatını yolundan sapdırmaq üçün əvvəlcədən ona yetərincə nümayəndələr yerləşdirmişdi. Bu və digər səbəblərdən Vəzirovun istefasından sonra hakimiyyət məsələsi AXC-nin deyil, imperiyanın və milli-azadlıq hərəkatından bəhrələnmək istəyən qüvvələrin ixtiyarında qalmışdı. Odur ki, Azərbaycan xalqı Bakıda rus qoşunlarına qarşı barrikadalar qurduğu zaman imperiya, onun yerli əialtıları, mafioz qüwələr hakimiyyətə gəlmələrini təmin edənə qədər Vəzirovun istefasmı xalqdan gizli saxlamağa çalışırdılar.

Ümumiyyətlə, AzərbAycan xalqının zəruri özünümüdafiə vəziyyəti mil-li enerjini başlıca olaraq həmrəyliyin yaranmasına yönəltmişdi. Odur ki, milli həmrəylik inqilabi şəkildə baş vermişdi. Siyasi şüurun inkişafı həm-rəylik hisslərinin inkişafından çox geri qalırdı. 19 yanvarda saat 5-6 radə-iərində, hər şeyin nəzarətdən çıxdığı bir vaxtda Azərbaycan KP MK-nın binası qarşısında dəstə-dəstə adamların mitinqçiiər arasında gəzib ayrı-ayrı adamları AKP MK-ya birinci katib təklif etmələrinin səbəbi də elə bu idi. Bu zaman AXC nümayəndələri mitinqdə Həsən Həsənovu birinci katibliyə namizəd kimi irəli sürürdü. Həsən Həsənovun namizədliyi AXC-nin yekdil fikri deyil, birqrupun namizədi idi. MK-nın binası qarşısındakı çıxışlarda artıq Qarabağ, fövqəladə vəziyyət unudulmuşdu. Meydanda Azər-baycan KP MK-nın birinci katibliyi vəzifəsi uğrunda mübarizə gedirdi.

Faktlardan göründüyü kimi, mitinq heç də Sovet hakimiyyəti sisteminə qarşı yox, hakimiyyət uğrunda mübarizəyə, mövcud iqtidarın hakimiyyətdən devrilməsinə yönəldilmişdi. Doğrudur, o zaman AXC Ali Məclisinin üzvü Qurban Məmmədov AXC İH-nin bəzi üzvlərinə "Nə gözləyirik? Xalq üsyana hazırdır. Hakimiyyəti götürmək lazımdır, - desə də, yerlərdən be-lə radikal tələblər gəlsə də, İdarə Heyəti bu təkliflərə məhəl qoyub müzakirə belə etmədi. Əgər AXC sovet idarə sistemini devirmək istəsəydi, onun bəzi liderləri hətta iqtidardan olan nümayəndələrin birinci katib seçilməsi ideyasını müdafiə etməzdi. Beləliklə, həqiqətən 19 yanvarda Azərbaycanda siyasi sistem üçün devrilmək təhlükəsi yox idi. Bakıda antisovet qiyam qalxdığını bəhanə edib, 20 yanvar faciəsini törətmək üçün əsas yox idi. Lakin Moskva bu təxribatı axıra kimi davam etdirdi".[4,81-82]. Azərbaycan milli-azadlıq hərəkatının tədqiqatçılarından A. Balayev yazır: "AXC-nin radikal qanadı (reqanatlar, Moskva kəşfiyyatının nümayəndələri, aldanmışlar - X.X.) hakimiyyət uğrunda mübarizədən vəcdə gələrək bu tələyə düşdü, bununla da,

yalnız AXC-ni deyil, Azərbaycandakı bütün milli-demokratik hərəkatı zərbə altına qoydu... Bu böhranlı anda- yanvarın 9-19 arasında respublika rəhbərliyi və Mərkəzin Bakıdakı nümayəndələri Y. Primakov və A. Girenko danışıqları əsasən AXC İdarə Heyəti ilə yox, sırf radikallardan (reqanatlar, Moskva kəşfiyyatının nümayəndələri və aldanmışlar - X.X.) ibarət Milli Müdafiə Şurası üzvləri ilə aparırdılar, onlar partiya aparatının əlində kor oyuncaq olmaqla AXC-ni hərəkata rəhbərlikdən uzaqlaşdırmışdılar [2,48]. 18-19 yanvarda artıq hər şey AXC-nin nəzarətindən çıxmışdı. İmperiya AXC-yə və kütlə arasına yeritdiyi agentura şəbəkəsi vasitəsi ilə Azərbaycanda xaos yarada bilmişdi. MK-nın binası qarşısındakı mitinqi də əslində AXC liderləri aparmırdı. Burada tez-tez əhalini silahlandırmağa çağıran Nemət Pənahov və Rəhim Qazıyev çıxışları ilə kütləni həyəcanlandırır, onlardan sonra AXC-yə aidiyyatı olmayan adamlar qızışdırıcı nitqlər söyləyirdi. Əhali isə bu nitqlərin təsiri altında Bakı şəhərində yerləşən hərbi hissələri mühasirəyə alır, onların heyətini çölə buraxmırdı. Şəhərin girəcəklərində Bakıya gətiriləcək əlavə qoşunları şəhərə buraxmamaq üçün barrikadalar qururdular. Bakıda güclü bir hərbi əməliyyatın keçiriləcəyi bütün hakimiyyət orqanlarına, müəyyən dairəiərə tam aydın idi. Çünki onlar bilavasitə bu işin hazırlığında iştirak edirdilər. Belə ki, 16 yanvardan Bakıda xəstəxanalar boşaldılır, mülki əhali xəstəxanaya qəbul edilmir, yalnız ən ağır xəstələr qəbul edilirdi. 19 yanvarda hakimiyyət AKP MK, BPK, AS-ın və Nazirlər Sovetinin işçilərinin ailələrini şəhərin mərkəzindən çıxarıb başqa təhlükəsiz arazilərdə yerləşdirilməsi işini başa çatdırmışdı. Bütün bu tədbirlərin şahidi olan və ya ondan məlumatı olan siyasi təşkilatın və ya fərdin hadisələrin gedişinin haraya apardığını görə bilməməsi nəinki siyasi naşılıq, ənazı siyasi korluq idi.

Yanvarın 19-da saat 19.27 radələrində SSRİ DTK-nın "Alfa" xüsusi qrupunun əməkdaşları ilə Azərbaycan SSR DTK-nın 4-cü şöbəsinin əməkdaşı N. Starçenkov Azərbaycan televiziyasının enerji blokunu part-latdıqdan sonra AXC rəhbərliyi yaranmış təhlükəyə reaksiya verməyə başladı. AXC rəhbərliyi və fəalları Əbülfəz Əliyev, Nəcəf Nəcəfov, Sabit Bağırov və başqaları şəhərə dağılışıb piketləri dağıtmağa cəhd göstərsə-lərdə, piketçilər onları deyil, Neməti eşidirdi. Cavab verirdilər ki, "Nemət deyib ki, axıra qədər duraq, bizə heç kim güllə atmayacaq" [4,83-84; 5, 71-72].

MMŞ-ın siyasi şüur və sayıqlıq səviyyəsini müəyyən etmək üçün E. Məmmədovun məhkəmədə dediyi bir məqam kifayətdir. O deyir: "Saat 1-ə işləmiş (gecə - X.X.) məlumat gəldi ki, stadiondan bir qrup əsgər çıxıb bizim qərargaha tərəf gəlir, təxminən 1-ə 20 dəqiqə işləmiş artıq atəş açılmağa başladı. İki dəfə göyə atdılar. Sonra 1-2 dəqiqə sakitlik oldu, elə bildik ki, nə isə başqa şeydi. Sonra atəş gücləndi. Nə isə camaat bir-birinə dəymişdi. Qərargahdakılar aşağı düşdü, mən də düşdüm. Hələ heç kim inanmırdı ki, bunlar gəlib

xəbərdarlıqsız atəş aça bilər. Yanımızdakı bir oğlanın başına güllə dəyəndə inandıq" [9,111].

Sətirlərin müəllifi 19 yanvarda səhər saat 8-dən MK qarşısındakı mitinqdə olmuş, sonra XI qırmızı ordu abidəsi, Əzizbəyov metrosu və s. şəhərin müxtəlif ərazilərindəki piketləri, əhalinin ordu ilə mübahisələrini müşahidə etmiş, AXC qərargahında olmuş, son olaraq axşam saat 9-da MK-nın qarşısında çıxışların AXC ilə əlaqəsi olmaması, başqa müşahidələri haqqında qərargahda Əbülfəz Əliyevə məlumat verib, yenidən MK-nın qarşısındakı mitinqə gəlmişdi. Təxminən axşam saat 10.30-da Nemət gəlib MK-nın binası qarşısında mitinqdə çıxış edərək əhalini, xüsusilə cavanları burada toplaşıb qalmamağa, L. Şmidt (Səttarxan) adına zavoddan silah götürüb şəhərin girəcəklərindəki yollarda dayanmış piketçilərin yanına getməyə çağırdı. Nemətin getməsindən təxminən 20-25 dəqiqə sonra Azneft tərəfdən üç ağ "Jiquli" markalı maşın gəlib filarmoniyanın tinində dayandı. Bir dəstə adam dərhal onların maşınının ətrafına toplaşdı. "Nemət" maşının pəncərəsindən başını çıxarıb uca səslə bildirdi ki, "vaxt azdır, başqa postlara gedirəm, elə buradan danışacam". Nemətin bir az əvvəl buradakı çıxışı olduğu kimi təkrar olundu. Sözünü qurtaran kimi ma-şınlar yüksək sürətlə uzaqlaşdı. Bu onun bir az əvvəl çıxışının lent yazısı olduğu böyük əksəriyyətin diqqətından yayınmadı. Bu hadisə mitinqçilər arasında ciddi narahatçılığa, təşvişə, mübahisələrə səbəb oldu. "Nemət bizi ələ salır", "Nemət əvvəlcədən DTK-nın işçisidir", "DTK onu gözdən salmaq üçün belə hərəkət edir" və s... kimi müxtəlif fikirlər meydanı öz tə-siri altına almışdı.

Bu hadisə ümumən mitinqi məyus etdi, adamların çoxu dağılıb getməyə başladı.

Göründüyü kimi, Azərbaycan milli azadlıq və demokratik hərəkatının önündə gedən vətənpərvərlər, onların yaratdığı AXC xalqın arzusunu ümumi şəkildə ifadə edirdi. O, siyasi problemlərin həllinin taktiki məsələlərində tez-tez səhv edir, DTK-nın toruna düşürdü. Çünki onların arasında dövlət idarəçiliyinin sirlərini, xüsusilə kütlənin idarə olunmasında birləşdirici və parçalayıcı metodların praktikasını bilən mütəxəssislər yox idi. Lakin AXC-nin içərisində imperiyanın yetərincə adamı olduğu şübhə doğurmurdu. Əbülfəz Əliyev bir neçə gün əwəl demokratiya üçün təhlükəli olan "Raykom xalq cəbhəsi", "Kooperativ Xalq Cəbhəsi"ndən bəhs edərkən bu qüwələri nəzərdə tuturdu [1,-1,-474].

Azərbaycan xalqına qarşı ABŞ, İngiltərə, Fransa, Roma papası və s. xristian dünyasının dəstəyi, yerli manqurtların, reqanatların vasitəçiliyi ilə başlayacaq rus-erməni təcavüzü dəqiqə-dəqiqə yaxınlaşırdı.

Lakin hadisələrin gedişi göstərdi ki, təcrübəsiz adlandırdığımız milli-azadlıq hərəkatının liderləri kimi, nə rus imperiyasının etnik psixologiya üzrə mütəxəssisləri, nə də elm və texnikanın qabaqcıl nailiyyətləri ilə silahlanmış beynəlxalq imperializmin psixoloq və siyasətçiləri bu təcavüzə Azərbaycan

xalqının cavab reaksiyasını, təşkilatlanma qabiliyyətini, mü-qavimət dərəcəsini proqnozlaşdıra bilməmişdi.

Sovet imperiyası və xristian dünyası türkvə müsəlman xalqlarının milli-azadlıq hərəkatına liderlik edən Azərbaycan xalqı və onun milli təşkilatı AXC-yə "dərs" verməklə onların müstəqillik ideyalarını beşiyində boğmaq fikrində yekdil idilər.

Rus imperiyası Bakı şəhərində keçirəcəyi hərbi əməliyyat zamanı xalqın hər hansı formada təşkilatlanmasına, birgə müqavimət göstərməsinə imkan verməmək məqsədilə bütün tədbirləri görmüşdü. Artıq 19 yanvarda bütün milis heyətinin, hətta mühüm strateji məntəqələrdə xidmətdə olan milisin də silahı alınmışdı.



# II FƏSİL

# AZƏRBAYCAN XALQINI DÜNYAYA YENİDƏN MİLLƏT KİMİ TƏQDİM EDƏN 20 YANVAR

20 yanvar hadisəsi milli-azadlıq hərəkatları tarixinin öyrənilməsi, milli müqavimətin yeni formalarının müəyyən edilməsi, hərbi münaqişədə işti-rak edən tərəflərin hadisə zamanı rəftar və davranışının aşkarlanması, hərbi əməliyyatiar zamanı ölkə və beynəlxalq hüquq qaydalarına riayət olunması qanun və qaydalarını öyrənmək cəhətdən də vacibdir. Çünki dünya tarixində tam yeni, analogiyası olmayan çalarlarla baş vermişdi. Hərb tarixi üçün də maraqlı məqamlar var. Hərb tarixi göstərir ki, hərbi nazirlər, ən görkəmli sərkərdələr ordu ümüdsüzlüyə düçar olduqları anlar, müharibələrin taleyi üçün son məqamlarda həlledici hərbi əməliyyatlara birbaşa rəhbərlik edirlər. Bu baxımdan 20 yanvar hərbi əməliyyatının hazırlanması və keçirilməsinə SSRİ müdafiə naziri, SSRİ daxili işlər naziri və DTK-nın sədr müavininin birbaşa rəhbərlik etməsi hərbi və siyasi mahiyyəti açılmamış hadisədir. Əxlaqi, siyasi-hüquqi baxımdan diqqəti çəkən gələcək tariximiz üçün də ibrət götürülməsi faktlarla zəngindir.

Azərbaycan xalqının DQMV-də sovet qanunlarının bərpa edilməsi tələbinə cavab olaraq Moskva Bakı əhalisini fövqəladə vəziyyət tətbiq edəcəyi ilə hədələdi. Əhalinin buna kəskin reaksiyasını görən imperiya SSRİ-nin həmin dövr ən nüfuzlu şəxslərindən olan SSRİ Ittifaq Sovetinin sədri Y. Primakov və Sov.İKP MK katibi A. Girenkonu Bakıya göndərdi. Bakıda onların hər ikisi xalq qarşısmda çıxış edərək fövqəladə vəziyyətin tətbiq edilməyəcəyinə zəmanət verdi. Həmçinin onların zəmanəti ilə AKP MK-nın şöbə müdiri Ə. Daşdəmirov və Bakı şəhəri PK-nın birinci katibi M. Məmmədov da televizorla çıxış edib Bakıda fövqəladə vəziyyətin tətbiq edilməyəcəyini vəd etdi. SSRİ-nin bu ali qanunverici, icraedici və siyasi hakimiyyətinin ən ali nümayəndələri Bakıda ictimaiyyətin nümayəndələri ilə görüşüb fövqəladə vəziyyətin tətbiq edilməyəcəyini vəd etdikləri 16-19 yanvar müddətində Bakını müharibə paliqonuna çevirəcək qədər hərbi hissələr toplamışdılar. Bakı ətrafına Zaqafqaziya, Moskva, Leninqrad və digər hərbi dairələrdən gətirilmiş ordu hissələrinin 50 minlik operativ qruplaşması cəmləşmişdi. Qruplaşmanın tərkibinə 295-ci motoatıcı diviziyası, 76, 104 və 106-cı qvardiya hava desant diviziyasının üç polku, xüsusi təyinatlı 22-ci briqada, Qara dəniz

donanmasının 882-ci dəniz piyadaları batalyonu, DTK-nın 7-ci idarəsinin "Alfa" qrupu və s. hərbi hissələr daxil idi. Bakı buxtası Xəzər hərbi donanmasının gəmiləri tərəfindən blokadaya alınmış, Bakı qarnizonunun azərbaycanlı zabit və əsgərləri, eləcə də respublikanın DİN və DTK orqanları tabe silahlarının inventarizasiyası bəhanəsi ilə tərkisilah edilmişdilər [14,8-9].

SSRİ Müdafiə naziri D. Yazovun rəhbərliyi ilə hazırlanan və həyata keçirilən 'Tayfun" adlı hərbi əməliyyat telestudiyanın enerji blokunun partladılması tarixi ilə desək, 19 yanvar saat 19.27 dəqiqədə başladı. Bunun ardınca rus qoşunları saat 21.00-da Türkan və Qala hərbi hissələrindən çıxıb Bakı şəhərində 10-12 saatlıq hərbi əməliyyat keçirdikdən sonra 20 yanvar səhər saat 7.00-da Bakı şəhərinin komendantı təyin olunmuş general-leytenant Dubniyak radio ilə çıxış edərək SSRİ AS RH-nin 19 yanvar saat 00-da "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verildiyini elan etdi.

20 yanvar “Tayfun" hərbi əməliyyatının hazırlanıb və həyata keçirilrnəsi prosesi onun yaxın və uzaq məqsədlərinin olduğunu deməyə əsas verir. Lakin bu haqda tam həqiqəti isə ancaq DTK-nın arxiv sənədləri əsasında aşkarlamaq mümkündür. Nə qədər ki, bu sirr tam açıqlanmayıb Vətənimizə yönəlmiş qara qüvvələrdən, məkrli niyyətlərin çoxundan xəbərsiz qalacağıq.

Bakı və ətrafında cəmləşdirilmiş ordu hissələrinin heyətində güclü psixoloji hazırlıqla azərbaycanlılara və AXC üzvlərinə dərin nifrət aşılanmışdı. AXC-nin rəhbərliyi ilə azərbaycanlıların kütləvi şəkildə vəhşiliklə rusları qırması şayiəsi ilə əsgərlər tam ruhi həyəcan vəziyyətinə gətirilmişdi, Onlara evlərin, onların damının, mənzillərin AXC avtomatçıları ilə dolu olması uydurması ilə hücum zamanı əsgərlərin həyatları üçün daim təhlükə olması hissi aşılanmışdı. Beləliklə, Azərbaycan xalqına qarşı düşmənçilik, nifrət, qisasçılıq hissi aşılamaqla ruhi həyəcan vəziyyətinə gətirilmiş orduların hərbi əməliyyatı heç bir xəbərdarlıq edilmədən yanvarın 19-da saat 21-dən başladı [15]. İlkin olaraq Türkan və Qala kəndləri arasındakı hərbi hissələrin heyəti əməliyyata başladı. T. Bəhramov adına stadionda yerləşdirilmiş ordu hissəsi saat 23-də camaata atəş aça-aça şəhərə çıxdı. Eyni vaxtda Bakıya müxtəlif istiqamətdən qoşunlar daxil olmağa baş-ladı. Xəzərdən şəhərə desant çıxarıldı. Bütün qoşun hissələrində çoxlu erməni olmuşdu.

Rastlarına çıxan hər bir azərbaycanlıdan, binadan, mənzildən "təhlükə gözləyən", "vəhşi zorakılığa" məruz qalmış soydaşının intiqamını almaq hissi ilə hərbi hissələrdən çıxan rus əsgərləri, tanklar, BTR-lər, BMP-lər qarşılarına çıxan minik maşınlarını tırtılları, təkərləri altında əzib məhv edir, rastlarına çıxan adamlara, binalara, mənzillərə atəş açaraq insanları yol boyu məhv edə-edə planlaşdırılmış ərazilərə doğru hərəkət edirdilər. Piketləri və yolları bağlayan sədləri xüsusi amansızlıqla dağıdır, aşılanmış qisas, intiqam hissinə uyğun

piketçiləri xüsusi qəddarlıq və amansızlıqla məhv edirdilər. Maşınlarla qurulmuş sədləri hərbi texnika ilə dağıdır, gözyaşardıcı qazla bir yerə toplaşmış insanları hərəkətsiz vəziyyətə salıb, sonradan onlara atəş açırdılar. Əhalinin atəşdən yayınıb qaranlıqda gizlənməsinə şərait yaratmaq üçün bir sıra yerlərdə elektrik stansiya-işçiləri küçə fənərlərini söndürmüşdü. Lakin hərbçilər hərbi texnikanın projektorları vasitəsi ilə dalanlara, kol-kosa sığınmış adamları tapıb məhv edirdilər. Yaşayış evləri, mağazalar, tibb müəssisələri, təcili yardım maşınları və s. rastlarına çıxan hər şey atəşə tutulurdu. 20 yanvar gecəsi rus qoşunlarının Bakıdakı hərbi əməliyyatı sovet qoşunlarının alman faşistlərinin son dayağı Reyxstaqın alınmasından amansız idi. Beynəlxalq hüquqla müəyyən edilmiş müharibə qanunlarına belə əməl edilmirdi. Sanki bu xalqlar 70 il bir dövlətdə, bir ölkədə yaşamamış, uzun illər bir-biri ilə müharibədə, ədavətdə olmuş, qisas imkanı gözləyən xalq məqam tapmışdı.

İmperiyanın 20 yanvar gecəsi törətdiyi vəhşilik haqqında təsvirimiz gələcək nəsillərdə imperiyaya qarşı nifrət yaratmaq məqsədi güdən uydurma olması haqqında şübhə doğurmasın deyə həmin gecə Bakıda olmuş "Komsomolskaya pravda" qəzetinin müxbiri, milliyyətcə rus Leonid Nikiti-nin dərc etdirdiyi "Est poterya" ('Təlafat var") adlı məqaləsindən bir neçə iqtibasla kifayətlənəcəyəm. O, yazır ki, Bakıda xəstəxanaya (Semaşko -X.X.) "yanvarın 19-da axşamüstü getdim. Məqsədim də bu idi ki, yanvarın 13-15-də talan zamanı yaralanıb şikəst edilmiş və hazırda xəstəxanada yatan ermənilərlə görüşməyimə icazə versinlər. Belə bir şayiə yayılmışdı ki, azərbaycanlı tibb işçiləri onlara ögey-doğmalıq edir.

Bu şayiələr yalan çıxdı. Baş həkim dedi ki, uydurmadır. Cahangir Əli oğlu şəxsən özü mənim əynimə dar gələn nişastalı xalat verdi və birlikdə palatalara baxmağa getdik. Ermənilər hürkmüş halda səs-səsə verib, xəstəxananın işçilərinə öz minnətdarlıqlarını bildirdilər, and içdilər ki, öm-rü boyu onların canına dua edəcəklər... Cahangir Əli oğlunun köməyi ilə onlar üçün anbarlardan ucuz kostyumlar, paltolar alınmışdı, lakin bilmirlər ki, tale onları bu bağışlanmış pal-paltarlarda haraya atacaq. Təcili yardım xəstəxanasından qayıdıb saat on bir radələrində yatdım...

Gecə saat ikiyə işləyəndə döyüş səsinə yuxudan hövlnak qalxdım: avtornatların şaqqıltısı, iriçaplı pulemyotlarm taraq-turuqqu, tanklarm uzaq-dan gələn gurultusu açıq-aşkar eşidilirdi. Şəhərin gecə səması şəfəqlərdən çəhrayı rəngə boyanmışdı, hədəfdən yayınmış güllələr qəzəblənmiş eşşək arıları kimi havada vızıldayırdı. Gah döyüşə-döyüşə şəhərə daxil olmuş zirehli tank dəstələri evlərin yuxarı mərtəbələrini və damlarını atəşə tuturdu - oralardan benzin dolu butulkalar atılır, snayperlər hücuma keçənləri nişan alırdılar, gah da mühasirədə olan Salyan kazarmasından cavab atəşi eşidilirdi. Mənimlə eyni vaxtda Bakıda olan həmkarlarım döyüş mənzərəsini tam təsvir etmişlər, mən isə o döyüşlərin dəhşətli

nəticələrinin şahidi oldum. Yanvarın 20-də səhər AXC-yə yaxın olan bakılıların köməyi ilə biz yenidən yol ayrıcında donub qalmış piyada döyüş maşınlarının, keşikçi dəstələrinin və tankların gülləboran etdiyi, əzib yastıladığı maşınların ətrafa səpələnmiş şüşə qırıntılarının yanından keçərək təcili yardım xəstəxanasına getdik.

Burada dünənki mühasirə götürülmüşdü, "təcili yardım" maşınları bir-birinin dalınca yaralı daşıyırdı, düz-əməlli müharibə şəraiti hiss olunurdu, vestibüldə basabas və səs-küy idi... Bir azərbaycanlı qadın jurnalist oldu-ğumu bilib üstümə qışqırmağa başladı, üzümə tüpürdü, deyəsən onun oğlunu yaralamışdılar. Camaatın nifrəti son həddə çatmışdı və bəzən mənə elə gəlirdi ki, bu dəqiqə bizi parça-parça edəcəklər... O qadının diktafona yazdığım səsini sizə çatdırıram.

"Biz sizin, rus təcavüzkarlarının üzünə tüpürürük!.. Onlar adam deyilriər, onlar vəhşi heyvandırlar. Biz bilmirdik ki, rus bizim neftimizlə faşistə qalib gələr və faşist kimi öz adamlarına güliə atar!!!... Eşit gör nə deyirəm sənə: sənin üzünə tüpürürəm, bütün rusların üzünə tüpürürəm! Rədd olun buradan!!!".

Xəstəxanadan tanımadığım bir dəstə azərbaycanlı ilə çıxdım. Onların hamısı dərd-kədərdən və qəddarlıqdan bərk hiddətənmişdi. Ölüxanada stolların üstü dolduğu üçün quruyub ağaca dönmüş gözü açıq meyitlər yerdə uzanmışdı, əyinlərindəki pal-paltarları palçığa və qana bulaşmışdı. Arıq və üzü tüklü sanitar ağlaya-ağlaya ölülərin köynəyini qaldırır ki, Kos-tya ("Sovetskaya kultura" qəzetinin fotomüxbiri - X. X.) üçün şəkil çəkmək asan olsun. Meyidlərin qarnına avtomatla atəşdən sanki xallar düzülmüş-dü və bu güllə yerləri bir növ cins şalvardakı qırıq-qırıq rəvan xətləri xatır-ladırdı. Güllələrin çoxu adamların qabırğasına dəymişdi, ancaq birinin gö-zünü aparmışdı, bir başqasının isə başının yarısı yox idi, görünür tankın altında qalmışdı... Meyidlər hələ xarab olmadığı üçün elə bil bir-birinə ox-şayırdı: hamısı cavandı, arıqdı, kasıb geyinmişdiiər, ayaqqabıları palçıqlı idi.

Onu da öyrəndik ki, ölənlərdən biri Əfqanıstan müharibəsi veteranı idi, sol qolu yoxdu (tarslikdən özgə bir adamın qolu böyründə atıhb qalmışdı). Burada bir rus da vardı - Valeri Boqdanov. Xəstəxanaya gətiriləndən son-ra ölmüşdü. Ölüxananın qeydiyyat jurnalında bir qızın adı yazılmışdı - on dörd yaşlı Larisa Məmmədova - valideynləri gəlib aparmışdılar. Atası azərbaycanlı, anası rusdu. Nə azərbaycanlılar, nə ruslar, bu döyüşdə ni-şan-zad axtarmamış, hara gəldi atmışdilar. Hər yanda ölüm kabusu gəzirdi - əsgərlər yuxarı mərtəbələri, damları, kolları gülləbaran etmişdilər, eyvanlarda, evlərin böyründə kimi görmüşdülərsə, hamısını atəşə tut-muşdular. Pərvərdigara, keç onların günahından" [16].

20 yanvar gecəsi amansızlığının da və qəhrəmanlığının da şəxsən şahidi olmuş Ədalət Tahirzadənin yazdıqları həmin saatların milli ruhunü müəyyən etmək üçün çox qiymətlidir. Odur ki, onun qeydlərini qısa ixtisarla tədqiqatımıza daxil

edirik. Ədalət Tahirzadə yazır ki, 19 yanvarda axşam saat 11.30 radələrində "Azadlıq" qəzetinin redaktoru Nəcəf Nəcəfov və Arif Əliyevlə birlikdə "Qızıl ordu abidəsi"nin yanına çatanda gördük ki, gənclər yolun eni boyu düzülmüş maşın təkərlərinə od vurmağa başlayıblar. Deyirlər ki, tanklar gəlib bu odun üstündən keçəndə butulkaları atacağıq ki, tank yansın.

Onlar həm də bayaq buraya gələn tankdan təşvişə düşmüşdülər. Sən demə Salyan kazarmasını yarıb çıxan bir tank bura gəlmiş, 2 nəfəri güllə ilə vurub getmişdir...

Buradan çıxıb Tağızadə küçəsi ilə Biləcəri postuna gəldik. Suvorov (indiki 20 yanvar) küçəsinə çatanda gördük ki, qabağı maşınlar kəsib, irəli keçmək mümkün deyil. Şahin maşını yolun qırağında saxladı. Düşüb pi-yada irəlilədik. Adamlar dəstə-dəstə durub həyəcanla söhbət edirdilər...

Prospektə düşüb barrikadanı keçdik, təxminən 50 metr qabaqda kütləyə qarışdıq. Nəcəf irəliləyir, biz isə onu izləyirdik. O gəlib ilk cərgədə dayandı, yanınıdakı cavanlarla qol-qola girdi. Arifgil 5-6 cərgə arxada dayanmışdılar. Burada min nəfər adam olardı.

Qabaqda gur bir projektor yanırdı. Ancaq hansı maşının (tankm, BTR-in üstündə olduğunu seçə bilmirdik. Projektor işığını dolandırıb düz küt-lənin üstündə saxladı, işıq yanda olanda gördük ki, əli qalxanlı, başı dəbilqəli, əli rezin dəyənəkli əsgərlər sıra ilə üstümüzə yeriyir. Nəcəf ayağa durub hamıya "Oturun!" qışqırdı. Hamı çöməlib oturdu. Əsgərlər rezin dəyənəklə qalxanlarına döyə-döyə irəliləyirdilər. Projektorun gur işığında onlan seçmək çox çətin idi. Onları görəndə isə gec idi.

Deyəsən havada Nəcəfin papağını gördüm... sağ çiynimdən dəyən zərbə ilə asfalta çırpıldım. Özümü düzəldəndə gördüm ki, maşın (projek-torlu) düz üstümə gəlir, əsgərlər isə bizdən ötüb, xeyli qabaqda camaatı dəyənəkləyir. Dəhşətli bir qışqırıq, hay-küy qopmuşdu. Qarğış, söyüş, ha-ray bir-birinə qarışmışdı. Əsgərlər camaatm içinə tüstü buraxan gözyaşardıcı qaz atırdılar. Durduğumu görən əsgərlərin üstümə cumduğunu duyanda yolun qırağına çəkilməyə imkan tapdım. Buradan əsgərlərin ardı ilə keçib mikrorayona tərəf adlaya bildim... Atışma düşdü. Bir azdan xəbərdarlıqdan keçib əsl güllələr yağdırıldı. Əsgərlər daha quduzlaşmışdılar. Bu vaxt atılan bir butulka tankın üstünə düşdü və yanmağa başladı (təəssüf ki, belə "silah"la tankın yalnız üstünün rəngi yanır. Uşaqlar isə elə güman edirdilər ki, daha tankın işi bitib). BU mücahidlərə ruh verirdi. Geri çəkilənlər də "urra" ilə qabağa cumurdular. Ancaq avtomat atəşləri onları biçib tökdü. Yenə ah-nalə, qışqırıq göyə bülənd oldu... Bir tank Tbilisi prospektinin kənarı ilə (üzü Biləcəriyə tərəf yolu "təmizləyə-təmizləyə" irəli şığıdı. O, yola yaxın duranları atəşə tutdu. Bu vaxt ikinci bir tank da yolun kənarındakı institut müəllimləri (Xalq Təsərrüfatı İnstitutunun müəllimlərinin kooperativ binası - X.

X.) yaşayan binanın yanında camaata atəş aça-aça meydanı "təmizlədi". Burada olan adamlar da dəhşət içində həyətə soxuldular. Güllə adamları sərçə kimi bj-çirdi. Gözümün qabağında birisi yerə sərildi. Tez iki-üç nəfər yapışıb benzindoldurma stansiyası tərəfdə dayanan bir maşına apardıq. Başqa birisi məftil torunun yanına düşüb qalmışdı. Ağacların dibinə yıxılanlar da var idi. Bu tankın işi idi. Əsgərlər elə quduzlaşmışdılar ki, artıq adamlara deyil, binaya, balkonlara, evlərə atırdılar.

Güllə dəyib yıxılanların yaralı, yaxud ölü olduğunu bilmək çox çətin idi. Birincisi, bunu müəyyənləşdirməyə vaxt yox idi, ikincisi də elə ağır yaralılar var idi ki, huşsuz düşmüşdülər. Mən həyətdən küçəyə çıxanda camaatın üstünə yeni hücum oldu, bu vaxtda xeyli adam yaralandı. Yanımdakı bir oğlanın biləyinə güllə dəydi. O, axan qanı görən kimi "ana, məni vurdular", deyə qışqırıb qaçmağa başladı.

Əsgərlərin qabağında duranların hamısı əliyalın idi... Yeganə silah içi yanacaqla dolu butılkalar idi. Onu da əsgərlərin üstünə, yaxud tanklara atmaq üçün çox yaxına getmək lazım gəlirdi. Hər butılka atılanda avtomat cərgələri adamları biçirdi. Ancaq buna baxmayaraq, gənclər yenə irəli cumur, ölümdən çəkinmirdilər. Onlarda düşmənə qarşı elə qəzəb, elə nifrət yaranmışdı ki, az qala tankın üstünə cumub onu dişləri, dırnaqları iiə əzmək istəyirdilər. Əslində çoxları elə belə də etdi. Etdi və rus faşist ordusunun tankları onları əzib torpağa, asfalta qarışdırdı. Lap içəri girən gənclərin meyidlərinə yaxın düşmək mümkün deyildi; onları əsgərlər özləri yük maşınına doldurub harasa göndərirdilər. Camaat yalnız 20-30 metr aralıda vurulanları tez götürüb aradan çıxara bilirdi.

...barrikadaların yanında əsgərlərdən birini tutub (bir neçə nəfər) avtomatını əlindən aldılar. Bu vaxt əsgərlər Suvorov küçəsi ilə Tbilisi prospektinin kəsişməsindəki maşın istehkamlarının arasından keçib (olduqca şiddətli müqaviməti qırandan sonra) prospektlə metroya sarı təxminən 30-40 metr irəliləmişdilər, ancaq hərbi texnika həiə istehkamı aşa bilmədiyindən arxada qalmışdı.

Avtomatı əlinə keçirən oğlan əsgərlərin arxasınca prospektə düşdü, Onun yanındakı cavanları qırağa çəkdilər ki, geri durun, bu vuruşa gedir Bu vaxt rayonun işığı söndü, bütün ətraf qaranlığa batdı. Mən oğlanı daha görə bilmədim. Ancaq təxminən 5-10 dəqiqədən sonra birdən dəhşətli qaçacaq düşdü - bir tank metro tərəfdən gəlib Suvorov küçəsinə (biz duran yerə) döndü və şiddətli gülləbarana başladı. O, elə qəflətən və sürətlə peyda oldu ki, çoxusu heç qaçmağa da macal tapmadı. Yaxındakı (yolun altındakı) bir mərtəbəli mağazanın arxasında qonşu binanın həyətidir. Buradan həyətə düşən yer ən azı metr yarım hündürdür. Adamlar bu hündürlükdən gözüyumulu atılır (bəlkə ayağı sınanlar da olub), kimi daşların kimi ağacların arxasında gizlənirdi. Qaranlıq olsa da, tankdan düşən işıq

və yanar güllələrin ("trassiruyuşi pulya") havadakı işıqlı izi bir çox şeyləri dərk etməyə imkan verirdi. Deyilənlərdən aydın oldu ki, avtomatlı oğlan artıq xeyli qabağa getmiş əsgərləri arxadan "döyməyə" başlayıb. Qaran-lıq olduğundan, həm də gözləmədiklərindən onlar qabaqca duyuq düşməyiblər. Görünür ki, bu şiddətli atışma səsləri içərisində arxadan gələn atəş səsini də eşitməyiblər. Ancaq işıqlı güllələrin izi və yıxılan əsgərlər (belələrinin olduğuna əminəm), nəhayət, onlara kiminsə hücum etdiyini bildirib. Ola bilsin ki, onlar dəstənin hücuma keçdiyini güman edib onun üstünə tank yeridiblər, tankın işığında isə ata-ata geri çəkilən oğlanı görüblər. Həmin oğlan geri çəkilib birmərtəbəli mağazanın küncünə sığınıb (görünür gülləsi qurtarıb, yaralandığı üçün də halı olmayıb). Tank və əsgərlər mağazanı güllədən keçirdilər. Mağazada sağ şüşə qalmadı. Ən çox adam bu mağazada məhz bu vaxt qırıldı və yaralandı. Artıq əsgərlər elə hala gəlmişdilər ki, yalnız insana yox, insan yaşaması güman olunan hər yerə güllə atırdılar, işığı da məhz onlar söndürmüşdülər ki, vəhşiliklərini heç kəs görüb lentə çəkə bilməsin...

Artıq əsl müharibə gedirdi. Bir azdan avtomat güllələrinin səsləri tanklardan atılan atəş səsləri altında batdı. İnsan canına vahimə salan, ətrafı lərzəyə gətirən tank güllələrinin (bunlar təyyarə vurmaq üçün işlədilən zenit güllələriydi!) səsini eşidənlərin vəziyyətini yalnız bu anı yaşayanlar təsəvvür edə bilər...

Gözlərimin qarşısından bir mənzərə heç çəkilmir. Xalq Təsərrüfatı İnstitutu müəllimlərinin binası yanında dayanmış bir avtoçənə (yəqin içi benzinlə dolu idi) bir cavan oğlan əyləşdi (deyəsən sürücü idi), dalı-dalı əsgərlərin üstünə sürməyə başladı. Bilmədim məqsədi nə idi. Çəni partladıb əsgərləri məhv etməkmi, yoxsa tankla toqquşub onu partlatmaqmı?

Hər halda, bu sürücü yüz faizli yox, min faizli ölümə getdiyini gün kimi aydın bilirdi. Ancaq o, azadlıq uğrunda şəhid olmağı qul kimi yaşamaqdan üstün tutdu! (Aradan bir qədər keçəndən sonra həmin maşını bir hərbçi sürüb qıraqda saxladı. Deməli həssas snayperlər ona texnikaya yaxınlaşmağa imkan verməyib, gənc sürücü isə məqsədinə yetməmiş şəhid olub). Həmişə yapon kamikadzelə haqqında oxuyanda düşünürdüm ki, bizdə də belələri ola bilərmi? Bu gecə həmin sürücünü, tanklara cuman əliyalın insanları görəndən sonra əmin oldun, KI, Azərbaycanda kamikadzelər dünyAnın hər bir ölkəsindən, hər bir xalqdan daha çoxdur!" [1.-11, 36-42].

Bakının bir məhəlləsində rus ordusunun təcavüzü və silahsız azərbaycanlıların ona hansı qəhrəmanlıqla müqavimət göstərməsi haqqında sə-nədi oxucuya təqdim etdik. Araşdırmamız Bakının digər barrikada qurulmuş küçələrində də eyni amansıziıq və eyni qəhrəmanlığın göstərildiyini deməyə əsas verir.

Tarix konstitusion hüquqlarının bərpa edilməsi tələbi ilə çıxış edən silahsız əhaliyə 4 qoşun növü vasitəsilə təsvir olunan amansızlıqla divan tutulmasının

şahidi olmamışdı. Heç kommunist rejimindən əvvəl rus imperiyası tarixində də buna bənzər hadisə olmamışdı. Bu vəhşilik kommunist manyaklığının, elmi ədəbiyyatda genetik manyaklığı sübut olunmuş ermənilərin imperiyanın hakimiyyət orqanlarına sərbəst təsir etmək imkanının nəticəsi idi.

Doğrudanmı özünü amansızlığı ilə tükürpədən ordu içərisinə atıb, oradan silah əldə edib həyatını qurban verməklə bircə an da olsa düşmənlə silahlı döyüşə girməyə can atan, ölümünü yüz faiz başa düşdüyü halda yanacaq maşının sükanı arxasına keçib onu tanka vurub partlatmaq və ya silahlı əsgərlərin üstünə sürmək istəyən igidlər Nemət Pənahov və onun kimilərinin çağırışı ilə barrikada qiırmuşdular?

Qətiyyən yox! Tariximizi belə yazanlar xalqımızı, onun milli-azadlıq hərəkatını gözdən salmaq istəyənlərdir. Xalqımıza özünə inamsızlıq yaratmaq istəyənlərdir.

Tanklara və silahlı orduya silahsız sinə gərən yüz minlərlə Azərbaycan övladı Vətənin çağırışına çıxmışdılar. Xalqımızın bu mütəşəkkilliyi, döyüş ruhu Vətən məhəbbətindən, Azadlıq, Müstəqillik ideyasınmın zəruriiiyinin dərk edilməsindən doğan bir mücadilə idi.

Artıq kommunist rus imperiyasının xalqımıza qarşı düşmən münasibəti, torpaqlarımızı açıq şəkildə zorla alıb ermənilərə vermək istəkləri, erməni təcavüzünə hərbi, iqtisadi-siyasi yardım göstərmələri, azərbaycanlıların Bakıda yaşayan ruslara qarşı zorakılığı haqqında böhtanı Azərbaycan xalqının heysiyyətinə toxunmuşdu. Moskvanın ali rəhbərliyinin simasızlığı hətta Azərbaycanda yaşayan rusların nifrətinə səbəb olmuş, Moskva hakimiyyətinə inamsızlıq, etimadsızlıq yaratmışdı.

Sətirlərin müəllifi 1988-ci ildən dəfələrlə minlərlə azərbaycanlının çox saylı əsgər və tanklarla üz-üzə gələndə dərhal təşkilatlanıb geri çəkilmədən onunla döyüşə can atdığının şahidi olmuşdur. Azərbaycan xalqının ekstremal şəraitdə təşkilatlanmaq, döyüşmək bacarığı haqqında çoxsaylı fakt və məlumatlar bu etnik keyfiyyəti həmin anın hiss və emosiyaları ilə deyil, genetik və təhtəlşüur vəziyyətə keçmiş milli keyfiyyətlər olmasın deməyə əsas verir. Təsadüfi deyil ki, dünya tarixşünaslığı əsrlərlə Azərbaycan xalqını əsgəri xalq kimi qiymətləndirmişdi.

Gecə saat 11.30-da MK-nın binası qarşısındakı mitinqdən ayrılıb Bayıla evimə getdim. Məqsədim bir qədər dincəlib yenidən mitinqə qayıtmaq, AXC qərargahı ilə əlaqə saxlamaq idi. Lakin saat 00.30-da atışrna səsinə həyətə çıxdım. Atışma barrikada qurulmuş Krasin meydanında idi Atışma ilə bərabər Xəzərin sahili boyu düzülmüş gəmilərin həyəcan siqnalı insanı vahiməyə gətirirdi. Şəhərdən də atışma səsi eşidilir, hərdəfə güllələrin uçuşu görünürdü. Atəş və gəmilərin həyəcan səsindən küçələrə çıxan insanlar atışma yerinə tərəf gedə bilmirdilər. Çünki atışmanın ərazisi getdikcə genişlənirdi. Krasin meydanından başlayan

atışma tədricən şəhərin mərkəzinə doğru gedən magistral yolu və ətrafını əhatə edirdi. Güllə səsi tək-tək deyil, kütləvi olduğundan, adamlar nə baş verdiyini seçə bilmirdi. Atışmanın yol boyu yerləşmiş hərbi hissələrdən baş verdi-yini deyənlər də var idi. Beləliklə, Bayılda yaşayan əhali işıqlaşana kimi dağın üstündən, döşündən atışmanı müşahidə etmək məcburiyyətində qaldılar.

Hər şey gözlənilməz idi. Dünya okeanında yanaşı üzərək sovet bayra-ğının şərəfini qoruyan Xəzər Dəniz Donanması gəmilərinin heyəti bir anın içində quduzlaşmış rus ordularının qəfil hücumundan xalqını qorumaq məcburiyyətində qalmışdı.

Təbii ki, gündüz yanvarın 19-da Xəzər Dəniz Donanmasının zabit he-yətinin silahları yığılanda, azərbaycanlılar imperiyanın onlara etimadsızlıq göstərdiyini duymamış deyildilər. Odur ki, gecə Xəzər donanmasına Rusiyanın müxtəlif əyalətlərindən gətirilmiş desant qüvvələrinə limana çıxması üçün yol açmaq əmri veriləndə Azərbaycan zabitləri əmri icra etməkdən imtina etdilər. Əksinə, bütün yolları sıx bağlayıb həyəcan siqnalı ilə Bakını oyatmağa, xəbərdar etməyə çalışdılar.

Gecə saat 5 radələrində Bayılda güllə səsləri dayandı. Lakin gəmilər həyəcan siqnalı verməkdə davam edirdi.

Hava yavaş-yavaş işıqlanırdı. Qara buludlar Bakıya xas olmayacaq səviyyədə aşağı enmişdi. Adamı sıxırdı. Bilmirəm o düşmənə şərait yaratmaq üçün bu qədər aşağı enib havanı işıqlaşmağa qoymur, yoxsa şa-hidi olduqlarına dözə bilməyib, ağlaya bilməyən adamlar kimi hərəkətsiz vəziyyətə düşüb bu qədər aşağı enmişdi. Toxunsa suya-selə dönüb hər şeyi məhv edəcəyindən qorxduğu üçün külək də çəkilib getmişdi.

Saat 6.30-da 6-cı Bayıl adlanan dağın üstündən Krasin meydanına endim. Gecə evə gedəndə bir-birinə söykənib dayanmış "KamAZ" maşınları yolun kənarında yanı üstə yıxılmış, kabinələri tamam əzilib sıradan çıxmışdı. Tanklar və zirehli maşınlar Krasin meydanının girəcəyində ağır maşınlardan yaradılmış barrikadanı amansızlıqla dağıtmışdı. Meydanda tala-tala qan laxtaları olsa da, insan cəsədi qalmamışdı. Meyidləri əhali, yoxsa əsgərlərin aparması haqqında məlumat yox idi. Şəhər nəqliyyatı işləmirdi.

Matorları işlək vəziyyətdə olan tanklar yol boyu düzülmüşdü. Üstündə əli avtomatlı əsgərlər dayanmışdı. Adamlar "Şəhərdə camaatı qırıblar" -deyə vahimə içində şəhərə tərəf axışırdı. Qorbaçovu, Vəzirovu, əsgərləri lənətləyir, söyənlər də olurdu.

Piyada şəhərə tərəf axışan adamların arasında saat 7.30-da axşam dolu qoyub getdiyim MK-nın qarşısındakı meydana çatdım. Burada təxminən 250-300 adam olardı. Onların gecə burada qalmış olmalarından, yoxsa hava işıqlaşanda gəlmələrindən məlumatım olmadı. MK binasının dörd tərəfindən adamlar onun

qarşısındakı meydana axışırdı. Gəmilərin həyəcanlı fit səsi, Salyan kazarmasının yanında qarşılıqlı atışma olduğu eşidilirdi, atəş səsləri güclənirdi.

Rəngi avazımış insanlar, gözündən qan-yaş tökən qoca və qadınlar nə baş verdiyini, şəhərdə, xüsusən "Qızıl ordu" meydanında camaatı nə üçün qırdıqlarmı soruşmağa bir adam, bir təşkilat tapmaq ümidi ilə MK-ya gəlirdilər. Lakin MK-nın qapısı bağlı idi. Ora nə gələn vardı, nə də oradan gedən. AXC rəhbərliyindən də kimsə gözə dəymirdi. MK-nın binası qarşısında ələ keçirilməsi uğrunda daim mübarizə gedən mikrofon sahibsiz qalmışdı. Kimsə ona yaxın gəlmirdi.

25-30 dəqiqəyə bir tərəfdən flarmoniyaya qədər, digər tərəfdən MK-nın sağ tərəfindəki mehmanxanaya qədər ərazi adamla doldu. Üzünü dırnaqları ilə cırıb al qan etmiş qadınların saçlarını yola-yola meydana axışması adamları daha da həyəcanlandırırdı. Meydandakı əhali idarə olunmazsa, sıxlıq və nizamsızlıqdan bədbəxt hadisə olacağı gözlənirdi. Mikrofonu götürüb əhalini idarə etmək fikrinə düşsəm də, camaatın sorğularına cavab verə bilməyəcəyimi nəzərə alıb, bu fikirdən vaz keçdim.

Lakin meydanda anbaan dözülməz vəziyyət yarandığını görüb əhalini istiqamətləndirmək, idarə etmək məsuliyyətini üzərimə götürmək məcburiyyətində qaldım. Mikrofonu götürüb adımı, soyadımı və iş yerimi bildirərək AXC rəhbərliyi gələnə qədər əhalini burada tənzim etmək məqsədilə edəcəyim xahişlərə əməl etmələrini təklif etdim. Əhali müxtəlif istiqamətlərə hərəkət etmək haqqında xahişlərimə əməl etdi. Meydan qismən də olsa nizamlandı. Mikrofonla meydanı idarə etməyə başladığımdan 10-15 dəqiqə sonra mehmanxananın yanından MK-nın binasına doğru bir dəstə (təxminən 25-30 nəfər) cavan və yeniyetmə yaxınlaşdı. Mitinqə qarışmadan MK binasına çıxan yolda dayandılar. Biri mənə yaxmlaşdı. Mikrofonla danışmaq istədiyini bildirdi. Soruşdum kimsən, nə demək istəyirsən?

Mənə hücum çəkib, cəld hərəkətlə mikrofonu əlimdən alaraq camaata müraciətlə bildirdi ki, bu bina bizim düşmənimizdir, hərəmiz ona bir daş vursaq uçub dağılar. Mikrofonu zorla onun əlindən aldım. Əhalini sakitləş-dirmək məqsədilə hökumət əleyhinə çıxış etmək istəməsəm də, həqiqəti və ürəyimdən keçənləri deməyə başladım. Bildirdim ki, əhalini MK-nın binasını dağıtmağa çağıran DTK-nın əlaltısıdır. DTK istəyir ki, buradakı əhali MK-nın binasına xətər toxundursun. Hökumət isə bunu dövlət çevrilişi kimi qələmə versin. Dövlət çevrilişinin qarşısını almaq məqsədilə silahdan istifadə etmək məcburiyyətində qaldığını əsaslandırsın. Belə avantürist çıxışlara uymamağı əhaliyə tövsiyə etdim. Zatıqırıq isə əhal arasında itib yox oldu. Saat 9 radələrində Nemət Pənahov Rəhim Qaziyevlə birlikdə meydana gəldilər. Heç biri xalq qarşısında çıxış etməyə təşəbbüs etmədi. Az sonra Etibar Məmmədov və Nəcəf Nəcəfov da

buraya gəldilər. Hər ikisinin bərk sarsıntı keçirdiyi hiss olunurdu, kimsəyə cavab verəcək vəziyyətdə deyildilər. Onlar gələndə AXC rəhbərliyi kimi mitinqin idarəçiliyini üzərlərinə götürəcəkləri və ya mənə istiqamət verəcəkləri ilə bir qədər yüngülləşsəm də, onlarla söhbətdən sonra narahatçılığım daha da artdı. Mitinqi idarə etməyəcəklərini bildirdilər. AXC rəhbərliyi ilə necə əlaqə saxlayım, burada nə etmək lazımdır, əhaliyə nə demək lazımdır? - suallarına - heç nə deyə bilmərik - cavabını verdilər. Adamlar onların ətrafına axışıb sorğu-suala tutsalar da, kimsəyə bir söz demədən çıxıb getdilər.

Maksimum həssaslıqla davranır, ancaq əhalini meydanda istiqamətləndirmək məqsədilə qısa çıxışlar edirdim. AXC rəhbərliyindən və respub-likanın "tanınmış", əhali içərisində nüfuzu olan yazıçı və şairlərindən kimsənin gəlməsini göziəyirdim. Nəhayət, yazıçı Anar gəldi, birbaşa tribunaya çıxdı, partiya biletindən və SSRİ Xalq Deputatı mandatından imtina etdiyini bildirdi. Elə bu an deputat Həsən Turabov və xalq şairi Bəxtiyar Vahabzadə gəldilər. Çıxış edib deputat mandatından imtina etdiklərini bildirdilər. Mən Anara yaxmlaşıb nə etmək, camaata nə demək, necə hərəkət etmək haqqında suallar verdim. Bildirdi ki, heç bir məsləhət verə bilmərərn. Nə etmək lazımdır, heç özüm də bilmirəm. MK binasının bağlı qapılarını göstərib dedi ki, burda kim var ki, nəyisə məsləhətləşəsən, soruşa-san? Beləliklə, təxminən 5-6 dəqiqədən sonra Anar, Həsən Turabov və Bəxtiyar Vahabzadə də getdi. Yenidən məsuliyyət hissi məni məngənə kimi sıxmağa başladı. Elə bu an Bakı Soveti metrosu yanında tankların səsi guruldadı və fasiləsiz avtomat atəşləri açıldı. İnsan qışqırığı, ah-nalə ətrafı bürüdü. Avtomat atəşlərindən, güllə zərbələrindən Bakı Soveti və filarmoniyanın şüşələrinin partlayış və cingilti səsi, ona qarışan insan qışqırığı qorxunc bir vahimə yaradırdı. Üzərində əli avtomatlı əsgərlər dayanmış tanklar filarmoniya tərəfdən meydana yaxınlaşırdı. Meydanda panika yaranmışdı. Filarmoniyanın qarşısındakı basırıqda adam öldüyü deyilirdi (2 nəfər adam ölmüşdü). Əli avtomatlı əsgərlər filarmoniyanın binasina atəş aça-aça meydana tərəf irəliləyirdi. Artıq meydanda çaxnaşma yaranmış, adi bir təkandan yüzlərlə insanın bir-birini ayaqlayıb məhv edəcəyi hər an görünürdü. Artıq ehtiyat hissinə yer qalmamışdı. Əhalini idarə etmək üçün məsuliyyətə gedib qətiyyətli addımlar atmaq tələb olunurdu. Mikrofonu götürüb hamının məni eşitməsi və dediklərimə əməl etməsini tələb etdim. Bütün gücümlə ucadan "Cavanlar və kişilər, filarmoniya terəfdən əsgərlərin və tankların qarşısından qəti şəkildə geri çəkilməsini Mehmanxana və Göz Xəstəlikləri İnstitutu tərəfdən əhali təcili geri çəkilsin!" - deyə bildirdim. Göstərişi gücüm gəldikcə uca səslə təkrar edirdim. Cavanlardan böyük bir hissə filarmoniya tərəfə çıxıb, çiyin-çiyinə verib, bir-birinə söykənərək meydana doğru irəliləyən tankların qarşısını kəsdilər. Tanklar onlara söykənmişdi. Tanklar gurultu qoparır, onlara söykənmiş adamları meydana tərəf

itələyirdi. Tankların gurultusu, havaya atılan avtomat atəşlərindən əhali içərisində vahimə güclənirdi. Lakin tanklarla





Silahlı əsgərlər gəncləri addım-addım geri sıxışdırdı. Gözlənilmədən tanklardan biri əsgərlərin arxasından keçib, qorunmayan səkidən aşaraq meydana girdi. Əhalinin nizamı pozuldu. Uşağını atıb qaçan ata və anaların, tankın qarşısında kimsəsiz qalmış uşaqların naləsi və vahiməli qışqırtısından dəhşətli bir səhnə yarandı. Artıq tribunada dayanmağın faydasiz olduğunu görüb, valideyninin atıb qaçdığı qışqıran 3-4 yaşlı qız uşağına tərəf qaçdım. Onu qucağıma götürdüm. Ətrafda qışqıran 7-8 yaşlı bir oğian uşağı özünü üstümə atıb, boynumdan elə yapışdı ki, az qala boğulurdum. Tanklar binanın qarşısından irəli keçmədi, dayanıb geri qayıtdı. Beş nəfər sahibsiz qalmış uşağı tribunaya, mikrofonun yanına qaldırdım. Adamlar geri qayıdıb meydana axışmağa başladı. Mikrofonla meydanda qalmış beş uşağın yanımda olduğunu elan etdim. Valideynlərini narahat olmamağa çağırdım. Uşaqlardan üçü valideynini görən kimi qaçıb getdi. Qucağıma götürdüyüm 3-4 yaşlı qız uşağı başını köksümə elə sıxmışdı ki, anası gələndə belə məndən qopmaq, ayrılmaq istəmirdi. Məni boğan 7-8 yaşlı oğlan uşağı ataşını görəndə məndən ayrılmaq istəsə də, boşlamadım. Bu oğlan uşağının təxminən 40 yaşda olan atası yanıma gəldi, rəngi avazıyıb, ölü rəngi almışdı. İmperiyaya olan qəzəbimi, nifrətimi onun üstünə tökdüm... Hərçənd haqlı olsam da, səhv hərəkət idi.

Bu hadisədən sonra xalqı imperiyaya qarşı səfərbər etmək məsuliyyə-tinə girişdim. Meydanı uşaq kimi danlamağA başladım. "Rus-işğalçı əsgərləri gələndə özündə kişilik tapmayıb qaçacaq adamlar meydandan çıxsın. Meydanda o adamlar qalmalıdır ki, avtomatlı, tanklı düşmənlə mübarizədə özündə cəsarət, kişilik tapsın", - dedim. Bu tonda çıxışımı tez-tez təkrar etdim. Görünür valideynlərinin atıb qaçdığı uşaqları tankın qarşısından götürməyim əhalidə mənə rəğbət yaratmışdı.

Bu hadisədən sonra birdən-birə rneydanda əhali 3-4 dəfə artdı. Şəhərdə filarmoniyanın yanında rus əsgərlərinin əhalini qırması haqqında xə-bər buna səbəb olmuşdu. Tanklar filarmoniyanın yanına girəndə basırıqda iki nəfər ölmüşdü.

Nəcəf və Etibar gedəndən sonra tanışlarımdan bir nəfərlə də olsun rastlaşmamışdım. Onlardan sonra tanıdığım adamlardan Maarif Xalıqov yanıma gəldi, mənə ürək-dirək verdi. Bildirdim ki, gəlin kömək edin, meydanı tək idarə etmək mümkün deyil.

Saat 11 radələrində təxminən 40 yaşlarında, ağ saçlı bir nəfər mənə yaxınlaşdı, qoşunun şəhərdə çox adam öldürdüyünü, komissiya yaradıb onların hamısını bir yerdə dəfn etməyin lazımlılığını bildirdi. Bu şəxs Bakıı Dövlət Universitetinin müəllimi Azər Nəbiyev idi. Bildirdim ki, AXC üzvü olsam da, hazırda təşkilatla, onun rəhbərliyi ilə heç bir əlaqəm yoxdur. Öz adımdan bu təşəbbüsə qoşuluram. Siz bu istiqamətdə iş aparın. Təxminən yarım saatdan sonra Azər Nəbiyev məni üç nəfərlə tanış etdi və onların dəfn komissiyası yaratmağın tərəfdarları olduğunu bildirdi. Qüdrət Əbdülsəlimzadə hələ tanklar meydana girəndə diqqətimi cəlb

etmişdi. O, sol tərəfdən MK-nın binası qarşısında səkinin üstündə bir neçə nəfərlə dayanmışdı. Tanklar meydana girəndə onun yanındakıların hamısı qaçsa da, o, yerindən belə tərpənmədən soyuqqanlılıqla hər tərəfi müşahidə edirdi. Onunla şəxsən tanış olmasam da, Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunun professoru, Azərbaycan televiziyasının icmalçısı olduğunu bilirdim. Beləliklə, Azər Nəbiyev, Xəliyəddin Xəlilov, Qüdrət Əbdülsəlimzadə, EA Memarlıq İnstitutunun şöbə müdiri Nəriman Əliyev və Politexnik İnstitutunun dosenti Rəhim Qasımov dəfn komissiyası təşəbbüs qrupunu yaratmağa qərara aldıq və adları çəkilən şəxslər onun ilk üzvləri olduğunu təsdiq etdik. Saat 11.30-da Qüdrət Əbdülsəlimzadə çıxış edərək, Dəfn Komissiyası təşəbbüs qrupunun yarandığını bildirdi. Respubli-kanın görkəmli şəxsiyyətlərinin, ziyalıların Dəfn Komissiyasının üzvlüyündə və rəhbərliyində olmasının vacibliyi xüsusi ilə vurğulandı. Komissiyada iştirak etmək istəyən hər bir Azərbaycan vətəndaşının üzv yazılmaq hüququnun olduğu bildirildi. Dəfn komissiyasına üzvlüyü qəbul üçün yalnız Sov.İKP üzvlüyü biletini eiə buradaca təhvil vermək şərt kimi irəii sürüldü. Şəhidlərin sayının və ünvanının müəyyən edilərək hamısının bir yerdə dəfn edilməsinə nail olmaq komissiyanın başlıca məqsədi elan oiundu. Elə bu vaxtdan Dəfn Komissisyasının təşəbbüs qrupu meydanı idarə etməyə başladı. 18 yanvardan MK-nın binası qarşısında mitinqin aparıcılarından biri kimi tanınan İsmayıl İncəli və Respublika Hidrometeorologiya Xidməti İdarəsinin işçisi Xalid Muxtarov da Dəfn Komissiyasının təşəbbüs qrupuna üzv yazıldılar.

Dəfn Komissiyasının təşəbbüs qrupunun yaranması elan ediləndən 20-25 dəqiqə sonra tribunaya təxribatçı qruplarının təzyiqi başladı. Təşəbbüs qrupu onun adından çıxış edərək törədiləcək hər hansı təxribatın qarşısını almaq üçün üzvlərinin adını mitinqə elan etdi. Bildirdi ki, Dəfn Komissiyası təşəbbüs qrupu mitinqi idarə etmək məsuliyyətini üzərinə götürür, onun icazəsi olmadan kimsə mikrofonla çıxış edə və mitinqə göstəriş verə bilməz. Artıq üç illik mitinq təcrübəsindən əhali, o cümlədən Dəfn Komissiyası təşəbbüs qrupunun üzvləri DTK tör-töküntülərini qismən də olsa tanıyırdı.

Dəfn Komissiyası təşəbbüs qrupunun üzvləri əhalini məyus olmama-ğa, təmkinli olmağa, düşmənə qarşı mübarizə üçün təşkilatlanmağa ça-ğırdı. Xəstəxanalarda yaralılara qan lazım olması haqqında xəbəri elan edən kimi yüzlərlə adam qan verməyə hazır olduğunu bildirdi. Semaşko, təcili yardım və respublika xəstəxanalarına yaralılara qan vermək üçün ilkin könüllülər göndərildi. Başqa xəstəxanalarda da xəstələrə qan lazım olması məlumatı gəldikcə meydana elan verən kimi yüzlərlə adam xəstəxanalara yollanırdılar.
Şəhərdə tez-tez baş verən atışma, xüsusilə Salyan kazarmasında davam edən atışma Dəfn Komissiyası təşəbbüs qrupunu və əhalini daim həyəcan vəziyyətində saxlayırdı. Heç yerdən dəqiq informasiya ala bilmirdik. Əhali arasında yayılan xəbər və şayələr tez-tez meydanı həyəcan-landırıb təlatümə gətirirdi. Ehtiyatsız deyilmiş bir ifadə, hərəkət meydanı qığılcım düşmüş barıt çəlləyi vəziyyətinə

salardı. Meydanı tanklar yeni-dən iki dəfə mühasirə etdi. Bir nəfər də olsun yerindən tərpənmədi, tank-ların uğultusuna, gurultusuna reaksiya verən olmadı. Meydan hər tərəfdən 15-ə qədər tankın əhatəsində idi. Adamlar o qədər cəsur və qorxmaz görünürdülər ki, sanki icazə verən olsaydı bu tankları yerlə-yeksan edərdilər. İnsanların bu əzəmətli duruşu qarşısında tanklar gəldikləri hay-küydən fərqli olaraq sakitcə dönüb getdilər.

Şəhidlərin harada dəfn olunması məsələsində Dəfn Komissiyası təşəbbüs qrupu üzviəri arasında fikir ayrılığı meydana çıxdı. Bir qrup şəhidləri Dağüstü parkda, digər qrup Dəmiryol vağzalı qarşısındakı İliç bağın-da, digər qrup isə 26-lar bağında dəfn etməyi təklif edirdi. İliç bağını təklif edənlər bunu əsas götürürdülər ki, şəhərin mərkəzi və Dəmiryol vağzalının yaxınıdır. Şəhərimizə gələn hər bir adam şəhidiərimizin məzarını görüb dərdimizdən, tariximizdən xəbərdar olar. Dəfn Komissiyası təşəbbüs qrupunun üzvləri bu təklifin müsbət tərəflərini etiraf etməklə paytaxtın mərkəzində qəbirstanlıq salmağı məsləhət bilmədi, təklif müəllifləri bununla razılaşdı. 26-lar bağının Şəhidlər qəbiristanlığına çevrilməsinə çoxluq etiraz etdi. Dağüstü parka ona görə üstünlük verildi ki, burada 1918-ci ilin martında ermənilərin amansızlıq və faciəvi vəziyyətdə öldürdüyü 10 mindən artıq şəhidimiz dəfn olunmuşdur. Rus-erməni imperiyası Azərbaycan xalqının gözü qarşısında şəhidlər qəbiristanlığını restorana, pivəxanaya, bara, rəqs meydançalarına, müxtəlif əyləncə və sərxoş gəzintisi zonasına çeviriblər. Şəhidlərimizin ruhu rus-erməni faşihələrinin, sərxoşlarının ayaqları altında inlədiyinə dözdüyümüz üçün tarix 72 ildən sonra həmin əllərlə, həmin amansızlıqla yenidən Azərbaycan xalqını cəzalandırdı. Şəhidlərimizi Dağüstü parkda dəfn etməklə 1918-ci ii şəhidlərimizin də ruhunu düşmən və simasız insanların tapdağından xilas etmiş olarıq. Qismən də olsa milli günahımızı yuyarıq. Bu fikri hamı yekdilliklə qəbul etdi. Saat 12 radələrində sabah (21 yanvarda) səhərtezdən Dağüstü parkda şəhidlər üçün qəbir qazılacağını elan etdik. Bildirdik ki, kim iştirak etmək istəsə, sabah qazma aləti ilə burada olsun, Dağüstü parka gedək. Saat 5 radələrində Dəfn Komissiyanın təşəbbüs qrupu sabah fəaliyyətə başlayacaq Dəfn Komissiyasının üzvlüyünə özlərinin birbaşa təklifi ilə respublikanın "görkəmli şəxsiyyətlərindən ibarət 121 adamı qeydə almışdı. Onlardan "ən görkəmli 11 nəfəri" Dəfn Komissiyası üzvləri kimi ayrıca qeyd edilmişdi. Meydanda milli istiqial yolunda minlərlə insan həyatını qurban verməyə hazır vəziyyətdə dayanmışdı. Dəfn Komissiyasının təşəbbüs qrupu milli vicdan və ləyaqət meyarları ilə mitinqi idarə edir, hərəkatı istiqamətləndirirdi. Axşam saat 6 radələrində AXC İdarə Heyətinin üzvü İsa Qəmbər meydana gəldi. AXC-nin bəyanatını oxudu. İmperiyanın Azərbaycan xalqına qarşı ədalətsiz, qanunsuz hərbi təcavüzünü qətiyyətlə lənətlədi. Əhalini maksimum ehtiyatlı olmağa çağırdı. Gecə meydanda qalmamağı tövsiyyə etdi. İsa Qəmbərin gecə meydanda-qalmamaq təklifi əhaii arasında mənfi reaksiya doğurdu. Bu reaksiya artıq kütlə emosiyası deyil, minlərlə insanın düşmənə

qarşı qəti mübarizəyə girmək tələbi idi. Qüdrət Əbdülsəlimzadə və Xəliyəddin Xəlilov çıxış edərək gecə meydanda qalmamağın vacibliyi səbəblərini izah etrnəklə əhalini sakitləşdirdi və bu fikirlə razılaşdılar. Hazırki şəraitdə artıq itkilərə yol vermədən imperiyaya qarşı mütəşəkkil mübarizə aparmaq üçün rəhbərliyi məsləhət bilinmiş adamların tövsiyyə və tapşırıqlarma əməl etməyin vacibliyini əhaliyə izah etdilər. Əsaslı şəkildə izah etdilər ki, imperiyanın əlavə təxribatlarına yol verməmək üçün MK-nın binası qarşısındakı meydan gecə mütləq boşaldılmalıdır. İmperiya əhalinin gecə burada qalmasından istifadə edərək təxribat törədib binaya xəsarət yetirməklə Azərbaycanda süni surətdə dövlət çevrilişi cəhdi olduğunu və qarşısını almaq üçün silah işlətməl məcburiyyətində qaldığını uydura bilər. Digər tərəfdən, burada qalan adamlar ailəsinə, qohum-əqraba və bütün vətənpərvər adamlara əlavə həyəcan və mənəvi əzab-əziyyət yaradacaq. Odur ki, indiki şəraitdə gecə meydanda qalmağa ehtiyac yoxdur.

Əhali meydanı boşaltdıqdan sonra təkrar toplanmağa imkan verilməməsindən ehtiyat edirdi. Dəfn Komissiyası təşəbbüs qrupunun üzvləri çıxış edərək belə bir işə heç bir hakimiyyətin və ordunun gücünün çatmazlığını izah etdi. Qəti şəkildə bildirdi ki, Dəfn Komissiyası heç bir hakimiyyətə, ictimai-siyasi təşkilata qulluq etməyəcək, xalqa xidmət edəcək və bu meydanda xalqın qarşısında hesabat verəcək. Şəhidlərin Dağüstü Parkda dəfni başa çatana kimi bu gün meydana rəhbərlik etmiş adamlar xalqla bir yerdə olacaq, onların arzu və təkliflərini həyata keçirəcək. Odurki şəhidlərin ünvanını müəyyən etmək, istirahət etmək üçün hamı evə getməli, səhər saat 8-də meydanda olmalıdır ki, görüləcək işlər planlaşdırtsın və həyata keçirilsin. Dəfn Komissiyası təşəbbüs qrupunun izahatından dan sonra əhali tərəddüd etmədən meydanı boşaltdı.

Əhali meydandan çıxıb gedəndən sonra Dəfn Komissiyası təşəbbüs qrupu sabahkı işləri müzakirə etdi. Səhər tezdən Dəfn Komissiyasının üzvləri kimi siyahıya alınmış 121 adamın iş bölgüsü aparılmalı, özümüz də onların sırasında yer tutmalıydıq. Ordunun pArkda dəfnə mane ola bilmək ehtimalının qarşısını almaq, hər hAnsı münaqişəyə yol vermərnək üçün şəhidlərin Dağüstü parkda dəfn edilməsinə rayon ərazi rəhbərliyi'j dən icazə sənədi alaq. Sabahkı işin qısa pianını müəyyən etdikdən soij ra Dəfn Komissiyası təşəbbüs qrupunun üzvləri də evlərinə getdi.

Yuxarıda qeyd olunduğu kimi 18 yanvar 1990-cı ildə MK-nın binası qarşısında mitinqin kim tərəfindən başlanması hamıya məlum deyildi, hə- rəkat faktiki olaraq AXC-nin nəzarətindən çıxmışdı. Yaranmış şərait AXC rəhbərliyinin müxtəlif qüwələrin mənafeyinə xidmət edən fraksiyalardan ibarət olduğunu aşkArladı. Azərbaycandakı hadisələrə, o cümlədən meydana rus imperiyasının, onun nüfuzlu siyasətçi, kəşfiyyatçı və hərbçiləri Primakov, Girenko, Yazov, Bakatin, Kryuçkov və s. rəhbərlik etdiyi güc-lü idarə və təşkilatların, Azərbaycandan isə H. Əliyev, Həsən Həsənov, Əbdürrəhman

Vəzirov və AXC-nin açıq və gizli təsirləri vardı. Qorbaço-vun Azərbaycanda keçirəcəyi 20 yanvar hərbi əməliyyatını ABŞ və s. im-perialist dövlətlərlə razılaşdırdığını nəzərə alsaq Meydana, Azərbaycan milli-azadlıq hərəkatına təsir edən qüwələrin miqyası qismən də olsa aydınlaşar. Bütün bu qüwələr qarşısında Azərbaycan xalqının da öz mənafeyi var idi. 1988-ci ilin fevralından imperiyanın və digər qüwələrin əsirinə qarşı Azərbaycanda baş verən hadisələrin xronikası göstərdi ki, milli müqavimət ardıcıl olaraq mütəşəkkilləşir, Azərbaycan əhalisində vahid milli orqanizmə çevrilmə prosesi getdikcə sürətlənir. Odur ki, Azərbaycan xalqının vahid milli orqanizmə çevrilməsinin qarşısını alıb, onu kütlə halında saxlamaq üçün burada iqtisadi-siyasi hakimiyyətini möh-kəmləndirməyə çalışan rus imperiyası, digər beynəlxalq, yerli siyasi və mafioz qüvvələr milli birliyin ocaqlarını məhv etmək, xalqı parçalamaqla yaranmaqda olan milli-mənəvi birləşmənin qarşısını almağı qarşılarına başlıca məqsəd qoymuşdu. Barrikada qurub döyüşməklə xəyanətkar imperiyanın hakimiyyətindən azad olmaq Azərbaycan xalqının başlıca arzusu və istəyi idi. İmperiya 8-ci sinif təhsilli bir yük daşıyan fəhləni, Rəhim Qazıyev və s. kimiləri milli hərəkata lider kimi sırımaqla Azərbaycan xalqının milli-azadlıq hərəkatını DTK oyunu kimi gözdən salmaq istəyirdi.

20 yanvar hərbi-siyasi irticasına Azərbaycan xalqının mütəşəkkil mü-qaviməti onun yetərincə möhkəm milli orqanizmə malik toplum olduğunu göstərdi. Gözlənilmədən dörd qoşun növünün hücumuna məruz qalan silahsız Azərbaycan xalqı çaşqınlıq keçirib mütəşəkkilliyini itirmədi. 20 yanvarın ölüm-dirim mübarizəli günləri Azərbaycan xalqına dost, düşmən münasibətli qüwələri bütünlüklə aşkarladı. Zəhərli, insan orqaniz-minə daxil olandan sonra bədəndə yenidən partlayıb orqanizmi daxildən darmadağın edən güllələrlə silahlanmış, quduzluq xəstəliyinə tutulmuş vəhşi kimi hərəkət edən rus-erməni ordusu ilə əli silahsız, təkbətək qalmış Azərbaycan xalqının düşdüyü müdhiş vəziyyəti dünyaya çatdıran yeganə adam Mirzə Xəzər idi. Azərbaycan mətbuatı onu doğma xalqına birsatqın, bir xain kfmi tanıtmışdı. Onun "Azadlıq" radiostansiyasındakı çıxışlarındakı həyəcanı bəlkə də tarixdə heç bir qərib keçirməmişdir. O, qan içində boğulan Azərbaycan həqiqətlərini dünyaya çatdırdığı zaman Moskva radiostansiyaları, onun Azərbaycandakı yerli əlaltıları şəhidləri xuliqan, ekstremist, "talpa" və s. adlandırmaqda davam edirdi. Həyat isə hər kəsin əməlini və səsini Azərbaycan xalqına çatdırır və eşitdirirdi. Bö-yük Sabir demişkən:

Sanma əzdikcə fələk bizləri viranlıq olur,
Un təmənnası buğda dəyirmanlıq olur.
Qarışıqdır hələlik millətin istedadı
Ələnirsə, safı bir yan, tozu bir yanlıq olur.
Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,
Yağı üstə çıxır, ayranı ayranlıq olur.

Kim ki, insanı sevər, aşiqi-hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə insanlıq olur.

Zaman Azərbaycan xalqını çalxayırdı, buğda kimi ələyirdi, safı bir yana, tozu bir yana, ayranı ayranlığa, yağı üstə çıxırdı. Zamanın dəyirmanı millət etmək üçün Azərbaycan xalqını buğda kimi üyüdürdü, mayası olan (milli vicdan) təhnəyə düşür millətə qalır, mayasızlar toz kimi havaya sovrulurdu.

Araşdırmamız göstərir ki, 20 yanvar günü saat 2-yə qədər imperiyaya qarşı mübarizədə şəhid olanların axtarılıb tapılması, onların hörmətlə dəfn edilməsi, xatirəsinin əbədiləşdirilməsi və s. üçün hər kəs öz işini müəyyən etmişdi. Artıq Azərbaycan xalqı vahid milli orqanizm kimi hərəkət edirdi. Məhz bunun nəticəsi idi ki, o bədənindən tullantılan, ifrazatı (milli simanı itirmişləri) təmizləməyə, millət olaraq problemlərini birbaşa özü həll etməyə başladı. 21 yanvar səhər tezdən Bayıl meydanında dünən vətənpərvərlərin şəhid olduqları, insan qanı tökülmüş yerlərə təzə-tər qərənfillər düzülmüşdü. Bu tezliklə onu kim düzmüşdü, bu tədbir kimin ağlına gəlmişdi, düşüncələri ilə piyada MK-ya tərəf üz tuturam. Yol boyu MK-nın binasına tərəf böyük insan axını var. MK-nın binasına çatıram. MK-nın binası qarşı tərəfdən bütün divar boyu şüar və rəsmlərlə doludur: "Qorbaçov, tı ubiytsa naşix detey!", "Qorbaçov ubiytsa!", "Mişa, tı otvetiş!", "Sovetskie soldatı •palaç!", "Krovavıy Qorbaçov, tı palaç!", "Sovetskaya armiya – faşistskaya armiya!", "Doloy KPSS!!!", "Qeneralnıy qolovorez, uberi svoix palaçey". Sonuncu dörd şüar iri hərflərlə bütün divar boyu yazılıb. Altda isə ingiliscə "Azad Azərbaycan, çox yaşa" cümləsi var.

Şüarlar arasında dörd rəsm də çəkiiib. Onların birində Qorbaçovun başı təsvir olunub. Dəniz quldurlarının bayrağındakı kəlləyə bənzədilən bu şəkildə Qorbaçovun alnındakı (sağ tərəfdəki) uzun qara ləkələrin yerinə oraq-çəkic, çənəsinin altında isə beşguşəli ulduzla ayrılan iki çəpinə sümük çəkilib.
İkinci rəsm iki ilgək sallanan dar ağacından ibarətdir. Dar ağacının sağ tərəfində oraq-çəkicli bayraq təsviri var, bayrağın üstündə və altında "SSSR - oplot kolonializma!" ("SSRİ müstəmləkəçiliyin dayağıdır!") cümləsi yazılıb. Üçüncü rəsm də dar ağacıdır. Bu dar ağacından 7 ilgək sallanır, üstündə isə "Demokratiya KPSS" yazılıb. Dördüncü rəsmin - Kremlin yanında "volke loqovo" ("canavar yuvası") sözləri qeyd olunub. -

Meydana gəlmiş adamların məlumatından aydın olur ki, Bakı və onun ətrafında vətənpərvərlərin şəhid olduğu, qanı düşdüyü bütün ərazilər, güllə yarası almışağacların, düşmən gülləsindən dəlik-deşik olmuş daş divarların yarası da qərənfillə örtülmüşdü. Bu Azərbaycan xalqının Vətənin, onun igidlərinin yaralarına güldən, çiçəkdən məlhəm qoyma, şəhidlərin ruhunu şad etmə adəti idi. Imperiyanın uzun illər unutdurduğu bu adəti əhtəlşüur vəziyyətdə ruhunda yaşatmışdı. Azərbaycan xalqının ruhunda baş verən dəyişiklik hər yerdə, hər kəsdə görünmədə idi. Bu dəyişikliyi Ədalət Tahirzadə belə qeyd edir: "XI ordu abidəsində kəndlinin əlindəki ayın 19-undan sancılan milli bayraq və onun

"dayandoldurum" tüfənginin ucundakı qara bayraq oldu. Milli bayraq srağagünkü, qara bayraq isə dü-ənkidir. Aradan keçən bir gündə böyük bir tarix baş verib" [1 ,-11, 45]. Azərbaycan xalqı bir gündə 20-25 il vaxt sərf olunacaq bir oyanış yolu keçmişdi.

Dünyanın ən böyük imperiyasının ən amansız ordusu ilə üz-üzə durmuş Azərbaycan xalqı bir gündə özü-özünü idarə edən millət kimi dünya-ya təqdim edirdi. Ona lazım olan hər şeyi - şüarları, şəxsiyyəti, liderləri həyata gətirirdi.

Dəfn Komissiyasmın təşəbbüs qrupunun üzvləri 21 yanvarda səhər saat 7.30-da MK qarşısında meydanda idi. Saat 9-da Azər Nəbiyev gəlib məlumat verdi ki, 26-lar RXDS İcraiyyə Komitəsinin sədri Əli Məmmədov şəhidlərin Dağüstü parkda dəfn olunmasına rəsmi icazə verdi.

Saat 10 radələrində MK-nın binası qarşısında izdihamın coşqunluğu,. Xəzərdən gəmilərin ucalan həyəcanlı fit səsi, Salyan kazarmasında hələ də davam edən "döyüş", bir yandan ötüb keçən tankların gurultusu, birtərəfdə başı dəbilqəli, əli qalxanlı və dəyənəkli yekəpər rus əsgərlərinin sıx cərgəsi, qopardığı təpik səsi, bir yanda rus əsgərlərinin havaya açdığı atəş sədaları altında düşməndən intiqam almaq hissi ilə coşmuş insanların rəhbərlik etmək məsuliyyətinin vahiməsi adamı basırdı. Saat 10-nu keçməsinə baxmayaraq bir gün əwəl Dəfn Komissiyasının üzvü kimi qeydə aldığımız 121 nəfər Azərbaycanın "görkəmli şəxsiyyətindən" bir nəfər də olsun meydana gəlib çıxmamışdı. Məzar qazmaq üçün özü ilə gətirdiyi beli, lingi, düsəri və s. əllərində tutmuş adamlar artıq səbrini basa bilmirdi. Soruşurdular? - Bəlkə şəhidləri Dağüstü parkda dəfn etməyə icazə vermirlər? Dəfn Komissiyası təşəbbüs qrupunun üzvləri isə 121 "görkəmli şəxsiynin dönüklüyü haqqında həqiqəti xalqa deyə bilmirdi. Yalnız tezliklə başlayacağını deyirdi. Saat 11.30-a qədər Azərbaycanın 121 "görkəmli şəxsiyyəti"ndən bir nəfər də olsun meydana gəlmədi. Elə həmin vaxtda Dəfn Komissiyasının təşəbbüs qrupunun üzvləri Qüdrət Əbdülsəlim[i]zadə, Xəliyədin Xəlilov, Azər Nəbiyev, Rəhim Qasımov, Nəriman Əliyev, Xalid Muxtarov və İsmayıl İncəlidən ibarət Dəfn Komissiyasının ya-radıldığını elan etdi. Elə həmin andan da Dəfn Komissiyası fəaliyyətə başladığını bəyan etdi. Bildirdi ki, məzarların qazılması üçün Dağüstü parka gedirik. Məzarların qazılması, şəhidlərin sayının müəyyən edilməsi və sabah onların dəfnini təşkil etmək istiqamətində fəaliyyətə başlayırıq. Bu işin təşkilində bizə yardımçı olmağı hamıdan və Azərbaycanın dövlət təşkilatlarından xahiş edirik. Dəfn Komissiyası fəaliyyəti dövründə dövlət təşkilatlarından birbaşa Bakı şəhəri XDSİK-lə əlaqə saxlayacaq. Milli şərəf və ləyaqətimizi qorumaq naminə bütün vətəndaşlarımızı Dəfn Komissiyasına yardımçı olmağa çağırırıq.

Dəfn Komissiyası elanı qurtarıb, izdihamın qarşısına düşüb Dağüstü parka yollandı. Beləliklə, MK-nın binası qarşısındakı yüz minlərlə insan Dağüstü parka axışdı.

Məzarların yerini müəyyən edərkən Bakı şəhər Baş Tikinti İdarəsinin rəhbərliyi, Bakı şəhəri "Bərpaçı" idarəsinin rəhbərliyi və fəhlələri bizimlə birlikdə işləyəcəklərini bildirdi. Göründüyü kimi, hakimiyyət orqanları yaranmaqda olan Dəfn Komissiyasını, xalqın rəftar və davranışını izləyir, lakin ona müqavimət göstərəcək tədbirə əl atmağı mümkün hesab etmədiyindən komissiyaya daxil olmaq və ona daxildən təsir etmək məcburiyyətində qalmışdı.

Məzarların qazılmasına başiayan elə ilk dəqiqələrdə aydın oldu ki, Dəfn Komissiyasının rəhbərliyini müəyyən etmədən, üzvləri arasında dəqiq iş bölgüsü aparmadan işi qurmaq mümkün olmayacaq. Yuxarıda adları çəkilən Dəfn Komissiyası üzvlərinin iştirakı ilə komissiyanın sədri, müavinləri və üzvləri seçildi. Xəliyəddin Xəlilovun təklifi ilə Qüdrət Əbdülsəlimzadə Dəfn Komissiyasının sədri, sədrin təktifi ilə isə Xəliyəddin Xəlilov və Azər Nəbiyev sədrin müavinləri seçildi. Rəhim Qasımov, Nəriman Əliyev, Xalid Muxtarov, İsmayıl İncəli Dəfn Komissiyasnın idarə heyətinin üzvləri seçildi və onlar arasında iş bölgüsü aparıldı.

Məzarların yeri müəyyən ediləndən sonra insanlar görünməmiş bir hərarətlə işə girişdi. İşləmək üçün əmək aləti çatmayan adamlar dözüm-süzlük göstərib həyəcanlamrdı. 2-3 saat ərzində əhali məzarlar qazılan əraziyə lazım olan o qədər alətlər gətirdi ki, sıxlıqdan adamların işləməsi mümkün olmadı. Dəfn Komissiyası işləyən adamların bir-birinə mane olmaması üçün növbə yaratdı. Rus imperiyasının, onun yerli orqanları-nm hakimiyyətinə tabe olmayan, dişindən dırnağına qədər silahlanmış rus ordusu ilə üz-üzə durmuş Azərbaycan xalqtnın minlərlə övladı bir gün əwə! ona xidmətini təklif etmiş yeddi nəfər adamın tapşırıq və gös-tərişlərini icra etmək üçün növbəyə dürmuşdu.
Məzarların qazılmasının elə ilk anlarında 1918-ci il şəhidlərinin yanmış sümüklərinin çıxması əhalini həyəcana gətirdi, rus ordusuna qarşı döyüşə alovlandırdı. Ling, balta, lapatka və s. silahlanmış intiqam hissi ilə alovlanan, orduya hücum etməyə can atan minlərlə insanları sakitləşdirmək Dəfn Komissiyası üçün elə bir gözlənilməz çətinlik yaratdı ki, az qala hərəkət nəzarətdən çıxacaqdı. Bu vaxt məzar qazan minlərlə insanin ordu ilə toqquşmasının minlərlə adamı əhatə edəcək qırğına çevriləcəyi hər kəsə aydın idi. Görünür, Dağüstü parkda əhalinin əhvali-ruhiyyəsini dəqiq izləyən imperiya kəşfiyyatı toqquşmanın nəticə etibarı ilə onun xeyrinə olmayacağını nəzərə alıb Dəfn Komissiyasının tələbilə hesablaşmağa məcbur olub parkı əhatə edən ordunu dərhal uzaqlaşdırdı. Dəfn Komissiyası üzvləri 1918-ci il şəhidlərinin sümüklərini ayrıca dəfn edəcəyi, rus-erməni təcavüzü başlanan 200 illik dövrdə verdiyimiz şəhidlərin hamısının qisasının alınacağı inamı ilə əhalini sakitləşdirirdi.

Məzarların qazılması işini təşkil etdikdən sonra Dəfn Komissiyasının üzvləri sabahkı işləri pianlaşdırmaq üçün məşvərət keçirdi. Şəhidlərin sayının müəyyən edilməsi, məzarların hazır vəziyyətə salınıb, dəfndə məzarların qurulmasında

lazım olan materialları əldə edilməsi, cənazələrin haradan götürülməsi planlaşdırıldı. Yekdil qərara alındı ki, cənazələr məsciddən Azadlıq meydanına, oradan da çiyində izdihamla Dağüstü parka dəfn olunmaq üçün gətirilməlidir.

"Bərpaçı" idarəsinin rəisi Malik Mehdiyev bildirdi ki, onun rəhbərlik et-diyi idarədə məzarlığın ilkin sahmanı üçün bütün materiallar var. Lakin materialın şəhidlərin dəfnində işlədilməsinə Bakı şəhəri XDSİK göstəriş verməlidir. Elə bu zaman Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Allahşükür Paşazadə Dağüstü parka gəldi. Dəfn Komissiyası onun bu orqana üzv olmasını əvvəlcədən vacib hesab edirdi. Onunla məsləhətləşmək üçün Təzəpir məscidinə getməyi nəzərdə tuturdu. Qeyd etmək lazımdır ki, 20 yanvar günü Dəfn Komissiyasının üzvü kimi siyahıya alınan 121 adamın ən seçilmişləri olan 11 nəfərin arasında onun da adı vardı. Təəssüf ki, hamı kimi o da müəyyən olunmuş vaxtda meydana gəlməmişdi.

Şeyx Hacı Allahşükür Paşazadə Qafqaz Müsəlmanları idarəsinin imkanı daxilində Dəfn Komissiyasına köməklik göstərəcəyini vəd etdi. Şeyx Dəfn Komissiyasının şəhidlərin məsciddə yuyulduqdan sonra cənazənin Azadlıq meydanında toplanması və hamısının eyni vaxtda dəfn üçün Dağüstü parka gətirilməsi təklifini bəyəndi, lakin cənazələrin hamısı üçün mafə olmadığını bildirdi. Mafəsiz isə bu işin təşkilinin mümkünsüzlüyünü bildirdi və işin təşkilini üzərinə götürmədi. Beləliklə, işin təşkili üçün vacib bir məsələnin həlli açıq qaldı. İş prosesində fəaliyyət imkanını genişləndirmək məqsədilə "Bərpaçı" idarəsinin rəisi Malik Mehdiyev, Bakı şəhəri 8 saylı tikinti idarəsinin mühəndisi İbrahim Əliyev, adamlarla qısa müddətdə isti münasibət qurmaq bacarığı ilə fərqlənən "Kommunist” nəşriyyatının fəhləsi Bağır Bağırov Dəfn Komissiyasının idarə heyətinin tərkibinə daxil edildi. Məşvərət başa çatan kimi Qüdrət Əbdülsəlimzadə Azər Nəbiyevə şəhidlərin ünvanını müəyyən etməyi, Xəliyəddin Xəlilova dövlət təşkilatları ilə əlaqə saxlamağı, danışıqlar aparmağı tapşırdı. Mən (X. Xəlilov) dəfndə istifadə olunacaq mafələrin əldə edilməsi və ya hazırlatdırılması, Dağüstü parkda iş gedən ərazidə mikrofon qurdurulması məqsədilə Bakı Soveti XDPİK-yə getdim. Qapıçının məlumatından sonra məni binaya buraxdılar. İşçilərin əksəriyyəti koridorda dayanmışdı. Sifət quruluşuna görə azərbaycanlıya oxşasalar da, hamısı rusca danışırdı. Eşitdiyim qırıq-sökük ifadələrə görə AXC-ni və çuşkaları (rayondan gəlmələri) söyürdülər. Dəfn Komissiyasından gəldiyimdən xəbər tutmuşdular, demək olar hamısı məni nifrətlə süzürdü. İlk təəssüratdan bu təşkilatdan heç bir kömək ala bilməyəcəyimiz mənə aydın oldu. Bu hisslərlə Bakı şəhəri XDSİK sədri Niyazi Qaraqaşlının kabinetinə daxil oldum. O, çox könülsüz, bəlkə də əlacsız olduğundan salamımı aldı, "zdravstvuyte" deyə cavab verdi. Mən birbaşa mətləbə keçdim, gəlişimin səbəbini dedim. Bildirdi ki, Dağüstü park qəbirstanlıq deyil, orada heç kim ölüsünü dəfn etməyəcək. Bir də heç əslində ölən də yoxdur, beş-altı xəstə adam olub, onu da hərə öz qəbirstanlığında dəfn edər.

Dedim ki, mənə dediklərini xalqa çatdırsam, oturduğun binanı yerlə-yeksan edərlər, səni isə heç bir qüvvə xiias edə bilməz. Onsuz da qorxudan rəngi qaçmış Qaraqaşlının rəngi bir qədər də avazıdı, kəkələyə-kəkələyə yarı rus, yarı azərbaycanca - axı mən nə deyirəm, eşitdiklərimi deyirəm də, - deyə mızıldandı. Məfa düzəltdirməkdən o, qəti imtina etdi. Bildirdi ki, heç bir müəssisə işləmədiyindən mafə düzəltdirmək mümkün deyil. N. Qaraqaşlı imkan dərəcəsində Dəfn Komissiyasına kömək edəcəyini bildirdi. O, müavini Ədalət Əzizovu çağırtdırdı. Dəfn Komissiyası ilə əlaqə saxlamağı və lazımi köməklik göstərməyi ona tapşırdı. Ədalət naminə demək lazımdır ki, o, həmişə Dəfn Komissiyasına kömək etməyə çalışırdı. Sonralar N. Qaraqaşlının da Dəfn Komissiyasına gizli rəğbət göstərdiyini öyrəndim. Görünür, imperiyanın vəhşiliyi onun milii vicdanını qismən də olsa oyatmışdı.

Bakı Sovetindən qayıdıb danışıqlar haqqında Qüdrət Əbdülsəiimzadəyə məlumat verdim. Mafə hazırlanması üçün əhaliyə müraciət etmək qərarına gəldik. Və qərarımızı qan-tər içində işləyən əhaliyə elan etdik.

Çağırışımıza cavab oiaraq 35-40 yaşlarında bir nəfər oğlan Dəfn Komissiyası üzvlərinin yanına gəldi. Neçə ədəd mafə lazım olduğunu soruş-du. Bildirdik ki, ən azı 20 ədəd. O, səhər saat 7-yə qədər Təzəpir məscidinə 20 ədəd mafə düzəltdirib verəcəyini birmənalı şəkildə bildirdi. Bu şəxs əslən Laçın rayonundan olan, Bakı şəhərində yaşayan Ağayev Şakir Pirixan oğlu idi. O, vəd etdiyi kimi işi yüksək keyfiyyətlə və vaxtında yerinə yetirdi.

Dəfn Komissiyası Dağüstü parkda əhali ilə məzarların qazılmasına başladığı vaxtdan yüzlərlə adam ona yaxınlaşıb burada işləyən adamlara çay, çörək, ərzaq, hətta pul yardımı təklif edirdi. Lakin bu adamların ha-mısı adını və ünvanını gizli saxlayırdı. Təbii ki, bu adamların hamısı bu təklifi ürəkdən, təmiz niyyətlə edirdi. Sadəcə olaraq xalqının tərəfində olduğunu açıq nümayiş etdirməyə cəsarəti çatmırdı. Yaxın keçmişdə belələrinin "xalq düşməni" damğası ilə həbsxanalarda çürüdüldüyünü unutmamışdı. Dəfn Komissiyası birmənalı elan etdi ki, fəaliyyət göstərdiyi müddətdə işləyən adamların ərzaq təchizatı və digər məqsədlər üçün heç kimdən pul qəbul etməyəcək. Burada işləyən adamlara çay, çörək vermək və ya kimsə şəhidlərə ehsan vermək istəsə, onu özü sərbəst surətdə parkdakı binaların birində təşkil edə bilər. Az keçmişdi ki, Dağüstü parkda soyuq hava şəraitində işləyənlərə əhali tərəfindən yemək gətirilməsinə başlandı.

Dağüstü parkda şəhidlər üçün məzarlarmınqazılmasına başlanması ilə sanki Azərbaycan tarixinin yeni bir səhifəsi başlanır. Milli mübarizə, milli idarəçilik mərkəzi buraya keçdi. Hər tərəfdən insanlar Dağüstü parka axışırdı. Adamların çoxluğu, işləmək istəyənlərin yaratdığı növbələr məzarların qazılmasına mane olurdu. Saat 3-4 radələrində sabah, dəfnin başlanması vaxtına qədər məzarların hazır vəziyyətə salına bilməyəcəyi Dəfn Komissiyasına aydın oldu. İşləri sürətləndirmək üçün əlavə imkan-lar axtarıldı. Bunun üçün texnika gətirilməsinin lazımlığı bildirildi. Lakin minlərlə adam texnikanın gətirilməsinə

etiraz etdi. Məzarlar əllə qazılmalıdır, - deyə cavab verdilər. Ling, düsəri, bel və s. alətdən istifadə edən insanların asfalt və beton döşəməyə hücumu daha da gücləndi. İnsanlar dırnaqları ilə yeri didib dağıdır, şəhidlərin ruhunun rahatlanması naminə şüurlu bir əzab yolu keçmək istədiklərini bildirirdilər. Hava qaralır, komendant saatı yaxınlaşırdı. Dəfn Komissiyası gecə bir neçə adamın Dağüstü parkda qalıb məzarların qazılması işini davam etdirməsinə icazə almağa çalışsa da, mümkün olmadı. Yerli hakimiyyət orqanları isə Dəfn Komissiyasının işinə gizli və açıq üsullarla maneçilik törətməkdə davam edirdi. Hava qaranlıqlaşdıqca şəhərdə atəş səsləri eşidilirdi. Rus əsgərləri Dağüstü parkı hər tərəfdən yenidən mühasirəyə almışdılar. Hava tam qaran-lıqlaşdığından sərbəst işləmək və minlərlə insana nəzarət etmək mümkün deyildi. Odur ki, işləmək üçün şəraitin olmamasına görə və təxribat törə-dilməsindən ehtiyat edən Dəfn komissiyası işi dayandırmağı qərara aldı. Camaatdan xahiş etdi ki, yaxınlıqda yaşayan adamlar məzarların qazılmasında səriştəli adamları evlərinə aparsın ki, onlar tezdən xiyabana qayıda bilsin və günortaya qədər məzarları hazır vəziyyətə sala bilək.

Dağüstü parkın məzarlar qazılan ərazisindən hamı çıxdıqdan sonra Dəfn Komissiyasının üzvlərindən Qüdrət Əbdülsəlimzadə, Xəliyəddın Xəlilov, Azər Nəbiyev, Rəhim Qasımov, Nəriman Əliyev, Xalid Muxtarov 21 yanvardan 22 yanvara keçən gecə keçirilən Azərbaycan SSR Ali Sovetinin Fövqəladə Sessiyasında iştirak etmək üçün Ali Sovetin banasına gəldilər. Burada gördüklərimiz insan mənəviyyatı üçün 20 yanvar gecəsi rus ordusunun törətdiyi vəhşilikdən daha rəzil, alçaq və simasız idi.

İlkin olaraq gözlənilməz bir anlaşılmazlıqla qarşılaşdıq. Deputatların bəzisi binadan çıxıb getməyə çalışırdı. Ən çox cəbhəçilər və tanımadığımız adamlar onların binadan çıxmasına imkan vermirdilər. Hətta binadan çıxmaq istəyənlərə qarşı güc tətbiq edilməsi halları da olurdu. Lakin belə hallarda milis hadisəyə müdaxilə etmirdi. Dəfn Komissiyasının üzvləri gördüklərindən çaşqın vəziyyətə düşmüşdü. Zala daxil olandan sonra həqiqət onlara aydın oldu.

Sesiya Ali Sovetin deyil, onun deputatlarının üçdə birinin təşəbbüsü ilə çağrılmışdı. İmperiyaya daha sədaqətli olan deputatlar dolayı üsullarla Aii Sovetə gətirilımişdi. Odur ki, onlar imperiyaya qarşı hər hansı məsələnin müzakirəsinə yol verməmək üçün yetərsay yaranmasına yol verməmək üçün çıxıb getməyə can atırdılar. Onları buraxmayanlar isə sesiyanın baş tutmasını istəyənlər idi. Hadisələrin gedişi göstərirdi ki, sesiyanın çağrılmasını təşki! edənlər arasında da yekdillik yoxdur. AXC-dən təxminən 15-20 nəfər adam sesiyada iştirak edirdi. Sesiyada digər ictimai və qeyri-formai təşkilatların da nümayəndələri iştirak edirdi. Sesiyada AXC-nin üstün təsiri aydın duyulurdu.

Mən AXC İdarə Heyətinin üzvü və "Azadlıq" qəzetinin baş redaktoru Nəcəf Nəcəfovla görüşdüm, nə etmək, necə etmək məsələlərini onunla məsləhətləşdim.

O bildirdi ki, birinci növbədə "deputatların çıxıb getməsinə yol verməmək lazımdır ki, qərar qəbul etmək üçün yetərsay olsun.
Dedim:
- Nəcəf bəy, bizim mövqeyimizi müdafiə etməyən deputatlar bizə səs verərlərmi?
Nəcəf bəy özünəməxsus yumorla: - Bəy, narahat olma, o deputatlar tribunadan deyilən sözə əl qaldırmağa vərdiş ediblər, heç vaxt tribunadan deyilən sözün əleyhinə səs verməzlər, - dedi.
O bildirdi ki, nə cür olur-olsun, rus ordusunun törətdiyi vəhşiliyin cinayət və təcavüz olması haqqında Azərbaycan SSR Ali Sovetinin qərarına nail olmalıyıq. Bunun üçün bütün imkanlardan istifadə etməliyik. Çalişmaq lazımdır ki, rəqiblərimizə əks tədbir üçün imkan verməyək.
Beləliklə, Dəfn Komissiyasının üzvləri ilkin olaraq qaçmaq istəyən de-putatlara binadan çıxmağa imkan verməyənlərə kömək etdik. Bu işdə Xa lid Muxtarov və bu sətiriərin müəllifi daha çox əmək sərf etdi. Qaçmaq istəyən Əfrant Daşdəmirovun bu sətirlərin müəllifinin əlinə keçməsi qismət də olsa, onun əsəblərini sakitləşdirdi, Əfrant Daşdəmirovu milli cəzanın ilkin elementi ilə tanış etdi. Bəzi deputatlar, mülki geyimli, kimliyi bilinməyən adamlar tezliklə Dübniyakın gəlib hamını həbs edəcəyi haqqında şayiə yayaraq qorxu hissi yaradırdı. Ali Sovetin iclas zalında hər kəs özünə münasib qruplarla oturub söhbət edirdi. Adamlar zala tez-tez girib çıxırdı. AXC üzvləri zaldan çıxıb qaçmaq istəyən deputatları tutub geri qaytarmaqda davam edirdilər. Nəyin gözlənildiyi məlum deyildi, yetərsay olsa da, sesiya işə başlamırdı. Hamı hər dəqiqə nə isə bir hadisənin baş verəcəyini gözləyirdi. Lakin rəyasət heyəti kürsüsündə oturmuş İsmayıl Şıxlı və Bəxtiyar Vahabzadə özlərini sərbəst aparırdılar. Xüsusi olaraq Bəxtiyar Vahabzadə özünü Ali Sovetin sədri kimi aparırdı. O, gözlənilmədən orta cərgədə oturmuş Pənah Hüseynovun üstünə qışqıraraq: - Orada nə səs-küy salmısan, işimizi qurmağa imkan vermirsən, qırğının səbəbkarı sizsiniz, AXC-dir, - dedi. Ədalət naminə desək Pənah Hüseynov da elə başqaları kimi danışırdı. Onun ucadan danışıb başqalarına mane olması kimsənin diqqətini cəlb etmirdi. Bəxtiyar Vahabzadənin bu gözlənilməz hərəkəti hamının təəccübünə səbəb oldu. Bu ağır ittihamı cavabsız qoymağın mümkün olmadığını görən Pənah Hüseynov isə həmin sərtliklə ona cavab verərək dedi:
- Bəxtiyar müəllim, camaatı çaşdırıb fikrini başqa yerə yönəltmə, camaat buraya qırğının səbəbkarını müəyyən etmək üçün toplaşıb.
Bəxtiyar Vahabzadə ilə Pənah Hüseynovun bu dialoqu zaldakıların böyük əksəriyyətini məyus etdi. Mübahisədən doğan diskusiya zalda hay-küyə səbəb oldu. Yerlərdən "qırğının səbəbkarı AXC-dir", - deyə səslər də eşidildi. Zalda hadisələrin qiymətləndirilməsi başqa bir istiqamət almaqda idi. Birinci cərgədə oturmuş Nəcəf bəy ayağa durub camaatı sakitləşdirib dedi:

- Bəxtiyar müəllimin fikrini çox da şişirtməyin, nə olar, o, belə düşünür, müzakirədə hərə öz fikrini söyləyər.
İsmayıl Şıxlı yarızarafat, yarıciddi Bəxtiyar Vahabzadəyə müraciətlə:
- Sən sesiyanı başlayacaqsan, yoxsa yox, - deyə müraciət etdi. Bəxtiyar Vahabzadə ciddiyyətlə bildirdi ki, mən bu hay-küydə iclas apara bilmərəm.

İsmayıl Şıxlı yenə yarızarafat, yarıciddi Bəxtiyar Vahabzadəyə: - Onda bir stul yana keç, mən mərkəzdə sədr stulunda əyləşim, - dedi. Bəxtiyar Vahabzadə bir stol sola, İsmayıl Şıxlı isə onun yerinə keçməklə Azərbaycan SSR Ali Sovetinin Fövqəladə sesiyasını aparmaq üçün iclasa sədrliyə namizədliyini irəli sürdü. Nəcəf bəyin sözləri ilə desək, "tribunadan deyilən hər sözə əl qaldırmağa vərdiş etmiş" deputatlar yekdilliklə İsmayıl Şıxlının sədrliyinə səs verdilər. Sesiyanı açıq elan edən İsmayıl Şıxlı sovet qoşunları tərəfindən "Azərbaycan SSR-in suveren hü-quqlarının açıq-aşkar tapdalanması" haqqıda gündəliyi elan edib kəskin ifadələrlə imperiyanı ittiham etdi. O, mitinqlərdə Sovet dövlətini tənqid etsə də, onu imperiya adlandırmırdı. Sovet dövlətinə aid imperiya ifadəsini ilk dəfə işlədirdi. İsmayıl Şıxlı deputatlardan və ictimaiyyətin nümayəndələrindən sovet ordusunun Bakıda törətdikləri cinayət haqqında obyektiv fi-kir söyləməyi, həqiqəti deməyi xahiş etdi. İsmayıl Şıxlı sözünü qurtarmamış Azərbaycan KP MK-nın sabiq katibi İsa Məmmədov icazəsiz, qaçır-mış kimi tribunaya çıxdı. Bakıda törədilən bütün cinayətlərin səbəbkarının Vəzirov olduğunu söyləyib, deputatların Moskvadan onun haqqında cidd cəza tədbiri görməsi haqqında qərar qəbul etməsinin vacibliyini əsaslandırmağa çalışdı. Onun bu hərəkəti zalda ikrah hissi doğurdu. İsmayıl Şıxlı onun çıxışını dayandırıb, tribunanı tərk etməsini tələb etdi. Çixış üçün sədrdən icazə almağın lazımlığını zaldakıların diqqətinə çatdırıb, akademik İ. Mustafayevə söz verdi. İmam Mustafayev Qarabağ hadisəsinin kökündən, Moskvanın məsələyə tarixi münaslbətindən ətraflı bəhs etdi. M S. Qorbaçov başda olmaqla Sov.İKP MK-nı Bakı faciəsinin günahkarı kimi kəskin ittiham etdi. Deputatlardan rus ordusunun Bakıda törətdiyi cinayətlər haqqında qətiyyətli qanuni qərar qəbul etməyi, yerli hakimiyyət orqanlarına, xüsusilə hüquq mühafizə orqanlarına cinayətləri açmaqda qətiyyətli olmağı tövsiyə etdi. Ondan sönra çıxış edən deputatlardan yalnız Lütfiyar İmanov imperiyanın cinayətlərini kəskinliklə tənqid etdi, deputatları cinayətə qarşı barışmazlığa çağırdı. Onlardan başqa deputatlardan imperiyaya qarşı kəskin çıxış edən olmadı. Rus imperiyasını əsasən ictimaiyyətin nümayəndələri, xüsusilə AXC üzvləri ittiham edirdi. Zalda sesiyanın qətiyyətli bir qərar qəbul edə bilməyəcəyi, burada həbslərin olacağı haqqında şayiələr sönmür, əksinə, müxtəlif variantlar da söylənilirdi. Gecə saat 12-də Bakı şəhəri hərbi komendantı Dubniyak respublika DTK nın sədri Vaqif Hüseynovla birlikdə sesiya gedən zala daxil oldular. DTH və Moskva xofu ruhunda kök salmış deputatların həyəcanı özünü açıc büruzə verdi. İmperiyapərəst deputatların fəallaşdığı da dərhal özünü

göstərdi. Zalda onlarla AXC nümayəndələri arasında barışmaz münasibət tez-tez ziddiyyət doğururdu. Sesiyada deputatlar, sosial qruplar, ictimai təşkilatların nümayəndələri arasında ünsiyyəti başlıca olaraq Nəcəf Nəcəfov qururdu. Onun deputatların təcili tapılıb Ali Sovetə toplanmasın- da da ciddi əməyi olmuşdu.

Ali Sovetin fövqəladə sesiyasının qərar layihəsini Tofiq Qasımov, Sabit Bağırov və b. milli qüwələr hazırlayırdı. Qərarda həqiqətin yer tutaca- ğı aydın idi. Lakin Ali Sovetdə deputatların həbs olunacağı fikri daim inki- şafda idi. Zalda həbslərin keçirilməsi, qərarın müsadirə olunması ilə rus imperiyasının Azərbaycan xalqına qarşı törətdiyi cinayəti ört-basdır etməsi qorxusu milli qüwələri daxilən narahat edirdi. Nəcəf bəy sesiyada qəbul olunacaq qərarın bir nüsxəsini imzaladıb, möhürlədib sesiyada elar olunmamış binadan çıxarmağı təşkil etmək istəyirdi. Əgər sesiyanı başa çatdırmaq mümkün olmasa, həbs olunmuş sesiyanın qərarı haqqında Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə məlumat vermək mümkün olsun. Nəcəf bəy bu işin təşkilinə nail olanda onun sevincinin həddi-hüdudu yox idi. Hazırlanmış qərar iayihəsini Nəcəf Nəcəfov yenicə gəlib kürsüdə oturnuş Elmira Qafarovaya təqdim etdi. Qərar layihəsini oxuyandan sonra Elmira Qafarova zala müraciət etdi ki, kimin nə təklifi, əlavəsi var? Zaldan *səs* çıxmadı. Deputatlar inanmırdılar ki, E. Qafarova belə bir qərar oxuya bilər. Nəcəf Nəcəfov icazə alıb təklif etdi ki, "əgər Moskva bizim təklifınizi qəbul etməsə, Azərbaycan SSRİ-nin tərkibindən çıxacaq" qərarı mütləq yazılmalıdır. E. Qafarovanın acizanə xahişi nəticəsində Nəcəfin təklifi yumuşaldılıb, "Əgər sesiyanın növbəti iclasına qədər ittifaq orqalarından və hərbi komandanlıqdan müsbət cavab alınmazsa, sesiya işini fasiləsiz elan edir, SSRİ və Azərbaycan SSR arasındakı ittifaq münasibətlərinin kəsilməsinin müzakirəsinə başlayır" formasında qəbul olundu.

Beləliklə, Azərbaycan SSR Ali Sovetinin 21 yanvardan 22 yanvar 1990-cı ilə keçən gecədə çağrılan fövqəladə sesiyası milli qüwələrin açı təzyiqi altında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanını "təcavüz aktı",,"vəhşilik" və "Azərbaycan xalqına qarşı cina- yət" kimi qiymətləndirərək gecə saat 4 radələrində aşağıdakı qərarı qəbul etdi.

## BAKI ŞƏHƏRİNDƏ FÖVQƏLADƏ VƏZİYYƏTİN LƏĞV EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİNİN QƏRARI

Azərbaycan SSR Ali Soveti sovet qoşun hissələri və bölmələrinin yeganə məqsədinin SSRİ Konstitusiyasının 81-ci maddəsinə uyğun olarac Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisirıdə vəziyyətin normal hala salmaqdan və Azərbaycan SSR-in suveren hüquqlarını təmin etməkdən ibarət olmalı olduğunu qeyd edərək, SSRİ Müdafiə Nazirliyi, Daxiii İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsi qoşunlarının respublikanın paytaxtı Bakı şəhərində dinc

əhaliyə qanlı divan tıtulması, yüzlərlə adamın öldürülməsi və yaralanması ilə əlaqədar Azərbaycan xalqının qəzəb və hiddətini ifadə edərək, SSRİ-nin təşkili haqqında müqavilənin şərtlərinin və SSRİ Konstitusiyasının kobud surətdə pozulduğunu, suveren Azərbaycan Sovet Sosialist Respublikasının razılığı olmadan Bakı şəhərində fövqəladə vəziyyət elan oiunması və buraya qoşunlar yeridilməsi haqqında qərar qəbul etmiş SSRİ-nin hakimiyyət və idarə orqanları tərəfindən Azərbaycan SSR-in suveren hüquqlarının açıq-aşkar tapdalandığını təsdiq edərək qərara alır:

1. Bakida fövqəladə vəziyyət haqqında SSRİ Ali Soveti Rəyasət Heyətininin 19 yanvar 1990-cı il tarixli fərmanı Azərbaycan SSR-in suverenliyinə qarşı təcavüz, Bakı və onun ətrafında kütləvi qırğına səbəb olmuş icrasına sərəncam vermiş SSRİ ali hakimiyyət orqanlarının və ali vəzifəli şəxslərin hərəkətləri isə Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirilsin.

2. Bütün qoşun hissələrinin və bölmələrinin ən qısa müddətdə respublikanın paytaxtı Bakı şəhərindən çıxarılması tələb edilsin.

3.SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini kobud surətdə pozmaqla Azərbaycan SSR-in ali hakimiyyət orqanlarının razılığı olmadan qəbul edildiyinə görə, Azərbaycan SSR-in suverenliyi haqqında Konstitusiya Qanununun 6-cı maddəsinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyətinin Dağlıq Qarabağ Muxtar Vilayəti və Ermənistanla qonşu rayonların sərhəd zolaqları istisna olmaqla, Bakı şəhərində və Azərbaycan SSR-in digər rayonlarında fövqəladə vəziyyət elan edilməsi barədə 15 və 19 yanvar 1990-cı il tarixli fərmanlarının icrası dayandırılsın..

4.SSRİ Ali Soveti Rəyasət Heyətindən Bakı şəhərində və respublikanın rayonlarında fövqəladə vəziyyət elan edilməsi haqqında 1990-cı il 19 yanvar tarixli fərmanı dərhal ləğv olunması tələb edilsin, Bakı şəhərindən və həmin rayonlardan ordu hissələrinin və hərbi texnikanın çıxarılması barədə sərəncam verilsin.

5. Bakı şəhərində və Azərbaycanın digər rayonlarında Azərbaycan SSR vətəndaşlarına qanlı divan tutulmasının bilavasitə təşkilatçılarını, müqəssir olanları aşkar etmək üçün ictimai təşkilatların nümayəndəiəri daxil edilməklə deputat komissiyası yaradılsın.

6. Müttəfiq respublikaların Ali Sovetlərinə, dünyanın bütün demokratik hökumətlərinə belə bir çağırışla müraciət edilsin ki, yüzlərlə adamın həlak olması ilə nəticələnmiş və beynəlxalq hüquq normalarına zidd olan bu acı təcavüz və yəhşilik hərəkətlərini pisləsinlər.

7. Əgər İttifaq orqanlarından müsbət cavab alınmazsa, fövqəladə sesiya öz işini davam etdirsin. SSRİ və Azərbaycan SSR arasındakı ittifaq münasibətlərinin saxlanmasının məqsədəuyğunluğu haqqında məsələnin müzakirəsinə başlasın.

**Azərbaycan SSR Ali Soveti**
**Rəyasət Heyətinin sədri** **E. QAFAROVA.**

**Azərbaycan SSR Ali Soveti**
**Rəyasət Heyətinin katibi** **R. QAZIYEVA.**
***Bakı şəhəri, 22 yanvar 1990-cı* il.**

Sesiya həmçinin SSRİ Ali Sovetinin müttəfiq respublikaların A!i Sovetlərinə, SSRİ xalqlarına, dünyanın bütün ölkələrinin parlamentiərinə, Bir-ləşmiş Millətlər Təşkilatına, Azərbaycan SSR-də yaşayan bütün millətlərə və xalqlara Azərbaycan SSR Ali Savetinin müraciətini qəbul etdi.

Müraciətdə Sovet imperiyasının beynəlxalq və ölkə qanunlarına məhəl qoymadan Azərbaycanda törətdiyi vəhşilik dünya xalqlarına çatdırılaraq sonda deyilirdi: "Azərbaycan SSR Ali Soveti, Azərbaycan xalqı bu müraciəti ilə qanlı cinayətə öz münasibətinizi bildirməyinizi sizdən xahiş edir". Fövqəladə sesiya həmçinin 20 yanvar təcavüzünü, cinayətini və vəh-şiliyini təhqiq etmək üçün 21 nəfərdən ibarət deputat-istintaq komissiyası yaratdı. Midhət Abbasov komissiyanın sədri Tofiq İsmayılov, Lyubov Baruşeva, Tələt Qasımov, Mustafa Nəsirov, Valeh Bərşadlı, Sabir Rüstəmxanlı, Gennadi Qluşkov, Sidiqə Məmmədova, Əlisahib Orucov, Hüseynağa Talıbov, Tofiq Köçərli, Əkrəm Şəkinski, Rəşid Mahmudov, Surxay Tağızadə, Tamerlan Qarayev, Tofiq Qasımov, Cəfər Vəliyev, Aydın Məm-rnədov, Hüseynağa Sadıqov və Lidiya Rəsulova isə üzvləri oldular.

Fövqəladə sesiyada Dəfn Komissiyasının üzvlərindən Azər Nəbiyev, Xəliyəddin Xəlilov və Qüdrət Əbülsəlimzadə çıxış edərək imperiyanın təcavüzünə münasibətlərini bildirdilər. Sabah şəhidlərin dəfn olunacağı haqqında məlumat verərək bildirdilər ki, cənazələr Azadlıq meydanından Dağüstü parka gətiriləcək. Şəhidlərin dəfni zamanı Azadlıq meydanından başlamış Dağüstü parka qədər yolların ətrafında işğalçı rus ordusu göünməməlidir. Belə bir halın baş verməsi və ondan törənən hər hansı mənfi hadisəyə bilavasitə dövlət cavabdehlik daşıyacaq.

22 yanvar 1990-cı il, səhər saat 6.30-da hələ hava tam işıqlaşmamış Dəfn Komissiyasının Azərbaycan SSR Ali Sovetinin fövqəladə sesiyasında iştirak edən üzvləri Dağüstü parka məzarlar qazılan əraziyə gəldilər. Təxminən 25-30 dəqiqəyə məzarlar qazılan ərazi adamla doldu, kütləvi işə başladı. Saat 8-də Azər Nəbiyev şəhidlərin sayını müəyyən etmək üçün təzəpir məscidinə getdi. O, bundan başqa da əlavə vasitələrlə şəhidlərin sayını müəyyən etməli, saat 12-yə kimi komissiyaya məlumat verməli idi. Xəliyəddin Xəlilov cənazələrin Azadlıq meydanına gətirilməsi və digər işləri Dəfn Komissiyası ilə əlaqələndirməli idi

Dağüstü parkda işləri dayandırmağa açıq cəsarəti çatmayan hakimiyyət məzarların qazılmasına başlayan vaxtdan şəhidlərin burada dəfn edilməsinə qarşı təbliğata başlamışdı. Məzarların qazılmasında əhalinin coşqunluğunu söndürmək, şəhidlərin sahiblərinin cənazələrini burada dəfn etməkdən imtina etdirmək üçün şayiə başlanmışdı ki, şəhidlərin dəfninə imkan verilməyəcək, əgər bu iş baş tutsa

belə, vəziyyət sabitləşən kimi cənazələr 1918-ci il şəhidlərinin cənazəsi kimi başqa yerə köçürüləcək. Bu şayiələrin əhalidə çaşqınlıq yaratdığı bir vaxtda kimliyi bilinməyən bir dəstə adam yük qaldıran maşınla Kirovun heykəlini sökməyə təşəbbüs göstərdi. Bu xiyabanda dəfnin qarşısını almaq üçün qurulmuş bir təxribat idi. Dəfn Komissiyası əhalinin köməyi ilə bu dəstəni mühasirə edib, səs-küy saimağa imkan vermədən Dağüstü parkdan çıxardı. Əhalinin mütə-şəkkilliyi o qədər artmışdı ki, Dəfn Komissiyasının üzvlərinin göstərişi çox həssaslıqla yerinə yetirilirdi.

Dəfn Komissiyası çətinliklə də olsa bir səs gücləndirici qurmağa nail oldu. Elan verərək bildirdi ki, bu dəqiqədən etibarən Dağüstü parkda həyata keçirilən bütün tədbirlər, (dövlət və istərsə də ayrı-ayrı şəxslər tərə-findən) hamısı əwəlcədən Dəfn Komissiyası ilə razılaşdırılıb, onun tərəfindən camaata elan edildikdən sonra icra oluna bilər. Şəhidlərin Dağüstü parkda dəfn olunmasına imkan verilməyəcəyi və ya sonradan şəhidlərin nəşinin buradan köçürüləcəyi haqqında yayılan xəbər şayiədir. 20 yanvar şəhidləri burada Azərbaycan xalqının iradəsi ilə dəfn olunur, onun iradəsi ilə də burada əbədiləşəcək. Komissiya üzvlərinin bu kimi çıxışları əhalini sakitləşdirir, onda özünə inam yaradırdı.

Sətirlərin müəllifi Dağüstü parkdan Azadlıq meydanında işlərin gedişini öyrənmək üçün oraya yollandı. Nəqliyyat işləmədiyi üçün piyada getməli oldum. Mən (X.X.) Dağüstü parkdan AKP MK-nın binası qarşısına endim. Oradan Neftçilər prospekti ilə Azadlıq meydanına gəldim. Azadlıq meydanından Dağüstü parka qədər şəhidlərin cənazəsi keçəcək bütün yol qırmızı qərənfillərlə örtülmüşdür. Adamların keçməsi üçün qərənfillərlə kiçik cığırlar qoyulmuşdu. Öyrəndim ki, 21 yanvar günü hava işıqlaşan kimi Bakı kəndlərinin gül becərənləri yetişdirdikləri bütün gülləri istiqla! mübarizlərinin şəhid olduqları ərazilərə, şəhidlərin cənazəsi keçəcək yollara, hətta güllənin yol kənarında, parklarda yaraladığı ağacların yaralarına düzmüşdülər. Azərbaycan xalqnın bir gündə dünya görüşündə baş verəcək bu dəyişikliyi dünyada kimsə proqnozlaşdıra bilməmişdi. Uzun illər Azərbaycan xalqının təhtəlşüur vəziyyətə keçmiş vətənpərvərlik hislərinin, şəhidlərə münasibətdə bir neçə saat ərzində bütünlüklə oyanıb xalqın rəftar və davranış normasına çevrilməsini hətta psixoloqlar qavraya bilmirdi. Yanvar hadisələri zamanı Azərbaycana gəlmiş Avropa jurnaüstləri rus imperiyasının vəhşiliyini Azərbaycan xalqının qarşılama üsulunu, Dağüstü parkın və azadlıq mübarizlərinin şəhid olduqları digər ərazilərin hər gün təzə qərənfillərlə bəzədilməsini xalqın özü tərəfindən edildiyinə, onun dövlət və ya heç bir ictimai-siyasi təşkilat tərəfindən təşkil edilmədiyinə inana bilmirdilər.

Saat 11 radələrində Azərbaycan mehmanxanasının yanından Azadlıq meydanına daxil oluram (X.X.). Təxminən 200 adam meydana gül düzür. Mənimlə eyni vaxtda özünü Bakı Sovetinin işçisi adlandıran bir nəfər də meydana gül düzən adamlara yaxınlaşır. Onun dövlət nümayəndəsi oiduğunu

bilən kimi heç kim onunla danışmaq istəmədi. O isə sual verməkdə davam edirdi. Bir nəfər yaşlı kişi ona qəti şəkildə bildirdi: yaxşı oiardı ki, siz heç buraya gəlməyəydiniz, çıx get, qoy işimizi görək. O, pərtliyini büruzə verməməyə çalışaraq dönüb getdi. Meydana gül düzənlər mənim Dəfn Komissiyasından olduğumu bilən kimi, mənə hörmətlə yanaşdslar. Suallarıma səmimiyyətlə cavab verdilər. Öyrəndim ki, meydana gül düzən adamlar bir-birini tanımır. Hamısı eyni niyyətlə meydana gəlib, hər kəs bir tərəfdən ona gül düzür. Cənazələr meydana saat 12-də gətiriləcəyi üçün tələsirlər ki, meydanı bəzəyib qurtarsınlar. Meydanda vəziyyəti,görülmüş işləri öyrənib Dağüstü parka qayıtdım. Nəqliyyat işləmədiyindən Neftçilər prospekti ilə piyada qayıdıram. Mən meydana gələndə tək-tək evlərin balkonundan qara bayraq asılmışdı. Bir neçə dəqiqədən sonra geri qayıdanda artıq bütün balkonlardan, Qız qalasının, Filarmoniyanın üzərindən qara bayraq asılmışdı. Dağüstü park və ətrafı əhali ilə dolmuşdu. Azadlıq meydanında görülmüş işlər haqqında Dəfn Komissiyasına məlumat verdim. Məzarlann ətrafında yığılmış torpağın dəfnə mane olacağını nəzərə alıb, torpağı kənara daşıtdırdıq, məzarlarda son tamamlama işini sürətləndirdik. İstər Dağüstü parkda və istərsə də şəhərdə isanları ardıcıl narahat edən əsas məsələ Salyan kazarmasında 20 yanvardan davam edən atışma idi. Dəfnin başlanmasına az qalmış Salyan kazarmasında "atışma" səsləri daha da güclənir, onunla bərabər sürətlə yeni şaiyələrdə yaranırdı. İki gün Dağüstü parkda minlərlə adamın işləməsi, toplanmasıIbəstəkar Arif Məlikov istisna olmaqla nə respublikanın "görkəmli adamlaln"nı, nə də dövlət rəhbərliyindən kimsəni narahat etməmişdi. Onlardan kimsə Dağüstü parkda gedən böyük müqəddəs işlə, bu işin ehtiyacları ilə maraqlanmamışdı. Bu keçilməmiş ağır günlərdə Arif Məlikov tez-tez qaçaraq vəziyyətdə Dağüstü parkda işlərin gedişinə baş çəkir, Dəfn Komissiyası üzvlərinə ürək-dirək verirdi. Dağüstü parkda Salyan kazarmasından narahatçılığa da o, son qoydu. Bildirdi ki, kazarmaya dəfələrlə gedib və orada heç bir döyüş getmir. Bu, DTK-nın əhalini qorxu və vahimədə saxlamaq üçün təxribatıdır, qurmasıdır. Sadəcə olaraq qarşısını ala bilmirik.
Şəhərdə zavodların aramsız fiti, hərdən ona qoşulan Xəzərdəki gəmilərin həyəcan, inilti, yardım diləyən fəryadı tez-tez adamların əhvali-ruhiyyəsini dəyişdirir, insanları həyəcanlandırır, özünü "böyük qardaş" elan edən rusların xəyanətinə, simasızlığına nifrəti daha da coşdururdu.

Saat 12-yə 10 dəqiqə qalmış Xəzərin sahili ilə düzülmüş gəmilərin tük ürpəşdirici həyəcan səsinə Bakının fabrik və zavodlarından ucalan həyə-can siqnalı qoşuldu. Xəzərin sahilində, dağların qoynunda yerləşən Bakının köksündən qopan bu həyəcan səsi göylərin ənginliklərinə yüksəlir, zəlzələ kimi yer üzərində hər şeyi silkələyirdi. Şəhidləri ana qucağına -doğma torpağa tapşırmaq üçün dırnağı, dişi ilə betonları dağıdan minlərlə insan işi dayandırıb Dağüstü parkdan şəhidlərin cənazəsi düzülmüş "hökumət evi"nə tərəf boylanırdı. Azadlıq meydanı tərəfdən Xəzərin sahili boyu gözlə görünən hər yer

insanların sıx cərgəsi ilə örtülmüşdür. Sanki Xəzər sahili park və yollar üzərinə qara dalğalı bir örtük çəkilmişdi. Beş dəqiqəlik həyəcan səsinin kəsilməsi ilə şəhidlərin cənazəsini köksünə almış bu insan dənizinin necə haraya hərəkəti dərkedilməz oldu. Dağüstü parkda şəhidlərin cənazəsini gözləyənlər nəzərlərini insan dənizinə zilləyib dayanmışdılar.

Gəmilər fit səsini kəsən kimi Azadlıq meydanında şəhidlərlə son vida, mərasiminə həsr olunmuş mitinq başlandı. Əvvəlki qayda ilə tribunanı idarə edilməsini Nemət Pənahov və Rəhim Qazıyev ələ keçirdilər. Artıq 13 yanvar mitinqindən Nemətin DTK-nın pravakatoru olması kimsədə şübhə doğurmurdu. Lakin onun dediyi "O gecə (20 yanvar gecəsi - X.X. Cəlilabaddan keçib bizə köməyə gələn təbrizli qardaşlarımız vardı. Onlar gələndən 15 dəqiqə sonra atəş başlandı. Onlar da vuruşdular. Cənublu şəhid qardaşımızın qardaşı İbrahimə söz verilir" [1,-11,-52] - deyərək sözü ona verdi. Onun bu çıxışı, cənublu döyüşçü qardaşına söz verməsi kimi ifadələr imperiyanın Azərbaycana qoşun yeritmək hərəkatına bəraət qazandırmaq üçün DTK tərəfindən səsləndirilən fikir olduğu heç kəsdə şübhə doğurmadı. Nemətin saat 3-ə kimi cənazələri Azadlıq meydanın- dan götürməyə imkan verməmək cəhdi də əhali tərəfindən dəfni pozmaq kimi qiymətləndirildi. Ağsaqqallardan biri saat 12.50-də mikrofonu onun əlindən alıb Neməti kənara itələdi. Meydanı idarə etməyə başladı. Şəhid lərin ruhuna dua verib bildirdi ki, əhali tabutları götürüb onun arxasınca Dağüstü parka doğru hərəkət etsin. O, tribunadan enib tabutlardan birini qaldırtdırıb altına girdi. Dağüstü parka doğru hərəkət etdi. Bu qayda ilə adamlar bütün cənazələri çiyinlərinə qaldırıb onun ardınca Dağüstü par ka doğru irəlilədilər. İnsan dənizi Azadlıq meydanından Dağüstü parka doğru axdı. Yolun kənarında dayanmış adamlar çiyinlərdə gedən şəhid cənazələri üzərinə qərənfil atırdılar. İnsanların başı üzərində apardığı cənazələr dənizin sahildən qoparıb ləpələri üzərində əzizlədiyi gül ləçəklərinə bənzəyirdi.

Xəzərdən ərşə yüksələn gəmilərin həyəcan siqnalının müşayiəti ilə insan dənizi Dağüstü parka doğru hərəkət edirdi. Milyonlarla insanın ya-naqlarında göz yaşları ya şeh dənəsi kimi yumrulanmış, ya da axırdı. İnsanların üzlərində ruh düşkünlüyü və məğlubiyyət əhvali-ruhiyyəsi yox idi. Onların baxışlarından coşqun bir intiqam, döyüş hissləri yağırdı. Dəniz kimi dalğalanan insan axınında təsəwüredilməz bir sakitlik hökm sürürdü.

Sanki pıçıltı ilə danışan iki nəfər yox idi. Təzəpir məscidinin tələbəsi İbrahim Yarıyevin məlahətli səslə izdihamın önündə ucadan oxuduğu dualar və Xəzərdəki gəmilərin həyəcan dolu hıçqırığı qarşısında hər kəs səsini içinə çəkmişdi. Dağüstü parka doğru irəliləyən izdiham düşdüyü yer bir anda yuyub aparacaq qara buluda bənzəyirdi. "Komsomolskaya pravda"nın müxbiri Leonid Nikitin izdihamı təsvir edərək yazır: "Bütün bunlar qiyamət günündən xəbər verən nəhəng bir mozaikanı xatırladır"

Nəhəng bir qara bulud kimi irəliləyən izdiham Dağüstü parkın girəcəyinə çatdı. Parkı əhali tutmuşdu. Yol açıb cənazələri məzarların yanına keçirmək üçün buradan adamları seyrəltmək lazım idi.

Bu günlərdə Vətənin və millətin müstəqilliyi yolunda şəhid olmuş insanları onlara layiq dəfn edən rnərasim keçirən miiyonların nəcib işi qarşısında beş-on törtöküntüdən danışmaq bəlkə də artıqdır. Lakin həyat göstərir ki, bu beş-on törtöküntü əhəmiyyət verilmədiyindən milyonların, bütün bir ölkənin taleyinə qara səhifələr yazır. Xalqın yüz illik nailiyyətinin nəticəsini məhv edir. Onlar taun kimidir. Onlara göz yummaq vətənin, millətin faciəsinə yardımçı olmaq qədər cinayətdir.

Şəhidlərin hamısının bir yerdə dəfn olunması ideyası meydana çıxandan, hakimiyyət bu işi açıq pozmağa cəsarət etməsə də, şəhidlərin qohum-əqrabaları arasında Dağüstü parkda, onların hamısının bir yerdə dəfn olunmasının lüzumsuzluğu haqqında fikir yayırdı. Ən qorxulusu isə gec-tez 1918-ci il şəhidləri kimi 20 yanvar şəhidlərinin də cənazələrinin bir gün buradan köçürüləcəyi şayiəsi idi. Şayiə və hakimiyyətin dolayı təsirləri öz işini görmüşdü. Bir çox valideyn şəhid övladını Dağüstü parkda dəfn etməkdən imtina etmişdi. Hakimiyyət orqanları gizli pozuculuq işləriIni Dağüstü parkda dəfn başlayanda da davam etdirirdi. Pozuculuq işini hakimiyyətin qaragurundan yaratdığı - kobud, mədəniyyətsiz, heysiyyətsiz, əxlaqsız xüsusi dəstə həyata keçirirdi.

Dəfn Komissiyası Dağüstü parkda işə başlayan andan onlarla mübarizə şəraitində işləmişdir. Onların dəfnə mane olmağa çalışacaqlarını da əvvəlcədən nəzərə almışdılar. Dəfn Komissiyası nəzərdə tutduğu kimi cənazələrin Dağüstü parka çatması ilə qaragüruh daha da fəallaşdı. Onlar Dəfn Komissiyasının Dağüstü parkda ancaq rus əsgərlərinin gülləsindən həyatını qeyb etmiş şəhidlərin dəfn olunacağı elanından istifadə edib Fərizənin Dağüstü parkda dəfninə imkan vermirdilər. Bununla da qarışıqlıq salıb dəfni gecikdirməklə bütünlüklə şəhidləri Dağüstü parkda dəfn etməkdən çəkindirməyə cəhd göstərirdilər.

21 yanvarda Dəfn Komissiyası şəhidlərdən birinin həyat yoldaşının özünü intiharı haqqında məlumat aianda onu azərbaycan qadınına məxsus sevgi, sədaqət nümunəsi, tarixin nadir hadisəsi kimi Şəhidlər xiyabahında əbədiləşdirməyi qərara aldı.

Hadisə belə olmuşdu: XI Qırmızı Ordu meydanında aldığı güllə yarasından xəstəxanada gözünü əbədiyyətə yummuş İlham Allahverdiyevin həyat yoldaşı Fərizə xəbəri eşidən kimi "Mən onsuz yaşaya bilmərəm. Siz məni..." (nöqtələr onunla bir yerdə dəfn edilməkdir - X.X.) cümləsini yazıb, stolun üstünə düzülmüş toy şəkillərinin yanına qoyub intihar etmişdi. Toy günündən cəmi altı ay keçən bu gənclərin son qismətlərini eşitmək nə qədər ağır olsa da, milli ləyaqət baxımından qürur və iftixar doğururdu. Yalnız Azərbaycan qadınına məxsus əxlaqi dəyər nümunəsi idi. Odur ki, Dəfn Komissiyasının İdarə Heyəti

şəhidlərin cərgəsində Fərizəni birinci olaraq İlhamla yanaşı dəfn etməyi qərara aldı. Və bu haqda onların valideynlərinə məlumat verdi. Cənazələr məzarlar qazılan əraziyə daxil olanda Dəfn Komissiyası birinci məzarda Fərizənin dəfn olunacağı haqqında elan verdi. Həmişə Dəfn Komissiyası üzvləri arasında, ətrafında fırlanan qaragüruh Fərizənin şəhidlərlə birgə dəfn olunmasına imkan verməyəcəklərini bildirdilər. Fərizənin dəfn olunmasına müqavimətin kəskin şəkildə artdığı bir anda Nemət Pənahov öz dəstəsi ilə telestudiya tərəfdən parka daxil oldu, dərhal tribunanı ələ keçirdi. Dəstənin bir hissəsi onun ətrafında qaldı, əksər his-səsi Fərizənin dəfninə mane olan qaragüruhla birləşdi. Bu yaxın ətrafdakıların diqqətindən yayınmadı. Nemət nitq irad etməyə başladı:

- Ay camaat, qorxmayın, "Türkiyədən Azərbaycana 30 min əsgər keçib gəlir, biz rus ordusundan qisasımızı alacağıq...

Yaxın ətrafda onun sözlərini eşidən adamlar dözməyib: - Rədd ol burdan, - deyə qışqırdılar. Əhalinin Dəfn Komissiyasını birmənalı müdafiəsi komissiya üzvlərinin qətiyyətini daha da artırdı. Qüdrət Əbdülsəlimzadə təmkinlə mikrofonu Nemətdən aldı və onu mikrofondan uzaqlaşdırdı. Xalqa müraciət edərək bildirdi ki, bu gün burada şəhidlərin dəfni, onun necə dəfn olunması səlahiyyəti ancaq Dəfn Komissiyasındadır. Dəfn prosesində dini adətlərimizdən və dualarımızdan başqa heç nə səslənməyəcək. Dəfn Komissiyasının göstərişlərini eşitməyənlər işimizi pozan adamlar kimi qiymətləndiriləcək. Onlar haqqında xalqa, gördüyünüz izdihama məlumat verilcək. Məzarların arasına işimizə mane olan adamlar dolmuşdur. Onlar dəfni pozmaq istəyirlər. Onları aşkar edib ifşa etmək üçün camaat bizi eşitməlidir. Camaat, şəhidlərin qohum-əqrabası və yaxınları biz dediyimiz ərazidə dayanmaiı, Dəfn Komissiyası onları aparıb lazım olan yerdə qoyacaq və dəfnə şərait yaradacaq. Belə olduğu halda, pozucular işimizə mane ola bilməyəcək. Əgər tapılsa, operatorlarımız onları çəkəcək, biz isə onları gələcək nəsillərə milli xainlər kimi çatdıracağıq. Fərizənin dəfni məsələsinə gəldikdə isə, onun məsuliyyətini Dəfn Komissiyası öz üzərinə götürür. Bildiyiniz kimi, Dəfn Komissiyasının tərkibində dövlət nümayəndələri var. Onların vasitəsilə Fərizənin şəhidlərlə birlikdə Dağüstü parkda dəfni haqqında respublika rəhbərliyinə məlumat verilmişdir. Qüdrət Əbdülsəlimzadə Neməti tribunadan uzaqlaşdırdı, əhalini isə lazım olan qədər geri çəkə bildi. Onsuz da ifşa olunmuş Nemət dəstəsi ilə birlikdə ifşa olunacağından qorxaraq, Dağüstü parkı tərk etmək məcburiyyətində qaldı.
Dəfn gedən ərazidən əhali çıxarıldı, burada şəhidlərin bir neçə qohu-mu, din adamları və məzarları quran fəhlələr saxlandı. Beləliklə, şəhidlə-rin dəfni üçün normal şərait yarandı. İşləri bir qədər nizama salandan sonra Qüdrət Əbdülsəlimzadə AXC nümayəndəsi İsa Qəmbərə söz verdi. Onun çıxışı qısa oldu. O, şəhidlərin valideynlərinə və bütün Azərbaycan xalqına başsağlığı verdi. Bildirdi ki, imperiyanın təcavüzünü dəf etməyin yeganə yolu bugünkü birliyi qoruyub saxlamaqdır.

22 yanvar 1990-cı il, axşam saat 7.30-a kimi milyonlarla insanın qayğısı, köməyi, arxa durması sayəsində Dağüstü parkda 49 nəfər şəhid dəfn olundu. 200 ildən artıq vaxt idi ki, Azərbaycan istiqlalı yolunda ardıcıl şəhidlər verirdi. Lakin rus-erməni imperiyasının hiyləgərliyi, azərbaycanlıların siyasi yetkinliyinin lazımınca olmaması şəhidlərin xatirəsini əbədiləşdirməyə imkan vermirdi. Bununla da Azərbaycan milli-azadlıq hərəkatı xalqın yaddaşında kök sala bilmirdi. 22 yanvar 1990-cı il tarixdə Azərbaycan xalqı ilk dəfə istiqlal mübarizəsinin şəhidlərini milli qəhrəmanlar kimi düşmənin paytaxtımızın zirvəsində qələbə rəmzi kimi sərkərdəsi və ideoloqu Kirova qoyduğu heykəldən daha uca zirvədə dəfn etdi, əbədiləşdirdi. İstiqlal mübarizəsinin şəhidlərinin xatirəsinin imperiyanm işğalçı sərkərdəsindən yüksəkdə əbədiləşdirilməsi xalq tərəfindən müstəqillik uğrunda mübarizənin birmənalı dönməzliyi, rus ordusuna qarşı son qələbəyə qədər döyüşmək andı idi. Həyatını Vətənin azadlığı yolunda qurban verən bu igidlərin, əsrlərlə Azərbaycan xalq ədəbiyyatında məhəbbətin, sədaqətin, vəfanın qəhrəmanı kimi tərənnüm olunan Azərbaycan qadınmın real obrazı Fərizə ilə bir yerdə əbədiləşən məzarları, artıq məzarıstan deyil, bir millətin qürur, ıftixar mənbəyi, milli-azadlıq hərəkatına daima işıq salan günəşi idi. Dəfn aşlayandan axşam başa çatıb, əhalinin evə qayıtmasına qədər rus əsərləri Bakının küçə və meydanlarından bir nəfər kimi yığışdırılmışdı. Rus imnperiyası rəhbərliyi onun ordusu və hərbi komandanlığı Azərbaycan xalqının birmənalı, haqlı nifrətini qazandığını artıq başa düşmüşdü. Odur ki, ordu xalqla ehtiyatlı rəftar edirdi. 200 il kölə vəziyyətinə salınmış Azərbaycan xalqında milli şüurun yüksəlişi, milli mütəşəkkilləşmə gözlənilməz formalalarda elə süərtlə inkişaf edirdi ki, hətta onu qavramaq, iziəmək belə çətin olurdu,

23 yanvar, səhər saat 6.30-da evdən çıxıb (6-cı Bayıl - X.X.) Dağüstü arka tələsirəm. Neçə günün yorğunluğu və həyəcanı hamını əldən sal-ıışdı. Küçə ilə addımlayan yorğun, əzgin görünən insanlar şəhidlərin ziyaırətinə tələsirdi. Onların söhbətindən diqqətimi ilk cəlb edən şəhidlərin dəfn olunduğu ərazini Dağüstü park deyil, Şəhidlər Xiyabanı adlandırma oldu. On illər boyu qərarlaşmış anlayışların xalqın təfəkküründə bir neçə saatda dəyişməsi milli şüurda inqilabdan xəbər verirdi. I Şəhidlər Xiyabanının girəcəyinə çatıram. Burada Qüdrət Əbdülsəlimzadə təkcə dayanmışdı. Xiyabanda 350-400 nəfərə qədər adam - kişi, qadın, yeniyetmə əllərində kağız torba dünənki izdiham zamanı atılmış siqaret kötüyü, kağız və s. tullantıları yığır, xiyabanı süpürürdülər. Düşünürəm ki, yəqin dövlət təşkil edib. Öyrəndim ki, bu, işləyən insanlarm öz təşəbbüsü ilə görülən işdir. Əksəriyyəti də müəllim və həkimdir. 42 gün Şəhidlər Xiyabanını səhər saat 6-7 arasında yüzlərlə insan təmizləyirdi. Əksəriyyəti də ziyalı idi. Təxminən dəfnin ikinci həftəsi Bakı məktəbləri bu işə kütləvi qoşuldu. Bakı məktəblərinin müəllim və şagird heyəti hər gün nəinki Şəhidlər Xiyabanını, onun ətrafını da təmizləyir, səliqə-sahman yaradırdılar.

23 yanvar səhər saat 7.30-da Bakı kəndlərindən Şəhidlər Xiyabanına yük maşını (ZİL, QAZ-52) ilə qərənfil gətirdilər. Yaşlı adamlar idi. Yükləri boşaldandan sonra özləri ilə gətirdikləri cavanları xiyabanın girəcəyinin hər iki tərəfindən cərgəyə düzdülər. Cərgə ilə düzülmüş cavanlar şəhidlərin ziyarətinə gələnlərə rnəzarlara qoymaq üçün gül verirdilər. Bakı kəndlərinin Şəhidlər Xiyabanında başladığı bu iş şəhidlərin qırxından 20 gün sonra da, yəni 22 mart Novruz bayramı mərasimi başa çatana kimi davam etdi. Öyrəndik ki, bununla bərabər Bakı kəndləri gül becərənləri həmçinin şəhidlərin güllə yarası alıb, dünyalarını dəyişdiyi yerlərdə də hər gün gülləri təzələyirlər. Dəfn Komissiyası bu adamların adlarım qeydə almaq istəsə də, onlardan bir nəfər də olsun razılıq vermədi. Həyatını Vətənə qurban vermiş adamlarla müqayisədə bu heç nədir, - dedilər. Avropa jurnalistləri maşm-maşın qərənfilin pulsuz paylanmasma inana bilmirdilər. Onlar 3-4 gün ardıcıl Şəhidlər Xiyabanına gələndən sonra gördüklərinin Azərbaycan xalqına məxsus dəyərlər olduğuna inandıiar. 23 yanvarda səhər işə başlayarkən Dəfn Komissiyasınm İdarə Heyəti dəfnin müddəti məsələsinə toxundu, 2-3 gün davam edəcəyini ehtimal et-di. Lakin tezliklə yanıldığmı hiss etdi. Belə ki, 20 yanvar gecəsi alınan ya-ralardan və son günlərdə rus ordusunun Bakıda və respublikanın başqa ərazilərində əhaliyə silahlı təcavüzündən ölüm davam edirdi. Digər başlı-ca səbəb 20 yanvar hadisəsinin xalqın mənlik hissinə təsiri idi. Tezliklə Dəfn Komissiyasına aydın oldu ki, Şəhidlər Xiyabanında dəfn dayandırıi-sa belə, əhalinin buraya fasiləsiz axını, şəhidləri ziyarəti davam edəcək. Belə ki, uzun illər xaiqın şüuruna "böyük qardaş", "xilaskar" və s. kimi müsbət obrazlarla yeridilən rusların, onların dövlət və partiya rəhbərliyinin Bakıda fövqəladə vəziyyətin tətbiq olunmayacağı haqqında rəsmi bildirişinə, əhəmiyyət vermədən gizlicə, xəyanətkarcasına qoşun yeritməsi, ölkə və beynəlxalq qanunlara, müharibədə gözlənilən adi insani normalara əməl edilmədən törətdiyi vəhşiik Azərbaycan xalqının ləyaqətinə toxunmuşdur. Odur ki, rus vəhşiliyinə sinə gərmiş şəhidlərə xalq arzularının ifadəçisi kimi baxırdı. 70 illik kommunist rejimi dövründə milli adət-ənənəsi, andı, inam və etiqadı pozulmuş Azərbaycan xalqı ilk dəfə arzularının ifadəçisi kimi bir yerdə dəfn olunmuş şəhidlərin şəxsində milli andını yaratmaq üçün obyekt tapdı. Uzun illər Azərbaycan xalqında təhtəlşüur vəziyyətdə qalmış mənlik şüuru imperiyanın gözlənilməz təcavüzündən spontan şəkildə oyanmış, başlıca olaraq həmrəylik hisslərində özünü göstərirdi. Bu proses o qədər sürətli idi ki, daha hansı formalarda meydana çıxacağını və necə tənzimlənəcəyini proqnozlaşdırmaq mümkün deyildi. MiIli istəyə cavab verdiyindən Dəfn Komissiyasına xalqın hörməti birdənbirə o dərəcədə artdı ki, dəfnin ikinci günü xalq ona siyasi hakimiyyət kimi baxırdı. Xalqın Dəfn Komissiyasına birdən-birə yaranan gözlənilməz hörrrıəti imperiyanı və onun yerli əlaltılarını təşvişə saldı. Hərbi komendant DTK Dəfn Komissiyası üzvlərini nəzarətə götürdü. Onların şəxsiyyətləri siyasi baxışları müəyyənləşdirildi. Dəfn




SƏHİDLƏR
XİYABANI

Komissiyası idarə heyətinin üzvlərini ayrı-ayrılıqda aradan götürmək üçün oniar tez-tez provakasiyava çəkilirdi. Bir çox hallarda provakasiya Şəhidlər Xiyabanında hadisə törətmək səviyyəsinə çatırdı. Münasibətlərin kəskinləşib yeni bir faciə olacağı həddinə çatsa da, Dəfn Komissiyası üzvlərinin dəyanəti hadisələrin qarşısını alırdı. Dəfn Komissiyasının bu inam və təmkinli duruşu onun arxasında sipər kimi dayanmış, baş verənləri yaxından, uzaqdan izləyən xalqımızın, adamlarımızın xidməti idi. "Dəfələrlə biz müxtəlif rütbəli və səviyyəli hərbçilərlə üz-üzə dayananda, onların qəzəbinə, nifrətinə, harınlığına qarşı dərin kədər içərisində ləyaqət və cəsarətlə cavab verib, bütün məsuliyyəti öz üzərimizə götürdüyümüzü bildirərkən, hər an hərəkətə gəlmək işarəsi gözləyən mütəşəkkil bir xalqa arxalanırdıq. Odur ki, bu hərbçilər əmrlərimizi yerinə yetirir kimi qarşımızdan çəkilməyə məcbur olurdu" .

Dəfn Komissiyasının üzvləri ilə xalq arasında sanki telepatik qarşılıqlı bir duydum yaranmışdı. Dəfn Komissiyasının üzvləri onların hər bir sözünü can-başla, vicdanla yerinə yetirən milyonlarla insanın etimadını doğrultmağa, səhvə yol verməməyə çalışırdı. İnsanların həssaslığı, mütəşəkkilliyi elə bir yüksək səviyyəyə çatmışdı ki, Dəfn Komissiyası xalqla işləyərkən, hər hansı tədbiri həyata keçirərkən çox da böyük əziyyət çəkmirdi. Lakin şəhidlərin gündən-günə artması insanların həyəcanını artırırdı. Adamlar özünün, oğiunun-qızının və s. rus əsgərinin qəfil gülləsinə məruz qalmayacağına təminat olmadığını başa düşürdü. Əhali rus-erməni təcavüzündən xilas olmaq naminə birləşmək zərurətini getdikcə daha artıq dərk edirdi. Odur ki, milli həmrəylik hissinin ocağına çevrilmiş Şəhidlər Xiyabanına gələnlərin sayı gündən-günə artırdı. Onların arasında yaşlıların sayı gün-gündən çoxalırdı. Əhali xiyabanda şəhidiərin xatirəsinə hörmət əlaməti olan tədbir və mərasimlər keçirməyi təklif, hətta tələb edirdi. Lakin bu təklif və tədbirlərin hamısının həmin şəraitdə həyata keçirilməsi mümkün deyildi, həmçinin Dəfn Komissiyasının imkanı xaricində idi. Milli yüksəlişin qarşısını almaq üçün imperiya Dəfn Komissiyasının fəaliyyətini dayandırmaq istəsə də, buna cəsarət etmirdi. Dəfn Komissiyasının üzvlərinin həbsinin və terrorla aradan götürülməsinin də gözləniiməz nəticələr verə biləcəyini, imperiyaya qarşı xalqın nifrətini daha da coşduracağını hakimiyyət orqanları dərk edirdi. Odur ki, Dəfn Komissiyasının fəaliyyətini dayandırmaq üçün sistemli psixoloji təzyiqlərlə komissiya üzvlərini bezdirmək və onları əhali içərisində gözdən salmaqla Dəfn Komissiyasını dağıtmaq istəyirdi. Əhali tərəfindən Dəfn Komissiyası vasitəsi ilə şəhidlərin ailəsinə yardım edilməsi və xiyabanda şəhidlərə ehsan verilməsi təklifi Dəfn Komissiyasını gözdən salıb, dağıtmaq üçün hakimiyyətə imkan yaradırdı. Bu təklif meydana çıxan kimi Dəfn Komissiyası birmənalı şəkildə bildirdi ki, ehsan işi və şəhidlərin ailələrinə yardımla məşğul olmayacaq.

Şəhidlərin ailəsinə yardım təşkil etmək istəyənlər, işi öhdəsinə götürənlər şəhidlər xiyabanından kənarda fəaliyyət göstərsin. Təşəbbüsün qaynar müzakirəsi zamanı Dəfn Komissiyası araşdırma apararaq müəyyən etdi ki, köməkçilərdən bir nəfər səhvən Gürcüstandan gəlmiş bir soydaşımızdan şəhidlərin ailəsinə çatdırmaq məqsədilə pul götürmüşdür. Dəfn Komissiyası mikrofonla məlumat verərək pulun sahibini tapdı və əmanətini özünə qaytardı. Şəhidlərin ünvanını ona verərək bildirdi ki, yardımı aparıb özü şəxsən təqdim etsin. Beləliklə, maliyyə yardımının təşkilindən kənarda qalmaqla Dəfn Komissiyası ona qarşı yönəlmiş ən ağır və təhlükəli zərbədən özünü qoruya bildi. Əhalinin şəhidlərin ailəsinə yardımı Dəfn Komissiyası vasitəsi ilə etmək istəməsi xalqın ona etimadı və hörmətindən irəli gəlirdi.

Əhalinin şəhidlərə ehsan verməsi məsələsinə gəidikdə Dəfn Komissiyası bildirdi ki, bu təklifi bəyənir. Lakin bu işi hər kəs özü müstəqil təşkil etməlidir. Kim istəyir şəhidlər xiyabanındakı yeməkxananı icarəyə götürüb, sərbəst ehsan versin. Məsələnin belə qoyuluşu əhali tərəfindən razılıqla qarşılandı. Buna baxmayaraq, Şəhidlər Xiyabanında ehsan verənlərin hamısı əvvəlcədən Dəfn Komissiyasına məlumat verir, onunla məsləhətləşirdi.

Birinci dəfn günündən sonra, 25 yanvarda Dəfn Komissiyası ikinci dəfə idi ki, nəzərdə tutulmamış çətinliklərlə rastlaşdı. Ziyarətə gələnlər həddən çox idi. Hesablamamıza görə onların sayı milyonu keçmişdi. Şəhidləri ziyarətə gələnlərin məzarın önündən keçməsi üçün ən azı 2-3 saat növbə gözləmək lazım gəlirdi. Şəhidlər Xiyabanında üç yerdə ehsan verilirdi. Minlərlə qadın şəhidlərin məzarı üzərinə qoymaq üçün xonça bəzəyib gətirmişdi. Şəhidlərin qohum-əqrabalarını, qocaları, əlində xonça tutmuş qadınları iki-üç saat gözlətmək mümkün deyildi. Ziyarətə gəlmiş eyni hissli, məqsədli adamlara şərait yaratmaq ilkin baxışda düzgün anlaşılmaya da bilərdi. Çünki insanlar son dərəcə kövrək və emosional vəziyyətdə idilər. Adamlar yerə düzüimüş qərənfili ayaqlamaq məcburiyyətində qalanda yaralarına toxunulmuş kimi ağlayırdılar. Məmməd Aslanın hələ nəşr olunmamış "Qərənfil - şəhid qanı" şerini yaşlı, cavan, uşaq bəlkə də hamı əzbər bilirdi. Bir neçə gün ərzində Azərbaycan xalqının mentalitetində qırmızı qərənfil şəhid qanı simvoluna çevrilmişdi. Odur ki, insanlar ona hədsiz həssaslıqla yanaşır, ehtiyatsızirqdan bir ləçəyini sındıranda belə göz yaşı axıdırdılar. Şəhid qanı düşən ərazini fasiləsiz qırmızı qərənfillə örtməklə Azərbaycan xalqının təfəkküründə qırmızı qərənfil rəmzinin məna çalarının dəyişilməsinin müəllifi Azərbaycan xalqı olsa da, Məmməd Aslanın "Qərənfil - şəhid qanı" şerinin rolu da yetərincədir.

Qərənfil - şəhid qanı,
Ağla, qərənfil, ağla.
Ağla, inlət meydanı,
Ağla, qərənfil, ağla!

Hər şəhidə bir düzüm...
Abşeron qan dənizim,
Sən mənim ağlar gözüm,
Ağla.-qərənfil, ağla!

Uzaq mənzil, acı yol,
Yoldu, yol, əlacı yol...
Şəhidlərə bacı ol,
Ağla, qərənfil, ağla!

Bu günahsız qanlara,
Bu didilmiş canlara,
Bu cansız cavanlara
Ağla, qərənfil, ağla!

Xeyirə şər üstün gəldi,
İniltili ün gəldi...
Ağlamalı gün gəldi,
Ağla, qərənfil, ağla!

Dəfn Komissiyası xiyabana giriş və çıxışı sürətləndirmək üçün yolu qə rərənfillə ikiyə böldü. İzahat işi aparıb şəhidlərin qohum-əqrabalarının növbədən kənar buraxılmasının lazımiliyini bildirdi. Yolun birindən şəhidlərir yaxınlarının növbəsiz ziyarəti təşkil olundu. Ağır olsa belə, məzar başında 5 dəqiqədən artıq dayanmamaları məsləhət görüldü.

Bugünkü ziyarətçilərin əksəriyyəti Şəhidlər Xiyabanına birinci dəfə gələnlər idi. Hadisə ilə ilk dəfə üzləşmə, birinci cümə mərasimi, hər ikisi insanların həyəcanını coşdururdu. Odur ki, çoxlu insanın ürək tutmasına, huşunu itirməsinə səbəb oldu. Köməyə təciii yardım çağırılsa da, çox gec gəlirdi. Öyrəndik ki, təcili yardımmın gəlişinə dövlət mane olur. Lakin gələn həkimlər insanlara çox qayğı və həssaslıqla yanaşırdılar. Birinci cümə günü köməyə gəlmiş bir neçə həkim özü tibbi yardıma məruz qalıb işi dayandırmalı oldu. Həmin gün çoxlu qadın şəhidlərin məzarına qoymaq üçün xonça gətirmişdi. Onlar həm də bir mənalı bildirirdilər ki, xonçanı şəhidlərin məzarma şəxsən özləri qoyacaqlar. Dəfn Komissiyası hissə-hissə onların da növbədən kənar ziyarətini təşkil etdi. Təxmini hesablamaya görə 8 mindən artıq qadın xonça gətirmişdi. Xonçaların məzarlar üzərinə düzülüşü də xeyli vaxt aparırdı. Dəfn Komissiyası minlərlə insanın növbəsini təşkil etmək, onlarla ürək tutmasma, huşunu itirmiş adama yardım etmək zərurətində olduğu bir vaxtda məlumat aldı ki, xiyabanın girişinin sol tərəfində bir dəstə Qorbaçovun portretini asıb kütlə psixologiyasına məxsus təhqiramiz hərəkət edir, əhalini buraya toplamağa çalışır. Onların sapı

özümüzdən olan baltalardan olduğu müəyyən edildi və xiyabandan çıxarıldı. Xiyabandakı hərəkətlərə nəzarət daha da gücləndirildi. Axşam saat 9.15-də şəhidlərin birinci cümə mərasimini başa vurduq. Dəfn Komissiyasının İdarə Heyəti və köməkçilər fiziki cəhətdən tükənmiş vəziyyətdə toplaşıb sabahın işini planlaşdırdı, Hamı sevinc keçirirdi. Anaların fəryadından, bacıların, sevgililərin kövrək hıçqırığından, ataların iniltisin-dən milyonların gözündən axan acı damlalardan yaranıb Bakının uca zirvəsindən axan kədər şəlaləsinin sədaları altında sevinmək öncə mənə qəribə gəldi. Bu hisləri özüm keçirməsəydim belə şəraitdə sevinməyin mümkün olduğuna heç vaxt inanmazdım. İnana bilməzdim ki, insan vətənində ölüsünü istədiyi yerdə dəfn edə bildiyinə sevinə bilər. Sanki imperiyanın mahiyyətini ilk dəfə dərk edirdim.

20 yanvar hərbi irticasının ilk günü, 22 yanvar şəhidlərin dəfn günü və 25 YANVAR şəhidlərin ilk cümə mərasimi günü Bakıda ən gərgin günlər idi. Hadisələrdən göründüyü kimi, Sovet-rus imperiyası Azərbaycan xalqına qarşı münasibətləri düzgün proqnozlaşdıra bilməmişdi. SSRİ müdafiə naziri D. Yazovun rəhbərliyi ilə 20 yanvar gecəsi imperiya Azərbaycan Ixalqına elə qulaqburması vermək istəyirdi ki, müstəqillik ideyasına düşən Ibaşqa xalqlar bundan ibrət dərsi götürsün. Lakin bu amansızlığa qarşı Azərbaycan xalqının cavab reaksiyası imperiya üçün tamamilə gözlənilIməz oldu. 20 yanvar gecəsi müxtəlif düşüncəli əhali yığını kimi görünən Azərbaycan əhalisi 7-8 saat müddətində rastlaşdığı hadisələr və apardığı mübarizə ilə 20 yanvarın səhəri bəşəriyyətin ən amansız ordusuna qarşı dayanan mütəşəkkil bir millət kimi tanındı. Dünyanın 1/6-ni tutan sovet rus imperiyasının müdafiə nazirinin başçılığı ilə hərbi əməliyyata başlayan ordunu silahsız Azərbaycan xalqı mütəşəkkilliyi ilə geri çəkilməyə məcbur edirdi. 25 yanvarda xiyabanda şəhidlərin birinci cümə mərasimində milli mütəşəkkilliyin gözlənilməz psixoloji çalarlarla möhkəmlənməsi və inkişafmı hamı dərk etdi. Şəhidlərin birinci cümə günü Şəhidlər Xiyabanı ınilli həmrəyliyin nüvəsinə çevrilib, insanlarm milli fikir mübadiləsi etdiyi bir yer, milli müqavimət mərkəzi olmaqla beynəlxalq təşkilatlara müraciətlər üçün imzalarm toplanması, xarici jurnalistlərlə əiaqə saxlamaq, müxtəlif rnüəssisə və regionlarla əlaqənin qurulması və s. mərkəzinə çevrilmişdir. Məhz bu cəhətlərinə görə Şəhidlər Xiyabanını milli hakimiyyət mərkəzi də adlandırmaq mümkündür. Həyat davam edirdi. İnkişafın gözə görünən və görünməyən tərəfləri vardı. Dərbənddən, Cənubi Azərbaycandan, Gürcüstandan, Sovet İmpe- riyasının müxtəlif respublikalarından, Almaniyadan, İsveçrədən, Hollandiyadan, Fransadan və s. xarici ölkələrə səpələnmək məcburiyyətində qalan azərbaycanlıların nümayəndələrinin şəhidləri ziyarətə gəlməsi haqqında səs gücləndirici ilə Dəfn Komissiyasının verdiyi məlumatlar əhalinin, hətta şəhidlərin qohum-əqrabasının da əhvali-ruhiyyəsini dəyişir, adamları tənhalıq, təklənmək hissindən qurtarırdı. Göründüyü kimi 20 yanvar hadisəsi tək Şimali Azərbaycanın milli oyanışı, həmrəyliyi üçün deyü, Cənubi

Azərbaycanın, imperiyaların təzyiqindən dünyaya səpələnmiş bütün azərbaycanlıların milli oyanışı və həmrəyliyi üçün təkan oldu. Dünyaya səpələnmiş azərbaycanlılar vasitəsilə Şimali Azərbaycan xalqının rus imperiyasına qarşı dayandığını dünya xalqlarına çatdırdı. Beləliklə, Azərbaycan əhalisində milli orqanizmə çevrilmə prosesi Azərbaycan miqyasında deyii, dünya miqyasında getdi.

17 yanvardan Bakı şəhəri müəssisələrində başlamış tətillər hələ də davam edirdi. 25 yanvar şəhidlərin birinci cüməsi günü ilk dəfə idi ki, "Səhər" və "Bakinski raboçi" qəzetləri nəşr olunmuşdur. Redaksiyalardan Dəfn Komissiyasına qəzet göndərmişdilər. Öyrəndik ki, hakimiyyət "Kommunist" qəzetini nəşr etməyə çalışsa da, nəşriyyat işçiləri bu adda qəzet çıxarmağa imkan verməyib. "Səhər" qəzetini bir qrup Azərbaycan ziyalısı çətinliklə hərbi senzordan keçirə bilmişdi. Qəzet bütünlüklə milli mövqedə dayanmışdır. 19 yanvar 1990-cı ildə Bakı şəhərində fövqəladə vəziyyət tətbiq olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M. S. Qorbaçovun fərmanı ilə yanaşı, 22 yanvar Azərbaycan SSR Ali Sovetinin Fövqəladə sesiyasmın 20 yanvar hadisəsini rus imperiyasmın "vəhşiliyi", "təcavüzü", "cinayəti" adlandıran və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərarını da nəşr etmişdi. Naxçıvanda və cənub sərhədiərində sərhəd pozuntularının birbaşa dövlət orqanları tərəfindən təşkil edilməsi haqqında SİTA-nın müxbiri V. Qolovinip məqaləsi də nəşr olunmuşdu. Bakı ilə həmrəylik göstərən şəhər, qəsəbə və rayonlar haqqında məlumat verən qəzet son səhifəsində xüsusi qara şiriflərlə sovet imperiyasında respublikaların mədaxili və məxarici haqqında məlumat verib göstərirdi ki, Azərbaycan RSFSR-ə borcu olmayan, öz iqtisadiyyatı ilə yaşayan yeganə respublikadır. Qəzetdə materialların belə məntiqi və elmi ardıcıllıqla düzülməsi xalqı müstəqilliyə doğru cəsarətli addımlar atmağa çağırış idi.

Qəzetdə materialların düzümü, bir-birinin məntiqi davamı kimi verilməsi milli həyatın iqtisadi-siyasi, ideoloji, psixoloji, etik və estetik baxımdan yüksək səviyyədə əsaslandırılması ilə bolşevik əsarətindəki 70 ildə imperiyaya qarşı ilk dəfə idi ki, dövlət mətbuatında çıxış olunurdu. İdeoloji,siyasi və psixoloji cəhətdən yüksək səviyyədə "Vətən bu gün ağı deyir... adlı baş məqalə 20 yanvar irticasının Azərbaycan xalqının mənəviyyatın da yaranan dəyişikliyi nikbinliklə belə ifadə etmişdi: "Bakı bir qanlı bayraq kimi öz şəhid oğlanlarını başı üzərinə qaldırdı. İndi bizim bir ağızdan ani çməyə müqəddəs türbəmiz var. İndi bizim and içməyə müqəddəs bayrağımız var". Qəzet milli həyatın bu cəhətini düzgün tutmuşdu. Milli inam və etiqadın itirilməsi, xalqların həyatında faciə ilə nəticələnməsi tarixdə dəfəərlə özünü göstərmişdi. Elə Azərbaycan xalqının imperiya tərəfindən məruz qaldığı saymamazlıq da onun nəticəsi idi.

25 yanvar birinci cümə mərasimində xalqın şəhidlərə milli and yeri kimi etiqadı, ona həssas qayğısı, bu hislərin təsiri altında daha da mütəşəkkilləşməsi, nəşr

olunan dövlət qəzetlərinin milli mövqedə dayanması imperiyanı yerli əlaltılardan ibarət hakimiyyətini qaydaya salmağa tələsdirdi. Azərbaycanın bütün mədəni-mənəvi həyatına nüfuz etmiş kommunist rus imperiyası onun dini mərkəzləri məscidlərində də etibarlı ideoloji dayağına çevirmişdi [19]. Təsadüfi deyil ki, Ə.Vəzirovun işdən götürülməsindən sonra imperiyanın canişini AKP MK-nın ikinci katibi V. Polyaniçko hakimiyyəti götürməyi birinci Şeyxülislam Allahşükür Paşazadəyə təklif etmişdi [4]. Bu birinci növbədə xalq hərəkatını "islam fundamentalizmi" damğası ilə ləkələmək məqsədi güdürdü. Təbii ki, imperiyanın Azərbaycan dini müəssisələrindəki kadrlarına etibar edilməsi bu təklifin irəli sürülməsində əsas faktorlardandır. Digər məqsədlərin güdülməsi də mümkündür. Lakin Şeyxülislam Allahşükür Paşazadənin təklifdən qəti imtina etməsi imperiyanı yerli hakimiyyəti digər şəxslər vasitəsi ilə möhkəmlətməyə tələsdirdi. İmperiya A. Mütəllibov, H. Həsənov və M. Məmmədov üçlüyündən AK MK-nın birinci katibi seçmək üçün onları Moskvaya çağırdı.

M. S. Qorbaçov Müslüm Məmmədova AKP MK-nın birinci katibi vəzifəsi təklif etsə də, o, təklifi qəbul etməmiş, Həsən Həsənov isə Qorbaçovdan AKP MK-nın birinci katibi vəzifəsini ona etimad göstərməsini acizanə xahiş etsə də, ona etimad göstərilməmişdi.

Görünür, onun Ə. Vəzirova Azərbaycanda hakimiyyətini qurmağa imkan verməməsi Qorbaçova xoş gəlməmişdi. Beləliklə, imperiya A. Mütəllibovu AKP MK-nın birinci katibi vəzifəsinə tövsiyyə edir. O, 25 yanvar 1990-cı il tarixdə AKP-nın plenimunda MK-nın birinci katibi "seçilir".

İmperiyanın yerli dayaqlarını sahmana salan kimi milli həyata qarşı həyata keçəcəyi aydın idi. Təbii ki, ilk hədəf Şəhidlər Xiyabanı, Dəfn Komissiyası olacaqdır. Çünki milli həmrəyliyin nüvəsi Şəhidlər Xiyabanı, onun rəhbərliyində isə Dəfn Komissiyası dayanırdı. 25 yanvarda iş gününün sonunda Dəfn Komissiyasının idarə heyəti 26 yanvar üçün xüsusi diqqət yetirilməli məsələlərin nədən ibarət olacağını təhlil etdi. Müzakirə zamanı təkrar qənaətə gəlindi ki, Şəhidlər Xiyabanı və Dəfn Komissiyasının taleyi birinci növbədə mikrofonla olan çıxışlardan asılıdır. İkinci növbədə xiyaban hər dəqiqə tam nəzarətdə saxlanmalı, pozucu ünsürlərin burada kök salmasına imkan verilməməlidir. Dəfn Komissiyasının rastlaşdığı ən böyük çətinlik çıxışlara nəzarət işi Ağsaqqallar, şəhidlərə həsr etdiyi bayatısını, ağısını mikrofonla yenicə dil açan körpə nəvəsinə oxutdurmaq istəyən ağbirçəklər, şəhidlərə yazdığı şeri oxumaq istəyən yüzlərlə adam olurdu. Onların partlamaqda olan ürəyini boşaltmaq, yanğısını söndürmək üçün göz yaşları içərisindəki xahişlərini eşitməmək son dərəcə ağır idi. Təcrübə göstərirdi ki, onlar bir neçə kəlmə danışandan sonra dözə bilməyib milli hissləri məcrasından çıxaran çıxışlara keçirdilər. Belə hallarda onları dayandırmaq, sözünü kəsmək müımkün olmurdu. Azərbaycan milli-azadlıq hərəkatının ruhu Xəlil Rzaya söz verməmək mümkün deyildi. Onun çıxışının Şəhidlər Xiyabanında yüzminlərlə insanı hansı

istiqamətə aparacağını nə özü, nə kimsə proqnozlaşdıra bilməzdi. Elə 25 fevralda andlarına inanıb söz verdiyimiz bir satqının AXC adından DTK-da hazırlanan bəyanatı oxumaq istəməsi Dəfn Komissiyasından maksimum sayıqlıq göstərməyi tələb edirdi.

26 yanvarda Dəfn Komissiyası həssaslıqla şəhidlərin dəfnini və xalqın ziyarətinin təşkilini davam etdirdi. Saat 11-də Xəlil Rza Şəhidlər Xiyabanına gəldi. Dəfn Komissiyası üzvləri ondan çıxışında maksimum ehtiyatlı olmağı, yaraya toxunmadan şəhidlərin ruhuna dua oxumaqla kifayətlənməyi xahiş etdi. O, söz verdi. Lakin baxışları əbədiyyətdən boylanan Fərizə ilə İihamın baxışlarına zillənmiş Xəlil Rzanın şəhidlərin intiqamı üçün göylərə yalvarıb dua oxuyacağına inanmaq sadəlövhlük idi. Xəlil Rzanın həmişə arxasınca sürünən saqqallı "quyruq" da yanında idi. Xəlil Rza mikrofona yanaşdı. 2-3 cümlə demişdi ki, Xiyabanın girəcəyindən Dəfn Komissiyası köməkçilərindən biri bir nəfər şəxsi tələsik tribunanın yanına gətirdi. "Quyruq" onu gözləyirmiş kimi Xəlil Rzaya çıxışını dayandırmağı bildirdi. Öyrəndik ki, gələn"DTK-nın əməkdaşıdır. Xəlil Rza onunla qısa söhbət etdi. Gələn adam çıxıb getdi. Sonra öyrəndik ki, Xəlil Rza DTK işçisinə bildirib ki, gedib onu xiyabanın girəcəyində gözləsin. Əks təqdirdə başqa cür çıxış edər. imperiya Xəlii Rzadan da, Şəhidlər Xiyabanında adam həbs etməkdən də qorxurdu. Qısa və inamlı çıxışdan sonra Xəlil Rza xiyabanın girişində onu gözləycək DTK əməkdaşının ardınca getdi. Dəfn Komissiyasının proqnozu düz çıxdı. Dəfn Komissiyasına, milii həmrəyliyə qarşı yeni hücum başlanmışdı. Xəlil Rzanın həbsi bu hücumun başlanğıcı idi. İmperiya Xəlil Rzanı həbs etməklə Azərbaycan xalqını psixoloji cəhətdən ruhdan salmaq istəyirdi. Həmin gün imperiya Lənkərana desant çıxarıb, ətraf rayonlara qoşun yeridərək AXC üzvlərinə və milli qüwələrə qarşı amansızlıq göstərərək yeni hücuma keçdi. Lənkəran və Neftçalada milli hərəkat üzvlərini döyə-döyə, məftillə boğmaq və s. amansız vəhşi üsullarla öldürmüşdülər [20]. 300-dən artıq AXC üzvü həbs edilmişdi. AXC-nin qərargahı dağıdılmışdı. Səbayel (keçmiş 26-lar) rayon təşkilatının fəaliyyəti qadağan edildi. 20 yanvar hadisələri ərəfəsi rayonlarda mitinqlərin keçirilməsində fəallıq göstərmiş yüzlərlə adam həbs olundu. Qəflətən keçirilən həbslər zamanı həbs olunanlar haqqında qohum-əqrabası xəbər tuta bilmirdi. Yoxa çıxmış adamların öldürülüb dənizə tullanması, dalğaların meyidləri sahilə çıxarması, ordunun meyidləri yığıb yandırması haqqında xəbər və şayiələr sürətlə yayılır, əhalini həyəcanlandırırdı. İrticanın yeni mərhələsi AKP-nin plenumundan - A. Mütəllibovun AKP MK-yə birinci katib seçilməsindən sonra başlasa da, hərbi ko-mendatın yerli hakimiyyət orqanlarına heç bir əhəmiyyət vermədiyi əhalinin diqqətindən yayınmırdı. 26 yanvarda Xəlil Rzanın həbsi, Lənkəran, Neftçala və başqa rayonlarda rus ordusunun milli qüwələrə qarşı qeyri-insani amansızlığı xalqın rus-kommunist imperiyasına inamı hələ tam ölməmiş hissəsinin də tərəddüdünü aradan qaldırdı. Azərbaycan xalqının imperiyaya qarşı mütəşəkkilləşməsinə yeni təkan verdi.

Belə məqamlarda Şəhidlər Xiyabanında əhali birdən-birə çoxalırdı. Məhz 26 yanvarın yeni təcavüzünün doğurduğu həyəcan 27 yanvarda lap səhər tezdən Şəhidlər Xiyabanında əhalinin gözlənilməsi sürətlə artmasına səbəb oldu. Hesablamamıza görə, səhər saat 10 radələrində əhalinin sayı yarım milyona yaxınlaşırdı. İzdihamı idarə etmək, çıxışlara maksirnum həssaslıqla yanaşmaq Dəfn Komissiyası üzvlərinin başlıca vəzifəsi olaraq qalırdı. Elə bu zaman ağsaqqal şair Qabil mikrofona yaxınlaşdı. Dəfn Komissiyası ondan sakitləşdirici bir çıxış etməyi xahiş etdi. O, əhalini təmkinli olmağa çağıran bir neçə cümlədən sonra 20 yanvar şəhidlərinə yazdığı mərsiyəni oxudu:

Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.
Tutulub vahimədən nitq bu gün, dil bu səhər,
Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,
Bakı fəryad eləyir, gözdən axır sel bu səhər,
Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər.
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Öz Qızıl Ordumuzun yurdumuza qəsdinə bax,
Üstümə tank yeridən fitnəkarın şəstinə bax,
Gözü qanımla xumar düşmənimin məstinə bax,
Qara bayraqlarımın cərgəsinə, dəstinə bax,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.
Öldü gənc, öldü uşaq, öldü gəlin-qızlarımız,
Ölmədi! Şanlı şəhid oldu necə yüzlərimiz
Bu saat Kərbü bəla düzləridir düzlərimiz,

Necə qan ağlamasın üzlərimiz-gözlərimiz,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Kim görüb böylə mərasim ola milyonlar ilə,
Bakı insan axınıyla dola miiyoniar ilə,
Salına şanlı şəhidlər yola milyonlar ilə,
Analarla bacılar saç yola miiyonlar ilə,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Qəbrin üstündə də heç kukla olar çanta ilə,
Ağ gəlinlik fatası... qırmızı al lenta ilə.

Bəs Kremlin görəsən fərqi nədir Xunta ilə?!
Açınız tarixi, həm indi elə, onda elə...
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Düşdü dildən-dilə bu qətl, bu matemgahımız,
Çatdı hər ölkəyə bu şəhri-bəyani ahımız,
Gördü aləm ki, aman... cəlladımızmış şahımız,
Yoxsa da bir şeyimiz, vardı fəqət allahımız,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Hər qızıl güllü məzar - sinəmizin dağı, məzar!
Əyilir üstünə göy qübbəsinin tağı, məzar.
Hər məzar qanlı beşik - laylayı ağı, məzar!
Dayanıb tam alacaq bizdən hələ yağı, məzar!
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Ey Vətən oğlu, Vətən övladı, sil göz yaşını!
Qan haçan yerdə qaiıb, təzələ öz yaddaşını!
Çox görüb, Qabil, Azərbaycanım işğal qoşunu,
Görməyib ancaq hələ böylə cinayət işini...
Yazmışıq təqvimə qan ilə bu yanvar qışını,
Gecəni atəş ilə qırmızı dan eylədiiər,
Xalqımı-millətimi gülləbaran eylədilər.

Qabilin şeri 26 yanvarda başlayan təcavüzə qarşı əhalini mənəvi-psixoloji cəhətdən səfərbər etdi. Bu Xəlil Rzadan sonra şairlər arasında atı-lan ən cəsarətli addım idi. Qabil bu addımı ilə Xəlil Rzanın həbsindən sonra əhalidə ruh düşkünlüyü yaranmasına imkan vermədi. Qabilin şeri Şəhidiər Xiyabanında beş yüz minə qədər insanı elə coşdurdu ki, Dəfn Komissiyasında əhalini idarə edə bilməyəcəyi qorxusu yarandı. Qüdrət Əbdülsəlimzadə və Xəliyəddin Xəlilov minlərlə insanın alovlanmış hisslərini sakitləşdirmək üçün bir-birini əvəz etməklə bir neçə dəfə çıxış etmək məcburiyyətində qaldılar. Lakin şer insanların imperiyaya qarşı nifrətini elə alovlandırmışdı ki, heç cür əhalini onun təsirindən çıxara bilmirdilər. Təcili Təzəpir məscidinə zəng edib mədrəsənin tələbəsi İbrahim Yarıyevin Şəhidlər Xiyabanına göndərilməsini xahiş etdilər. Təxminən 15-20 dəqiqədən sonra İbrahim Yarıyev bir neçə mədrəsə tələbəsi ilə Şəhidlər Xiyabanına gəldi. Gözəl səsi, qiraəti, duyumu, milli hissi oian İbrahim Yarıyevə məsələ anladıldı. Onun oxuduğu duaların sədası altında əhali sakitəşdirildi.

27 yanvarda Azərbaycan televiziyası işə başladı. Bu və ya digər formada sovet imperiyasının təcavüzünə bəraət qazandırmaq yolu tutdu. Partiya və dövlət orqanı qəzetlərin ilk günlər bütünlüklə milli mövqedə dayanması, sonralar ən azı irticanı birmənalı pisləməsi Azərbaycan televiziyası və onun işçi heyətini xalqın satqın kimi ittiham etməsinə əsas verdi. Şəhidlər Xiyabanı ilə yanaşı dayanan telestudiyanın divarlarına əhalinin nifrət dolu şüarlar yazması onun satqın və şərəfsiz mövqeyini məhdudlaşdırmağa məcbur etdi.

26 yanvardan başlayan yeni irtica qısa müddətdə emosiyalardan yaranmış milli birliyin süzgəci rolunu oynadı. Azərbaycanda hələ 1988-ci il-dən siyasi və sosial ədalətsizliyə cavab olaraq kommunist partiyası biletərini atmağa başlamışdılar. Lakin 20 yanvar günü 200 min nəfər Azərbaycan kommunisti təcavüzkarlığa cavab olaraq biletlərini təhvil vermək, yandırmaq və s. üsullarla partiya sıralarından çıxdıqlarmı bildirdilər. Onlar əsasən ziyalılar idi. Aralarında Bəxtiyar Vahabzadə və b. tanınmış şəxsiər də var idi. İlk təşkilatlara qaytarılan kommunist partiyası biletlərinin üzərində əsasən faşist nişanı çəkmişdilər. Lakin elə ki, yeni hakimiyyət fəaliyyətə başladı, yuxarıda adları çəkilən ziyalılar da daxil olmaqla 10 min nəfərə qədər şəxs biletlərini geri aldı. 20 yanvar hərbi təcavüzü zamanı qoşunların respublikaya dəvət olunmasından xəbəri olmadığmı söyləyən, 22 yanvarda Azərbaycan SSR Ali Sovetinin Fövqəladə sesiyasında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanının "təcavüz aktı", "Azərbaycan xalqına qarşı cinayət" olduğunu imzalayan Elmira Qafarova fövqəladə vəziyyətin tətbiqinin zəruriliyini söylədi. Hətta həmin günlərdə Sov.İKP sıralarına daxil olmağa canfəşanlıq göstərənlər də oldu. Özünü fövqəladəsesiyanın çağrılmasının təşkilatçısı kimi göstərən B. Vahabzadə radio ilə çıxış edib camaatı tətili dayandırıb, işə başlamağa çağırdı. Xalq yazıçısı Mirzə İbrahimovun 27 yanvarda radio ilə Xalqa müraciəti, 30 yanvar 1990-cı il tarixdə "Bakı" qəzetində nəşr olunmuş "Xalqın kədəri və müqəddəs arzuları" adlı məqaləsi, Bakı partiya veteranlarının, Bakı müharibə veteranlarının Bakı əhaiisinə müraciəti, Azər-baycan SSR EA müxbir üzvü Nizami Süleymanovun yaratdığı "Azərbaycan Demokratik Ziyalılar Cəmiyyəti" imperiya qarşısında təslimçilik siyasəti təbliğ etməklə, milli birliyi parçalamaq xətti götürdülər. 20 yanvar hadisəsi Azərbaycan ziyalısının bir hissəsinin, xüsusilə titullu ziyalıların manqurt, bir hissəsinin şüurlu ağa - qara deyən, yəni - satqın, bir hissəsinin son dərəcə qorxaq olmasını meydana çıxartdı.

A. Mütəllibovun AKP MK-nın bjdnci katibi "seçilməsi" və H. Həsənovun Azərbaycan SSR Nazirlər Sovetihin sədri təyin edilməsi ilə respublikada hakimiyyət uğrunda mübarizə nəinki sakitləşdi, dayandı, hətta yeni mərhələyə daxil oldu. Ziyalı təbəqələri hakimiyyət uğrunda mübarizə aparan siyasi qrupların ətrafında toplaşmağa başladılar. Hər iki qrup Dəfn Komissiyasını ələ

keçirmək, onu dəyişməklə özününkülərdən ibarət yeni tərkibdə Dəfn Komissiyası yaratmağa cəhd göstərdi.

27 yanvar 1990-cı il tarixdə AKP MK-nın birinci katibi kimi televizorda çıxış edən A. Mütəllibov 20 yanvar hadisəsi münasibətilə Azərbaycan xalqına, şəhidlərin ailələrinə baş sağlığı verib, xalqa xidmət edəcəyini vəd etdi. 20 yanvar hadisəsinin səbəblərinə toxunmadan, vaxtı ilə Ə. Vəzirov Azərbaycandan getmiş ermənilərin respublikaya qayıtması münasibətilə əhalini təbrik etdiyi kimi, rusdilli əhalinin Bakıdan köçürülməsinin qarşısını almasını ilk uğur kimi qiymətləndirərək dedi: "Bizim xahişimizlə müdafiə nazirinin əmrinə əsasən hərbi qulluqçuların ailələri saxlanmışdır. Rus-dilli əhalinin Bakıdan getməsi dayanmışdır" [21]. Beləliklə, respublika dövlət aparatının yuxarı və orta pilləsi əməkdaşları arasında yaxşı iqtisadçı imici qazanmış, əhali tərəfindən yetərincə tanınmayan Ayaz Mütəllibov xalqla təmasa girmək məqamını itirdi. Bundan H. Həsənovun tərəfdarları məharətlə istifadə etdi. Ona qarşı əhali arasında əks təbliğat elə başladı ki, onun sonradan xalqla təmasa girmək cəhdləri bir daha baş tutmadı. Ayaz Mütəllibovun televizorla çıxışını nəşr etmiş "Azərbaycan gəncləri" (30.01.1990), qəzeti çıxışın mətni ilə birlikdə onun qısa tərcümeyi-halını, şəklini və AKP MK-nın birinci katibi seçilməsi haqqında məlumatı dərc etdi. Onunla paralel sütunda "Bakı şəhidlərlə vidalaşır" adlı qara, böyük şiriflə yığılmış başlığın altında şəhidlərin cənazəsini Azadlıq meydanından qaldıran izdihamın böyük fotosunu vermişdi. Materialın birinci səhifədə belə düzümü, qəzetin qalan səhifələrində 20 yanvar irticasını əks etdirən fotolar imperiyaya qarşı təslimçilik siyasəti yeridən A. Mütəllibova qarşı mənfi münasibət yaradırdı. Milli qürur, cəsarət, səfərbərlik, düşmənə nifrət alovlandıran "Bakı şəhidlərlə vidalaşır" adlı məqalə "Səhər" qəzetindən götürülmüş "Bakı bir qanlı bayraq kimi öz şəhid oğullarını başı üzərinə qaldırdı. İndi bizim bir ağızdan and içməyə müqəddəs türbəmiz var. İndi bizim and içməyə müqəddəs bayrağımız var" iqtibası ilə bitirdi. Tədqiqatımız şəhidlərin qırxı müddətində nəşr olunan qəzetlər arasında "Səhər" və "Azərbaycan gəncləri" qəzetinin xalqa, milli ruha daha sədaqətli olduğunu göstərir.

20 yanvar irticasının əsl mahiyyətini dərk etməkdə AXC sədri Əbülfəz Elçibəyin 30 yanvar 1990-cı ildə imzalanan, "Azadlıq" radiosu ilə dünyaya yayılan "Azərbaycan xalqına, dünyanm demokratik qüvvələrinə, BMT-nin Baş katibi cənab Peres de Kuelyara müraciəti!" əhalinin siyasi oyanışı və irticaya qarşı şüurlu səfərbər olunmasında əhəmiyyətli rol oynadı. Müraciət bütünlüklə əhalinin diqqətini cəlb etsə də, onun iqtibas etdiyimiz “Bu, insanlara nə qədər qorxunc və faciəli görünsə də, əsl faciə budur ki, bu insan cəlladlarına, bu muzdlu quldurlara Qorbaçov və Yazov əmr vermiş, Amerika prezidenti Buş, Fransa prezidenti Mitteran, Türkiyə prezidenti Turqut Özal, hətta həddən artıq hörmət və rəğbət göstərdiyim xanım "Tetçer Qorbaçovun əmrini bəyənmişlər!" -

abzası əhalinin bütün təbəqələrində müzakirə və təhlil olunurdu. Azərbaycan xalqının taleyi haqqında dərindən düşünməyə məcbur edirdi [20].

1 fevral 1990-cı il, şəhidlərin ikinci cümə mərasiminə qədər respublikanın partiya və dövlət orqanlarından bir nəfər də olsun Şəhidlər Xiyabanına gəlməmişdir.

Yalnız Bakı şəhəri XDSİK sədri Niyazi Qaraqaşlı iki dəfə Şəhidlər Xiabanında olmuşdu. Qüdrət Əbdülsəlimzadə ona Dəfn Komissiyasının sədr müavini X. Xəlilovla danışıqları zamanı qeyri-səmimi münasibətini xatırladarkən o, faciə ilə yetərincə tanış olmadığından səhv etdiyini bildirmiş, hakimiyyətin Dəfn Komissiyasına soyuq münasibətindən asılı olmaaraq, iradə göstərib xalqı burada saxlamağı xahiş etmişdi. Şəhidlər Xiyabanına telefon da onun köməyi ilə çəkilmişdir.

1 fevral 1990-cı il tarixdə səhər saat 8-də A. Mütəllibov başda olmaqla Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E. Qafarova, Nazirlər Sovetinin sədri H. Həsənov, AKP MK katibləri R. Zeynalov, T. Orucov, A. Rasizadə və b. rəhbər vəzifəli işçilər ilk dəfə Şəhidlər Xiyabanına gəldilər. İmperiyanın, onun yerli orqanlarının Azərbaycan xalqının mənəvi-siyasi həyatına təcavüzü gün-gündən artırdı. Təzyiq qarşısında dayana bilməyən yaşlı "ziyalı" nəsli dərhal təslimçilik mövqeyinə keçdilər, radio və televiziyada, qəzet səhifələrində çıxış edərək əhalini tətili dayandırmağa çağırdılar. AXC üzvlərinin və milli təəssübkeşlərin həbsi kütləviləşirdi. Rus ordusunun özbaşınalığı artır, restoranları, ərzaq mağazalarını talayır, müqavimət göstərənləri öldürürdülər. Hətta ordu yerli milisə hücum edir, onu döyür və təhqir edirdi [I,-II,-65-76]. Beləliklə, Ordu ilə yerli hakimiyyət arasında qarşıdurma yarandı. Moskvadan mərkəzi televiziya ilə ruslara, xüsusilə qadınlara Azərbaycan xalqının təcavüzü, hətta rus qadınlarının küçədə "zorlanması", qaçqın düşməsi haqqında məlumat yaymaqda davam edirdi. Xüsusilə SOV.İKP MK Siyasi Bürosunun üzvü, müdafiə naziri D. Yazovun rus ordunun "Bakıda rus qadınlarının zorlanmasının qarşısını almaq" haqda Azərbaycan xalqının mentalitetinə zidd çıxışları əhalinin hissinə toxundu. İmperiyanın mərkəzi hakimiyyətinin Azərbaycan xalqına qarşı saymaz, böhtançı münasibəti ruslarla yaranmış mədəni-mənəvi əlaqələri zorla qırırdı. Rus qaçqınları haqqında Moskvadan göstərilən uydurrna verilişlər Azərbaycanın rus və rus dilli əhalisini, xüsusiiə gəncləri çaşdırırdı.

Mərkəzi hökumətin, Sov.İKP MK-nın, onun Siyasi Bürosunun xəyanətkar hərəkətləri, düşmən davranışı onlara və rus xalqına qarşı azərbaycanlılarda etimadsızlığı ardıcıl olaraq gücləndirirdi. Moskvanın bu hərəkətindən rusların çoxu Azərbaycanda yaşamağa utandığını bildirirdi. Hətta bir çox ruslar Azərbaycan televiziyası ilə çıxış edib, Moskvanın böhtançı hərəkətlərinə etiraz edirdi. Moskvanın "Bakıda rus qadınlarının kütləvi zorlanması" haqqında provakasiyası rusları xəcil etməklə bərabər, ruhi həyəcan vəziyyətində olan

Azərbaycan əhalisi içərisinə çıxmağa da qorxudurdu. 20 yanvar gecəsi təkcə azərbaycanlılar deyil, atıian zəhərli güllələrdən mənzillərində ruslar, yəhudilər, ləzgizlər, tatarlar və b. xalqların nümayəndələri də ölmüşdü. Dəfn Komissiyası oniarı da azərbaycanlılar kimi eyni hörmətlə Şəhidlər Xiyabanında dəfn etdi.

Rus imperiyasının milli qüvvələrə, Dəfn Komissiyasına qarşı İslam fundamentalizmi damğası ilə təzyiq göstərdiyi bir vaxtda 15-16 yaşlarında zəif, nimdaş geyimli bir rus uşağı Şəhidlər Xiyabanına gəlib məlumat verdi ki, atası kor -əlil Boris Vasilyeviç Yefimov küçədə rus əsgərlərinin gülləsindən aldığı yaradan ölmüşdür, meyidxanadadır. O, atasının dəfninə kö-mək olunması üçün rus pravoslav kilsəsinə, məhəllələrində yaşayan rus-lara müraciət etsə də, heç bir kömək ala bilməmişdir. Atasının dəfninə kömək etməyi Dəfn Komissiyasından xahiş etdi. Dəfn Koımissiyası heç bir tərəddüd etmədən B. V. Yefimovu 20 yanvar hadisəsinin şəhidləri ilə bir cərgədə dəfn etdi. Dəfn zamanı maraqlı bir hadisə baş verdi. Yefimovun oğlu qəti şəkildə bildirdi ki, atasınm müsəlman qaydası ilə dəfn olunmasını istəyir. Onun arzusu yerinə yetirildi. Kor rus əlilinin Şəhidlər Xiyabanında hörmətlə dəfn olunması xəbəri ildırım sürəti ilə yayılmışdı. Şəhidləri ziyarətə gələn yüzminlərlə adam Dəfn Komissiyasmının bu işindən razı qaldığını bildirirdi. Bu hadisə DTK-nın təbliğatı ilə azərbaycanlıların qisasçılığı haqqında şayiəni puça çıxartdı. Ruslar da Şəhidlər Xiyabanında keçirilən yas mərasimində kütləvi iştirak etməyə başladılar. Beləliklə, hakinniyyət orqanlarının sənaye müəssisələrinin fəhlələrini parçalayıb tətili dayandırmaq təşəbbüsü puça çıxdı.*

Azərbaycanda yaşayan ruslar 20 Yanvar hadisəsi zamanı Moskvaının təbliğatından xəcalət çəkirdilər. Odur ki, hər hansı formada hakimiyyəti müdafiəyə təşəbbüs göstərmirdilər. 20 yanvar hadisəsindən əvvəl SSRİ Xalq Deputatları Qurultayında Gürcüstan KP MK-nın birinci katibi Patiaşvili başda olmaqla Gürcüstan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, Nazirlər Sovetinin sədri Gürcüstan deputat qrupu ilə birlikdə 9 aprel 1989-cu il tarixdə sovet imperiyasının Tbilisi şəhərinə qoşun yeridib əhaliyə qarşı zor işlədərkən 16 nəfər gürcü vətəndaşının öldürülməsinə yekdil etiraz nümayiş etdirdilər. SSRİ alq Deputatları qurultayı "1989-cu il aprelin 9-da Tbilisi şəhərində nümayiş iştirakçılarına qarşı zor işlədildiyi pislənilsin" kimi mühüm bir qərar verdirməyə məcbur etdilər. Lakin bununla kifayətlənməyərək gürcü xalqına əl qaldırmış bir dövlətin hakimiyyət orqanında işləməyi özləri üçün təhqir hesab etdiklərini bildirərək, gürcü rəhbərliyi yekdil istefa verdi. Lakin rus ordusunun Bakıya düşmən kimi girərək, beynəlxalq hüquqla qadağan olunmuş silah növlərindən istifadə etməklə tarixdə görünməmiş amansızlıqla 131 nəfərin öldürülməsi, 744 adamın ağır yaralar alaraq şikəst olması, yüzlərlə adamın qanunsuz həbs olunub imperiyanın müxtəlif ucqarlarına aparılması, milyard manatlarla dövlət, ictimai və şəxsi əmlak məhv etməsi, ən başlıcası isə milli varlığa etinasızlıq göstərməsi və xalqın təhqir edilməsinə

cavab olaraq, Azərbaycan hakimiyyət orqanlarından bir nəfər də olsun istefaya getmədi. Əksinə, yuxarıda göstərdiyimiz kimi hakimiyyət uğrunda mübarizə daha da kəskinləşdi. Gürcüstan hakiminiyyət orqanlarından fərqli olaraq, Moskvanın Azərbaycanda yetişdirdiyi partiya və dövlət "xadimləri" ona yekdil sədaqət nümayiş etdirirdi. Hətta mənə etibar edin" deyə yalvaranlar da meydana çıxırdı. Bütün bunların heç biri Azərbaycan xalqının imperiyaya qarşı mübarizə ruhunu qırıb, mütəşəkkilliyini poza bilmirdi.

2 fevralda Dəfn Komissiyasının rəhbərliyi Nazirlər Sovetində 20 yanvar hadisəsi ilə əlaqədar keçirilən iclasa çağırıldı. Nümayəndə kimi Qüdrət Əbdülsəlimzadə və Allahşükür Paşazadənin iştirak etməsi məsləhət bilindi. Qüdrət müəllim iclasdan çox məyus qayıtmışdı. Dəfn Komissiyası idarə heyətinə məlumat vermək istəmirdi. Hamı başa düşürdü ki, o, hökumətin Dəfn Komissiyasına mənfi münasibətini açıqlamaqla yoldaşlarını ruhdan salmaq istəmir. Ciddi təkidlərdən sonra Qüdrət Əbdülsəlimzadə bunları deməklə kifayətləndi: "Mənə heç bir əhəmiyyət vermədilər, sadəcə olaraq bir küncə qısılmaq məcburiyyətində qaldım. Dəfn Komissiyasına mənfi münasibət var. Şəhidlərə abidə kompleksi qoymaq təklifimi "gərəksiz fikir" adlandırdılar". Naziriər Kabiteninin bu iclasına H. Həsənov " rəhbərlik edirdi. Q. Əbülsəlimzadə ruhdan düşməyib şəhidlərin dəfnini ləyaqətlə davam etdirməyin vacibliyini bildirməklə komissiya üzvlərini bir daha səfərbər etdi. Təxminən 3-4 gündən sonra Q. Əbdülsəlimzadəni yenidən Nazirlər Sovetində 20 yanvar hadisəsi ilə bağlı keçirilən ikinci iclasa çağırdılar. İclas başlayan kimi Qüdrət Əbdülsəlimzadəyə hücum olunmuş ,Dəfn Komissiyasına böhtanlar atılmış, onun təcili dəyişdirilib, yerinə dovlət komissiyasının yaradılmasının vacibliyi fikri irəli sürülmüşdü. Qüdrət Əbdülsəlimzadə təklənmiş vəziyyətdə qaisa da, cəsarətlə, faktlarla qaragüruhun böhtanlarını təkzib edib, Dəfn Komissiyasının Azərbaycan xalqına ləyaqətlə xidmət etdiyini bütün xaiqın etimadını qazandığını bildirmişdi. Milli satqınlardan ibarət bu məclis Qüdrət müəllimin "Dəfn Komissiyası bütün xalqın etimadını qazanıb" ifadəsini xüsusi olaraq hallandırmış, ona təzyiq göstərib geri çəkilməyə məcbur etmək istəmişdilər. Dəfn Komissiyasının xalqın tam etimadını qazandığına əmin olan Qüdrət müəllim təkrar çıxış edərək, "komissiyanın bütün xalqın etimadını qazandığını yoxlaya bilərsiniz", - deyə H. Həsənovun sədrlik etdiyi iclas üzvlərinə xəbərdarlıq etmişdi.

Dəfn Komissiyası yarandığı gündən respublika rəhbərliyindən heç bir yardım və xoş məram görməsə də, özlərinin və digər şəxslərin çıxışlarında respublika rəhbərliyi ilə əhali arasında konfrantasiya yarada biləcək fikirlərin səslənməsinə yol vermirdi. Görünür respublika rəhbərliyi Dəfn Komissiyasının bu xəttini düzgün başa düşməmiş, onu zəifiik və ya hakimiyyətə yarınmaq kimi başa düşmüşdü. Lakin Dəfn Komissiyasının başlıca məqsədi sabitlik yaratmaqla, qarşılıqlı anlaşmaya yol açmaq istəyi idi. Lakin Qüdrət müəllim "Dəfn

Komissiyası bütün xalqın etimadını qazanıb, yoxlaya bilərsiniz" ifadəsini işlədəndə, Nazirlər Sovetinin iclasda iştirak edən nümayəndələri donquldasalar da, Qüdrət müəllimə konkret cavab vermək məsuliyyətini, "kişiliyi”ni kimsə üzərinə götürməmişdi. Bu gərgin vəziyyətdə çıxış edən şair Sabir Rüstəmxanlı Qüdrət müəllimi, Dəfn Komissiyasını müdafiə etmiş, onun normal fəaliyyəti üçün şərait yaratmağın vacibliyini əsaslandırmışdı. Dəfn Komissiyasını dəyişmək istiqamətində görülən işlərin xalq tərəfindən yaxşı qarşılanmayacağını, hakimiyyətlə xalq arasında əlavə gərginlik yaradacağını söyləmişdi. Nazirlər Sovetinin iclasından qayıtdıqdan sonra Qüdrət müəllim respublika hakimiyyətinin Dəfn Komissiyasına münasibətini komissiya üzviərinə ətraflı şərh etdi, fəaliyyətlərində maksimum ayıq olmağı harnının diqqətinə çatdırdı. Haki-miyyətin Dəfn Komissiyasından başlıca tələbi Şəhidlər Xiyabanında dəfni dayandırmaq idi. Kremldə M. S. Qorbaçov A. Mütəllibov və H. Həsənova yeni vəzifə təyinatları zamanı şəhidlərin hamrsırın bir yerdə dəfn olunmasının qarşısını almağı onlara bir vəzifə olaraq tapşırmışdı. Artıq bu haqda cəmiyyətdə yetərincə məlumat var idi. Göründüyü kimi, siyasətdə daha çevik olan H. Həsənov Kremldə M. S. Qorbaçova "Mənə etibar edin" deməkdə haqlı olduğunu, A. Mütəllibovdan qabiliyyətli və Kremlə sədaqətli olduğunu sübut etmək istəyirdi. Lakin hakimiyyətin Dəfn Komissiyasını açıq dəyişdirməyə cəsarəti çatmırdı. Dəfn Komissiyasını zorakı dəyişməyin xalqın qəzəbinə səbəb olacağını imperiya da, hər kəs də başa düşürdü. Bu qəzəbin nəticəsini proqnozlaşdıra bilmədikləri üçün susmağa məcbur olub, ənənəvi şər, böhtan, gözdənsalma üsulundan istifadə etməklə bu məqsədi tədricən həyata keçirmək istəyirdilər. Yuxarıda bəhs olunduğu kimi, Dəfn Komissiyası onu ləkələməyin başlıca yolu - komissiyanın pul yardımı ilə məşğul olmaqdan imtina etməklə özünü başlıca zərbədən xilas etmişdi. Köməkçilər arasına xüsusi adamlar yerləşdirməklşı pozub, əhalidə onlara qarşı narazılıq yaratmaq olardı. Hakimiyyətin bu təşəbbüsü də Dəfn Komissiyası tərəfindən dəf edilmişdi. Dəfn Komissiyası hakimiyyətin onu ləğv etməsinin qarşısını almaq üçün komissiya haqqında əhalidə ətraflı bilgi yaratmaq üçün təcili məlmuatda komissiya haqqında məlumatlar nəşr etdirməyi qərara aldı. Bu işdə Dəfn Komissiyası üzvlərinə bütün imkanlardan istifadə etmələri tövsıyə edildi. Komissiya üzvləri müxtəlif qəzetlərdə müsahibə və məqalələr nəşr etməyə təşəbbüs göstərdi.

Dəfn Komissiyasına dərhal reaksiya verib, onun müdafiəsinə yardım edən "Azərbaycan gəncləri" qəzetinin redaktoru Yusif Kərimov oldu. 22 fevral 1990-cı il tarixdə "Azərbaycan gəncləri" qəzetinin Şəhidlər Xiyabanına həsr etdiyi 3-cü səhifədə "Şəhidlərin ruhuna sadiq olanlar" adlı böyük şiriftlərlə yığılmış başlığın altında Dəfn Komissiyasının necə yaranması, üzvlərinin iş yeri, vəzifəsi, elmi dərəcəsi haqqında məlumat, hər bir üzvündən götürülən müsahibə nəşr edilmişdi. Səhifə Dəfn Komissiyasının sədri Q. Əbdülsəlimzadənin aşağıda iqtibas etdiyimiz sözləri ilə yekunlaşdırılmışdı.

"Giley-güzar üçün yox, ibrət və vəsiyyət üçün deməyə borcluyam ki, dəfn günlərində biz müxtəlif təşkilat, habelə şəxslərin manelərinə də rast gəlmişik. Bizi ən çox yandıran və düşündürən "sapı özümüzdən olan baltalardır. Biz bəlkə də onların günahından keçə bilərik. Iakin Tarix, Odlar Yurdu, Ana südü, Torpağımızın Duzu-Çörəyi və Şəhidlərimizin Ruhu onları bağışlayacaqmı?..".

Göründüyü kimi, qəzet ilk dəfə idi ki, imperiyanın 70 ildə unutdurub kiçik hərflərlə adi söz kimi yazdırdığı Tarix, Ana südü, Duz-Çörək, Şəhid ruhu kimi milli andları böyük hərflə yazmışdı. Bu itirilmiş milli yaddaşın, milli-mənəviyyatın bərpası idi. "Azərbaycan gəncləri" qəzetinin Dəfn Komissiyası üzviərini "Şəhidlərin ruhuna sadiq olanlar" kimi cəmiyyətə təqdim etməsi qəzetin redaktoru Y. Kərimovu hakimiyyətin qəzəbinə düçar etmişdi.

Dəfn Komissiyasının hakimiyyət tərəfindən dəyişdiriləcəyi haqqında məlumat artıq xalq arasında yayılmışdı və əhalinin həyəcanına səbəb olmuşdu. Şəhidlərin ziyarəti üçün növbəyə durmuş on minlərlə adam komissiyadan belə bir faktın olub-olmamasına cavab verməyi tələb edirdi. İzdiham qarşısında hakimiyyətin Dəfn Komissiyasını dəyişdirmək istəməsi haqqında söz-söhbətin şayiə olması haqqında komissiyanın mikrofonlanla verdiyi məlumat avantürist niyyətinə görə xalqın qəzəbinə düçar ola biləcəyi haqqında hakimiyyətə xəbərdarlıq idi. Beləliklə, "Azərbaycan gəncləri" qəzetinin Dəfn Komissiyası haqqında əsaslı arayışı, digər qəzetlərin yetərli məlumatı, əhalinin məsələyə dərhal kütləvi, aktiv reaksiyası hakimiyyəti niyyətindən çəkinməyə məcbur etdi.

Hər bir toplumun özünü xalq, millət kimi sübut etməsi üçün ərazisi, iqtisadiyyatı, dili, dini, adət-ənənəsi ilə bərabər, müəyyən səviyyədə ümumj intellektual səviyyəsi, etnosun qarşısında duran nəzəri məsələləri müəyyənləşdirmək və praktiki işləri icra etməklə onu tənzimləyən sosial təbəqənin - elitanın olması başlıca şərtlərdəndir. Göstərilən iki dəyər - tələb olunan ümumi milli intellektual səviyyə və elita olmadan toplum özünü xalq və millət kimi təsdiq edə bilməz. Qarabağın yeni erməni təcavüzündən müdafiəsi ilə başlanan milli-azadlıq hərəkatı göstərdi ki, Azərbaycanda sovet rejiminin yetişdirdiyi "ziyalı" - yazıçı, şair, alim, partiya və dövlət xadimləri əsasən onları doğan və yaşadan rejimin təmsilçiləridir. Azərbaycan xalqının istək və arzularından çox-çox uzaqdırlar. Göstərilən dövlət (imperiya) qayğıları, yaradılan mühit sayəsində adəti, ənənəsi, psixologiyası ilə onlar Azərbaycan xalqından ayrılmışdır. Mənəvi, psixoloji cəhətdən kosmopolit (həftəbecər), azərbaycanlı olduğu qədər rus müsəlman olduğu qədər xristian, qul psixologiyası, müti, milli və şəxsi qürurdan məhrum, özünə ağa tapmaqla yaşamağa alışmış, hər bir şəraitdə ağa axtarışında olan rəzil bir sosial təbəqədir. Milli irsi, iradi keyfiyyətləri ilə azərbaycanlı kimi qalan, milli elita hesab oluna biləcək ziyalı şəxsiyyətlər az idi, milli tələbatı ödəmək qədərində deyildi. İkinci dünya müharibəsi illərində milli elita kimi yetişib, milli arzuları reallaşdıran Azərbaycanın ziyalı nəsli 60-cı illərin sonu 70-ci illərin əwəllərində imperiya

tərəfindən məhv edildi. Bunun ardınca imperiyanın yetişdirdiyi 70-80-ci illər Azərbaycan ziyalısı rejimin sədəqəsi ilə, xüsusi yaradılmış rüşvət mühitində yaşamağa alışmış bir qrup idi. Bu dövrün ziyalıları arasında milli mövqedə dayana bilən ziyalı şəxslər son dərəcə az idi. Bu dövrün Azərbaycan "ziyalısı"nı xalq satqın, simasız, ünsür kimi tanıyırdı. İkili xarakterli adamlar idi. Gah xalqı, gah hakimiyyəti, başlıca olaraq hakimiyyəti müdafiə edirdi. Xalqı müdafiə etmiş "ziyalı" bir neçə saatdan sonra imperiyanın yaltağı kimi görünürdü. Hətta xalqa böhtan atırdı, onun gözü qarşısında hadisələri təhrif edirdi. "Ziyalı"nın belə səbatsız mövqeyi xalqın inamını qırır, onu ruhdan salırdı, qorxudurdu. Odur ki, ictimai-siyasi ədəbiyyatda ziyallının elita anlayışına daxil edilməsi mexaniki sürətdə Azərbaycan sovet "ziyalı"sına münasibətdə göründüyü kimi düzgün deyil. Azərbaycanın 70-80-ci illər sovet ziyalısı 99 faiz elita atributuna uyğun olmayan şəxslərdir.
1988-ci ildə başlayan Azərbaycan milli-azadlıq hərəkatının bütün ağırlığı özünü elita kimi sübut etmiş Xudu Məmmədov, Əbülfəz Əliyev, Xəlil Rza və onların ətrafında toplaşmış gənclərin (aralarına doldurulmuş DTK-nın agenturası istisna olmaqla) çiynində idi. Azərbaycan xalqının rnilli elitası məhz milli-azadlıq hərəkatı prosesində yetişirdi. 20 yanvar mücadiləsi Azərbaycan elitasının yeni nəslini doğdu. Bu nəslin birinci və ən yüksək zirvə fəth edəni məhz şəhidlər özləri idi. İkinci hissəsi isə şəhidiərin, Azərbaycan xalqının arzularını reallaşdırmaq yolunda meydana çıxan ziyalılar idi. Lakin bu elita nəsli də Azərbaycan xalqının istəklərini bütünlüklə reallaşdırmaq miqdarda deyildi. Siyasi proseslər göstərir ki, əhalinin ümıumi məqsədlər uğrunda birləşrnəsi asan oiur, lakin onu məqsədə doğru ardıcıl aparmaq üçün milli etimad qazanmış lazımi miqdarda elitar şəxsiyyətlər olmalıdır.

20 yanvar hadisəsi Azərbaycan sovet ziyalısı adlanan sosial təbəqə içərisində xalqın tələbatını, arzusunu ödəyəcək ziyalını seçib çıxardı. 20 ianvarın sınaqdan keçirdiyi ziyalılar xalqın qarşısında getdikcə, milli birlik güclənirdi. Azərbaycanın müstəqilliyi ideyasına qətiyyət və dönməzlik verirdi. 21 yanvarda 121 nəfər Azərbaycanın ən yüksək titullu görkəmli ziyalısının hamılıqla xalqın mövqeyindən yayındığı zaman milli tələbatı ödəmək arzusunda olan elita funksiyasına layiq ziyalılar meydan tapdığından üzə çıxdı və milli müqaviməti təşkil edə bildi.

Respublikanın bütün bölgələrində belə ziyalı şəxslər meydana çıxır və milli müqaviməti təşkil edirdilər. 20 yanvarın doğduğu, birləşdirdiyi ziyalılar Azadlığın zəruriliyini xalqa dərk etdirirdi, azadlığı milli təlabata çevirirdi. 20 yanvar hadisəsi ardıcıl miili elita meydana çıxarırdı. 14 fevral 1990-cı ildə Kremlin qurultaylar sarayında dünyanın altıda birini tutmuş imperiyanın deputatlarını imperator M. S. Qorbaçov başda olmaqla ayağa durmnağa, 20 yanvar şəhidlərini sükutla etiraf etməyə məcbur edən Tofiq İsmayılov, Arif Məlikov da 20 yanvarın yetirdiyi, üzə çıxardığı ziyalılar idi. 20 yanvarın doğduğu

ziyalı-elita birbaşa imperatorun gözünün içinə "sən qatilsən", - deyirdi. Bütün bunlar milli ruhu hələ bütünlüklə itirməmiş, simaısızlığı dolanışıq mənbəyinə çevirməmiş azərbaycanlıiarı müstəqillik uğunda mübarizədə birləşdirirdi.

Tofiq İsmayılov və Arif Məlikovun Kremlin Qurultaylar sarayını silkələyən qətiyyəti Azərbaycan xalqını bir daha səfərbər etdi, ona mübarizə ruhu verdi. 20 yanvarın doğduğu yeni Azərbaycan ziyalısı birdən-birə üzləşdiyi siyasi gərginliyə dözə bilmir, mənəvi böhran keçirir, əksəriyyəti dünyasını dəyişirdi, məhv olurdu, lakin geri çəkilmirdi. Bütün müəssisələrdə işi dayandırır, müəssisələrdə, yaşayış məhəllələrində, milli yaddaşda yaşayan qarşılıqlı yardım formalarından istifadə edərək, insanların bir-birinə yardımını təşkil edirdi. İqtisadi, mənəvi, siyasi səbəblərdən əhalidə impeiyaya qarşı mübarizədə ruh düşkünlüyü yaranmasına imkan vermirdi. Rus əsgərinin gülləsindən dünyasını dəyişən şəhidlərin Şəhidlər Xiyabanında dəfni prosesini mütəşəkkil keçirmək siyasi aksiya idi. Şəhidləri ziyarətdən əlavə gündə yüzlərlə adam Xiyabanda müəyyən olunmuş yerdə Dəfn Komissiyasının tapşırığını icra etmək üçün gözləyirdi.

Azərbaycanın yaşlı ziyalı nəslindən yalnız iki nəfər - Arif Məlikov və Tofiq İsmayılov elita səviyyəsinə yüksələ bilib, birmənalı ziyalılıq nümayiş etdirə bildilər. Bunun bir sıra səbəbləri içərisində təmizqanlılıq mühüm əhəmiyyət kəsb edir. Dünyada milli fəlsəfə və genetika sahəsində apanj mış tədqiqatlar qan qatışığmın bir çox xalqlarda irsi - milli keyfiyyətləri ol dürdüyünü sübut etmişdir. Milli şüurun və mənəviyyatın daşıyıcısı olan bir neçə Azərbaycan ziyalısı bir neçə nəsil ardıcıl DTK-nın təzyiqinə məruz qaldıqlarından, açıq milli mövqe göstərə bilmədilər.

Uzun illər siyasi fəaliyyəti və bədii yaradıcılığı ilə türk və müsəlman xalqların milli şüurunun oyanması, müstəqillik ideyalarının yaranmasmda mühüm xidmətləri olmuş Qazax şairi və siyasi xadimi Oljas Süleymanov 20 yanvar təcavüzünün elə ilk günlərində - 24 yanvarda Bakıya gəldi.

O, Bakıya gəldiyi ilk günü əsasən Şəhidlər Xiyabanında Azərbaycaj xalqının imperiyaya qarşı birbaşa döyüşən hissəsi ilə birlikdə oldu. Yazıçı Anar yazır ki, Oljas "Bakıda bədbinləşənlərə ürək-dirək verdi, SSRİ Xalq Deputatları Qurultaylarında da, Ali Sovetin sessiyasında da Oljasın bizə dost və arxa olduğunu dönə-dönə görmüşük". Oljasın Bakıdakı yal şantısı haqqmda bir məqam daha maraqlıdır. Yazıçı Anar yazır: "Oljal Bakıda xəstələnmişdi, "Azərbaycan" mehmanxanasında yatırdı. Ona dəyməyə getmişdim. Yanında Xalq Cəbhəsindən cavanlar vardı... Bir azdan həngamə başladı. Tanklar hay-küylə meydana daxil olub Dəniz vağzalına tərəf getdilər, gəmilərə atəş açdılar. Mehmanxanaya tərəf güllə atdılar. Cavanlar pəncərədən dəhlizə düşmüş gülləəri Oljasın nömrəsinə gətirdilər, bizə göstərdilər. Gənc operator mehmanxananın eyvanlarında "bu dəniz döyüşü" səhnələrini cəsarətlə çəkirdi" [12,164-165]. Göründüy kimi Azərbaycan Xalqının hayına gəlmiş dünya şöhrətli Oljas Azərbaycanın "görkəmli ziyalı"larının arasında deyil, AXC cavanları,

milli-azadlı mübarizləri arasında idi. 20 yanvar günləri onun Azərbaycan xalqının bıı başa düşmənlə üzbəüz mübarizə aparan hissələri arasında olması, SSRİ parlamentində onu açıq şəkildə müdafiə etməsi Oljasın Azərbaycan mil elitası funksiyasını yerinə yetirdiyini deməyə əsas verir. Oljas nəinki Qazax və Azərbaycan türklərinin, həm də rus imperiyasının bütün türk və müsəlman xalqlarının önündə getməklə onların milli özünü təsdiqinə yol açan mənəvi-siyasi lider idi.

20 yanvarda rus imperiyası ilə Azərbaycan xalqı arasında tam qarşıdurma yaranmışdı. Lakin Bakıda əhalinin mütəşəkkilliyi imperiyanı hərbi təcavüzü dayandırmağa məcbur etdi. Rus imperiyası mütəxəssisləri Azərbaycanda siyasi və psixoloji vəziyyəti müzakirə edərkən, hərbi əməliyyat davam etdirilərsə, əhalinin kütləvi şəkildə ordunu tərkisilaha başlayacağı qənaətinə gəlmişdilər.

Hadisələrin gedişindən göründüyü kimi imperiya Azərbaycan xalqının milli müqavimətini düzgün proqnoziaşdıra bilmədiyindən, qarşısına qoyduğu məqsədə nail ola bilməmişdi. Görünür imperiya respublikanın partiya və dövlət aparatında toplanmış sosial təbəqənin və titullu "ziyalı"ların nümunəsində Azərbaycan xalqını bütünlüklə milli dəyərləri itirmiş, tam kütlə halına düşmüş toplum hesab etmişdir. İmperiyanın rəftar və davranışı ardıcıl olaraq ona nifrət yaradırdı. Gah AXC-nin strukturlarını dağıtmağa, gah Azərbaycanda Sovet hakimiyyətini bərpa etməyə, gah da Azərbaycanda kütləvi zorlanan rus qadınlarını xilas etməyə gəldiyini deyən ordu generalı D. Yazovun 20 yanvar hərbi əməliyyatından sonra marşal rütbəsi ilə təltif olunması, Azərbaycan xalqının imperiyaya nifrətini daha da alovlandırdı, müstəqillik ideyalarını gücləndirdi. Azərbaycan xalqı böyük həssaslıqla övladlarının şəhid olduqları yerləri tapır, ardıcıl olaraq onu qırmızı qərənfillərlə bəzəyərək şəhidlərinə yas saxlayırdı. Lakin bu yas mərasimi məyusluğa qapılıb qalmış kədər məclisi deyil, imperiyaya qarşı aktiv bir siyasi mübarizə forması idi. Bütün Azərbaycan və dünya azərbaycanlıları miqyasında gedən bu mübarizənin mərkəzi Şəhidlər Xiyabanı idi. Yüz minlərlə insan hava işıqlaşandan gecədən keçənə qədər Şəhidlər Xiyabanına gəlir, 3-4 saatlıq növbəyə dayanaraq şəhidlərin məzarı önündən keçirdi. Bakı kəndlərinin gülbecərənləri xiyabanın girəcəyində ziyarətə gələnlərə qərənfil paylamasını davam etdirirdi. Cümə günləri minlərlə ağbirçəyin, qızın, gəlinin gətirdiyi xonçaları bütünlüklə şəhidlərin məzarı üzərində yerləşdirmək mümkün olmurdu. Xalq Dəfn Komissiyasına sədaqətli milli haklmiyyət orqanı kimi baxır, onu qətiyyətlə müdafiə edir və qoruyurdu. Artıq bu elə bir vaxt idi ki, Dəfn Komissiyası üzvləri fiziki cəhətdən tükənmək üzrə idi. Onlar gündə normadan 2-3 qat artıq ürək və əsəb dərmanı qəbul edirdilər. Şəhidlərin qırxını başa vurmaq üçün Allahdan ömür və möhlət diləyirdilər. Müavinlərdən Azər Nəbiyev xəstəiəndiyindən, Şəhidlər Xiyabanına ardıcıi gələ bilmirdi.

Moskva televiziyasının "Zaman" xəbərlər proqramı müdafiə naziri Yazovun "Bakıda yerli-dibli ölən olmayıb, ölənlərin içində uşaq-filan yoxdur", fikirlərini cəmiyyətə geniş təbliğ edirdi. İşə başlamış Azərbaycan televiziyası da dolayısı ilə Dəfn Komissiyasına qarşı çıxırdı. Xüsusilə yenicə yaranmış Azərbaycan Demokratik Ziyalılar Cəmiyyətinin sədri Nizami Süleymanovun tətilin məhz Şəhidlər Xiyabanında təşkil olunması iddiası da Dəfn Komissiyasına təzyiqləri artırırdı. Dəfn Komissiyası üzvlərinin yeni təcavüzə məruz qalacaqları aydın idi. Odur ki, daha ehtiyatlı davranırdılar.

21 fevralda Əhmədli qəsəbəsində yaşayan tələbə qardaşların - Nəriman və Fərman Əhmədovların rus əsgərlərinin camaatı qorxutmaq üçün açdığı atəşdən həlak olması xəbəri əhalidə yeni təşviş, həyəcan yaratmışdı. Dəfn Komissiyası yeni şəhidlərin valideynləri ilə əlaqə yaradıb, övladlarını Şəhidlər Xiyabanında dəfn etməyi məsləhət gördü və işin təşkilində onlara lazımi köməklik göstərəcəyini bildirdi. Dəfn Komissiyası bu faciə haqqında mikrofonla Şəhidlər Xiyabanına ziyarətə gələn minlərlə insana tez-tez məlumat verirdi. 22 fevraida 19 və 22 yaşlı tələbə qardaşların Şəhidlər Xiyabanında dəfn olunacağı bildirilirdi.

22 fevral şəhidlərin beşinci cümə mərasimi idi. Cümə günü ziyarətçilərin çox olduğunu və həmçinin iki qardaş şəhidlərin dəfn olunacağını nəzərə alan Dəfn Komissiyası 21 fevralda iş vaxtının sonunda sabahkı işiəlri bir də ətraflı təhlil etdi, maksimum sayıqlıq göstərməyi hamının nəzərinə çatdırdı.

22 fevralda səhər tezdən Dəfn Komissiyası üzvləri Şəhidlər Xiyabanına daxil olarkən ərazinin hakimiyyət orqanları tərəfindən tutulduğunu gördü. Dəfn Komissiyası hakirniyyətin bu üsulu ilə artıq tanış idi. Dəfn Komissiyasını açıq ləğv etməyə cəsarəti çatmayan hakimiyyət öz adamlarını komissiya üzvləri və köməkçil ərarasına yerləşdirərək, onlar vasitəsilə həqiqi komissiya üzviərini sıxışdırıb, öz adamlarından ibarət yeni "komissiya" yaratmaq istəyirdilər. Birmənalı xalqa söykəndiyinə, onun dəstəyini alacağına əmin olan Dəfn Komissiyası Şəhidlər Xiyabanını təxribatçılardan təmizləyib, işini qurmağa nail oldu. Təəssüf ki, tələbə şəhid qardaşları Şəhidlər Xiyabanında dəfn edə bilmədi. Dəfn Komissiyası sonradan öyrəndi ki, hakimiyyət orqanları qardaş şəhidlərin valideynlərinə xəbərdarlıq etmiş, övladlarının cənazəsini Şəhidlər Xiyabanına aparmamağı tapşırmışdır. Görünür məhz elə bu gün Şəhidlər Xiyabanında Dəfn Komissiyasının sıxışdırılması cəhdi də qardaşların burada dəfn olunmasının qarşısını almaq məqsədilə təşkil edilmişdi. Beləliklə, 22 fevralda Azərbaycan xalqı şəhidlərin 5-ci cümə mərasimini sovet imperiyası, onun yerii əlaltılan ilə kəskin mübarizə şəraitində başa vurdu.

Hörmətli oxucu, nəyə görə Dəfn Komissiyası deyil, Azərbaycan xalqı deyirəm? Bu hadisələrin həm fəal iştirakçısı, həm də tədqiqatçısı kimi deyə bilərəm ki, 13-15 yanvar Bakı talanlarından sonra Azərbaycan xalqının siyasi mübarizəsinin tənzimlənməsi heç bir təşkilatın və hakimiyyətin nəzarətində deyildi. Bu günlərdən etibarən Azərbaycan xalqı daxilən özü-özünü tənzimləyirdi. Azərbaycan xalqının siyasi mübarizəsinin mərkəzində özü və cəmiyyətin hələ lazımınca tanımadığı 20 yanvarın üzə çıxardığı ayrı-ayrı milli şəxsiyyətlər dayanırdı.

Yuxarıda ətraflı bəhs olunduğu kimi 20 yanvar təcavüzünə Azərbaycan xalqının reaksiyasını düzgün proqnozlaşdıra bilmədiyindən, imperiya və onun

yerli əialtıları 20 yanvardan sonra Azərbaycan xalqını müşahidə etmək məcburiyyətində qalmışdı.

20 yanvar Azərbaycan mənəvi-siyasi həyatının bütün sahələrini ələdi və süzgəcdən keçirdi. Həqiqi milli qüwələri üzə çıxardı. Hakimiyyətin özünü milli kimi göstərən qolu və AXC daxilinə doldurulmuş anti-milli qüvvələr qismən də olsa, ifşa olundu. Hakimiyyətin bütünlüklə imperiya əlaltısı olması aşkar oldu və bütünlüklə xalqın etimadını itirdi. Azərbaycan xalqı ilə imperiya və onun yerli əlaltıları arasında barışmaz münasibət yarandı.

20 yanvar irticasına qarşı rayonlarda başlayan nümayiş və mitinqləri yatırmaq üçün rayon partiya komitələri rayonlara rus ordu hissələri çağı-rır, komendant saatları qoydurur, milli qüwələri kütləvi həbs etdirirdi. Bu prosesdə onların milli qüvvələrlə bərabər şəxsi qərəzləri olduğu adamları da həbs etdirmələri əhalinin diqqətindən yayınmırdı. Göründüyü kimi zaman keçsə də, kommunistlər mahiyyətini dəyişməmiş, "acıq və intiqam", "yıxmaq və öldürmək" partiyası olaraq qalırdı. Qəbələ rayon partiya komitəsinin birinci katibi Ramiz Əhmədovun, Cəbrayıl Rayon Partiya Komitəsinin birinci katibi Əli Rzayevin, Cəlilabad Rayon Partiya Komitəsinin birinci katibi Xeyrulla Əliyevin rayona rus ordu hissələri çağırması əhali üçün gözlənilməz olduğundan, onlar ictimaiyyətin kütləvi nifrətini qazandılar. Kommunist partiyasının rəhbərlik etdiyi hakimiyyət orqanları xalqın etimadını itirmişdi. Dövlətin milli qüwələrə, xüsusilə 20 yanvar günlərində meydana çıxan şəxsiyyətlərə hörmət və etimadı gün-gündən güclənirdi. Şəhidlər Xiyabanı milii birliyin nüvəsi kimi ardıcıl olaraq möhkəmlənirdi. Milli mütəşəkkillik ardıcıl olaraq yüksəlirdi. İmperiyanın yerli hakimiyyət orqanları və ordu vasitəsilə Azərbaycan xalqına təsir imkanı getdikcə zəifləyirdi. Əgər 20 yanvarın ilk güniərində Yazov kobudcasına "Xalq Cəbhəsinin strukturunu dağıtmağa" gəldiyini deyirdisə, SSRİ Ali Sovetinin sesiyasında Azərbaycan xalqını ələ salırdısa, Qorbaçov SSRİ Ali Sovetinin məclislərində Azərbaycan deputatlarına söz belə vermək istəmirdisə, 20 yanvardan bir neçə gün sonra Qorbaçov Azərbaycan deputatları ilə asanlıqla görüşür və onlarla mülayim rəftar edirdi. Qorbaçovu buna Azərbaycan xalqının mütəşəkkil birliyi məcbur edirdi. Azərbaycan xalqı artıq nə imperiyanın ordusuna, nə də onun yerli əlaltı rəhbəriiyinə itaət edirdi. Hadisələrin bu cür davammın haraya aparıb çıxaracağını müəyyənləşdirmək çox çətin idi. Nəticənin imperiyanın xeyrinə olmayacağı da aydın idi. Odur ki, Kreml Azərbaycan xalqı ilə ünsiyyəti bərpa etməyə yollar və vasitə axtarmaq məcburiyyətində qalmışdır. Təsadüfi deyil ki, yenidənqurma prosesində sovet imperiyasında başlayan hərəkat içərisində yeganə olaraq Azərbaycan xalqının mübarizəsi xalq hərəkatı səviyyəsinə yüksəl-mişdi [5,70-71]. Təbii olaraq imperiya yerli hakimiyyət orqanları bütünlüklə xalqın etimadını itirdiyi bir vaxtda milli qüvvələrlə, AXC ilə dil tapmaq məcburiyyətində idi. Hansı ki, bir neçə gün əvvəl SSRİ Müdafiə naziri onu faşist" adlandırırdı, strukturlarını dağıtmağa gəidiyini bildirirdi. M. S. Qorbaçov onun "miliətçilərdən" və "demokratlardan" ibarət olduğunu, DTK sədri Kryuçkov və daxili işiər naziri Bakatin onun tərkibində "sağlam qüvvələr" oiduğunu deyirdi. İmperiya AXC ilə danışığa girmək məcburiyyətinbə qalanda artıq o, məğlub vəziyyətdə idi. Bunu o zaman AXC sədri Əbülfəz Elçibəy özü də etiraf edirdi. Ə. Elçibəy deyirdi: "AXC-nin məğlubiyyəti oldu, ancaq xalqın məğlubiyyəti demək deyildi...

Tətilin mütəşəkkil keçməsi, xalqın heç bir hiylə və təbliğata uymamasI, fəhlə və ziyalıların həmrəyliyi özü böyük qələbədir. Bu birlik gələcək mübarizənin

qalibiyyətinə zəmanət verir" [5,70-71; l.-ll, 113]. Elçibəyin bu fikri 18 yanvar mitinqi başlayandan Azərbaycan xalqını heç bir hakimiyyətin, siyasi təşkilatın idarə edə bilmədiyi məqamda məhz öz daxili birlik qüwəsi, milli təşkilatlanma prosesi sayəsində özü tərəfindən idarə olunması haqqında mülahizəmizi bir daha təsdiq edir.








НАРОД ТРЕБУЕТ ПОЛИТИЧЕСКОЙ
ОЦЕНКИ СОБЫТИЯМ
19-20 ЯНВАРЯ!

Azərbaycan xalqının imperiyanın hakimiyyəti illərində ilk milli təşkilatı ; AXC daxilində yuxarıda adları çəkilən müxtəlif təşkilatların hər birisinin gizli nümayəndəsi olması heç kimdə şübhə doğurmur. Buraya Azərbaycan cəmiyyəti içərisindəki sosial qrup və təbəqələrin də nümayəndələrini əlavə etsək, AXC daxilində müxtəiif mənafeli və məramlı qüvvələrin olması təbiidir. Məhz elə bu səbəbdən də Azərbaycanda milli hərəkatın onun təşkilatı AXC-dən yüksək səviyyədə durması qanunauyğun haldır. Nemət Pənahov və imperiyanın digər pozucu qrup və ünsürləri tərəfindən AXC nə qədər gözdən salınsa da, xalqın etimad qöstərdiyi yeqanə təşkilat qüwə AXC idi. Odur ki, hakimiyyət orqanları AXC vasitəsilə Azərbaycan xalqı ilə münaqsibəti bərpa etməyə məcbur olduğundan, onun fəaliyyətinə imkan yaratdı. Bakı şəhəri hərbi komendatı general-leytenant Dubniyakın AXC idarə heyətinin üzvü Tofiq Qasımov və digər fəallarla danışığa girməsi, Sov.lKP MK-nın Siyasi Bürosunda AXC-yə münasibətin iki dəfə müzakirəsi də imperiyanın Azərbaycan xalqının mütəşəkkilliyi qarşısında onun etimad göstərdiyi təşkilatı - AXC-ni etiraf etməyə, onunla hesablaşmağa məcbur olduğunu göstərirdi.

Bütün bu prosesdə Şəhidlər Xiyabanı özünü milli, mənəvi və siyasi birliyin mərkəzi kimi göstərirdi. Dəfn Komissiyası hakimiyyətin ona maneçiliyinə baxmayaraq, həmişə onunla kompromis yolu tutmuşdu. Lakin şəhidlərin 5-ci cüməsi - 22 fevralda hakimiyyətin Dəfn Komissiyasına təhqiramiz münasibəti onu həqiqəti xalqa açmağa məcbur etdi. Dəfn Komissiası məhz birbaşa xalqın iştirakı ilə hakimiyyətin əlaltılarını Şəhidlər Xiyabanından qovması hakimiyyəti xalqın gözündən bir daha saldı. Dəfn Komissiyası hakimiyyətin ona təzyiqlərini dəf etmək üçün əhalinin səfərbərliyini daha da gücləndirməyi qərara aldı. Bu məqsədlə də 22 fevralda əhali şəhidiərin qırx mərasimini mütəşəkkil keçirməyə hazırlamağa başladı. Şəhidlər Xiyabanının qırx mərasiminə uyğun yenidən qurulması, şüarların müəyyən edilməsi ardıcıl olaraq ziyarətçilərə aşılandı. Bu işin təşkilində iştirak etmək istəyənlərdən təkliflərini əvvəlcədən Dəfn Komissiyasına termək xahiş olundu. Elə həmin gündən Dəfn Komissiyası Şəhidlər Xiyabanında xatirə kompleksinin yaradılmasını və Vahid Azərbaycan ideyasını gücləndirdi. Dəfn Komissiyası üzvlərinin müşahidəsinə görə, Şəhidlər xiyabanında Cənubi Azərbaycandah gəlmiş soydaşlarımızın çıxışları əhali tərəfindən yüksək həssaslıqla qarşılanan, milyonlarla insana ümid inam və təskinlik verən çıxışlar idi. Şimali Azərbaycana qarşı rus-erməni təcavüzü dünyanın böyük dövlətləri tərəfindən müdafiə olunduğu bir vaxtda dünyaya səpələnmiş cənubi azərbaycanlıların bu vəziyyəti şimali azəraycanlılara məlum deyildi. Odur ki, şimali azərbaycanlılar cənublu qardaşlarının bu haya gəlişini, əlaqəni, münasibəti dünya səviyyəsində kömək kimi qarşılayırdı. Gələcəyə, rus imperiyasının dəf ediləcəyinə, Vahid Azərbaycanın yaranacağına ümidi, inamı daha da gücləndirdi.

Dəfn Komissiyası üzvləri çıxış və nitqlərində 20 yanvar şəhidlərinin Azərbaycan xalqının mənəvi dirçəlişində, miili birliyində, tarixi şöhrətinin bərpa olunmasında rolunu xalqa izah edirdi. Şəhidlərin qohum-əqrabalarını, bütünlükdə əhalini bu milli-fəxri ali hisslərin təsirinə salmağa çalışırdı. Xalqın yad, faciə və s. pessimist hislərin təsirinə düşməsinə imkan verməməyə can atırdı.

Şəhidlər Xiyabanının qırx mərasiminə hazırlanması təklifi irəli sürülən kimi Bakı və Sumqayıt məktəbləri dərhal xiyabana gəldilər, onu yenidən sahmana saimağa başladılar. Onlarla rəssam və memar Şəhidlər Xiyabanına gəlib onun qırx mərasimində necə qurulması və bəzədilməsi məsələsini Dəfn Komissiyası ilə məsləhətiəşdilər. Beləiiklə, Azərbaycan xalqı yüksək həssaslıq və intizamla Şəhidlər Xiyabanını qırx mərasiminə hazırlamağa başladı. Şəhidlər Xiyabanında başlayan bu hazırlıq işi Azərbaycan miqyasında həyata keçirilirdi. Rayonlarda da rus əsgərlərinin gülləsindən həlak olmuş şəhidlərə ümummilli qırx mərasiminin keçirilməsinə hazırlıq görüldü. Dəfn Komissiyası ziyarətə gələnlərdən bütün 20 yanvar şəhidlərinin böyüdülmüş şəkillərini qırx mərasiminə qədər əldə edib, onlara çatdırılmasını xahiş etdi. 2-3 gün ərzində 20 yanvar şəhidlərinin hamısının böyüdülmüş şəkilləri Dəfn Komissiyasında toplandı. Şəhidlər Xiyabanının girəcəyində əbədi məşəlin postamenti yaradıidı. Hakimiyyətlə razılığa gəlindi ki, əbədi məşəlin yandırılması ilə qırx mərasimi başlansın. Lakin hakimiyyət qaz borusunun postamentə birləşdirilməsini bütün vəchlə yubadırdı. 28 fevralda Şəhidlər Xiyabanında 20 yanvarda güllə yarası almış son şəhid dəfn olundu. Mənəvi və fiziki yorğunluq, qırx mərasiminin yaxınlaşması ilə Şəhidlər Xiyabanına gələnlərin sayının həddən artıq çoxalması, onları tənzimləmək kimi ağır iş şəraiti, hakimiyyətin qırx mərasiminə pozucu təsiri Dəfn Komissiyası üzvlərini fiziki və psixoioji cəhətdən tükəndirirdi. Xalqla hakimiyyət arasında etimadsızlıq elə bir səviyyəyə çatmışdı ki, hakimiyyətin qırx mərasiminə pozucu təsiri haqqında Şəhidlər Xiyabanında əhaliyə informasiya sızması bədbəxt hadisə ilə nəticələnə bilərdi.

Şəhidlər Xiyabanında qırx mərasimində iştirak etmək üçün rayonlar-dan əhali Bakıya gəlirdi. Respublikada antimüstəmləkəçi, milli ruhlu, siya-si şüurlu adamların şəhidlərin qırx mərasimində respublika miqyasmda bir mərasimdə birləşməsinin imperiya üçün gözlənilməz təhiükəli hadisə-yə çevrilə biləcəyini hakimiyyət başa düşür və qorxusunu açıq büruzə ve-rirdi. Odur ki, Bakıda şəhidlərin qırx mərasimində əhalinin kütləvi iştirakı-nın qarşısını almağa çalışırdı. Bu məqsədlə 27 fevraldan rayonlardan Ba-kıya sərnişin nəqliyyatı dayandırılmışdı. Bütün vasitələrlə rayonlardan əhalinin Bakıya gəlməsinə mane olunurdu.

Elan edilməsə də, martın 1-nin şəhidlərin qırxı mərasimi günü olduğuhu hamı bilirdi. Prinsip etibari ilə 1 mart qırx mərasimi günü kimi hakimiyyətlə də razılaşdırılmışdı. Respublika rəhbərliyinin qırx mərasimində iştirakk edəcəyi də bildirilmişdi. Lakin Dəfn Komissiyası qırx mərasiminin açılışını əbədi məşəlin alovlandırılması ilə başlanmasını başlıca şərt kimi irəli sürür, mərasimin gün ərzində televizorla canlı yayımlanmasını respublika rəhbərliyindən xahiş edirdi. Lakin hakimiyyət qaz borusunun əbədi məşəlin postamentinə birləşdirilməsinə icazə vermirdi. Ona görə də, Dəfn Komissiyası qırx mərasiminin gününü elan etmirdi. 28 fevralda Dəfn Komissiyası İmam Mustafayev və respublikanın başqa nüfuzlu şəxslərini qaz borusunun əbədi məşəlin postamentinə birləşdirilməsinə icazə almaq üçün minnətçi salsa da, hakimiyyətdən cavab ala bilmədi. 1 martda günün birinci yarısı Dəfn Komissiyasının hakimiyyətlə əlaqə yaratmaq cəhdi boşa çıxdıqdan sonra günün ikinci yarısı 2 martı şəhidlərin qırx mərasimi günü elan etdi. Dəfn Komissiyasının 2 mart - Qorbaçovun ad gününü şəhidlərin qırx mərasimi günü elan etmək niyyəti var idi. Lakin 2 mar-:ı qırx

mərasimi elan etməyə ciddi əsas yox idi 28 fevraida son şəhidi dəfn edərkən, onun üçü mərasiminin kütləvi qeyd edilməsini xalqa aşıladı. Bu da 2 marta düşürdü.

Hakimiyyət orqanları ilə ilkin danışıqlar zamanı 1 martda xiyabanın girəcəyində əbədi məşəli yandırmağa, mərasimi gün ərzində translyasiya ətməyə razılıq verildikdən və hakimiyyətin yekdil qırx mərasimində iştirak edəcəyini bildirdikdə Dəfn Komissiyası mərasimin 2 marta keçirilməsinə lüzum görmədi. Dəfn Komissiyası ilə hakimiyyət orqanları arasında 28 fevraldakı razılaşma zamanı Şəhidlər Xiyabanında dəfn olunmuş 80 şəhidin məzarı rəsmi sənədləşmə əsasında Azərbaycan SSR Ali Sovetin hüquq şöbəsinin əməkdaşları Tofiq Bağırov və İbrahim Abdullayevə təhvil verilmişdi. Görünür hakimiyyət məzarlar rəsmi təhvil verildiyinə görə 1 martın Şəhidlər Xiyabanında adi, ənənəvi mərasim kimi başa çatıb, Dəfn Komissiyası bununla fəaliyyətini başa vuracağını düşünmüşdür.

20 yanvardan Azərbaycan xalqı yekdil milli iradə nümayiş etdirirdi.Dəfn Komissiyası bir rəhbər, lider olaraq qırx mərasimində bunu daha qabarıq şəkildə siyasi çaiarlarla sübuta yetirmək istəyirdi. Odur ki, şəhidləin qırx gününün tamam oiması ilə Dəfn Komissiyasının Şəhidlər Xiyabanını buraxıb gedcəyini düşünmək özü-özünü aldatmaqdan başqa bir şey deyildir.

Artıq 28 fevraldan Şəhidlər Xiyabanında demək olar bütün çıxışlar qırx nərasiminin şəhidlərin ruhuna layiq yüksək səviyyədə keçirilməsinə həsr olunmuşdu. Qırx mərasiminin vaxtı elan olunduqdan sonra bütün çıxışlar nərasimin milli və dini çalarları izah oiunmaqla Şəhidlər Xiyabanındakı yüz minlərlə əhali qırx mərasimi üçün psixoloji və ideoloji cəhətdən səfərbər edilirdi. Dəfn Komissiyasının belə bir qətiyyətli addımının hakimiyyət açün gözlənilməz olmasını onlar sonralar etiraf etdilər. Əslində Şəhidlər Xiyabanı 28 fevraldan qırx mərasiminə hazır idi. Əhali Dəfn Komissiyası ilə razıiaşdırılmış şəkildə Şəhidlər Xiyabanını yenidən qurmuşdu. Lövhələr üzərinə qara parça örtük çəkilmiş və üzərində ağ hərflərlə "Şəhidlər Xiyabanı"; girəcəkdəki qara parça ilə örtülmüş ən böyük divar üzərində iri hərflərlə "Şəhidlərimizə Allah rəhmət eləsin!" sözləri yazılmışdı. Xiyabanın hər iki girəcəyi tərəfdən - Ali Sovetin binası və Mehdi Hüseyn küçəsi tərəfdən yolların kənarlarına və elektrik dirəklərinə qara bayraqlar asılmışdı. 28 fevral və 1 martda istiqlal mübarizələrinin şəhid olduqları ərazilərdə qərənfillər təzələnmişdir. Şəhidlər Xiyabanında dəfn olunmamış bütün 20 yanvar şəhidlərinin hamısının böyüdülmüş şəkili xiyabanda toplanmışdı.

22 fevraldan Dəfn Komissiyası ilə hakimiyyət arasında münasibətlər kəskinləşsə də, şəhidlərin qırx mərasimini onların ruhuna layiq yüksək səviyyədə keçirmək naminə Dəfn Komissiyası güzəştlərə gedirdi. 1 martda hakimiyyətin şəhidlərin ruhuna yad ünsür olduğu bir daha təsdiq olunandan sonra Dəfn Komissiyası şəhidlərin qırx mərasimini yüksək səviyyədə keçirmək, xalqı bu istiqamətdə səfərbər etmək üçün radikal addımlar atdı. Hakimiyyətin müxtəlif üsullarla şəhidlərin qırx mərasimini sönük keçirmək istəyi bir daha meydana çıxan kimi Dəfn Komissiyası hakimiyyətlə kompromis naminə Şəhidlər Xiyabanına gətirilməsini məsləhət bilmədiyi bütün plakat və şüarların xiyabanda H. Aslanovun abidəsi ətrafında yerləşdirilməsinə icazə verdi. "Qorbaçov Azərbaycan xalqının cəlladıdır", "Qorbaçov, tvoy ruki v krovi moeqo

naroda", "Azərbaycan xalqının qatillərinə ölüm!" və s. onlarla şüar asıldı. Divarın üstündə hündürdə qoyulmuş Azərbaycan xalqına müraciətdə deyilirdi: "Qorbaçov xalqımızm qatili kimi Azərbaycan Xalq Məhkəməsinə verilməlidir!" Belə bir məhkəmə yaradılmalı, Qorbaçovun gəlib-gəlməməsindən asılı olmayaraq onu ifşa və müdafiə edən iki vəkil təyin edilməlidir, Beləliklə, Dəfn Komissiyası Şəhidlər Xiyabanında gizli və açıq radikal tədbirlərə imkan yaratdi.

Artıq Şəhidlər Xiyabanında keçirdikləri 41 gün ərzində Dəfn Komissiyasının üzvləri milyonlarla arxa çevirməli oğlan və qızı, həmvətəni, minlərlə millətsevər maskası geymiş "ziyalı" nadanı, tör-töküntünü müəyyər etmişdi. Onlarla işləmək təcrübəsi qazanmışdı. Dəfn Komissiyasının üzvləri bir-birinin zəif və qüvvətli cəhətlərini bilir, zəruri anlarda bir-birini tamamlayırdılar. Dəfn Komissiyası vahid orqanizm, fədakar, bir-birinə tamam arxalanan səmimi kollektiv olmaq etibarı ilə şəhidlərin qırxı mərasimini yüksək səviyyədə keçirməyə mənəvi cəhətdən tam hazır idi. Şəhid lərin qırxı mərasimini yüksək səviyyədə keçirmək uğrunda hamılıqla yek dil, inadkar mübarizə aparsalar da, fıziki qüvvələrinin artıq tükəndiyini heç kəs dilə gətirməsə də, hamı görürdü.
1 mart xiyabanda ziyarətçilərin çoxluğuna və hadisələrin dramatikliyinə görə dördüncü gün, hadisə idi. Birinci dəfə idi ki, Şəhidlər Xiyabanın da ziyarət mərasimi gecə saat 10-dan keçənə kimi davam etdi. Dəfn Komissiyası gecə saat 10.30-da xiyabanda işini yekunlaşdıra bildi. Sabahkı qırx mərasiminin planlarını yenidən nəzərdən keçirdi. Hamını narahat edən başlıca məsələ komissiya üzvlərinin sabahkı mərasimi başa vurmağa fiziki gücünün çatmayacağı qorxusu idi. Odur ki, komissiya idarə heyətinin üzvlərinə özlərinə etibar etdikləri adamlardan əlavə köməkçilər götürmək səlahiyyəti verdi. Üç dəfə infarkt keçirmiş Bağır Bağırovun "Allah bizə sabah güc, qüvvət verər" sözləri hamını psixoloji cəhətdən səfərbər olmağa təkan verdi. Sabahdan xiyabana tez gəlmək məqsədilə hamı evə tələsdi.

2 mart saat 6.30-da Dəfn Komissiyası üzvlərindən Qüdrət Əbdülsəlimzadə və Xəliyəddin Xəlilov şəhidlər xiyabanındakı mərkəzi tribunanın qarşısında birinci görüşdülər. Təmkinliliyi ilə fərqlənən Qüdrət Əbdülsəlimzadənin əsəblərinin zəiflədiyi özünü açıq büruzə verirdi. Hələ xiyabana əhali daxil olmamışdı. Xiyabana Ali Sovetin binası tərəfdən daxil olmuş Q. Əbdülsəlimzadə girişdə hərbçilərin və milisin dayandığını bildirib bura nəzarət etmək məqsədilə oraya qayıtmağı məsləhət gördü. Xiyabanın girişində 200 nəfərə qədər ziyarətçi dayanmışdı. On nəfər əsgər (komandirləri gizirdir) oniarın sənədini yoxlayırdı. Onlardan kənarda bir nəfər "azərbaycanlı" (əgər belə demək mümkünsə) milis polkovniki bir neçə nəfər milis zabiti ilə dayanmışdı. Q. Əbdülsəlimzadə və X. Xəlilov əsgərlərə yaxınlaşıb bu gün Şəhidlər Xiyabanı ətrafına əsgərlərin gəlməməli olduğunu və burada heç bir yoxlama aparmağa kimsənin səlahiyyətli olmadığını bildirdilər. Hərbçilər isə Şəhidlər Xiyabanına girənlərin hamısmı yoxlamaq haqqında əmr aldıqlarını bildirdilər. Q. Əbdülsəlimzadə və X. Xəlilov onların buradan getmələrini tələb etdilər. Əsgərlər isə yoxlamada israrlı olduqlarını - bildirirdilər. Q. Əbdülsəlimzadə və X. Xəlilov xiyabana tərəf axışan izdihamı göstərib əsgərlərə dedilər: 10-15 də-qiqədən sonra burada ən azı yüz min adarn olacaq, o zaman siz ayaq altında qalacaqsınız, bu gün isə burada siz deyil, şəhidlərimizin ölümünə fərman vermiş şəxslər ayaq altında qalmalıdır. Əsgərlər bir-birinin üzünə baxıb, necə hərəkət etmək haqqında qərar

qəbul etməyə çətinlik çəkirdilər. Nəhayət, gizir əsgərlərə düzlənrnək Əmrini verib, xiyabandan uzaqlaşdı.

Əsgərlərin getdiyini görən "azərbaycanlı" polkovnik Q. Əbdülsəlimzadə və X. Xəiilova hücum edib, siz əsgərləri buradan qovursunuz, bu gün burada baş verən hər hansı təxribatın məsuliyyəti sizin üzərinizə düşəcək. Mən (X.X.) onun bu sözlərinə dözə bilməyib dedim: Siz nə qədər qansız adamsınız, bunu başa düşürsünüzmü? Bu gün bizə kömək etmək əvəzinə üzərimizə rus əsgəri gətirirsiniz. Buradan gedin, bizimlə etdiyiniz söhbəti xalq bilsə, sizə ağır olar. Qüdrət müəllim qolumdan tutub xiyabana tərəf çəkdi. O, donquldana-donquldana xiyabandan uzaqlaşdı. Görünür, rus əsgərlərini Şəhidlər Xiyabanına, Dəfn Komissiyasına təzyiq göstərmək, hərbi komendatın "malades"ini almaq üçün o, gətirmişdir.*

Hörmətli oxucu, konkret üzləşdiyimiz üçün bizi dəhşətə salan Abdulla Allahverdiyevin adını çəkdik. Lakin 20 yanvar hadisələri göstərdi ki, Azərbaycan SSR Daxili İşlər Nazirliyi bütünlüklə belə adamlardan təşkil olunub. Gətirəcəyimiz misal bunu təsdiq edir. 13-15 yanvar və 20 yanvar günləri Azərbaycan SSR Daxili İşlər Nazirliyi və Bakı şəhəri milis idarəsi, onun rayon milis şöbələrinə rus imperiyası etimadsızlıq göstərib tərksilah etdi və Azərbaycan xalqına təcavüz etdi. Azərbaycan SSR Daxili İşlər Nazirliyi orqanlarından İ. Həmidov istisna olmaqla milli qürur və ya zabit şərəfi naminə bir nəfər də olsun istefa vermədi. Bu fakt göstərir ki, onlar tərksilah edilməsə də, xalqı tərəfindən düşmənə güilə atacaq adamlar olmamışlar. Belələri düşmən tərəfinə keçib, xalqına güllə də ata bilərdi.

Mənəvi dəyərlərdən, milli ruhdan məhrum, yalnız fiziki varlığını yaşadan bir zümrəyə milli hakimiyyətin etibar edilməsi sadəlövhlük, naşılıq deyil, cinayətdir. Təsadüfi deyil ki, 13-20 yanvarda xalqını imperiyaya satmış, milli qürur və zabit şərəfindən məhrum sovet imperiyasının simasızlaşdırdığı bu zümrə 1993-cü ilin iyununda Azərbaycan xalqının milli hakimiyyətini 70 il Azərbaycanı "topdan satmış" kommunist xuntaya satdı.

Artıq saat 7-də Dəfn Komissiyası üzvləri yerlərini tutmuşdu. Şəhidlər Xiyabanının girəcəyində ziyarətçilərin növbəsi yaranmışdı. Bakı kəndlərindən gəlmiş 10 yük maşınından qərənfillər girəcəkdə boşaldılırdı. Aldığımız məlumata görə Bakı və onun ətrafında şəhidlərin yaralandığı, dünyasını dəyişdiyi bütün ərazilərin qərənfilləri təzələnmişdi. Dəfn komissiyası mərasimi açmağa tələsirdi ki, Moskva mehmanxanasının yanında baş verən hadisə hamının diqqətini cəlb etdi. Gənc bozqurdçular Bozqurdun çox incəliklə ulartı vəziyyətində yaratdıqları heykəlini gətirirdilər. İnsan dənizi onların xiyabana yaxınlaşmasına mehribanlıqla yol açırdı. Onlar xiyabana daxil olub Bozqurdun heykəlini milli satqınların alışdırılmasına imkan verməd iyi əbədi məşəl postamentinin üzərinə qoydular. Bu Qazan xanırı "Qorxu bilməz qurd balası erkəyindən bir köküm var" deyən qüruruydumu, ulularımızm "Bozqurd hayma-dadma çatsın" duası idimi, deyə bilmərəm. Millətin ruhundan doğduğu göz önündə idi.

Bozqurdun gəlişi minlərlə insanın qəlbində məyusluq və kədər hissini, qəiəbə və özünə inam hissi ilə əvəz etdi. O, Dəfn komissiyasına da 40 mərasimini qətiyyətli açılış üçün səfərbər etdi. Dəfn Komissiyası bütün təşkilati işləri başa çatdırıb, Şəhidlər Xiyabanını tam nəzarət altına aldıqdan sonra saat 7.30-da qırx

mərasimini açıq elan edib, əhalini növbə ilə xiyabana şəhidlərin ziyarətinə boşladı. Saat 9-da xiyaban əhali ilə tam dolduqdan sonra, Qorbaçova, Yazova, imperiyaya və onun əlaltılarma lənətlər yağdıran şüarlar divarlara, ağaclara asıldı. Dəfn Komissiyasının hesablamasına görə xiyabana şəhidlərin birinci cümə günü (25 yanvar) 1 milyon 800 mindən artıq ziyarətçi gəlmişdi. Qırx mərasimində isə ziyarətçilərin sayı iki milyonu keçmişdi. Artıq saat 12-də Şəhidlər Xiyabanı ilə DTK binası arasında meydan və prospektdə əhalinin sıx növbəsi yaranmışdı. Və əhalinin ziyarətə axını davam edirdi. Odur ki, Dəfn Komissiyası ziyarətçilərdən məzarların önündə dayanmadan ötüb keçmələrini xahiş etdi. Ziyarətçilərin hərəkəti nə qədər sürətləndirilsə də, növbədə dayananların sayı artırdı. Sıxlıqdan və həyəcandan onlarla adamın ürəyi tutur, taqətdən düşür, həkim yardımına ehtiyacı olurdu. Qırx mərasimində 200-dən artıq həkim könüllü yardıma gəlmişdi.

Çox böyük fədakarlıq göstərirdilər. Saat 2-də Dəfn Komissiyası növbədə duran adamların gecə saat 10-a qədər şəhidlərin məzarı önündən keçib qurtarmasının mümkün olmadığını nəzərə alaraq, qocalardan, xəstələrdən və uşaqlı qadınlardan ziyarətlərini başqa günə keçirməyi xahiş etdi. Sayı milyonu aşmış izdihamın içərisindən çıxıb şəhidləri ziyarətsiz qayıtmağı hər kəs özü üçün ağır hesab edirdi. Lakin 42 gün müddətində Dəfn Komissiyası ilə xalq arasında yaranmış qarşılıqlı etimad özünü gösərdi. Minlərlə qoca, xəstə və körpəsini köksünə sıxmış gəlini göz yaşları içərisində növbədən çıxarıb evə qaytara bildi. Dəfn Komissiyasının təxmni hesabiamasına görə qırx mərasiminə qadınlar təxminən 50 mindən artıq xonça gətirmişdilər. Xiyabanda Bakı kəndləri üç yerdə ehsan verirdi. Dəfn Komissiyasının əwəlcədən nəzərə aldığı kimi qırx mərasimində adamların çoxu ziyarətdən sonra xiyabanı tərk etmirdi. Tətilin necə davam etdirilməsi, işə başlanarsa, necə hansı tələblər irəli sürülməsi məsələsi Şəhidlər Xiyabanında müzakirə olunurdu. Odur ki, xiyabanda insan sıxlığı idarəçiliyə mane olurdu. Bu başlıca olaraq iki səbəbdən irəli gəlirdi. 22 yanvardan Şəhidlər Xiyabanı əhalinin ziyarətgahına çevrilməklə bərabər, siyasi qüwələr, fərdlər burada fikir mübadiləsi edir, xarici jurnalistlərlə əlaqəyə girir, hətta yaxınları ilə əlaqəni itirmiş adamlar onları Şəhidlər Xiyabanında axtarırdı. Hər bir azərbaycanlının Şəhidlər Xiyabanına gələcəyi milli şüurda yer tutmaqla kütləviləşmişdi. İmperiyanın vəhşiliyinə qarşı bütün müraciətlərə imzalar Şəhidiər Xiyabanında toplanırdı. Qırx gün müddətində əhalinin fikir mübadiləsi apara bildiyi yeganə yer Şəhidlər Xiyabanı idi. Azərbaycan xalqı fakt qarşısında qalmışdı. Qırx gündən artıq respublika miqyasında davam edən kütləvi tətil imperiyanın iqtisadiyyatına ağır zərbələr vursa da, o, Azərbaycan xalqının haqlı, hüquqi tələblərini yerinə yetirməkdən qəti imtina edir, təcavüzə haqq qazandırmağa çalışır, müxtəlif üsullarla onun milli birliyini pozmağa çalışırdı. İmperiyanın əlaltıları olan yerli hakimiyyət orqanı 20 yanvarda Azərbaycan xalqına tətbiq olunmuş hərbi təcavüzə biganə idi. Açıq şəkildə Moskvanı müdafiə edirdi. Respublikanın yeni hakimiyyətinin yaratdıqı "Azərbavcan Ziyalılarının Demokratik İttifaqı" təşkilatı, onun rəhbəri Nizami Süleymanov xalqın hisləri ilə oynayırdı. Hədələyərək bildirirdi ki, əgər xalq bu inadkarlıqda davam edib işə çıxmasa, ruslar burada tikdiyi zavod və fabrikləri söküb aparacaq. Ümumiyyətlə, bu təşkilatda hakimiyyətin quyruğunda sürünməyə vərdiş etmiş yaşlı "ziyalılar" toplanmışdı. İmperiyanın vəkili, dayağı kimi çıxış edirdi.

2 martda respublika mətbuatı da şəhidlərin qırx mərasiminə geniş yer vermişdi. "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Bakı" və "Ədəbiyyat və incəsənət" qəzetləri 20 yanvar hadisəsinə aid fotolar və geniş nateriallar nəşr etmişdi. Şəhidlərə, 20 yanvar irticasına həssaslıqla yanaşması, tam milli mövqedə dayanması ilə seçilən "Səhər" və "Azərbaycan gəncləri" qəzetinin şəhidlərin qırx mərasiminə həsr olunmuş sayları 1 martda nəşr olunmuşdu. Bu iki qəzet qırx mərasiminə həsr olunmuş saylarında da radikal milli mövqeyi ilə seçilirdi. Ən ziddiyyətli mövqedə "Ədəbiyyat və incəsənət" qəzeti dayanmışdı. Birinci səhifənin sağ sütununda bəstəkar Şəfiqə Axundovanın kiçik həcmli "Belimiz bükülməsin" adlı məqaləsi nəşr olunmuşdu. Sol sütunda isə 22 yanvarda şəhidlərin dəfn mərasiminə aid fotolar verilmişdi. Fotoların altında isə Azərinformun Nizami Süleymanovun rəhbəriik etdiyi "Azərbaycan Ziyalılarının Demokratik İttifaqın təşkilatının Siyasi maarif evində keçirilmiş iclasının respublika əməkçilərinə müxmüraciəti nəşr olunmuşdu. Müraciətdə Nizamİ Süleymanovun şəxsiyyəti qabardılır, cəmiyyətə avtoritet kimi təqdim edilirdi. Nəşr olunmuş məlumatdan göründüyü kimi ən radikal çıxışı da guya o etmişdi. N. Süleymanov deyirdi: "Başqa yol yoxdur və ola da bilməz, tətillər dayandırılmazsa, müəssisələr dağıla bilər, ölkənin başqa regionlarına köçürülər. Belə təhlükə isə realdır müqavilə öhdəliklərinin pozulması istər-istəməz mövcud iqtisadi münasibətlərin dağılmasına doğru aparır. Buna qətiyyən yol vermək olmaz, əks təqdirdə bizi fəlakət gözləyir"

Müraciətdə sovet dövləti və partiya rəhbərlərinin Bakıda fövqəladə vəziyyətin tətbiq olunmayacağına rəsmi təminat verərək, qanuni tələblərini dinc etiraz üsulları ilə hakimiyyətin diqqətinə çatdıran xalq üzərinə qoşun yeridib, beynəlxalq qanunlarla istifadəsi qadağan olunmuş silahlarla törədilən amansızlıq və vəhşilikdən bir kəlmə də bəhs olunmurdu. Milyonlarla insanın haqq tələbinə güllə-baranla cavab verən, Azərbaycan parlamentinin qərarlarına, xalqın 40 gündən artıq tətilinə adi reaksiya verməyən rus imperiyasının təkrar hədəsini şəhidlərin qırx mərasimində "Azərbaycan Ziyalılarının Demokratik İttifaqı"nda birləşən "ziyalı"lar belə ifade etmişdi: "Yığıncağın iştirakçıları qətiyyətlə demişlər ki, Azərbaycan xalqının antirus əhvali-ruhiyyəsində olduğunu göstərmək cəhdləri çox məsuliyyətsiz cəhdlərdir". Göründüyü kimi, Azərbaycan kommunist "ziyalı" nəsl babaları N. Nərimanov, Ə. Qarayev, R. Axundov, S. Əfəndiyev və b. kim mikoyanlann başçılığı ilə Azərbaycana gətiriiən və miili haqları qan İçində boğan rus ordusunu müdafiə etməkdə davam edirdi. Müraciət xalqın hissinə toxunmuşdu. Nizami Süleymanova və onun "ziyalılanna" qırx mərasimində mikrofonia cavab vermək istəyən yüzlərlə ziyalını bu günkü şəraitdə bunun yolverilməz olduğunu inandırıb, sakitləşdirərək yola salmağa Dəfn Komissiyası çox vaxt sərf etdi. 20 yanvar təcavüzünə görə hakimiyyətdə bir nəfər də olsa şəxsin günahkar hesab edilməməsi, Azərbaycan xalqının Moskva və onun yerli əlaltıları tərəfindən ekstremizmdə, millətçilikdə ittiham edilməsinin davam etdirilməsi əhalidə antiimperiya əhvali-ruhiyyəsini gücləndirirdi. Yerli hakimiyyət orqanlarının təslimçilik siyasəti, milli dərdə biganəliyi, şəhidlərin qırx mərasimində iştirak etməməsi əhalidə ona

etimadsızıığı artırırdı. Şəhidlərin qırx mərasimi bu hislərin təsiri altında dünya tarixinin ən böyük, ən əzəmətli milli hərəkatı olaraq davam edirdi.

Şəhidlərin qırx mərasimində dini ayinləri aydın nitqli, qabiliyyətli din nümayəndələri təşkil edirdi. Trubinaya rəhbərlik edən Qüdrət Əbdülsəlimzadə və Xəliyəddin Xəlilovun çıxışlarında şəhidlərin dəfni və qırx günlük yas, ziyarət mərasimində Azərbaycan xalqının nümayiş etdirdiyi mənəvi dəyərlər şərh olunur, onun qorunub saxlanması zərurəti izah edilirdi.*

Saat 3-də şəhidlərin məzarlan üzərinə qoyulan qərənfillərdən dalğavari tonqallar yaranmış, başdaşlarının üstü örtülmüşdü. Şəhidlərin dəfni və sonrakı günlərdə xiyabanda olmuş xarici jurnalistlərə bu adi görünsə də, xiyabana ilk dəfə gəlmiş jurnalistlər üçün milyonlarla insanın qırmızı qərənfillərlə düzəldilmiş yollarla hərəkət edərək şəhidləri ziyarət etməsi, qərənfillərlə istiqamətləndirilən yollarla xiyabana girməsi və çıxması qəribə görünürdü. Rusların və ermənilərin dünyaya vəhşi kimi tanıtdığı, Bakıda rusları və erməniləri qarət edən, küçələrdə rus qadınlarını zorlayan bir kütlə ilə rastlaşacağı təəssüratı ilə Bakıya gələn xarici ölkə jurnalistləri Şəhidlər Xiyabanında gördüklərindən çaşqınlıq keçirir, hətta sarsıntı keçirənləri də olurdu. Rus imperiyasının 200 il dünyaya vəhşi kimi tanıtmağa çalışdığı Azərbaycan xalqı bir yas, kədər mərasiminin icrasında dünya xaiqlarının ali və incə hislərinə təsir edib, rəğbətini qazanaraq, dünyaya yeni bir mədəniyyət təqdim edirdi. Vətən fədailərinin cərgəsində Fərizənin Ihamla yan-yana dayanmış məzarları, üzərinə yanaşı qoyulmuş şəkilləri əsrlərlə Şərq qadınmın məhəbbət əfsanəsi kimi dünyanı dolaşan Leyli-Məcnun məhəbbətinə Azərbaycan qadınının nümunəsində dünya şahid oldu. Qadınları məhəbbəti yoiunda şəhid olmağı bacaran, insanları bir-birinə bu qədər sayğılı olan xalqın 200 il əsarətdə yaşamasma xarici ölkə jurnalistləri inana bilmirdilər.

Respublikanın bütün rayonlarında şəhidiərə ehsan verilirdi. Bu haqda məlumat aldıqca mikrofonla xiyabana məlumat verilirdi. Xarici jurnaüstlər öncə bu məlamatlara inanmamışdılar. Oniar inana bilmirdilər ki, sayı iki milyonu aşan bu izdihamı onu istiqamətləndirən qərənfil yolları Xiyabanda üç yerdə verilən ehsan, respublikanın bütün rayonlanndakı ehsan məclislərin, imperiya gülləsinin yaraladığı torpağa qədər üzərinə düzülən qərənfilləri, bütünlüklə çatdırılması mümkün olmayan bu işləri heç bir qurum təşkil etməmişdi. Xalqın mənəviyyatından süzülən, onların gördükləri formalarda təzahürünü tapan milli həssaslıq və mədəniyyətdir. Xarici ölkə jurnalistləri Dəfn Komissiyası üzvlərinin 20-25 illik siyasi fəaliyyəti ilə xalqın tam etimadını qazanmış siyasi xadimlər hesab edirdilər. Bu adamların 20 yanvar günü meydana çıxmasma, ilk dəfə bir-biri ilə tanış olmasına inana bilmirdilər. Beləcə möcüzəli bir təntənə, sayğı ilə, böyük bir milli əzəmətlə şəhidlərin qırx mərasimi davam edirdi. Axşam saat 7 olmasına baxmayaraq, Ali Sovetlə Mehdi Hüseyn prospektinin kəsişdiyi meydanda ziyarətçilərin növbəsi davam edirdi. Bakı Kəndlərindən gələn qırmızı qərənfil yüklü maşınlar Şəhidlər Xiyabanının girəcəyinə yan alıb, yüklərini boşaldırdı. Hava soyuyub və qaranlıqlaşsa da, şəhidlərin qırx mərasimində növbə zəifləmirdi. Xiyabanda sabahın mənəvi, siyasi addımi müzakirə edilməkdə davam edirdi. İştirakçılarının sayı 2 milyonu aşmaqda olan mərasimdə xoşagəlməz bir hadisə baş verməmişdi. Moskva mehmanxanasının üstündən bunu izləyən qara iblis (imperiyanın əlaltıları) təbii

ki, kədərlənirdi. Mərasimi bu əzəmət və ləyaqətlə başa vurmağa çalışan Dəfn Komissiyası axşam saat 7-də ikinci dəfə qocalardan, xəstələrdən və uşaqlı qadmlardan ziyarətlərini başqa vaxta keçirməyi onlardan xahiş etdi. Bu dəfə ziyarətçilər başqa təklif səsləndirdi. Onlar qocaların, xəstələrin və uşaqlı qadınların ziyarətə növbədənkənar buraxılmasını təkif etdilər. Ziyarətçilərin bu təklifi fiziki cəhətdən tükənmiş Dəfn Komissiyası üzvlərinə özlərini bir daha səfərbər etməyə imkan verdi. Ziyarətçilərin hərəkətini saxlayıb qocaları, xəstə və uşaqlı qadınları ehtiyat yola çıxarıb növbədənkənar ziyarətini təşkil etdilər. Axşam saat 8-dən Dəfn Komissiyasının 42 gündə tanıdığı qaragüruhun, tör-töküntünün xiyabanda artması və fəallaşması onu bir daha ehtiyatlı olmağa məcbur edirdi. Gecə saat 10.35-də ziyarətçilərin növbəsi başa çatdı. Xiyabana gələnlər şəhidlərin nəzarı önündən sərbəst keçməyə başladılar. Bu sərbəstlikdən istifadə edən Dəfn Komissiyası üzvləri xiyabanın mərkəzinə, tribunanın qarşısına toplaşdı. Fiziki cəhətdən tükənmiş, qəddi əyilmiş, danışmağa belə taqəti qalmamış, səsləri güclə eşidilən bu adamların gözlərindən axan, oxunan sevinc, qürur, qələbə əzmi onları müşayiət edən hər kəsin diqqətini cəlb dirdi. Ətraflarına toplanmış, 40 gün onlara fədakarcasına kömək etmiş gənclərin hər biri milli ləyaqət, sədaqət və iradə nümunəsi idi.

Bir məsələni də qeyd etməyi lazım bilirik. Hakimiyyətdə olanlar arasında tək-tək milli ləyaqətini itirməmiş adamlara rast gəlirdik. Belələrinə (polis) işçiləri arasında da təsadüf olunurdu. Qırx mərasimində az da Isa, milis işçisi ünvanını və şəxsiyyətini Dəfn Komissiyasına bildirməklə bir vətəndaş olaraq onlara köməklərini təqdim etdilər. Və vicdanla da komək etdilər.

Dəfn Komissiyası son işlərini müzakirə edərkən bir nəfər "sapı özümüzdən olan balta" yaxınlaşıb komissiya üzvlərini təhqir etməyə başladı. Sətirlərin müəllifinə qarşı, daha təcavüzkar idi. Komissiya üzvləri əwəlcə onun xəstə olduğunu güman etdi. Gün ərzində Dəfn Komissiyasına kömək edən milis (polis) kapitanı ona yanaşıb, xəbərdarlıq etdikdən sonra o, xiyabanı tərk etdi. Göründüyü kimi, komissiya hər an təxribat gözləməkdə haqlı idi.

"...Məhəbbət və sədaqət dastanının fAciəsi ilə başlayıb, naməlum bir şəhidin məzarı ilə qurtaran", yarandığı ilk günlərdə göz yaşı, kədər və ələm yeri kimi tanınan Dağüstü park qtrx gündə Şəhidlər Xiyabanı adlanıb milli birliyin nüvəsinə, milli and və qürur yerinə, xalqı istiqlala qəti səfərbər edən mənəvi-siyasi ocağa çevrildi. Şəhidlərin qırxı mərasimi dünyada heç bir xalqın qəhrəmanlarına, istiqlal mübarizələrinə qura bilmədiyi təntənə, milli ləyaqət və əzəmət yüksəkliyi idi.

Dəfn Komissiyası işlərini yekunlaşdırıb, Ali Sovetdən nümayəndə çağırıb, Şəhidlər Xiyabanını rəsmi dövlətə təhvil verməklə fəaliyyətinin başa çatdığını bildirdi. Ali Sovetdən Şəhidlər Xiyabanına xiyabanı təhvil almaq üçün nümayəndə heyəti gəldi. Onlarla birlikdə bir nəfər rus polkovniki və bir neçə nəfər rus əsgəri də gəlmişdi.

Rus polkovnikinə şəhidlərin məzarları üzərinə düzülmüş minlərlə xonçanı göstərib dedik: "Aparın, əsgərləriniz yesin, savabdır". Qərənfil dağları üzərinə düzülmüş paxlava, şəkərbura, qoğal və s. şirniyyata gözləri dikilən rus polkovniki özünü saxlaya bilməyib, bir neçəsini götürdü. Nəfsini basa bilməyən polkovnik paxlava və şəkərburadan hansını birinci yeməyə qərar verə bilmədi, ikisini birdən ağzına basırdı...

Dəfn Komissiyası gecə saat 11.25 dəqiqədə Şəhidlər Xiyabanından ayrıldı.

Əslində Dəfn Komissiyası Şəhidlər Xiyabanını "dövlətə" 28 fevralda təhvil vermişdi. Şəhidlərin qırx mərasimini onların ruhuna layiq keçirmək naminə əlavə iki gün də mübarizə apardı.

Şəhidlərin qırx mərasimi başa çatsa da, Novruz bayramına kimi əhalinin onları kütləvi ziyarəti davam edirdi. Cümə günləri ziyarətçilər daha çox olurdu. Odur ki, Dəfn Komissiyası üzvləri cümə günləri Şəhidlər Xiyabanına gəlir, burada səliqə-səhman yaradılmasını təşkil edirdi. Şəhidlər Xiyabanında və kənar yerlərdə əhali Dəfn Komissiyası üzvlərinə hörmət və ehtiramla yanaşırdı.

20-21 mart 1990-cı il axır çərşənbə və Novruz bayramı günləri Azərbaycan xalqının Şəhidlər Xiyabanını ziyarəti bayramla yas mərasiminin, sevinclə kədərin çulğaşdığı bir mərasim idi. Şəhidlər Xiyabanı qırmızı qərənfil və müxtəlif rəngli yanar şamlarla bəzədilmiş ecazkar bir mozaikanı xatırladırdı. Bu mozaikanın rejissoru sadə bir Azərbaycan qadını idi. 20-21 mart günləri yüzminləriə adam Şəhidlər Xiyabanını ziyarət edirdi. Xiyabanın girəcəyindən sonuna qədər qərənfillərlə ayrılmış yolun tərəfindəki divar üzərinə düzülmüş müxtəlif rəngli şamları ziyarətçilər şəhidlərin ruhuna yandırırdılar. Küləklər vətəni Bakıda bu günlər hava xoş və sakit idi Adamlar ardıcıl olaraq şam düzür, mehin söndürdüyü şamları yandırırdı. Novruz bayramı günü Şəhidlər Xiyabanında ziyarət gecə saat 11-də başa çatdı. Beləliklə, iki əsr imperiya tərəfindən andları, inam və etiqadları müqəddəsləri unutdurulmaqla milliliyini itirən Azərbaycan xalqı hicri təqvi'mlə 1410-cu, miladi, təqvimlə 21 mart 1990-cı ildə ilk  müqəddəs and yerini yaratmaqla milli özünə qayıdış tarixinə dönməzlik verdi. Bu mənada 1990-cı ilin Novruz bayramını Azərbaycan xalqı şəhidlərinın numunəsində milli bayram kimi keçirməyə haqqı daha üstün idi. Imperıyanın milli qəhrəmanlıq tarixini unutdurduğu Azərbaycan xalqı 20 yanvarşəhıd-lərin nümunəsində yeni qəhrəmanlıq tarixini yaratdı. Azərbaycan xalqının yeni nəsli üçün vətənin müstəqilliyi uğrunda mübarizə yolunda numunə ola biləcək bir tarix və mədəniyyət yaratdı. 20 yanvar şəhidləri, onların paytaxtın ən əzəmətli, uca zirvəsində əbədiləşən abidələri, Azərbaycan xalqının yeni nəslini imperiyanın yaratdığı Sosialist Əməyi qəhrəmanı sağıcı malabaxan, satqın, ikiüzlü və s. qəhrəmanların varisi olmaqdan çıxardı Azərbaycan xalqı ulu babalarının yaratdığı mənəvı dəyərlərə qovuşmaq üçün tarixinin dərin qatlarına baş vurmaq, dünyanın qabaqcıl, müsbət ənənələrindən bəhrələnmək yolu tutdu.







# III FƏSİL
# TƏCAVÜZ VƏ MİLLİ TƏHQİRİN AZƏRBAYCAN RƏHBƏRLİYİNİ MİLLİ MÖVQEYƏ KEÇİRƏ BİLMƏMƏSİNİN SƏBƏBLƏRİ

Yuxarıda 1988-ci ildən yeni erməni təcavüzünə qarşı Azərbaycan milli - azadlıq hərəkatının başlanması və yüksəlişi prosesindən qısa bəhs etdik. Milli hisslərin oyanışı, milli şüurun yüksəlişi prosesində milli iradənin formalaşmasını təqdim etməyə çalışdıq. Elə bu prosesdə separatçı qüvvələrin və hakimiyyətin müxtəlif üsullarla təslimçilik siyasətindən də yetərincə bəhs olundu.

Göründüyü kimi, 20 yanvar hadisəsi Azərbaycan xalqını elə güclü silkələdi ki, bu silkələmə milli qüwələr və milli ziyalılarla yanaşı, qorxaq ziyalıları, satqın ziyalıları, manqurt ziyalıları və bütünlüklə milli həyata yad hakimiyyəti üzə çıxardı. Milli varlığın yaşadılması və inkişafının başlıca şərti olan milli elitanın yox dərəcəsində olduğu aşkarlandı.

Milii həyatın yuxarıda bəhs olunan çatışmayan cəhətlərini doğuran səbəblərdən yeri gəldikcə bəhs olundu. Lakin iki qonşu respublikanın Azərbaycan və Gürcüstan rəhbərliyinin bir-birindən yüz faiz fərqli əxlaqa malik olması səbəblərindən xüsusi bəhs etməyi lazım bilirik. Rus qoşunları Gürcüstanda da milli-azadlıq mübarizəsinə qarşı güc tətbiq edərkən 9 aprel 1989-cu ildə 16 nəfər gürcü şəhid oldu. Buna cavab olaraq, Gürcüstanın kommunist rəhbərliyi yekdil milli mövqedə dayandı və xalqının tərəfinə keçdi. Qorbaçovu dünya qarşısında gürcü xalqından üzr istəməyə məcbur etdi. Gürcüstan KP MK-nın katibləri, Ali Sovetin və Nazirlər Sovetinin sədrləri yekdil istefa verdilər. Lakin Azərbaycan rəhbərliyi öncədən irticanın planının hazırlanmasına və həyata keçirilməsinə şərait yaratdı. İmperiyanın Azərbaycana təcavüzü prosesi yerli rəhbərliyin hakimiyyət uğruoda mübarizəsi ilə müşayiət olundu, hakimiyyətə yeni qüwələr gəldi. Komanda da monolit qüvvə kimi irticanı müdafiə etdi. Hakimiyyətdə imperiyaya qarşı çat yaranmadı. Rus süngüsü üstündə hakimiyyətə gələn yeni rəhbərlik bir dəfə çox sönük şəkildə Şəhidlər Xiyabanına gəlib, onun içərisindən keçdi. Bunun ardınca şəhidlərin dəfninə mane oldu, yüzlərlə adamın ölümünə, 744 adamın quldurcasına müxtəlif dərəcəli yaralanmasına, minlərlə adamın həbs ediiib, imperiyanın müxtəlif əyalətlərinə aparılmasına, milyard manatlarla xalq əmlakının dağıdılmasına, ordunun milli hisləri açıq təhqir etməsinə nəinki biganəlik göstərdi, hətta müxtəlif üsullarla onu müdafiə etdi.

Həmçinin etimadsızlıq göstərilib tərkisilah edilməsi, gözləri önündə təcili yardım maşınlarının məhv edilməsi, meyidlərin təhqir olunması Azərbaycanın zabit heyətində bir nəfərin də olsun milli və zabit qüruruna, heysiyyatına toxunub istefaya getməsinə səbəb olmadı. Bu faktlar iki qonşu xalqın hakimiyyətini təmsil edən adamların miili və vəzifə qüruru, şərəfi haqqında təsəwür yaradır. Göründüyü kimi, Azərbaycanda hakimiyyət örqanları kütləvi şəkildə milli və vəzifə şərəfi hissindən məhrum adamlardan təşkil olunmuşdu.

Eyni məqsəd uğrunda mübarizə aparan iki qonşu xalqın rəhbərliyinin bir-birindən yüz faiz fərqlənməsinin obyektiv səbəbləri vardı. Bu fakt təsadüfi tarixi hadisə deyil, rus imperiyasının 70 ildə Azərbaycanda yeritdiyi kadr siyasətinin obyektiv nəticəsi idi. Odur ki, tədqiqatımızla bağlı məsələyə toxunmağı lazım bilirik.

Rus imperiyası bütün xalqlara qarşı assimilyasiya siyasəti yeritsə də,müsəlmanlarla xristianlara münasibəti fərqli idi. Gürcülər xristian olsalar da, xalq olaraq qohumu yoxdur və coğrafi cəhətdən müsəlman və türk xalqları ilə həmsərhəddir. Odur ki, gürcüləri assimilyasiya deyil, antitürk, antimüsəlman ruhda tərbiyə edib, onların antitürk və antimüsəlman buferdövlətini yaratmışdı. Gürcüləri mədəni-mənəvi sıxıntıya məruz qoymamışdır. Gürcülərdə milli qürur şovinizm səviyyəsində yüksəlmişdi. Sovet imperiyası dövründə gürcü ziyalısı milli elita kimi yetişmişdi. Gürcülərin Rus və başqa xalqlarla metisləri (ana və ya ata xətti ilə) mədəniyyətlərini
dəyişməyə məcbur edilməmişdi. Gürcü metislərində də gürcü mədəniyyəti, qüruru dominatlıq təşkil edirdi. Odur ki, rus ordusu Tbilisi şəhərinə təcavüz edəndə, bu hadisə gürcülərin təmizqanlısının da, metisinin də, hakimiyyətinin də, ziyalısının da, fəhləsinin də, kəndlisinin də qüruruna toxundu. Gürcülər vahid miili orqanizm kimi çıxış etdilər. Gürcülərin bütün ali hakimiyyəti 16 nəfər gürcünün düşməndən müdafiəsini təmin edə bilmədikləri üçün özləri özlərini mühakimə edərək, özlərini günahkar sayıb, yüksək milli etimada - hakimiyyətə layiq oimadıqiarını elan edərək istefa verdilər. Gürcü milli adının və şərəfinin onlar üçün vəzifədən, hakimiyyətdən üstün olduğunu sübut etdilər.
Rus imperiyası gürcü xaiqından fərqli oiaraq deportasiya, təhsil, tərbiyə, mətbuat, simasızlaşdırma, metisləşdirmə assimilyasiya və s. üsul və vasitələrlə Azərbaycan xaiqını tarix səhnəsindən silmək istəyirdi. Bu siyasəti ardıcıl həyata keçirirdi. İmperiya Azərbaycanda milli ideologiyanın daşıyıcılarını 1937-38-ci illərdə məhv etdi. Lakin ikinci dünya müharibəsi illərinin yaratdığı daxili və beynəlxalq vəziyyət qısa müddətdə Azərbaycan xalqı içərisində güclü bir ziyalı nəsli - elita yaranmasına imkan verdi. Onların ən böyük xidməti 1956-cı ildə Azərbaycan dilinə dövlət dili statusu qazandırması və imperiyanın Bakı şəhərində rus, erməni və digər xristian millətiərinin say üstünlüyü yaratmaq siyasətini dəf etməsi idi. 60-cı illərin sonu və 70-ci illərdə imperiya "keçmişin qalıqlarına qarşı mübarizə" şüarı altında milli ideya daşıyıcılarının yeni nəslini fiziki və mənəvi cəhətdən məhv etdi. İmperiya hələ 20-ci illərdən Azərbaycanda hakimiyyəti ruslaşdırmaq və erməniləşdirmək siyasəti yeridirdi. Lakin bu üsul Azərbaycan xalqının müqaviməti ilə raslaşdığından 60-cı illərin sonlarından Azərbaycanı rus və ermənilərlə azərbaycanlıların, digər etnik qrupların metisləri, assimilyasiya olunmuşları vasitəsi ilə idarə etməyə başladı. Adı və soyadı azərbaycanlı, həqiqətdə isə rus, erməni olan bu reqenatlar Azərbaycan xalqının mənəviyyatmı zorakı sürətdə pozur, onu vətəndə gözü qıpıq vəziyyətə salırdı. Hətta Azərbaycanın paytaxtı Bakıda rus, erməni və b. xristian millətlərin nümayəndələri azərbaycanlıları təhqir və təqib edirdiiər, onları "çuşka" adlandırırdılar.

Artıq 20 yanvar hadisələri zamanı Azərbaycanın mərkəzi hakimiyyəti, paytaxtın, bütün sənaye mərkəzlərinin, şəhərlərin, elmi mərkəzlərin rəh-bərliyi bütünlüklə azərbaycanlı, kürd, ləzgi, talış, avarın erməni, rus ve b. xalqlarm nümayəndələrilə imperiyanm planlı yetişdirdiyi metislərinin əlində idi. Bu metislər artıq milli genlərini, hisslərini, adət-ənənələrini itirmişdilər, azərbaycanlıların, xüsusilə, ziyalı təbəqəsinin mənəviyyatını parçalamışdılar. Hakimiyyətdə rus ləhcəsində azərbaycanca çətinliklə danışmağı bacaranlar bu əlamətə görə Azərbaycan xalqına yaxın hesab olunurdular. Onların davranış stereotipində azərbaycanlılara məxsus heç nə yox idi.

Azərbaycanın mərkəzi hakimiyyəti mədəni-mənəvi və irsi cəhətdən azərbaycanlılığı itirmiş ünsürlərdən ibarət idi. Onlar həmçinin Azərbaycanda 70-80-ci illərin simasızlaşdırma siyasətinə məruz qaldıqlarından, milliliklə bərabər şəxsi və vəzifə qürurunu da itirmişdilər. Hakimiyyət bütünlüklə milli hissləri itirmiş, simasızlaşmış, şəxsi və vəzifə qürurundan məhrum edilmiş adamlardan təşkil olunduğu üçün 20 yanvar irticasının nəinki milli cəhətləri, adi insani cəhətləri belə hakimiyyətin ən aşağı pilləsindən yüksək pilləsinə qədər bir nəfərin də olsa, milli, şəxsi və vəzifə qüruruna toxunub onu istefaya təhrik edə bilmədi.

Hakimiyyətləri assimilyasiya olunmuş adamlardan, metislərdən qurulmuş xalqların taleyində onlar dəfələrlə faciə yaratmış, dünyanın ən qüdrətli xalqlarını, milli-azadlıq hərəkatlarını daxildən dağıdıb, məğlub vəziyyətə salmışlar. Bu haqda tarixdə yetərincə ibrət götürməli faktlar toplanmışdır. Görkəmli tatar tarixçisi L. N. Qumilyov yazır ki, "Assimilyasiya obyektinə bir-birinin alternativi olan, ya həyatını, ya da vicdanını itirmək yolu qoyulur. Ölümdən xilas olmaq - qaliblər arasında ikinci növ adama çevrilmək naminə bütün qiymətli və əziz olanlardan imtina etməklə mümkün olur. Bundan qaliblər də az udur. Ona görə ki, ikiüzlü və bir qayda olaraq, tam yararlı olmayan soydaş qazanır. Çünki məğlub edilmiş etnosun əhvali-ruhiyyəsini yox, davranışlarını yalnız zahiri təzahürlərini nəzarətdə saxlamaq mümkündür. Bunun belə olmasına ingilislər 19-cu əsrdə iriandların, ispanlar Simon Bolivarın partizanlarının, çinlilər dunqanların timsalında əmin oldular. Təsdiqedici nümunələr olduqca çoxdur, lakin məsələ aydındır".

Məsələnin digər cəhətindən bəhs edən alim elmi araşdırmalara söyknərək yaz.r ki, metisləşmə çox tez müşahidə edilir, lakin ekzoqam (yad, özgə) nigahlardan törənən nəsil ya üçüncü - dorduncu nəsildə məhv olur, ya da ata və ana xəttinə ayrlıb haçalanr. Osmanl. türklərinın tanxından misal çəkərək L. N. Qumilyov göstərir ta, türklər osmanlılar - tərc.) 16-cı əsrdə hesab edirdiiər ki, əsi türk (osmanlı - tərc.) olmaq uçun Islamı qəbul etmək və sultana tabe olmaq yetərincədir. Başqa spzlə desək, onlar etnik mənsubiyyəti istəniləndə zorla və sərbəst dəyışdırılə bılen vəziyyət (durum  tərc) hesab edirdilər. Buna görə də, türklər (osmanlılar - tərc.) hər hansı bir sənətdən və hərbi işdən başı çıxan hər yetən avanturıstı (macəracı vünqül yolla uğur qazanmAq istəyən, şubhəlı ışlərə qoşulan –tərc.) öz aralarında xidmətə həvəslə qəbul edirdilər. Yüksək Prutun 17-ci əsrdə süqutu o vaxtkı türk (osmanlı - tərc.) yazıçılarının dıqqətını cəlb etdi. Onların rəyinə görə, süqutun səbəbi "əcəmoglanlar”, yənı reneqatların törəmələri olmuşdular... Onların çoxu isti bucaq axtarır və vəzirlərın hə-rəmxanalarına doldurulmuş polyak, xorvat, italyan, yunan və s. xanımlar vasitəsilə yüksək maaşlı, az əziyyətli - yüngül vəzifələr tuturdular. Bu tülünqü gədələr osmanlı etnosunu (xalqını - tərc.) dagıdırdılar. Amma əsl osmanlılar (türklər - tərc.) artıq 18-ci əsrdə öz ölkəsində istismar olunan etnos (xalq - tərc) vəziyyətinə salınmışdılar. Yadqanlıların axıb qarışması etnosun (xalqın - tərc.) davranış stereotipinin korlayıb şikəst etmişdi. Bu özünü vəzirlərin satqınlığında, hakimlərin rüşvətə satılmasında, ordunun döyüs qabiliyyətini itirməsində və iqtisadiyyatın dağılmasında buruzə verirdi XIX əsrin əvvəlinə yaxın Türkiyə (osmanlı imperiyası - tərc.) "xəstə adama" döndü. Tanınmış rus şərqşünası V. D. Simirnov öz dissertasiyasında çox qüdrətli bir xaiqın çox qəribə şəkildə zəif bir kütləyə çevrılməsinin səbəblərini araşdırıb, reqenatların* rolu barədə

danışaraq yazır: " Onlar heç bir dinə qail olmadan, bütün əxlaqi inamlara yad ıdılər: onlar üzərində hökmran olduqları xalqa heç bir rəğbət duymayan heyvani həyat sürürdülər. Bir sözlə, onlar adda osmanlı (türk - tərc.) ola-ola, həqıqətdə osmanlı (türk - tərc.) deyildilər".

L. N. Qumilyov Osmanlı imperiyasında hakımıyyətın sağlam mıllı quvvələrdən qurulmasının rolunu lazımınca qiymətləndirməyib, özünü türk, isgüzar qabiliyyətli kimi göstərən yad qanlıların hakimiyyətə dolmasının Osmanİı imperiyasına yaratdığı iqtisadi-siyasi və mənəvi böhranın aradan qaldırıimasında türk etnik yadrosunun rolundan bəhs edərək yazır: "Bu etnik (milli - tərc.) bütövlüyü 19-cu əsrdə çoxsaylı avropalı reqanatlar və Parisdə təhsil almış gənc türklər dağıtdılar. 19-cu əsrdə Osmanlı imperiyası yıxıldı, etnos isə dağıldı. Adamlar başqa etnosların tərkibinə keçdiiər. Yeni Türkiyəni səlcuqların Kiçik Asiyanın dərinliklərindəki törəmələri dikəltdilər, osmanlılardan qalanlar (əslən türk oimayanlar, reqanatlar -X.X.) isə ömürlərinin qalan illərini İstanbulun dalanlarında yaşayıb, ömürlərini başa vurdular [23].

Rus imperiyasının Azərbaycan xalqına 20 yanvar təcavüzü zamanı respublika hakimiyyət orqanları rəhbərlərinin milli hisslərinin oyana bilməməsi səbəblərindən ümumən bəhs etdik. L. N. Qumilyovun əsərlərindən etdiyimiz iqtibaslardan göründüyü kimi, zaman kəsiyi fərqlənsə də, reqenatlar vaxtı ilə Osmanlı türklərinin iqtisadi-siyasi və mənəvi həyatında yaratdıqları problemi eynilə Azərbaycan xalqının tarixində, taleyində yaratmışlar. Problemin həlli üsuiu da eynidir. Odur ki, L. N. Qumilyovun əsərlərindən oxucuya təqdim etdiyimiz hissələri təhiil etmir, bu işi və ondan nəticə çıxarmağı oxucunun ixtiyarına buraxırıq.

# ƏDƏBİYYAT SİYAHISI


1. Ədalət Tahirzadə. Meydan 4 il 4 ya. l-ll hissə. B., 1997.
2. Aydın Balayev. Azərbaycan milli hərəkatı: "Müsavatdan" Xalq Cəbhəsinədək (rusca). B., 1992.-
3. Aydın Balayev, Rasim Mirzə. 20 yanvar hadisələri, sənədlər, mövqelər, şərhlər (1990-2000). B., 2000.
4. O. B. Sultanov. 80-ci illərin sonu, 90-cı illərin əwəllərində Azərbaycanda siyasi mübarizə. B., 1995.
5. Ə. Elçibəy. Bu mənim taleyimdir. B., 1992.
6. Ə. Tahirzadə. Elçi bəy. B., 1997.
7. T. Mustafazadə. Ümumi tarix. IV cild., B., 1998.
8. Əbülfəz Elçibəy. "Ən kəsə yol" - "Azadlıq" qəzeti, 3 yanvar 1991-ci il, N 1 (31).
9. Etibar Məmmədovun məhkəmədəki çıxışı 30-31 oktyabr, 1990-cı il. - Aydın Balayev, Rasim Mirzə. 20 yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000). B., 2000.

10. Siyasi tarix. II hissə, B., 1997.

12. Anar. Şəhidlər dağı. B., 1995.
13. "Kommunisf qəzeti, 17-01.1990, N 14.
14. C. Araslı. Erməni-Azərbaycan konflikti: hərbi aspekt. B., 1995.
15. "Şit" - müstəqil hərbi ekspertinin rəyi. - "Moskovskie novosti" - qəzeti, N 132, 12avqust1990.
16. Leonid Nikitinski. "Est poterya" - "Komsomolskaya pravda". 30 yanvar, 1990-cı il.
17. Qüdrət Əbdülsəlimzadə. On illik yolun ilk 42 günü, - "Azərbaycan" qəzeti 7 yanvar 2000-ci il.
18. M. Aslan. "Qərənfil - şəhid qanı" - "Bakı" qəzeti, 31 yanvar, 1990.
19. Abdulla Əhmədov. Azərbaycanda din və dini təsisatlar. B., 1991.
20. "Axın" qəzeti N 3, mart 1990.
21. AKP MK-nın birinci katibi A. N. Mütəllibovun 1990-cı il yanvarın 27-də respublika televiziyası ilə çıxışı. "Azərbaycan gəncləri" qəzeti 30 yanvar1990-cı il.
22. Çernı© Vnvari. Baku - 1990, dokumentı i materialı. B. 1990.
23. L. N. Qumilyov. Etnogenez i biosfera Zemli. L., 1992.
24. Rəsul Quliyev. İttiham. "Femida" qəzeti, 5 sentyabr 1998.
25. A. Melikov. Ya obvinyayu... 1994.
26. Q. Y. Əbdülsəlimzadə. Nikbin faciə. B., 2002.
27. Ə. S. Bayramov. Etnik psixologiya məsələləri. B., 1996.
28. Ə. Tağıyev. Fəlsəfədən siyasətə. B., 2001.
29. A. Şükürov. Fəlsəfə. B., 1997.

30. Z. Hacıyev. Fəlsəfə. B., 2001.
31. A. Düma. Qafqaz səfəri. B., 1985.
32. M. Zeynalov. Fəlsəfə tarixi. B., 2000.
34. V. Z. Veliçko. Qafqaz. B., 1995.
35. H. Şirəliyev, Ə. Əhmədov. Politologiya. B., 1997.

# Mündəricat

Ön söz və ya problemə nəzəri baxış
I FƏSİL Milli oyanış və xalqın təşkilatlanma prosesi
II FƏSİL Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 yanvar
III FƏSİL Təcavüz və milli təhqirin Azərbaycan rəhbərliyini milli mövqeyə keçirə bilməməsinin səbəbləri
Ədəbiyyat

*Müəllif kitabın ərsəyə gəlməsində göstərdikləri yardımdan dolayı Mahir Quliyevə, «Kür» nəşriyyatının direktoru Xanlar bəya, cloğluları İlham Cəbrayılova, Əli Çərkəzoğluya və Aynur Əzizliyə təşəkkür edir*